# İMAM XOMEYNİ (R) ƏSRİ

**MÜƏLLİF:**
**MİRƏHMƏD RZA HACƏTİ**
**TƏRCÜMƏ EDƏN:**
**A. ƏLİZADƏ**

بسم الله الرحمن الرحيم

نام كتاب:............................عصرامام خمينى (ر)
مولف:.............................. ميراحمد رضاحاجتى
مترجم:..........................................آ. عليزاده
ناشر:............................................... .شهريار
تاريخ چاپ:...........................................1385
نوبت چاپ:..............................................اول
تيراژ:.................................................1000

Kitabın adı:...................İmam Xomeyni (r) əsri
Müəllif:..........................Mirəhmməd Rza Hacəti
Tərcümə edən:...................................A.Əlizadə
Nəşr edən:............................................Şəhriyar
Çap tarixi:...................................................2006
Çap növbəsi:...........................................Birinci
Tiraj:...........................................................1000

964-5934-75-3

# Birinci fəsil:

# İmam Xomeyni (r) şəxsiyyəti və əsri

## Müqəddimə

İmam Kazim(ə) buyurub:

"رجل من قم يدعوا الناس الى الحق يجتمع معه قوم قلوبهم كزبر الحديد لا تزلهم الرياح العواصف، لا يملون من الحرب و لا يجبنون و على الله يتوكلون و العاقبة للمتقين"[1]

Həzrət İmam Xomeyninın(r) əzəmətli şəxsiyyəti haqqında insanların bilik və məlumatlılıq səviyyəsinin artırılması və onun dünya miqyasında yaratdığı fövqəladə dəyişikliklərin dərk olunması dövrümüzün bütün alimləri, xüsusilə İslam inqilabının böyük rəhbərinin təkid etdiyi bir məsələdir. Çünki bu mühüm məsələ İmamın ali istək və arzuları ilə yekdillik, həmrəylik və həmfikirliyin sürəkliyinin mühüm amili kimi qiymətləndirilir.

Digər tərəfdən, İslam inqilabı tarixinin belə çox həssas dövründə İslamın düşmənləri dünyanın müxtəlif millətləri arasında İmamın ilahi düşüncələrinin gündən-günə artan nüfuzunu aşağı salmaq üçün fikri başqa istiqamətə yönəltmə və inqilab qüvvələrini zəiflətmə siyasətini öz gündəlik işlərinə çevirdiklərinə görə bu sahədə dərin biliklərdən bəhrələnmə zərurəti daha çox hiss olunur. Şübhəsiz, İslamı və İmam Xomeyninin(r) çağırışlarını müdafiə edən o adamlara səadət nəsib olacaq ki, onlar İmamın(r) ilahi vergisindən dərin məlumat almaqla onun ilahi qiyamının ətraflı təhlilinə başlamış və bu sahədə lazımi məlumata və biliyə nail olmuşlar.

لا يحمل هذا العلم الا على البصر
و الصبر و العلم بمواضع الحق[1]

Bu mübarizənin ağırlığını haqqın mövqelərindən xəbərdar, sarsılmaz və bilici kəslərdən başqa kimsə çiynində çəkməz.

İnqilabın böyük rəhbərinin müqəddəs şəxsiyyətini, onun dünyadakı proseslərə təsirini dərindən bilmək ağıllı inqilabçıların və İmam Xomeyninin (r) yol və mənəviyyatına

---

[1] Qumlu bir kişi adamları Allaha tərəf dəvət edir. Ürəkləri dəmir parçaları kimi möhkəm olan insanlar onun ətrafına toplaşırlar. Hadisələr onları yanlış addım atmağa vadar edə bilmir, onlar döyüşdən yorulmurlar və qorxmurlar. Onlar Allaha inanırlar və aqibət möminlərindir. "Biharül-ənvar", 60-cı cild, səh. 216

[1] "Nəhcül-bəlağə", 173-cü xütbə

vurğunların ən böyük vəzifəsidir. Belə ki, həzrət Ayətullah Xamenei buyurmuşdur: "Bizim ən böyük vəzifəmiz budur ki, İmamın başladığı, milləti onun fəzasında yerləşdirdiyi və dünyaya elan etdiyi əsrin xüsusiyyətlərini bilək və bu xüsusiyyətləri qoruyaq."[1]

İslam inqilabının müdrik rəhbəri "İslam inqilabı bütün dünyada böyük bir cərəyanın başlanğıcı olmuşdur" - fikrini xatırlatmaqla bu təsirlərdən bəzisini bəyan edib buyurmuşdur: "Müsəlmanlar İslam inqilabının ardınca getməklə dünyada yeni mahiyyət əldə etdilər, çoxlu qeyri- müsəlmanlar İslama iman gətirdilər, bir çoxları ictimai dəyişikliklərdə dinin yeni şərəfinə və peyğəmbərlik missiyasına ürək bağladılar və bu proses davam edir."[2]

O daha sonra mühüm bir məsələyə diqqət edərək buyurmuşdur: "Baş vermiş bu cərəyan deyilməmiş və bilərəkdən gizlin qalmış bir hadisədir ki, kifayət qədər öyrədici və ibrətamiz xüsusiyyətlərə malik olub tarixin misilsiz təzahürlərindən biridir."

Daha sonra bu tövsiyəni etmişdir: "Bizim davamçılarımız olan cavan tədqiqatçılar qeyd olunan məsələnin siyasi, ictimai və tarixi kökləri haqqında araşdırmalara başlamalıdırlar."[3]

İnqilabın dahi rəhbərinin ciddi təkidləri, həmçinin İmamı dərindən tanımağın inqilab qüvvələrinə qurucu təsiri yazıçını buna vadar etdi ki, İmamın(r) vurğunlarının okeanından bir qətrə kimi "bilərəkdən deyilməmiş, gizlin qalmış, eyni zamanda kifayət qədər öyrədici və ibrətamiz" cərəyanın təhlil və tədqiqinə başlasın. Eləcə də, Həzrət İmam Xomeyninin(r) ilahi şəxsiyyətinin və onun ilahi qiyamının dünya miqyasında böyük təsirinin əvvəlkindən daha çox araşdırılması yolunda kiçik olsa da belə addım atsın.

Bu cüzi səylərin Həzrət İmam Zamanın(əc.) razılığına səbəb olacağına ümid edirəm.

---

[1] 28/3/1368.

[2] İslam inqilabının ildönümü münasibətilə Ayətullah Xameneinin çıxışından, 1377-ci ilin bəhmən ayı.

[3] İslam inqilabının ildönümü münasibətilə Ayətullah Xameneinin çıxışından, 1377-ci ilin bəhmən ayı.

(.. يا ايها العزيز ... جئنا ببضاعة مزجاة فاوف لنا الكيل و تصدق علينا ان الله يجزى المتصدقين)[1]

Mir Əhməd Rza Hacəti

Qum şəhəri, 1381-ci ilin xordad ayı.

## 1 – İMAM XOMEYNİ (R) ŞƏXSİYYƏTİ

***Həzrət Ayətullah Xameneinin İmam haqqında dedikləri:***

"…Müasir dövrün tanınmış böyük şəxsiyyəti İmam Ruhullah Xomeyni(r) dindar alim, pəhrizkar müdrik, siyasətçi filosof, yenifikirli mömin, şücaətli və ağıllı insan, ədalətli hakim və fədakar bir mücahid idi.

Allahın ona bəxş etdiyi üstün keyfiyyətlərlə onun özünün Qurandan öyrəndikləri bir-birinə qarışaraq qəlb və ruhunu zinətləndirmişdir. Elə əzəmətli, cazibəli və təsirli bir şəxsiyyət yaratmışdır ki, dini, siyasi və ictimai sahələrdə böyük insanlar və tanınmış islahatçılar əsri sayılan son əsrin məşhur simalarından hər biri onunla müqayisədə cazibəsiz, birtərəfli və kiçik görünürdülər.

Onun böyük fədakarlıq göstərdiyi, öz inamı, ümidi, tədbir və səbri ilə nail olduğu iş də eyni dərəcədə böyük, inanılmaz və heyrətamiz idi.

Onun çox gözəl və parlaq şəxsiyyəti siyasi həyatının bütün dövrlərində məftunedici və unikal idi."[2]

"İmam Xomeyni(r) elə böyük bir şəxsiyyət idi ki, dünya və tarixin dahi şəxsiyyətləri və rəhbərləri arasında peyğəmbərlər və məsum övliyalardan(ə) savayı bu keyfiyyətlər və xüsusiyyətlərə malik kimisə təsəvvür etmək çox çətindir."[3]

---

[1]... Ey padşah... Biz özümüzlə [sizdən mal almaq üçün] dəyərsiz məhsul gətirmişik. [Amma siz böyüklük göstərin] və bağışlayın, payımızı tam şəkildə ödəyin və [səhvimizi] bizə bağışlayın, çünki Allah mərhəmətlilərə və bağışlayanlara mükafat verər.("Yusif" surəsi, 88-ci ayə)

[2] Həzrət İmamın(r) anadan olmasının yüzüncü ildönümü münasibətilə Ayətullah Xameneinin çıxışından.

[3] İslam inqilabının qələbəsinin ildönümü münasibətilə çıxışından, 1388-ci ilin bəhmən ayı

Bizim böyük imamımız İslamın siyasi məktəbini təqdim etməklə ötən bir əsr yarımda İslamı bütünlüklə cəmiyyətin həyatından çıxarmağa çalışan düşmənlərin bütün mədəni və siyasi səylərinin faydasızlığını sübut etdi."[1]

### *İmam qərbli bir müxbirin (amerikalı) nəzərində*

Roben Vud Corc Cəmaranda İmamla(r) görüşü ilə əlaqədar olaraq yazır: "…İmam Xomeyni qapıdan daxil olan zaman hiss edirdim ki, qapının arasından mənəvi qüvvə qasırğası əsməyə başladı. Sanki o qəhvəyi əba, qara əmmamə və ağ saqqalın ətrafında bir həyat ruhu yaşayırdı və bu ruh bütün seyrçiləri özünə cəlb etmişdi. O zaman hiss etdim ki, onun hüzurunda biz hamımız kiçilmişik və sanki salonda ondan başqa kimsə qalmamışdır.

Bəli! O nurdan bir parıltı idi ki, bütün iştirakçıların qəlb və ruhuna nüfuz etmişdi. O, şəxsiyyət və məqamının dəyərləndirilməsində mənə kömək edə biləcəyini güman etdiyim bütün meyarları pozdu. O öz iştirakı ilə bizə o qədər təsir etdi ki, bütün ruh və cismimi bürüdüyünü duydum.

Stulda əyləşən zaman hiss etdim ki, varlığından bir parıltı işıq saçır. Parıltı elə bir qasırğa kimi idi ki, əgər diqqətlə baxsaydın, anlayardın ki, onun daxilində bir növ "mütləq sakitlik" gizlənmişdir, çünki [İmam] Xomeyni(r) çox ciddi, sarsılmaz və hökmran idi.

Eyni halda, o elə sakit və arxayın görünürdü ki, sanki daxilində sabit və möhkəm bir qüvvə cərəyan edir. Əlbəttə, bu həmin qüvvədir ki, İranın keçmiş rejimini bir dəfəyə aradan qaldırdı. İndi belə bir şəxsiyyət adi bir şəxs ola bilərmi?… Mən indiyədək ondan daha üstün və ya ona bərabər ola biləcək heç bir böyük şəxsiyyət görməmişəm.

---

[1] İmamın anadan olmasının ildönümü münasibətilə "Qüds" qəzetinin xüsusi buraxılışı, 1378-ci ilin mehr ayı

Ən azı onu deyə bilərəm ki, sanki o, keçmiş peyğəmbərlərdən biri idi və ya kafir fironu öz ölkəsindən qovmaq üçün gəlmiş İslamın Musasıdır."[1]

### *İmam Xomeyninın(r) cəsarət və qəhrəmanlığı*

Sonuncu Peyğəmbər Həzrət Məhəmmədin(s) Məkkədən Mədinəyə yeni tarixin əsasını qoyan hicrətindən on dörd əsr sonra İranda böyük İslam inqilabının qələbəsi sayəsində "XX əsrdə dünyada ən böyük dəyişiklik baş verdi."[2] Və müasir dünyada din, iman və təkallahlılığın tərki-dünyalıq və ayrılıq zülmətgahının qala divarları lərzəyə gəldi[3] və haqqıtələb edən yorğun ruhlarına ilahi ərşdən canlandırıcı və təbii bir meh əsməyə başladı və onlara yeni təravət və həyat bəxş etdi.[4]

Əziz İslam Peyğəmbərinin(s) peyğəmbərlik missiyasından on dörd əsr sonra Şərqdə onun məktəbində tərbiyə alanlardan bir şəxs zahir oldu və bəndəlik, haqqı söyləmə, haqqı axtarma, fəryad və sarsılmazlıqda Adəm, Nuh, İbrahim, Musa və İsanı(ə) təqlid etmişdir. O, ulu babası Əli ibn Əbu Talib(ə) kimi öz dəmir iradəsi, mənalı çağırışları, nüfuzlu sözləri ilə pozğunluqlar və qaranlıqlar pərdəsini parçalayaraq əsilsiz [batil] cəbhəni birdəfəlik mübarizə meydanına çağırdı. Bütün zamanlar üçün "onun adı, xatirəsi, isti və təlatümlü ruhu, dəmir iradə və əzmi,

---

[1] Roben Vud Corc Karic, "Mənim ən gözəl təcrübəm", Xədicə Mustofovinin tərcüməsi, səh 31, 32 və 36.

[2] Qədim İspaniya tarixi fakültəsinin dekanı, Real Madrid Tarix Akademiyasının elmi heyətinin üzvü, professor Xose Martinosun İran İslam inqilabının xüsusiyyətləri haqqında dediklərindən. ("Keyhan-e həvayi", 1372-ci ilin bəhmən ayı)

[3] İmamın(r) buyurduqlarına işarədir ki, İslam inqilabının tarixi risalətinin şərhində buyurmuşdur "Zülm qəsrinin dişciklərindən on dörd dişciyin dağılmasından (Rəsuli-Əkrəmin(s) doğulduğu gecə) sizin nəzərinizə gəlmirmi ki, yəni on dördüncü əsrdə bu iş olar və ya on dörd əsr sonra bu iş (zalımların süqutu) olar? (Peyğəmbərin(s)) doğulduğu gecədə Ənuşirəvan sarayının on dörd dişçiyinin dağılması möcüzəsinə dəlalətə, zülmə qarşı İran İslam inqilabının baş verməsi və inşaallah hicri on dördüncü əsrdə dünyadakı hegemonluğun süqutu ("Nur səhifəsi" c. 9, səh.249)

[4] İmamın(ə) fəsahətli nitqindən bir ibarəyə işarədir ki, buyurmuşdur: "Allah-Təala tərəfindən bu ölkəyə bir ruhani meh əsmişdir. Bu ölkəyə İlahi parıltı saçmışdır və ölkəni İslamın, peyğəmbərlərin amalına tərəf sövq edir." (14/1/61)

şücaət və sarsılmazlığı, ehtiraslı imanı hər bir kəsin dillər əzbəridir."[1]

Bəli, o, böyük Xomeynidir ki, başında vəzifəni yerinə yetirmə sevdası, qəlbində ilahi eşq vardı. O, Allahın ruhudur ki, həqiqətən "həyat ruhu, cəmiyyətin namusu, tarixin şöləsi, mənəviyyat zirvəsi, insani maye qüruru, cəmiyyətin axıcı həyəcan və şüuru, mənəvi qoruqçu və yüksək fikirlərin məhsuldarlığı"dır[2] və bu, Allahın əsrimizə və taleyimizə xeyirxahlıq göstərdiyi iltifatın bariz və aydın sübutudur.[3]

**إنّ الله فى كلّ خلف عدولا ينفون عنه تحريف المبطلين**[4]

Odur ki, öz qiyamı ilə çağdaş əsrin allahsızlıq və cahillik səhrasında azıb qalmış milyonlarla insanı təkallahlılıq mənəviyyatına yenidən qayıtmağa çağırdı və onların çoxunun istək və arzularını Məhəmməd peyğəmbərin(s) təlimlərinin Kövsərindən doyuzdurdu.

Həzrət İmam Xomeyni(r) Allahın ədalətli və xeyirxah bəndəsidir və o, İslam yolunu tutan İranın dindar əhalisinin böyük inqilabına rəhbərlik etməklə öz tarixi missiyasını yerinə yetirmək üçün Yer kürəsində haqqı əsas tutan sonuncu dünya inqilabına zəmin yaratdı və bəşəriyyətə o Həzrətin mütləq zühurunu (əc.) müjdə verdi.

### *İmam Xomeyni kim idi və nə etdi?*

İmam Xomeyninin şəxsiyyətini təhlil edərkən onun mələksima ruhu, yüksək fikirləri, fövqəladə ruhi və mənəvi xüsusiyyətləri, habelə xeyirxah həyatının zəngin təsiri və faydası barədə danışmaq lazımdır:

---

[1] Murtəza Mütəhhəri, "Son yüz ildə İslam hərəkatları", səh.85

[2] Məhəmməd Rza Həkimi, Şeyx Ağa Bozorg Tehrani, səh.6

[3] Murtəza Mütəhhəri, "Son yüz ildə İslam hərəkatları", səh.85

[4] Allahın saf bəndələri vardır ki, onları hər dövrdə öz dinindəki təhrifləri təmizləmək üçün göndərər:

عن ابى عبد الله(ع) قال: قال رسول الله (ص): يحمل هذا الدين فى كل قرن عدول ينفون عنه تا ويل المبطلين و تحريف الغالين و انتحال الجاهلين000 (اخبار معرفة الرجال، جزء ا، ص 4).

"İran əhalisi üçün İmam Xomeyninin səsi Allahın səsinin hökmünə malik idi"[1], tək bir Allaha inanan milyonlarla insanın nəzərində: "O, Yer üzərində Allahın əli"[2] və "yerdəkilər üçün ilahi hədiyyə idi."[3]

Onun mənəvi yolu, yüksək fikirləri, ən nurlu şəriət göstərişləri və Əhli-beyt təlimlərinə qeyd-şərtsiz bağlılığı hər insaflı müsəlmanda mənəviyyat və təmizlənmə kimi keyfiyyətlərə olan imanı möhkəmləndirirdi: "Sanki İslamın başlanğıcından təcrübəli böyük şəxsiyyətlərdən birisi möcüzə sayəsində dünyaya qayıtmışdı ki, Əməvilərin qələbəsi və Əhli-beyt(ə) şəhidlərinin qanlarına qəltan olmasından sonra Əlinin(ə) qoşununa rəhbərlik etsin."[4]

"İmam Xomeyni Qərbin siyasi, iqtisadi və mədəni istilası müqabilində İslamın mübarizliyinin özünəməxsus təzahürü"[5] olsa da, "İmamın(r) çağırışı təkcə şiələr yox, həm də bütün dünya və bölgə müsəlmanları arasında əks-səda doğurdu."[6]

Həzrət İmamın(r) ilahi şəxsiyyəti və mənəvi çağırışları digər din və məzhəb ardıcıllarına da güclü təsir göstərdi. Belə ki, bəzi xristian mütəfəkkirləri və analitiklərinin fikrincə "O, müasir Məsih idi və daha dəqiq desək, İsa ibn Məryəmin(ə)" möhkəm və xalis şüası idi."[7] Xristianların bir qismi isə İmam Xomeyni(r) ilə ilk görüşdə onun möhtəşəm məqam, əzəmət, dözüm və səbrindən təsirləndiklərini və onda İlahi vergi və şəfqət hisslərini dərk etdiklərini dilə gətirirdilər.[8]

---

[1] İtaliya televiziya kanalının İmamın vəfatı münasibətilə xüsusi məlumatıı (Ettelaat qəzeti 11/04/68).

[2] Yunan keşişi Musta Kis, "Zavtra" jurnalı, Moskva çapı ("Keyhan-e həvayi" 25/8/1373)

[3] Məhəmməd Həsəneyn Heykəl, "Ərəb dünyasının məşhur yazıçı və jurnalisti" (Misir qəzeti, "Əl- Əhram", 17/3/1368)

[4] Məhəmməd Həsəneyn Heykəl, "Ayətullahın müdafiəsi", səh 8.

[5] Kəlim Sədiqi, "İngilis müsəlmanları parlamentinin indiki rəisi, İslam hərəkatları və İran İslam inqilabı", Seyyid Hadi Xosrovşahinin tərcüməsi səh.193

[6] "Profil" nəşriyyatı, Avstriya çapı, iyun 1985; "Omid-e enqelab" nəşriyyatı, № 222.

[7] Robin Vud Corc, "Mənim ən gözəl təcrübəm", Xədicə Mustofovinin tərcüməsi səh. 38 25/8/1373

[8] Uryana Falaçi, "Məşhur italyan müxbiri", "Cümhuri-ye Eslami" qəzeti, 29/7/1357

O, beynəlxalq analitiklərin heç bir vəchlə ağıllarına sığışdırmadıqları və "Qərbin köhnə və orta əsrlərə aid sandığı dini əqidələrlə dünyanı" silkələdi"[1], "Şərq və Qərbi lərzəyə gətirdi və elə bir miras qoydu ki, hələ də yaşayır və fəaliyyətdədir.[2] O, dünya tarixində böyük bir iz qoya bildi[3] və şübhəsiz, "bəşəriyyət də onun mənəvi inqilabının təsiri altındadır."[4]

Məhəmmədin(s) səbr və möhkəmliyindən, Əlinin(ə) qənaətkarlıq və ədalətindən, Həsənin(ə) tədbirindən, Hüseynin(ə) təvəkkül və şücaətindən dərslər alan, Həzrət Vəliyyi-Əsrin – (Ruhlarımız ona fəda olsun) xüsusi inayət və köməkliyi sayəsində yol azuqəsi toplamış İslam inqilabının böyük rəhbəri "İnsanın Allaha yaxınlaşmasında yeni bir dövrün başlanğıcını qoydu və insanların himayədarlığı ilə XX əsr tarixində mühüm dönüş nöqtəsi olan İslam inqilabını qalibiyyətə çatdırdı."[5]

İmamın(r) və İslam inqilabının müasir insanın mənəvi həyatına təsiri elə dərin və əhatəli qiymətləndirilir ki,: "İmam Xomeyni inqilabı,[6] hətta insanın inkişaf yolunu dəyişdi də demək olar".[7]

Həzrət İmam(r) XX əsrdə mənəviyyat həsrətində olan bəşəriyyət üçün əziz İslam peyğəmbəri(s) və onun pak vəsilərinin(ə) parlaq günəşinin nurları əks olunan şəffaf bir ayna kimi idi.

---

[1]Professor Vilyam Beyman Amerikanın Braun universitetindən, "Zavtra" nəşriyyatı, Moskva çapı, "Keyhan-e həvayi", 25/8/1373

[2] Məhəmmədül-Asi, "Vaşinqton məscidinin sabiq imam-camaatı", "Cümhuri-ye Eslami" qəzeti. 5/5/1371

[3]Mixayıl Qorbaçov - keçmiş SSRİ prezidenti. "Xəbər mərkəzi"nə müsahibəsində, "Cümhuri-ye Eslami" qəzeti, 15/3/1378.

[4] Antonio Midrano (İspan yazıçısı), İslam Respublikasının ölkədən xaric İspaniya radiosuna müsahibəsində, "Maarif" radiosu 28/11/1378

[5]Lenser (Avstriya professoru), "Zavtra" nəşriyyatı, Moskva çapı, "Keyhan-e həvayi".

[6] İnkişaf: Təkamül yolu, tədrici təkamül "Yeni cəmiyyətin böyük mədəniyyəti" (Tərcüme- ye muncid) c.2, səh.1187

[7] Lenser (Avstriya professoru) "Zavtra" nəşriyyatı , Moskva çapı, "Keyhan-e həvayi", 25/8/1373

"O, İslamın başlanğıcından XX əsrin qəlbinə sancılmış bir ox idi."[1] "Keçmişdən gəlib hazırda yaşasa da, gələcəkdən xəbər verən və gələcəyin göstəricisi idi."[2] Başqa sözlə desək "o, zamanından daha üstün düşünürdü və məkan miqyasına sığmırdı."[3]

Həqiqətən də demək lazımdır ki, "İmam Xomeyni(r) bəşəriyyət tarixində yeni əsrin müjdəçisidir və bu mərhələdə bəşəriyyətin pozulmuş əxlaqı üçün hər şeydən daha çox mənəviyyata ehtiyac duyulacağı nəzərə çarpır."[4]

Həzrət İmam Xomeyninin(r) ilahi inqilabı və onun müqəddəs çağırışları sayəsində bir daha müasir dünyada allahıtanıma və dindarlıq istiqamətində böyük bir canlanma baş verdi və bu bütün dünyanı bürüdü.

(مثلهم فى التورية و مثلهم فى الانجيل كزرع اخرج شطاه فازره فاستغلظ
فاستوىعلى سوقه يعجب الزراع ليغيظ بهم الكفار)[5]

### *İmam Xomeyni(r) böyüklüyünün xaricilər tərəfindən etirafı*

İmamın şəxsiyyəti nəinki dostlarını, hətta onun və İslam inqilabının düşmənlərini də belə İmamın valehedici xüsusiyyətlərindən söz açmağa vadar edirdi:

[6] " ا لفضل ما شهدت به الاعداء"

Hətta böyük dövlətlərin bəzi nümayəndələri də İmamın(r) böyüklüyü qarşısında təslim olaraq aşağıdakıları etiraf etmişlər:

"Şübhə yoxdur ki, o, bu əsrdə tarixin böyük şəxslərindən biri idi. Bu gün çox az adam tapmaq olar ki, nəinki İranda, hətta

---

[1] Məhəmməd Həsəneyn Heykəl, "Ayətullahın müdafiəsi", səh. 8

[2] Əhməd Huber, İsveçrə tədqiqatçısı və mütəfəkkiri, Hüzur fəsilnaməsi №29, payız 1379.

[3] Mixayıl Qorbaçov (keçmiş SSRİ prezidenti), "Xəbər" mərkəzinə müsahibəsində, "Cümhuri-ye Eslami" qəzeti, 15/3/1378.

[4] Prussakof (rus yazıçısı), "Zavtra" nəşriyyatı, Moskva çapı, "Keyhan-e həvayi", 25/8/1373.

[5] "Fəth" (48) surəsi ayə 29: (Tövratda və İncildə) Allah Rəsulunun dostlarının məsəli öz köklərini xaricə verib yoğunlaşana qədər möhkəmləndirən və öz gövdələri üzərində dayanan əkin kimidir. (Belə ki, əkinçiləri təəccübləndirir, onların vasitəsilə kafirləri qəzəbləndirir.)

[6] Fəzilət odur ki, düşmənlər ona şahidlik edib etiraf etsinlər.

bütün dünyada onun kimi nüfuz və cazibəyə malik olsun və böyük dövlətlərin diqqətini bu qədər özünə cəlb etsin."[1]

"Ayətullah Xomeyni Qərbi ciddi proqramlaşdırma böhranı ilə üzləşdirdi. O, elə ildırımsürətli qərarlar çıxarırdı ki, siyasətçilər və siyasi analitiklər hər cür fikirləşmə və proqramlaşdırma imkanlarından məhrum olmuşdular.

Heç kəs onun qərarlarını qabaqcadan güman edə bilməzdi. O, dünyada məlum meyarlardan fərqli meyarlarla danışır və iş görürdü. Sanki başqa yerdən ilham alırdı. Ayətullah Xomeyninin Qərblə düşmənçiliyi ilahi təlimlərdən qaynaqlanırdı. O öz düşmənçiliyində də pak və təmiz niyyətə malik idi."[2]

Müstəmləkəçi İngiltərə dövlətinin ikiyüzillik sözçüsü kimi tanınmış "London tayms" qəzeti İmam haqqında belə yazır: "İmam Xomeyni kütlələri öz kəlamı ilə məftun edən bir şəxs idi. O, adi adamların dilində danışırdı, kasıb və məhrum tərəfdarlarında özünə inam hissi aşılayırdı. Bu hisslər onlara yollarının üstündə dayanan hər kəsi aradan qaldırmağa imkan verirdi. O, camaata göstərdi ki, hətta Amerika kimi güclü dövlətlərin qarşısında dayanıb qorxmamaq olar."[3]

"Herald Tribun" qəzeti də İmam haqqında etiraf edərək yazmışdır: "Ayətullah Xomeyni(r) həyatının son anına kimi İranda İslam cəmiyyəti və İslam hökuməti qurmaq üçün öz arzusuna sadiq qalan yorulmaz inqilabçı idi. Ayətullah Xomeyni qədim ölkəsi üçün nə istəyirdisə, bir an ləngimirdi, o özünə borc bilirdi ki, İranı Qərbdə gördüyü fəsad və tənəzzüldən (geriləmədən) təmizləməli və xalis İslamı millətə qaytarmalıdır."[4]

---

[1] Henri Prakt, İranda Amerika səfirliyinin siyasi və hərbi müşaviri (1972-1978) və bu ölkənin xarici işlər nazirliyində İran kontorunun məsulu (1978-1980) "Hüzur fəsilnaməsi", 1373-cü ilin xordad ayı.

[2] Henri Ksincer, 70-ci onillikdə Amerika prezidentinin müşaviri, "Suruş" jurnalı, 20/11/1380.

[3] Professor Həmid Mövlananın müsahibəsi, "Hüzur fəslnaməsi", №29, payız 1378

[4] Professor Həmid Mövlananın müsahibəsi, "Hüzur fəslnaməsi", №29, payız 1378

### *İmam Xomeyni(r) və İslam inqilabının möcüzəsi*

İmam Xomeyni(r) inqilabının həqiqətindən söz açarkən demək lazımdır ki, dünya İranda İslam inqilabının baş verməsi ilə böyük ilahi möcüzənin şahidi oldu. Bu elə bir gerçəklikdir ki, dəfələrlə onun barəsində vurğulamışlar:

"Cəmiyyətdə elə bir psixoloji dəyişkənlik yarandı ki, mən onu möcüzədən başqa bir şey adlandıra bilmərəm. Elə bir ilahi qüvvə idi ki, ona başqa bir ad verə bilmərəm."[1]

Başqa birisi isə buyurmuşdur:

"Burada ilahinin haqq-hesabı var, burada Allahın əli var, insanlar belə bir möcüzəni yarada bilməzlər… Bu elə bir ilahi iradədir ki, bütün materialist hesablamaları heçə endirdi…"[2]

Qeyri-müsəlman şəxsiyyətlərdən çoxu da İslam inqilabı prosesinin maddi hesablamalar çərçivəsinə sığışmadığını təsdiqləməklə yanaşı, İslam inqilabının möcüzə olduğunu vurğulayırlar.

Kanadalı alim Robert Kalston bu barədə demişdir:

"Bir qərbli və qeyri-müsəlman insan kimi mənim fikrimcə, bu elə bir möcüzədir ki, çağdaş dünyada ilahi və istiqamətverici inqilab kimi baş verib və ədaləti bərqərar edib. Bu inqilab şəksiz, Allah tərəfindən himayə olunur…"[3]

### *İmam, inqilab və İslamın valehedici qüdrəti*

İslam inqilabı gözlənilməz zəlzələ kimi dünyanın ən həssas məntəqələrindən birində aləmin sakit və dinc hegemonluq düşərgəsini şiddətli lərzəyə gətirdi.

İran İslam inqilabının baş verməsi ilə "ilk dəfə olaraq bir müsəlman ölkəsi müvəffəqiyyətli şəkildə Qərbin böyük dövlətlərini mübarizəyə çağırdı, onları təhqir etdi və maddi mənafelərinə ziyan vurdu."[4] Bu inqilab böyük bir şimşək kimi cəhalət, qəflət və inad pərdəsini yırtaraq, ilahi dinlərin qürubunun qaçılmaz olduğunu proqnozlaşdıran analitiklərin və nəzəriyyəçilərin şirin yuxusuna haram qatdı, onların

---

[1] "Nur səhifəsi", 23/2/1358

[2] Həmin yerdə

[3] "Keyhan" qəzeti 14/10/1360

[4] "London tayms" qəzeti, iyul 1982 və "Cümhuri-ye Eslami" qəzeti, 19/11/1368

nəzəriyyələrini etibardan saldı. "Simvolik baxımdan, İran inqilabı XIV əsrdən bu günədək müsəlmanların Qərbdə ilk qələbəsi sayılır. Məsələ burasındadır ki, İslam bu inqilabın həlledici amili olmuşdur və Qərb "izmlər"indən nasionalizm, kapitalizm, kommunizm, sosializmin bu prosesdə heç bir rolu yoxdur."[1]

Qərbin böyük dövlətləri İmam(r) və İslam inqilabının yaratdığı bu əvəzolunmaz əzəmətlə qarşılaşarkən İslamın gizli qüdrəti və potensialı ilə tanış oldular.

"Tayms" qəzeti bu barədə yazmışdır: "İranda şahın İmam Xomeyni(r) tərəfindən kənarlaşdırılmasından sonra din və inqilabın dirçəlişi prosesi baş verdi və bütün dünyanı gəzib dolaşdı, 1357-ci ilin payızında isə Qərb dünyası İran inqilabına görə İslamı bir daha kəşf etdi…

Biz qərblilər çox tez başa düşdük ki, "Allahu Əkbər" ərəb dilində "Allah [ən] böyükdür" mənasındadır.[2]

### *İmam və inqilab; iki ayrılmaz təzahür*

İran İslam inqilabı Həzrət İmamın(r) yüksək fikirləri və ali düşüncələri sayəsində baş verdiyindən onun başvermə amilləri, əsas şüarları, çağırış və məqsədlərin müəyyənləşdirilməsi, habelə ona qovuşma yolları həmin mələksima şəxsiyyətin inam, etiqad, istək və arzuları ilə qırılmaz tellərlə bağlı olmuşdur. Ona görə də böyük rəhbər bu mühüm məsələni vurğulamaqla hamıya xatırlatmışdır ki, "İnqilab və İmam Xomeyni(r) iki ayrılmaz təzahürlərdir. O böyük rəhbər şəxsiyyəti tanımadan İslam inqilabının təhlili mümkün deyil."[3]

İslam inqilabı məsələlərini daim izləyən dünyanın siyasi və ictimai dəyişikliklər üzrə analitikləri müxtəlif yollarla yuxarıdakı gerçəkliyi etiraf etmişlər: Məsələn, ingilis qəzeti "Qardian" İslam inqilabını təhlil edərkən yazmışdır: "Ayətullah

---

[1] Doktor Mişel Conson (Beynəlxalq münasibətlər mütəxəssisi) "Jeonolitikal stratejik", 21 iyul 1986. Cavad Mənsurunin dilindən, "İslam respublikası əleyhinə mədəni müharibə", səh.100

[2] Mazandaran sağlamlıq təşkilatının ümumi əlaqələri, "Dünya fikir aynasında İmam və inqilab", səh.71 və 72

[3] "Resalət qəzeti", İmamın(r) vəfatının ildönümü münasibətilə xüsusi buraxılış, 17/3/1378

[İmam] Xomeyninin İranda baş verən böyük inqilabda rolu son dərəcə böyük olub, mühüm əhəmiyyət kəsb edir və şübhə yoxdur ki, Ayətullah bu inqilabın əsasını qoyan başlıca şəxsdir."[1]

London Universitetinin beynəlxalq münasibətlər fakültəsinin müəllimi Freyd Haleydi İran haqqında qələmə aldığı kitabın müqəddiməsində yazır:

"İslam inqilabı tarixin ən böyük inqilabıdır və hamımız bilirik ki, bu böyük iş İmam Xomeyni(r) şəxsiyyətinin möhtəşəmliyi sayəsində baş verdi və onun qüdrətli və hakim əlləri bu böyük insan dalğalarını həyəcan və təlatümə gətirdi."[2]

### *İmamın fikri – qeyri-adi inqilabın mənbəyi*

"İran İslam inqilabının XX əsrdə baş vermiş digər inqilablarla heç bir oxşarlığı olmamasına"[3] baxmayaraq, bu mühüm gerçəkliyin kökünü İslam inqilabı ilə Həzrət İmam Xomeyninin(r) ayrılmaz tellərlə bağlılığında aramaq lazımdır.

İslam inqilabının XX əsrdə dünyanın digər böyük inqilablarından üstünlüyü İmamın(r) hərtərəfli fikirləri və şəxsiyyəti ilə İslam inqilabının sıx bağlılığında təzahür etməsidir.

İmam(r) İslam inqilabının məqsədlərinin müəyyənləşdirilməsi, mübarizə prosesinə rəhbərlik, artan qüvvələrlə üzləşmə, İslam inqilabının uğurlarının qorunması və möhkəmləndirilməsi taktikası və üsullarında xüsusi və fövqəladə siyasi doktrinaya malik idi. İmamın siyasi doktrinası qeyb və qeybdən gələn köməkliklərə dərin inam, İslam və vəhy təlimlərinə güclü iman, əbədi ilahi qüdrətə möhkəm arxalanma və təvəkkül, mütləq vəzifəni yerinə yetirmək kimi sabit, davamlı və sarsılmaz əsaslar üzərində dayanmışdı. Bu elə bir siyasi doktrina idi ki, "qərblilərin etirafına görə Qərb onu dərk etməkdə aciz qalmışdı."[4]

---

[1] Məhəmməd Sepehri, "Qürub etməyən günəş", səh.220 və 221

[2] "Ettelaat" qəzeti, 13/4/1368

[3] Professor Məhəmməd Hüseyn Hüda, "Avstriyalı müsəlman şərqşünas"ın "Keyhan" qəzetinə müsahibəsində 25,29/11/1376

[4] Professor Məhəmməd Hüseyn Hüda, "Avstriyalı müsəlman şərqşünas"ın "Keyhan" qəzetinə müsahibəsində 25,29/11/1376

Daha dəqiq söyləsək, İslam inqilabı hərəkatının başlanması və onun davam etdirilməsinin əsas dayağı və həyati ünsürünü təşkil edən İmamın siyasi düşüncəsi insan varlığı, onun mövcudluğunun mənası barədə mistik şərhinin məntiqi nəticəsi idi.

İmam öz yeni və əsaslı ilahi düşüncəsindən istifadə edərək beynəlxalq siyasi arenada dünya İslam inqilabına rəhbərlik sayəsində nəinki qüdrətli Pəhləvi rejimini dağıtmağa nail oldu, həmçinin yeni, mədəni və tamamilə dini və ilahi təfəkkürün irəli sürülməsi ilə maddi məktəblərin təlimlərini, Qərb mədəniyyətini mübarizəyə sürüklədi."[1]

Bu baxımdan " İmamın müasir dünyaya münasibətdə yenilikçiliyi, siyasi əməl səviyyəsində olmazdan əvvəl siyasi düşüncə meydanındadır. Həzrət İmamın müasir dünyaya münasibətdə siyasi düşüncəsində çoxlu yeniliklər vardır və demək olar ki, müasir siyasi düşüncə üçün dönüş nöqtəsi yaratmışdır."[2]

Həzrət İmam bu siyasi düşüncəyə əsaslanaraq XX əsrin ən böyük ictimai inqilabını hərəkətə gətirdi və bu beynəlxalq analitiklərin fikrincə dünyanın digər böyük inqilablarının ölçü meyarları çərçivəsinə sığışmır.

Belə ki, məşhur fransız mütəfəkkiri və sosioloqu Mişel Foukaut öz yazılarında inqilab hadisələri zamanı (1357-ci il) İrana etdiyi səfərə və İran inqilabi prosesini cəmiyyətin qeyri-müasirlikdən müasirliyə keçid kimi qiymətləndirən Qərb analitiklərinin bəzisinin fikirlərinə işarə etmiş və yaxından müşahidə etdiyi dəyişiklikləri və hadisələri meyar kimi qəbul etməklə yazmışdır: "Mən qəbul edirəm ki, XVIII əsrdən sonra baş vermiş hər bir ictimai dəyişiklik müasirləşmə zəminində olmuşdur. Amma İran inqilabı yeganə hərəkatdır ki, müasirləşmə qarşısında dayanmışdır."[3]

---

[1] Həmin yerdə.

[2] Höccətülislam Parsaniyanın "Qüds" qəzetinə müsahibəsi. İmamın(r) anadan olmasının yüzüncü ildönümü münasibətilə xüsusi buraxılış (1378-ci ilin dey ayı)

[3] Höccətülislam Parsaniyanın "Qüds" qəzetinə müsahibəsi. İmamın(r) anadan olmasının yüzüncü ildönümü münasibətilə xüsusi buraxılış (1378-ci ilin dey ayı)

Həqiqətən də Foukaut qəbul edir ki, İran inqilabı neçə əsrlik keçmişə malik olan ikiyüzillik bir siyasi düşüncəni mübarizəyə sürükləmişdir… və bu inqilabın təzə sözü vardır və Həzrət İmamın(r) siyasi düşüncəsinin barız xüsusiyyəti də elə budur."[1]

"Siz Qərbin siyasi fikirlərində çoxlu ixtilaflar görsəniz də, amma onların hamısı bir nöqtədə müştərəkdirlər və o, dini mənliyin inkarıdır."[2] Amma "İmamın siyasi düşüncəsinin barız xüsusiyyəti dini özünüdərketmədir ki, gəldi və Qərbin sekular fikir çərçivəsindən daha üstün fikri qarşıya qoydu.[3]

Həzrət İmam(r) İslam təlimləri və zəngin şiə qanunşünaslığına (fiqhinə) söykənən bu siyasi düşüncədən bəhrələndiyinə görə İslam inqilabı baş verdi və buna görədir ki, inqilabın başlanğıc, inkişaf və qələbəsindən daha çox zaman keçdikcə hamıya bu gerçəklik əyan olur ki, "İslam inqilabı bütün inqilablardan fərqlidir."[4]

Bu əsasla İslam inqilabının böyük memarı və qurucusu həmişə İran İslam inqilabının islami biliklər və dini təlimlərlə ayrılmazlığına və onlarla dərin bağlılığına işarə edərək onun istisnalığını vurğulamışdır. Belə ki, öz siyasi və İlahi vəsiyyətnaməsində bu fikri açıqlayaraq yazmışdır:

"Biz bilirik ki, böyük İranı dünyanı çapıb talayanların əlindən qurtaran bu inqilab qeybdən gələnköməklərlə qələbə çaldı."

Daha sonra demişdir: "Buna görə də İslam inqilabının həm yaranış, həm mübarizə üsulu, həm inqilab stimulu, həm də qiyam baxımından bütün inqilablardan fərqli olmasına şəkk etmək lazım deyil. Şübhə yoxdur ki, bu, mərhəmətli Allah tərəfindən məzlum və talan edilmiş millətə hədiyyə olunmuş ilahi bir töhfədir."[5]

---

[1]Höccətülislam Parsaniyanın "Qüds" qəzetinə müsahibəsi. İmamın(r) anadan olmasının yüzüncü ildönümü münasibətilə xüsusi buraxılış (1378-ci ilin dey ayı)

[2] Həmin yerdə

[3] Həmin yerdə

[4] İmam Xomeyni(r), İlahi və siyasi vəsiyyətnamə

[5] İmam Xomeyni(r), İlahi və siyasi vəsiyyətnamə

### *Analitiklərin İslam inqilabını və İmamı(r) dərk etməkdə gücsüzlüyü*

İnqilab qeyri-adi, yəni bir tərəfdən qeybdən gələn köməklərdən istifadə və İmamın mənəvi düşüncəsinə ikitərəfli etimad, digər tərəfdən insanların dərin dini inamlarına etimad şəraitində yaranıb inkişaf etmişdi. Siyasi analitiklər, informasiya və tədqiqat mərkəzləri, xarici dövlətlərin casus təşkilatları İran cəmiyyətindəki dəyişiklikləri və onun dini rəhbərinin ehtimal olunan nailiyyətlərini qiymətləndirməkdə və ölçməkdə təcrübi və pozitiv meyarları əsas götürərək materialist qaydalarına uyğun sosioloji təhlillərə başlamışdılar. Buna görə də İslam inqilabının baş verməsini qabaqcadan görməkdə, habelə onun mahiyyətini dərk etməkdə, eləcə də Həzrət İmam Xomeyninin(r) inqilabi təfəkkür və düşüncə tərzini öyrənməkdə aciz qalmışdılar.

Həzrət İmamın(r) təbirincə desək, onlar "Allahın iradəsindən xəbərsiz idilər! Bu elə bir iş idi ki, Allah etdi, bir möcüzə idi ki, Allah-Təala yerinə yetirdi."[1]

"SİA təşkilatı 1357-ci ilin mordad ayında İrandakı vəziyyəti dəyərləndirdikdən sonra bildirmişdi ki, İran nə inqilab, nə də inqilabdan qabaqkı vəziyyətdə deyil! SIA informasiya təşkilatı da 28 sentyabr 1978-ci il tarixli məlumatında (4/7/1357) bildirmişdi: Şahın daha on il hakimiyyəti fəal surətdə öz əlində saxlaması gözlənilir."[2]

Bu elə bir vaxt idi ki, Karter İslam inqilabından əvvəl İrana səfərində bu ölkəni dünyanın ən səsli-küylü bölgələrindən birində sabit və sakit ada adlandırmışdı.[3]

İran İslam inqilabının sürətli qələbəsi və Həzrət İmamın(r) misilsiz rəhbərliyi Amerika və digər sionist dövlətləri son dərəcə pərişan etmişdi. Qərblilər dəfələrlə İrandakı dəyişikliklərin gözlənilməzliyini və İslam inqilabının həqiqətlərini dərk etməkdə gücsüzlüklərini etiraf etmişdilər. Amerikanın Tehrandakı casus yuvasında mövcud olan sənədlərə əsasən, Amerikanın informasiya və siyasət nümayəndələri bu fikirdə

---

[1] İmam Xomeyni(r), İlahi və siyasi vəsiyyətnamə 9/2/1358

[2] Babək Adin və Nasir İrani, "Karter və şahın süqutu", Birinci dərəcəli rəvayət, səh.37

[3] Edvard Köln: "Amerika əsarətdə", Turan Xavərinin tərcüməsi. səh.232

idilər ki, "Bu inqilab və onunla bağlı baş verən hadisələr bizim vəziyyətimizi korladı, adamlarımızı pərən-pərən saldı, sabit təşkilat və fəaliyyət formalarımızı puç etdi."[1]

SİA təşkilatının o zamankı rəisi Astanfeli Terner İran İslam inqilabının baş verməsi haqqında bu fikirdə idi:

"SİA təşkilatı iki məsələnin proqnozlaşdırılmasında uduzdu; birincisi, 75 yaşlı sürgün olunmuş bir şəxsin rəhbərliyi altında şaha müxalif olan qruplar tam təşəkkül tapdı, ikincisi, qüvvətli ordu olmasına baxmayaraq, inqilabın belə sürətlə qələbə çalacağını gözləmirdik."[2]

İslam inqilabı dövründə İsfahanda yaşayan ingilis keşişi Pol Hunt qərbli bir vətəndaş kimi İrandakı şəraiti öz xatirələrində belə açıqlamışdır: "Biz heç vaxt İranın inqilab ərəfəsində olduğuna inanmırdıq."[3]

Əlbəttə, demək lazımdır:

"İslam inqilabının mənəvi dəyərlərindən xəbərsiz olan və inqilabların təhlili və tədqiqi zamanı öz coğrafi, siyasi və iqtisadi meyarlarını əsas tutan şəxslərin bu inqilabın qələbə çalma səbəblərini və mahiyyətini bilməmələri təəccüblü deyil."[4]

"Başlanğıcdan qələbəyə kimi bu böyük hərəkat və inqilabın dərk olunmaması heç şübhəsiz ki, Qərb sosioloqları və onların Şərqdəki təqlidçiləri üçün elmi rüsvayçılıqdır."[5]

Londonda çap olunan "Obezrur" qəzetində ingilis yazıçılarının birinin məqaləsində bu gerçəkliyə işarə olunaraq yazılmışdır: "Qərb heç vaxt şahın nə üçün süqut etdiyini və bir ruhaninin niyə ölkəni inqilab halına gətirib çıxara bildiyini və İslam əsaslarını dirçəltməklə Qərbi sarsıtdığını dərk etmədi."[6]

Məşhur italyan jurnalisti Masimo Fini İtaliyanın "El-Corno" qəzetində bu sahədə apardığı araşdırmalarında yazmışdır:

---

1 "Casus yuvasının sənədləri", c.3, səh.94
2 "Əs-siyasətu Kuveyt" qəzeti, Ternerlə müsahibə, 16 dekabr 1981
3 Pol Hunt, "İslam inqilabı dövründə ingilis keşişləri", Doktor Hüseyn Əbu Turabyanın tərcüməsi, səh.23
4 Professor Həmid Mövlana, "Keyhan" qəzeti, 18/11/1375
5 Həmin yerdə.
6 "Qürub etməyən günəş", səh.168

"İslam inqilabının həqiqəti və İmam Xomeyninin(r) təfəkkürü çox dərindir və Qərb dünyası onu dərindən dərk etməkdə acizdir."[1]

Amerika prezidenti Buşun sözləri digər yolla yuxarıdakı gerçəkliyi aydınlaşdırır. O deyir: "Mən İran inqilabının qələbəsinə görə SİA təşkilatının işdən kənarlaşdırılan o zamankı rəisindən soruşdum. Siz dünyada malik olduğunuz bu qədər adamla, belə yüksək texnologiya və sərf etdiyiniz bu qədər vəsaitlə İran xalqının inqilabını proqnozlaşdıra bilmədiniz? O, cavabında mənə dedi:

İranda baş verənləri təsvir etmək mümkün deyil, bizim kompüterlərimiz də onu başa düşmürlər."[2]

### *İslam inqilabının üstünlüklərindən şübhələnmə*

İmam Xomeyninin(r) müqəddəs şəxsiyyəti bir çox cəhətdən özünü digər böyük inqilablardan fərqləndirən inqilaba gətirib çıxardı. "Həqiqətən, İmam Xomeyninin(r) rəhbərlik etdiyi İslam inqilabı əvvəl baş vermiş inqilablardan heç birinə oxşar deyil."[3]

İslam inqilabını digər inqilablardan fərqləndirən mövcud dəlil və sübutların, inkarolunmaz təsdiqlərin, bu sahədə beynəlxalq nəzər sahiblərinin çoxunun aydın və çoxsaylı etiraflarına səbəb olan açıq-aşkar üstünlüklərin olmasına baxmayaraq, öz səthi və dəyərsiz təhlillərini təqdim etməklə "İslam inqilabının müstəsna inqilab olmasının" inkarını israr edənlər onun həqiqi dəyərini azaltmağa və sonrakı yanlış nəticələrə nail olmaq üçün zəmin yaratmağa çalışmış və bildirmişlər:

"Mən əksəriyyətin bizim inqilabımızı bütün digər inqilablardan fərqli təsəvvür etməsini ciddi bir problem sayıram."[4] Ya İslam inqilabının həqiqi mahiyyətini və Həzrət

---

[1] "Ettilaat qəzeti", 10/4/1368

[2] Məhəmməd Nuri Zad, "Bitərif" məqaləsi, "Keyhan" qəzeti, 10/11/1378

[3] Fransız mütəfəkkiri Roje Qarvedi, Dəməşqdə İslam mədəniyyəti və İmam Xomeyninin(r) fikirləri konqresində çıxışından, "Şoma" həftəlik qəzeti, 10/10/1377

[4] İmadəddin Baqi, İslam inqilabının və … tədqiqi dəyirmi stolu, "Camee" qəzeti, 18/11/1376.

İmam Xomeyninin(r) əvəzolunmaz şəxsiyyətini dərk etməkdə aciz və gücsüzdürlər, ya da şüaları hətta İslam, möminlik və İrana yad olan analitiklərin gözlərini qamaşdıran bir günəşə bilərəkdən göz yummuşlar. Qeyd etmək lazımdır ki, "bu gün İslam inqilabını dünyanın əvvəlki inqilabları ilə müqayisə edib nəticə çıxaran şəxslər böyük elmi səhvə yol verirlər. Çünki bizim İslam inqilabımız digər inqilablardan əsaslı fərqlərə malikdir."[1]

Fransa, Rusiya və Çin inqilabları haqqında geniş tədqiqatlar aparmış İngiltərənin Kembric Universitetinin məşhur müəllimlərindən biri Teda Skuspul deyir:

"Şah rejiminin devrilməsi şahın amerikalı dostlarından tutmuş jurnalistlər, siyasətçilər və hətta mənim kimi sosioloqların nəzərində böyük və inanılmaz bir hadisə idi."

O, tam aydınlıqla bəyan etmişdir:

"Çünki mənim fikrimcə, İranda baş verən inqilab digər inqilabların prinsiplərindən fərqlidir və etiraf edirəm ki, bu inqilab mənim Fransa, Rusiya və Çin inqilabları barədə söylədiyim fikirləri də etibardan saldı."

O daha sonra əlavə etmişdir: "Nəhayət, İran inqilabının onu yaradan əsas stimullar baxımından belə unikal inqilab olduğunu və onun digər inqilablardan tamamilə fərqləndiyi fikrini qəbul etməkdən savayı başqa bir yol yoxdur".[2]

İtaliya Kommunist Partiyasının orqanı olan "Unita" nəşri də İslam inqilabının qələbəsinin başlanğıcında həmin inqilabi prosesi təhlil edərək yazmışdır:

"Bu inqilab adi qaydalardan heç birinə sığmır və bizi çox dəqiq tədqiqat və araşdırma aparmağa dəvət edir."[3]

### *Analitiklərin İslam inqilabı və İmam Xomeyni(r) təfəkkürünü dərketmə səyləri*

İslam inqilabı onüçəsrlik İslam, xüsusən şiə fikir və mədəniyyətinə arxalanmaqla və İmamın(r) ali şəxsiyyətinə dərin bağlılığı ilə elə bir şərait yaratmışdır ki, bu gün dünya

---

[1] Professor Həmid Mövlana, "Keyhan" qəzeti, 18/11/1375

[2] "Cümhuri-ye Eslami" qəzeti, 21/11/1372 "Digər küncdən baxış sütunu".

[3] "Keyhan" qəzeti, 25/11/1357

analitiklərinin çoxu böyük İslam inqilabının gerçəkliyi, kamil müsəlman qanunvericiliyi nəzəriyyəsi, İmam Xomeyninin(r) ictimai, siyasi və mənəvi çağırışlarının sirrini anlamaq və hərtərəfli təhlil etmək üçün ciddi səylə çalışırlar.

Qeyd olunmuş gerçəkliyi aydın dərk etmək üçün nümunə olaraq Qərbdə Elvin Tafler kimi dünyanın indiki və gələcək hadisələrinin görkəmli analitikləri tərəfindən aparılan tədqiqatı göstərmək olar: " İslam inqilabı və Həzrət İmamın(r) bugünkü dünyanın ən böyük proseslərinə təsiri, yəni yeni təzahür və milli dövlətlərdən yuxarı qüvvə və qüdrətin zühuru" və dünyanın müxtəlif dövlətləri tərəfindən Həzrət İmamın(r) kamil çağırışlarının məzmununun dərk olunmasının təsdiqi. Elvin Tafler yazır:

"XXI əsr dünyasına hansı ölkə hökmranlıq edəcək?" – bu, həyəcanlı bir sualdır. Amma həqiqətdə sualın belə qoyuluşu səhvdir, çünki bu dünyanın ən böyük dəyişikliyi yeni təzahürün, yəni milli dövlətlərdən yuxarı qüvvə və qüdrətin zühurudur."

Tafler yuxarıdakı prosesin nümunəsi kimi İmam Xomeynini(r) qeyd edir ki, o, "dinin qüvvəsindən istifadə etməklə uzun müddət milli dövlətlərin inhisarında olan qüdrətin diqqətəlayiq bölməsini nəzarətə götürdü. O bu fikirdədir:

"İmam Xomeyni Salman Rüşdinin qətli fitvasını verərkən həqiqətdə dünya hökumətləri üçün tarixi çağırış göndərdi ki, çoxları onun dərki və təhlilində aciz qaldılar və İmamın çağırışının həqiqi məzmunu dünya hakimiyyətində yeni bir əsrin yetişməsindən başqa bir şey deyildi ki, qərblilər onu diqqətlə nəzərdə tutub tədqiq etməlidirlər. Çünki İmam Xomeyni(r) hərəkatının ardınca bəşər düşüncələrinin əhatə dairəsi həm dövlət quruluşunun mövqeyini, həm də milli və ya məhəlli dövlətlərin iqtidarını dəyişir…"[1]

### *İmamın(r) tarixi missiyası*

İslam inqilabının müstəsna xüsusiyyətlərindən biri də onun ilahi çağırışları və ali məqsədləridir, "İmam bəşəriyyətin gələcək dövranına müjdə verəcək bir şəxs kimi dünya

---

[1] Elvin Tafler: "Qüdrət mahiyyətinin dəyişməsi", Kitab tərcüməsi və nəşr mərkəzi, səh.655-658

meydanına daxil oldu. Bu elə bir dövrandır ki, onda nə Şərq hakim olacaq, nə də Qərb."[1]

İmam Xomeyni(r) İslam inqilabı, onun dünya miqyasında və müsəlman İranının coğrafi sərhədlərindən kənarda həqiqi cəhətləri, Yer kürəsində insanın daxili aləminin dəyişilməsi, bəşəriyyətin mənəvi və təkallahlılıq məfhumları və dünya İslam inqilabı üçün zəmin yaranmasının mahiyyətinin təsvir olunması ilə yanaşı, Həzrət Höccətin (əc.) öndə getməsini İslam inqilabının keşməkeşli prosesinin mühüm və əsas missiyası hesab edirdi.

İmam Xomeyninin(r) bu barədə dəfələrlə verdiyi açıqlamalar şübhəsiz həmin gerçəkliyin əlamətidir ki, o, çağdaş bəşəriyyətin mənəvi yoxsulluğunu dərk edərək bəşəriyyətə vəd olunmuş xilaskarın zühuretmə şəraitinin yaradılmasını İslam inqilabının ilahi və tarixi missiyası hesab edirdi. O, bütün səylərini məhz bu müqəddəs məqsədə çatmağa sərf edirdi.

Belə ki, Həzrət İmam(r) inqilabın qələbəsindən öncə inqilab tərəfdarlarının istiqamətlənməsi və hazırlanması üçün onlara İslam inqilabının məqsədlərini, yəni İslam hökumətinin bərpası, İslam ölkələrində dinin dirçəldilməsini xatırlatmışdır. Dünya İslam inqilabının üçüncü mərhələsində vəd olunmuş xilaskarın zühur(əc.) edəcəyini söyləmiş və bunu İslam inqilabının son məqsədi hesab etmişdir.[2]

O, İslam inqilabından əvvəlki müraciətində inqilabın müqəddəs məqsədlərini açıqlayaraq demişdir:

"Əziz millət və İmamın(r) haqlı ardıcılı [Həzrət Seyyidiş-şühəda] öz qanı ilə iblis Pəhləvi rejimini tarixin qəbristanlığında dəfn edər və İslamın bayrağını nəinki ölkə ərazisində, bəlkə də ölkələrdə dalğalandırar."[3]

Böyük İmam İslam inqilabının uzunmüddətli strategiyası, məqsədi və niyyətini təsvir edərkən və müəyyənləşdirərkən buyurmuşdur:

---

[1] Höccətülislam Seyyid Məhəmməd Qayim Məqami, "Keyhan qəzetinə" müsahibə, 11/3/1378

[2] Bax: Əskər Övladinin "Resalət" qəzetində yazdığı məqalənin başlığı, 25/8/1376

[3] "Nur səhifəsi", c.4, səh.9

"Biz hamımız İslamı dünyanın hər yerində tanıtdırmağa borcluyuq."[1] "Ümidvaram ki, biz İslam və İslam respublikasının bayrağını dünyanın hər bir yerində bərpa edə bilərik."[2]

Eyni zamanda Həzrət İmam(r) dünya dövlətlərinin zərərli təbliğatını zərərsizləşdirmək, İslam inqilabının ixrac olunması məfhumunun aydın şəkildə təsəvvür edilməsi üçün xatırlatmışdır: "Biz inqilabımızı yaymaq istəyirik – deyəndə İranda nail olduğumuz həmin mənəvi dəyərləri dünyaya çatdırmaq niyyətindəyik. Biz qılınc çəkmək, güllə atmaq və ya hücum etmək istəmirik."[3]

İslamı hər yerdə yaymaq istəyirik. Bizim hansısa ölkəyə hərbi müdaxilə etmək niyyətimiz yoxdur."[4] İmam bu barədə daha sonra vurğulamışdır: "Biz İslamı dünyanın hər yerinə yaymalıyıq, inşaallah onu daha da inkişaf etdirəcəyik."[5]

İmamın(r) fikrincə İslam inqilabının yayılma strategiyası İmam Zamanın(əc.) rəhbərliyi ilə böyük dünya İslam inqilabına zəmin yaradılmasından ötrü formuldur və bununla bağlı o, öz mömin tərəfdaşlarına və şəhidlərin əziz övladlarına tövsiyə etmişdir:

"Atalarınızın qanı bahasına əldə edilən İslam respublikasına ömrünüzün sonunadək sadiq qalın və öz hazırlığınızla, İslam inqilabını yaymaqla, şəhidlərin müraciətini çatdırmaqla dünyanın xilaskarı, Həzrət İmam Zamanın(əc.) qiyamı üçün zəmin hazırlayın."[6]

Həzrət İmam(r) dəfələrlə AllahTəaladan bu təmənnada olmuş və istəklərini diləmişdir:

"Ümidvaram ki, bu inqilab bir dünya inqilabı olaraq və Həzrət İmam Zamanın(əc.) (Ruhlarımız ona fəda olsun) zühuru üçün müqəddimə rolunu oynayacaqdır."[7]

---

[1] Həmin yerdə, c.18, səh.102-103
[2] Həmin yerdə, c.8, səh.267
[3] Həmin yerdə, c.12, səh.283
[4] Həmin yerdə, c.17, səh.39
[5] "Nur səhifəsi", c.12, səh.101
[6] Həmin yerdə, c.19, səh.297
[7] Həmin yerdə, c.16, səh.88

"Ümidvaram ki, bu hərəkat, bu inqilab İmam Zamanın(ə.s.) zühuru ilə nəticələnəcək və bizim inqilabımız bütün dünyaya yayılıb, məzlumların dadına çatacaqdır."[1]

"Ey Allah, bizə minnət qoy və İslam inqilabımızı bütün dünyada zülmkarların zülm sarayının dağılması və təcavüzkarların ömür ulduzunun sönməsi üçün başlanğıc hesab et."[2]

O daha sonra vurğulamışdır: "Gələcək parlaqdır və biz hamımız günəşi görmək intizarındayıq."[3]

Pərdəni bir çək, mən sənin yarınam,
Aşiqəm, sənin aşiqi rüxsarınam.
Vüsalınla qəlbimdən düyünü aç,
Özünü göstər, sənin giriftarınam.

Aşiqəm, qəm-qüssə içindəyəm,
Məstəm, görüşünün həsrətindəyəm.
Ey dost, öldürsən, ya əzizləsən məni,
Aşiqəm, sənin vəfalı yarınam.[4]

Həzrət İmam Xomeyni(r) İslam inqilabının bünövrəsini qoyaraq dünya hegemonlarının fitnələrini zərərsizləşdirməklə, "İslam inqilabının mənəvi və dini çağırışlarını yaymaqla" yanaşı müasir dünyada böyük dəyişikliklərin başlanğıcını qoydu və bəşər tarixində yeni bir əsri başladı.

Bu elə bir əsrdir ki, müsəlmanların rəhbəri onu İmam Xomeyni əsri adlandırmışdır.

Elə bir əsr ki, həqiqətdə İslamın yaranması və Həzrət Höccətin(əc.) qeyb etməsindən sonra və Həzrətin zühurundan qabaq tarixin ən həssas yüksəlişidir. Belə ki, İmam(r)

---

[1] Həmin yerdə, c.13, səh.21
[2] "Nur səhifəsi", c.20, səh.118
[3] Həmin yerdə, c.20, səh.59
[4] Həzrət İmamın(r) şerlər divanı və görüş cilvəsi səh.135

buyurmuşdur: "Biz indi elə bir həssas dövrdəyik ki, mənim fikrimcə bu, tarixin ən həssas məqamıdır."[1]

---

[1] "Nur səhifəsi", c.6, səh.244. İmam öz söhbətlərindən birində buyurmuşdur: "Zamanın bu hissəsi ölkəmiz və İslam üçün ən həssas hissələrdəndir" (c.7, səh.225)

## 2 – İMAM XOMEYNİ(R) ƏSRİ

İntibah dövründən sonra bəşər cəmiyyətində baş verən mühüm dəyişikliklər, Qərbdə dini və məzhəbi əqidələrin əvvəlkindən daha çox cəmiyyətdən uzaqlaşması, ateist, materialist fikirlərinin sürətli inkişafı və dünya dövlətlərindən bəzisinin marksizmin əqidə və siyasi quruluşuna meylliliyi ağıllı adamların çoxunu buna inandırırdı ki, tərki-dünyalıq və sıradan çıxma ilahi dinlərin mütləq sonluğudur.

Amma İmam Xomeyninin(r) qiyamı və İslam inqilabının müvəffəqiyyəti dünyanın keçmiş dövrlərdən fərqli yeni bir dövrə, üstün dini və mənəvi xüsusiyyətlər əsrinə daxil olmasından bəhs açan yeni bir şərait yaratdı.

İndi aydın şəkildə görünür ki, İslam inqilabının davamlılığı və onun mənəvi çağırışlarının nüfuz dairəsinin heyrətləndirici dərəcədə genişlənməsi sayəsində dünyamız böyük dəyişikliklərin şahidinə çevrilmişdir. "Cəmiyyətdə insanın tövbə əsri başlanmış və o özünü yenidən tapmağa gedir"[1] və "insan bir daha öz yurd-yuvasından üz çevirib mücərrəd və ilahi aləmə meyl etməkdədir və yeni bir əsr başlanmışdır."[2]

### *İmam Xomeyni(r) əsri imamın və dahi rəhbərin nəzərində*

Bəşəriyyət tarixində yeni əsrin başlanğıcını qoyan İmam özü də İslam ölkələri alimlərinin onun tarixi missiyasını bilməmələrindən təəccübləndiyini bildirərək bəşəriyyətin mənəvi dəyərlərə susamasını, habelə vəhy dəyərlərinə hərtərəfli yönəlməni, millətlərin din və mənəvi dəyərlərə susamasını yeni başlanmış əsrin xüsusiyyətlərindən sayaraq buyurmuşdur:

"...Təəccüblüdür ki, İslam ölkələri və dövlətlərinin alim və ruhanilərindən çoxu bəşəriyyətin mənəvi dəyərlərə susadığı və İslamın nurani hökmləri olan "bu əsr"də öz böyük rol və ilahi, tarixi missiyasından xəbərsizdirlər "və millətlərin susuzluğunu dərk etmirlər" və bəşərin vəhy dəyərlərinə hərtərəfli yönəlmə və

---

[1] Seyyid Murtəza Avini, "Bir sonluğa başlanğıc", səh.44
[2] Həmin yerdə, "Surə" jurnalı, II dövr, №10

iltihabından xəbərsizdirlər, öz mənəvi qüdrət və nüfuzlarını minimuma endirmişlər."[1]

Müsəlmanların rəhbəri Həzrət Ayətullah Xamenei İmamın(r) dünya miqyasında yaratdığı dərin və geniş dəyişikliklər mövzusunun təhlilinə və tədqiqinə çox böyük əhəmiyyət verilməsinin zəruriliyini qeyd edərək dəfələrlə "İmam Xomeyni(r) əsri" mövzusunun araşdırılması ilə məşğul olmuşdur. O bu barədə buyurmuşdur: "Bu gün yeni bir əsr, yeni bir əsr başlanmışdır, yeni əsri İmam Xomeyni(r) əsri adlandırmaq lazımdır."[2]

O bu dövrün ən mühüm göstəricilərindən bəzisini bəyan edərək demişdir:

"Yeni əsrin başlanması ilə nəinki İran və İslam ölkələrindəki insanlar ilahi inamlara qayıtdılar, eləcə də dünya səviyyəsində on illərlə "dini əqidə" və dinə zidd çıxan dövlətlərin hakimiyyəti altında yaşayan insan cəmiyyətləri arasında belə mənəvi dəyərlərə yönəlmə inkişaf etdi."[3]

Başqa bir yerdə isə demişdir: "Bu dövrü İmam Xomeyni(r) əsri adlandırmaq lazımdır və onun xüsusiyyəti böyük dövlətlərin zorakılığı müqabilində millətlərin oyanış və cürətindən... və mənəvi – ilahi dəyərlərin baş qaldırmasından ibarətdir".

"Biz bu gün dünyada mənəvi dəyərlərin inkişaf nişanələrini və maddi dəyərlərin aradan getməsini görürük"[4] və "bu gün dünyada dinə yönəlmə prosesi başlanmışdır"[5] "və hazırkı əsr bəşəriyyətin mənəviyyat və dinə ümumi yönəlmə əsridir."[6]

O daha sonra əlavə etmişdir:

"Din və mənəviyyatın yüksək dəyərlərə zidd sayıldığı və istehza olunduğu gün artıq keçmişdə qalmışdır, bu gün dinsizlik

---

[1] "Nur səhifəsi", c.20, səh.126

[2] İmam Xomeyninin(r) vəfatının birinci ildönümündə Ayətullah Xameneinin çıxışı, İmamın məzarı önündə, 13/3/1369

[3] Həmin yerdə.

[4] Ayətullah Xameneinin 598-ci qətnaməni izləmə ştabının üzvləri ilə görüşündə, "Ebrar" qəzeti, 1/10/1370

[5] Bütün ölkələrin İslam universitetlərinin yaranması toplantısında Ayətullah Xameneinin çıxışı, 18/10/1370

[6] 598-ci qətnaməni izləmə ştabının üzvləri ilə Ayətullah Xameneinin görüşündə, "Ebrar" qəzeti, 1/10/1370

və mənəvi dəyərlərin olmaması yüksək dəyərlərə qarşıdır və bu, İmamın(r) – o böyük şəxsin – bayrağını dünyada qaldırdığı yeni əsrin xüsusiyyətlərindəndir."[1]

Bir daha vurğulamışdır: "Bu dövr [İmam Xomeyni əsri] İslam dövrü, ilahi və mənəvi dəyərlərin qələbəsi dövrüdür. Bu dövr İmam Xomeyni(r) dövrüdür və inşaallah bizim cavanlarımız bu gələcəyi görəcəklər."[2]

Dahi rəhbərin buyurduğu kimi İmam(r) bəşəriyyətin tarixində yeni bir dövrün müjdəçisidir və insanların mənəvi tələbləri, onun dini və məzhəbi yönümü ötən dövrlərlə müqayisədə daha çox nəzərə çarpacaqdır. Əlbəttə, "İmam Xomeyni(r) yeni bir peyğəmbər deyildi, amma o xatırlayanlardan idi, (انت مذكر) müraciət edənlərdən idi ki, insanların Allahla fitri əhdini onların yadına saldı. Bəşəriyyətin tənəzzülə uğramasından bir neçə əsr keçsə də, o, sələfləri İbrahim, İsmayıl və Məhəmməd(s) kimi yeni dindarlıq əsrini başladı. Bu yeni dövrü İmam Xomeyni(r) əsri adlandırmaq lazımdır."[3]

İndi dünyanın son bir neçə onilliyindəki dəyişikliyi yaxşıca izləyib araşdıran hər bir bəsirətli və insaflı şərhçi bu fikirdədir ki:

"Bu gün dünya bir əsrdən başqa bir əsrə keçid dövrünü yaşayır və bu keçid sona çatanadək sabitlik üzü görməyəcək."[4]

Bəli, xaricilərə sitayiş edənlər "Qərbin siyasi qurumlarının İmam Xomeyni(r) əsri onun qeyri-praktik coşqunluğuna və həmçinin Ayətullah Xameyninin qocalığına görə keçici bir dövr saydıqlarını"[5] bildirsələr də, şübhəsiz, İslam inqilabının nicatverici gəmisi və İmam Xomeyni(r) əsrinin bəşər karvanı bəşəriyyətə vəd olunmuş xilaskarın zühur sahilində rahatlıq tapacaqdır.

---

[1] Ayətullah Xameneinin İmamın vəfatının birinci ildönümündə çıxışı, İmamın məzarı önündə, 13/3/1369

[2] Ayətullah Xameneinin İmamın ikinci ildönümündə çıxışı, 14/3/1370

[3] Seyyid Murtəza Avini, "Bir sonluğa başlanğıc", səh.22

[4] Həmin yerdə, səh.36

[5] "Cümə", İnqilaba zidd nəşriyyat, №12, səh.4, 1358

### *İmam Xomeyni(r) əsrinin  xüsusiyyətləri*

İmam Xomeyni əsri bəşər tarixinin unikal xüsusiyyətlərə malik olan bir hissəsidir. Bu dövrün bəzi məqamlarına diqqət yetirək:

### *Müasir insanın dini və mənəvi həyatının təzələnməsi.*

Həqiqətən də bəşər həyatında yeni əsrini başlanğıcı olan böyük İslam inqilabının ilahi bəxşişi müasir insanın mənəvi, dini və islami varlığının təzələnməsi dövrünün başlanğıcı sayılır. Belə ki, dahi rəhbər buyurmuşdur: "İslam inqilabı İslam dünyasında İslamın mahiyyətini, bütün dünyada mənəvi mahiyyəti dirçəltdi."

İnqilabın böyük rəhbəri kimi, əksər şərhçilər[1] də bu fikirdədirlər ki, bəşəriyyətin mənəvi və dini həyatının təzələnməsi "İranda İslam inqilabının qələbəsi ilə başlanmışdır və buna görə 60-cı onilliyi yeni dövrün ilk onilliyi saymaq lazımdır."

Bu baxımdan deməliyik:

"Əgər dini mahiyyətin yenidən dirçəlməsi ilə əlaqədar hansısa  tarixi bir günü, ili [müasir dünyada] nəzərdə tutmaq qərara alınsa, bu tarix 1979-cu miladi ilidir, yəni bütün dinlərdə dini təfəkkürlər üçün böyük bir dirçəlişə səbəb olan İran İslam inqilabının qələbəsi ilə eyni vaxtdadır.

1990-cı ildə dini təfəkkürün dirçəlməsi ilə əlaqədar aparılan son statistik hesablamalar göstərir ki, Avropa əhalisinin təqribən 70%-i dindarlıq hissi keçirirlər. Hinduizmdən tutmuş buddizmə kimi.., bütün dinlər və xristian təriqətlərinin hamısı bir növ dini təfəkkürə qayıdışdan xəbər verir və İran İslam inqilabı dünyada dini təfəkkürün dirçəlməsinə səbəb olmuşdur."[2]

Əksər şərhçilər bu fikirdədirlər ki, bəşəriyyətin dini həyatının təzələnməsində İslam inqilabının təsiri çox böyükdür.

Məşhur və çoxtirajlı "əl-Aləm" jurnalının baş redaktoru Doktor Seyyid Məhəmməd əş-Şəhabi bu barədə demişdir:

---

[1] Ayətullah Xamenei ilə  xarici işlər naziri və İran İslam Respublikasının ölkə xaricində nümayəndələrinin görüşündə, 25/5/1378.

[2] Professor Məhəmməd Hüseyn Hüda, Avstriyada yaşayan müsəlman mütəfəkkirinin, "Keyhan"  qəzetinə müsahibəsində 25-29/11/1376

"İran İslam inqilabı nəinki İslam cəmiyyətlərində, bəlkə əksər cəmiyyətlərdə əsaslı və köklü təsirə malik olmuşdur. Şübhəsiz, keçmiş iyirmi il ərzində heç bir hərəkat İran inqilabı qədər insan cəmiyyətinə təsir edə bilməmişdir, din cəmiyyətdə əsas və həyati rola malikdir və İslam inqilabı bəşəriyyətə bu nuru saçaraq aydınlıq bəxş etdi."

O daha sonra əlavə etmişdir:

"İslam inqilabı ziyalı və mütəfəkkirlərin dini məsələlərə diqqətini artıraraq, onun bəşəriyyətin vicdanı, habelə siyasi-ictimai fikirlərə təsirinə əhəmiyyət vermələrinə səbəb oldu. Biz İslam inqilabı sayəsində müsəlmanlar və qeyri-müsəlmanların dinə qayıdış və yaxınlaşmasının şahidi olduq."[1]

Həzrət İmam Xomeyni(r) və İslam inqilabının müasir insanın dini və mənəvi həyatına geniş təsiri beynəlxalq analitiklərin də diqqətini özünə cəlb etmişdir.

İngiltərənin "Bi-Bi-Si" birinci televiziya kanalı XXI əsrin yaxınlaşması münasibətilə hazırladığı "İkinci əsr" adlı sənədli proqramlar məcmuəsindən birində qeyd edilən mövzu ilə bağlı müzakirəyə başlayaraq demişdir:

"1979-cu ildə İranda baş verənlər təkcə iranlılar üçün deyil, eləcə də bütün dünya dinlərində dönüş nöqtəsi idi. Elə bir dövrün başlanğıcı idi ki, bütün dünyada dini doktrinaçılığa qayıdışdan xəbər verirdi."

Bu kanalın dediyinə görə "bütün dünyada xristianlıq, yəhudilik və hinduizm kimi dinlərin digər ardıcılları da dini doktrinaçılığa üz tutdular: Hətta yetmiş il əvvəl dinlə müharibəyə başlamış Türkiyədə də İslam əsaslarına qayıdış prosesi sürətlənmişdi."[1]

### *Dinə qarşı olan nəzəriyyələrin yanlışlığı*

İslam inqilabından əvvəlki illərdə "maddi dəyərlərlə bağlı nəzəriyyələrin qələbəsi o qədər zəruri nəzərə çarpırdı ki, "Fransanın ensiklopedik filosofu Bil kimi XVIII əsrin mütəfəkkirləri, ümumiyyətlə, gələcəkdə din üçün məkan və

---

[1] "Keyhan" qəzeti, 15/11/1375

[1] "Hüzur fəslnaməsi", №19, "Cümhuri-ye Eslami" qəzetinin müxbirinin dilindən, 28/11/1375

məqamın olmasını təkzib edirdilər. Bu yolla XIX əsrdə, ümumiyyətlə, dini inkar edən marksist fəlsəfəsi, eləcə də öz yalan məzhəblərini səmavi dinlərin yerində qoyan fəlsəfələr yarandı."[1]

XX əsrdə Şərq və Qərb materialistləri cəmiyyətlər səviyyəsində din və dini inamlarla aşkar mübarizəyə başladılar. Amma tarixi dəyişikliklər və İran İslam inqilabının baş verməsi XX əsrin sonlarında mövcud şəraiti elə dəyişdirdi ki, beynəlxalq nəzəriyyəçilər və sosioloqlar insan cəmiyyətlərində dinin yenidən dirçəlməsini etiraf edərək, son illər ərzində mötəbər elmi nəzəriyyə kimi, "XX əsrdə dini həyatın təzələnməsi" nəzəriyyəsinin əsasını qoydular. Məşhur ingilis sosioloqu Gidens "Dinin yeni doğum hadisəsi" adlı kitabının bir fəslində yazmışdır:

"Keçmişdə sosioloji fikrin üç nəhəngi, yəni Marks, Dyurkim və Maksveber az-çox ixtilaflarla dünyanın ümumi gedişatını "sekularizm" və "dindən kənarlaşma" istiqamətində görürdülər. Lakin 80-ci ilin başlanğıcından İran İslam inqilabı ilə bunun əksinin gerçəkləşməsinin şahidiyik, yəni dünyanın ümumi gedişatında əks proses başlamışdır və dünya indi dindarlıq istiqamətində irəliləyir."[2]

Başqa sözlə desək, böyük İmamın rəhbərliyi ilə İslam inqilabı möcüzəsinin baş verməsi, habelə böyük ilahi dinlərin, xüsusilə həqiqi İslam dininin nüfuz dairəsinin valehedici şəkildə genişlənməsi bu gün artıq siyasi hadisələr və ictimai dəyişikliklərin şərhçilərini nəinki insan cəmiyyətində dinin üstün mövqeyini inkar etmək və müasir dünyanın gələcəyində onun tərki-dünyalıq xislətini söyləmək cürətindən məhrum etmişdir, eləcə də onlar öz sələflərinin mövqeyindən 180 dərəcə dönərək demişlər:

"Gələcək onilliklərdə özünü büruzə verəcək dünya hegemonluğu oyununda İslamın gündən-günə artan nüfuzu nəzərə alınmadan katolik və digər məzhəblər dərk olunmayacaq."[3]

---

[1] Doktor Seyyid Hüseyn Nəsr, "Məhəmməd Xatəm-e peyğəmbəran(s)", c.1, səh.9

[2] Antoni Gidenz, sosioloq, Mənuçehr Səburin tərcüməsi, səh.75

[3] Elvin Tafler, "Qüdrət mahiyyətinin dəyişməsi", səh.659

*Dünyanın ateist əqidələrindən xilas olması*

İslam inqilabının qələbəsi maddi dəyərləri və ateist məktəbləri etibarsızlaşdırmaqla yanaşı, ateist quruluşların dağılması belə quruluş nəzəriyyəçilərinin öz əqidələrində fikirlərini təzələməsi üçün zəmin yaratdı. Belə ki, İslam inqilabının qələbəsindən bir onilliyin keçməsi ilə marksist şəxsiyyətlər və kommunist partiya və quruluşlarının başçılarından çoxu öz yanlış əqidələrini ayaq altına salmaqla dini imanla əks təsirdə olan hər cür əqidədən uzaqlaşdıqlarını elan etdilər.

Məsələn, Rusiya Kommunist Partiyasının sədri Aleksandr Zuqanov öz fikirlərini açıqlayarkən demişdir:

"Biz Allahın varlığını inkar edən fikirlərdən əl çəkmişik."[1]

Dünyada ən inadkar kommunist quruluşlarından birinin qüdrətli rəhbəri Fidel Kastro iftixarla bildirmişdir:

"Allah istəyənə qədər ölkənin idarəsini əlimdə saxlayacağam. Birinci Allahın istək və iradəsi, ondan sonra insanların istək və iradəsi hər bir şeydən daha üstündür."[2]

Uzun illər etiqadlarına görə zindanda yaşamış Türkiyənin müasir marksist şairi Həşəmət Ovzal İslama üz çevirərkən demişdir:

"Qətiyyən yeni etiqadımdan (İslam) peşman deyiləm, çünki zindanda öz etiqadımın dəyərini tapmaq üçün fürsət əldə etmişəm."

O demişdir:

"Mənim həmvətənlərim fövqəltəbii aclıqdan əziyyət çəkirlər, elə bir aclıq ki, yalnız Quranla aradan qaldırılar."[3]

Rusiyanın prezidenti Vladimir Putin də Fransanın "Lufiqaro" qəzetinə verdiyi müsahibəsində dini ayinlərin icrasının keçmiş SSRİ-də təhlükəsiz olmadığını söyləsə də, anasının onu kilsədə xaç suyuna saldığını xatırlatdıqdan sonra demişdir:

---

[1] "Ebrar" qəzeti, 24/10/1374

[2] "Cümhuri-ye Eslami" qəzeti 11/6/1377

[3] "Cümhuri-ye Eslami" qəzeti 16/1/1369, "Tana" qəzetindən, Afina çapı, Yunanıstan.

"Mən öz növbəmdə Rusiyanın ortodoks kilsəsinə aid olduğuma görə fəxr edirəm. Bu bağlılıq məni zənginləşdirir, millətim və onun mədəniyyəti ilə şəxsi əlaqələrimi yaradır."[1]

### *Siyasətçilər arasında dini fikrin dirçəlməsi*

Bu gün İmam Xomeyninin(r) qiyamı nəticəsində dini dəyərlər bir daha dünyanın diqqət mərkəzindədir. Belə ki, dünyanın Şərq və Qərbində dövlət başçılarından çoxu artıq öz ölkələrində hakim fəzanı hərtərəfli müşahidə etdikdən sonra, tədricən dinin həqiqətinə və dini əqidələrə hörmətlə yanaşma istiqamətində hərəkətə başlamışlar və din dünya dövlətlərinin cari siyasətinin böyük bir hissəsini təsirə məruz qoymuşdur.

Rumıniyanın Milli liberal Demokratik Partiyasının sədri və məşhur siyasətçilərdən biri Nikolay Çervin İslam respublikasının səfiri ilə görüşündə "İslam inqilabı tarixdə misilsiz hadisədir" fikrini vurğulayaraq demişdir:

"İran İslam inqilabı cəmiyyətdə dini dəyərlərin dirçəldilməsi kimi mühüm məqsədə malikdir və bu gün Rumıniyada dini dəyərlərin dirçəlməsinə böyük ehtiyac var və biz İranın təcrübəsindən bəhrələnmək istəyirik."[2]

Dahi rəhbərin beynəlxalq işlər üzrə müşaviri doktor Vilayəti bu barədə bir xatirəni danışaraq demişdir:

"Mən bir dəfə Polşa prezidenti və Birlik hərəkatının sabiq rəhbəri Lex Valensa ilə görüşmüşdüm və bu görüş onun prezident olduğu dövrə təsadüf edirdi. O, mənə deyirdi:

"Sizin inqilabınız bizə də təsir etdi. Biz sizin ölkənizdə belə bir inqilabın din əsasında baş verməsindən xoşhalıq. İslam inqilabının qələbəsi hətta xristian ölkələrində belə hökumətlər səviyyəsində dini fikrin dirçəlməsinə səbəb oldu."[3]

### *Yeni dini həyat və qərblilərin etirafı*

İslam inqilabının müxtəlif sahələrdə qələbəsi və müasir insanın yenidən dini etiqadlara qayıtması Qərb şərhçilərini

---

[1] "Keyhan" qəzeti, 9/8/1379

[2] "Cümhuri-ye Eslami" qəzeti 16/1/1369

[3] "Keyhan" qəzetinə müsahibəsində, 17/11/1378

dünya dövlətlərinin dinin böyük potensialından xəbərsiz olduqlarını söyləməyə vadar etdi.

Amerika Birləşmiş Ştatlarının xarici siyasət idarəsinin rəisi Daniel Rapis İstanbul şəhərində keçirilən konfransda demişdir:

"Etiraf etməliyik ki, İslam inqilabının qələbəsindən öncə biz dini və məzhəbi fikirlər üçün heç bir yer açmamışdıq. Lakin bundan sonra biz amerikalılar dinin tədqiqi və araşdırılması üçün zəmin yaratmalıyıq."[1]

Məşhur Qərb jurnalistlərindən Beri Robinin ("Normal İslam" məqaləsinin müəllifi) Brüssel şəhərində keçirilən jurnalistlərin iclasında dediyi sözlər bizim qeyd etdiyimiz gerçəkliyin başqa bir əlamətidir. O bu iclasda demişdir:

"Vaşinqton keçən illərdə siyasi və diplomatik münasibətlərdə dinin əhəmiyyətini dərk etməmişdi. Ancaq bu məsələ biz amerikalılar üçün xeyli problem yaratdı ki, bu da Vaşinqtona baha başa gəldi."

Robin daha sonra əlavə etmişdir:

"Əgər gələcəkdə belə problemlərlə üzləşmək istəmiriksə, bu məsələni qəbul edib başa düşməliyik ki, din insan cəmiyyətlərinin əsas və bariz bir gerçəkliyidir."[2]

Yeni dünya şəraiti və müasir dünyada dinin artmaqda olan təsiri nəticəsində "İslam inqilabından sonra Amerikada dinin dəyərləndirilməsində böyük dəyişiklik yaranmışdır. Belə ki, bu gün din bütün sahələrdə (elmi, mədəni və siyasi…) müzakirə olunur."[3] Bu barədə müxtəlif tədqiqatlar ardıcıl surətdə həyata keçirilir. Belə ki, "Beş il əvvəl Amerikada dünyada dinin doktrinal məsələsi araşdırılmış və onun əsasında fərqli dinlərdən (İslam, xristianlıq, yəhudi və…) beş müxtəlif kitab nəşr olunmuşdur. Maraqlısı budur ki, bütün qeyd edilmiş kitablarda

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 20/9/1368, "əl-Aləm" jurnalından istifadə olunub.

[2] Cərayid, 15/1/1369

[3] Doktor Əbdüləziz Saşadniya, Amerikanın Virciniya universitetinin müəllimi, "İmam Xomeyni və dini təfəkkürün dirçəlməsi" mövzusunda keçirilən beynəlxalq konqresdə çıxışı, "Cümhuri-ye Eslami" qəzeti, 13/3/1376

dinin əsaslı olması və cəmiyyətdə etiqadlar məsələsinin diqqət mərkəzində saxlandığı qeyd edilmişdir."[1]

Hər halda İslam inqilabının bu məsələdə rolu inkarolunmazdır və "bu məqamlar İslam inqilabının qələbəsindən əvvəl mövcud olmamışdır, yalnız İslam inqilabının qələbəsindən sonra aşkarlanmışdır."[2]

Necə ki, yazıçı və Londonda çap olunan "Tayms" qəzetinin icmalçısı yazır:

"…1357-ci ilin payızında Qərb dünyası İran inqilabına görə bir daha İslamı kəşf etdi. Və biz qərblilər çox tez başa düşdük ki, Allahu Əkbər - "Allah [ən] böyükdür" mənasındadır.[3]

### *Dünyanın İslamla tanışlıq səylərinin artması*

İmam Xomeyni dövründə İslamın müxtəlif sahələrini, həmçinin din və digər ilahi dinlər mövzusunu dərk etmək üçün dünyanın elmi-tədqiqat cəmiyyətləri, habelə ayrı-ayrı şəxslər tərəfindən inanılmaz həvəs və meyl yaranmışdır.

Bu gün millətlər, dövlətlər və tədqiqat müəssisələri tərəfindən İslamın əvvəlkindən daha çox dərk olunması üçün çoxlu səylər göstərilsə də, hər biri öz məqsədləri naminə çalışırlar. Amma məsələ burasındadır ki, bu səylər hansı məqsədlə olsa da, hər bir halda ilahi inqilabın böyük təsirlərinin və İmam Xomeyninin(r) saf niyyətli qiyamı ilə başlanan yeni əsrin xüsusiyyətlərinin nəticəsidir.

Nümunə üçün qeyd etmək olar ki, "keçən iyirmi ildə Amerikada islamşünaslıq yalnız bəzi böyük universitetlərdə tədris olunurdu. Lakin hazırda bütün böyük və kiçik universitetlərdə islamşünaslıq dərsi vardır və bu, İran İslam inqilabının təsirinin göstəricisidir."[4]

İslamı yenicə qəbul etmiş yaponiyalı tədqiqatçı Toşio Korda bununla bağlı demişdir:

---

[1] Doktor Səid Məhəmməd əş-Şəhabi, "əl-Aləm" jurnalının baş redaktoru, "Keyhan" qəzeti, 15/11/1375

[2] Həmin yerdə

[3] Mazandaran sağlamlıq təşkilatının ümumi əlaqələri, İmam və inqilab dünya düşüncə aynasında, səh.71 və 72

[4] Doktor Əbdüləziz Saşadniya, Amerikanın Virciniya universitetinin müəllimi, "Cümhuri-ye Eslami" qəzeti, 13/3/1376

"İran İslam inqilabından əvvəl Yaponiyada İslamla bağlı çap olunan hər bir kitab min nüsxədən çox olmurdu. Allaha şükürlər olsun ki, inqilabın qələbəsindən sonra Yaponiyada İslamla bağlı kitabların sayı çoxalmaqdadır."

O, daha sonra əlavə etmişdir:

"Bir müddət əvvəl yapon dilində "İslam ruhu və mənəviyyatı haqqında bir kitab yazmışdım ki, bir ay ərzində onun iki yüz min nüsxədən çoxu satılmışdır."[1]

### *İnsanın digər tarixi sferaya qayıdış istəyi*

İmam Xomeyni(r) böyük İslam inqilabının əsasını qoymaq və ona rəhbərlik etməklə bəşəriyyət tarixində daha böyük dəyişikliyə imza atdı və yeni bir əsri yaratdı.

Dinin və təkallahlılığın öyrədilməsi sahəsində misilsiz və genişmiqyaslı proseslərin getdiyi bir əsrdə bəşəriyyətin maddi və mənəvi həyatının formalaşmasında əsas rola malik olan məfhumlara yenidən qayıdış başladı.

Sanki insan hədsiz-hüdudsuz maddi arzularından əli soyumuş halda öz tarixi həyatının yeni sahəsinə daxil olmaq üçün hazırlaşır.

Beynəlxalq şərhçilərin çoxu bu gerçəkliyi etiraf edirlər ki, "XX əsrin son illərində dini hərəkatlar başqa şəkil almış və din məzhəblə bağlı çağırışların yeni təqdimi və onun quruluşunu dəyişməklə meydana daxil olmuşdur."[2]

Həqiqətdə demək olar: "İndiki bəşəriyyətin bütün ümidi din və mənəvi dəyərlərə bağlıdır və bəşəriyyətin başı divara dəydiyindən özünü tapmağa qayıtmışdır. Qərbin də indi bütün ümidi dinədir. Puper və onun kimilər, yəni dinə arxa çevirən pozitivistlər qulaqlarını pambıqla tıxayıblar. Qərbin müasir vəziyyətinə bir nəzər salın: Müasir mütəfəkkirlərin çoxunun həm din əhli, həm də qeyri-din əhli üçün din və mənəviyyat haqqında açıqlamaları vardır."[3]

Müasir dünyanın hərtərəfli böhranı bugünkü insanı dolaşıq çətinliyə salmışdır və yeni əsrin insanı öz ali və mənəvi

---

[1] "Keyhan" qəzetinə müsahibəsində 11/9/1378
[2] Jil Kopel, Allahın iradəsi, Abbas Agahinin tərcüməsi, səh.11
[3] Doktor Rıza Davudi, "Keyhan", 20/5/1369

arzularını maddi dəyərlərin boğucu qalmaqalında itirilmiş sayır. Buna görə də insan başqa tarixi sferaya qayıdış niyyətindədir.

"Deyirlər ki, (bəlkə də səbəbsiz deyil) təzə əsrin bütün yenilikçi doktrinaları indi böhranlı vəziyyətdədir. Bu fikrin təsdiqi haqqında bir neçə amil vardır ki, avropalı insanın keçən üç yüz il ərzində məskən saldığı yeni ölkədən öz çadır və alaçığını yığışdırmaqla məşğul olduğunu göstərir. Bu insan başqa tarixi sferaya qayıtmaq və başqa şəraitdə yaşamaq istəyir.[1]

### *İmam Xomeyni(r) əsri müsəlman şərhçilərinin nəzərində*

Həzrət İmam Xomeyninin(r) ilahi qiyamının dünyaya təsiri əvvəlkindən daha çox aşkarlandığından, ateist və maddi təfəkkürlərin bugünkü dünyanı hərtərəfli istila dayaqlarını laxlatdığından ölkə daxilindəki və xaricindəki müsəlman mütəfəkkirləri və şərhçilərindən çoxu bəşəriyyətin yeni əsrə daxil olduğunu bildirərək bu böyük dünya hadisəsinin mühüm xüsusiyyətlərinin təhlilinə və bu sahədə İmamın(r) həlledici rolunun araşdırılmasına başlamışlar.

İndi İslam alimlərindən çoxu bu fikirdədirlər ki, İmam Xomeyni(r) "İslam tarixində, bəlkə də dindarlıq dünyasında yeni əsri başlamışdır."

Ölkə daxilindəki və xaricindəki müsəlman şərhçiləri aydın şəkildə bildirirlər ki, "İmamın müqəddəs müraciəti dünyanı lərzəyə gətirdi." İmamın(r) fikri və əməli fəaliyyəti sayəsində İslam bütün dünyada özünü göstərmişdir. Bu elə bir səviyyədə idi ki, "Həzrət İmamın(r) qiyamının təsiri Avropada da hiss olunurdu."

Bu şərhçilər tam əmindirlər ki, "İmam Xomeyni(r) əsrinin başlanması ilə dünyada din və dindarlıq inkişaf etmiş, "din dirçəlmiş və kilsələr yeni ruh tapmışlar" və hətta … "Avropada dindar olmaq yeni dəyər və məna kəsb etmişdir" və "Qərbdə milyonlarla insan Həzrət İsanın(ə) zühurunu gözləyirlər" və bir sözlə, İmamın(r) əsri müasir dünyada "din və mənəviyyatın yenidən bərqərar olması" dövrüdür.

---

[1] Xose Artqay Qast, "İnsan və böhran", Əhməd Tədinin tərcüməsi, səh.3

### *Ayətullah Misbah Yəzdi*

O, Qum elmi mərkəzinin hörmətli alimlərindəndir ki, son əsrlərdə İslam ölkələri və İranın Pəhləvi hökumətinin də daxil olduğu Avropa və Qərbdə dinlə mübarizə və dini kənarlaşdırma cərəyanına işarə edərək buyurmuşdur:

İmam Xomeyni(r) hərəkatının ən mühüm uğuru müasir dünyada din və dindarlığın dirçəlməsi idi. Belə ki, bu hərəkatın sayəsində nəinki İslam dininin, hətta başqa dinlərin, o cümlədən xristianlığın ardıcılları yenidən həyat tapmış və nəticədə din və dindarlığa yönəlmə başqa millətlərdə də artmışdır.

Misbah Yəzdi onunla görüşən bir meksikalı xristian yepiskopun sözlərinə işarə edərək bu barədə demişdir:

"Bu sizə məxsus iftixardır ki, dünyada imanı dirçəldə bildiniz və bundan daha da üstünü odur ki, dövlət idarəçiliyini dinlə bərabərləşdirdiniz. Biz [xristianların] belə bir gücü yoxdur ki, insanlarda imanı qoruyaq, çünki insanların bizə artıq inamı yoxdur. Əsası isə budur ki, dindarlığı dövlət idarəçiliyi ilə birləşdirə bilmədik."[1]

### *Professor Həmid Mövlana*

O, Amerikan Vaşinqton Disi Universitetinin beynəlxalq münasibətlər bölməsinin müdiri və təsisçisidir ki, müasir dünyada Həzrət İmam Xomeyninin(r) böyük təsirlərindən bir hissəsini bəyan etməklə bildirmişdir:

"Mənim fikrimcə, XX əsrdə heç bir səs İmamın səsi kimi dünyanı lərzəyə gətirmədi. Həzrət İmam dünya müharibəsindən sonra şeytan və zülm müqabilində "sükut tilsimini" dünya miqyasında sındıran ilk şəxsiyyət idi. Əgər bu tilsim sındırılmasaydı, bu gün SSRİ yaşayardı."

Mövlana daha sonra əlavə etmişdir: "İslam inqilabı ən yüksək zirvəsinə çatanda, 1978-ci ilin yayında mən iki həftə Tehranda idim və sonra Varşavada beynəlxalq münasibətlər üzrə keçirilən böyük konqresdə iştirak etmək üçün Polşaya getdim. Orada İran İslam inqilabı haqqında danışarkən sonralar Polşa

---

[1] "İmam Xomeyni(r) və dini təfəkkürün dirçəlməsi"nə həsr olunmuş ikinci beynəlxalq konqresdə Ayətullah Həzrət Misbah Yəzdinin çıxışı. (1377-ci ilin xordad ayı) "Hüzur" fəslnaməsi №24, səh.262 və 263.

mübarizələrində böyük təsirə malik olan bir neçə nəfər polşalı alim Həzrət İmamı(r) tanımaq istədilər.

Bu o dövrə aid idi. Lakin son vaxtlar, iyirmi ildən sonra Leypsik universitetində həmin sahə üzrə keçirilən böyük dünya konfransında iştirak etmək üçün Şərqi Almaniyaya getmişdim. Orada Beynəlxalq Münasibətlər Elmi Cəmiyyətinin 43 illik tarixində birinci dəfə idi ki, cəmiyyət üzvləri əsas iclaslarını kilsədə keçirdilər - Sen Niksoli kilsəsində. Bu kilsədə bir keşiş çıxış etdi və dediyinə görə Şərqi Almaniya inqilabına "Həzrət İmamın üsulu" ilə rəhbərlik etmişdi.

Həqiqətən də maraqlıdır ki, İran İslam inqilabı heç vaxt məscidə, məbədə getmək istəməyən marksistləri, liberalistləri və bütün digər "istlər"i kilsəyə getməyə vadar etmişdi.

### *Əhməd Huber*

O, İslamı yenicə qəbul etmiş isveçrəli mütəfəkkir və jurnalist kimi bu inqilabın böyük təsiri barədə demişdir:

"Bu gün Avropada Berlin divarının süqutunun sizin başladığınız inqilab və qiyamla əlaqəsi duyulur. İslam qiyamının [təsirləri] bu gün Avropada hiss olunur. Avropada təxminən 12-15 milyon müsəlman yaşayır və onlardan yüz mini İsveçrədədir."

O daha sonra əlavə etmişdir:

"İmam Xomeyni(r) nəinki müsəlmanları oyatdı, həm də qeyri-İslam dünyasına da böyük təsir etdi."

O demişdir:

"Bilin, sizin rəhbəriniz olan o yaşlı kişi (İmam(r)) heç vaxt ölməmişdir, həmişə diri və fəaldır, çünki bütün bu dəyişikliklər onun əli ilə baş vermişdir."[1]

### *Professor Yaves Usves*

O, Almaniyanın Bermen Universitetinin politexnik fakültəsinin dekan müavini və Avropada almandilli müsəlmanların görkəmli rəhbərlərindən olub, İslamı yenicə

---

[1] "Keyhan qəzeti", 28/17/1369, Tehranda tədqiqat və təhsili proqramlaşdırma təşkilatı mütəxəssislərinin toplantısından qeydlər.

qəbul etmişdir. Müasir dünyada Həzrət İmamın(r) böyük təsirinə işarə edərək demişdir:

"İmam Xomeyni(r) əsrimizdə bütün monoteistləri oyadandır, məhz İmam Xomeyni(r) və İslam inqilabının dostları maddi dəyərlər hakimiyyətinin, maddi dəyərlərin və mənəviyyata zidd düşüncələrin bəşər cəmiyyətini bürüdüyü bir dövrdə din və mənəviyyatın dirçəlməsinə şərait yaratdılar."[1]

***Məhəmməd Lensel***

O, Avstriyada İslam Həyatının Təzələnməsi Mədəniyyət Mərkəzinin direktorudur və "İmam Xomeyni(r) hərəkatının Avropaya təsiri" adlı məqaləsində yazır:

"Şübhəsiz, İmam Xomeyninin(r) İslam inqilabı nəinki Avropada İslamın yeni təsvirini təqdim etdi, hətta qeyri-müsəlmanların dini həyatını da dəyişdirdi. Başqa sözlə desək, bu gün Avropada da dindar olmaq artıq yeni dəyər və məna kəsb etmişdir. Bu fikri Avstriyanın keçmiş prezidenti öz çıxışında bəyan etmişdir. O demişdir ki, …İslam inqilabı bütün dindar adamlara yeni inam və arxalanmağı təqdim etdi."[2]

***Təlal Etrisi***

O, Livan Universitetinin müəllimi olub Həzrət İmamın(r) ilahi qiyamı ilə bəşəriyyətin mənəvi dəyərlər sahəsində baş verən cari dəyişikliklərin bağlılığını qeyd edərək demişdir:

"İmam Xomeyninin(r) rəhbərliyi və İslam inqilabının qələbəsi indiki dünyanın hərəkət və sivilizasiyasının əsasıdır."[3]

***Seyyid Sədrəddin Sədr***

O, Livanın müsəlman mütəfəkkirlərindəndir və bu barədə demişdir:

"İmam Xomeyni(r) İslam tarixində və müsəlmanların həyatında yeni əsri başlamışdır. Müsəlmanların İslamı dərindən

[1] "İmamət" aylıq qəzeti, 1378-ci ilin tir və mordad ayları üzrə nömrəsi

[2] Bu məqalə Tehranda İslam təfəkkürü mövzusunda keçirilən konfransa göndərilmişdi. "Keyhan" qəzeti, 21/11/1369

[3] İmam Xomeyni və müasir dünya, səh.79

və düşünərək öyrənmələri, eləcə də İslamın siyasi həyatının beynəlmiləlləşməsini bu əsrin xüsusiyyətlərindən saymaq olar."[1]

### *Fransada İslam Tədqiqat Mərkəzinin direktoru*

O, Həzrət İmamın(r) mənəvi və əqli böyüklüyünə, eləcə də nadir xüsusiyyətlərinə işarə edərək demişdir:

"İmam Xomeyni(r) on dörd əsri öz əməllərində yekunlaşdırdı…"

Biz çox xoşbəxtik ki, bu dövrdə [İmam Xomeyni] yaşayırıq, sanki Məhəmməd Peyğəmbərin(s) əsrində yaşayırıq."

O daha sonra demişdir: "Dünyanın bütün insanları İmam Xomeyni(r) təlimlərinin ardınca getmək istəyirlər. Əksər ölkələrdə artıq bu hərəkat başlamışdır, hətta bizim Qərb cəmiyyətlərimizdə görürük ki, [dini] məsələlərə yenidən baxılır… İndi çoxları bilirlər ki, İslam bəşəriyyətin problemlərinə cavab verən bir dindir."

O deyir:

"Dünya dəyişmə halındadır və Qərbin dəyişməsi nəticəsində dünya dəyərləri tədriclə aradan qalxacaq və İslam bütün dünyada özünü bariz şəkildə göstərməkdədir.

### *Professor İsmayıl Kilbes*

O, ispandillilərin mədəniyyətinin görkəmli filosofudur və bəşəriyyət tarixində dinin yenidən dirçəlməsinə işarə edərək bu böyük gerçəklik haqqında belə demişdir:

"Din dirçəlmişdir, kilsələr yeni ruh kəsb etmişlər. Universitetlərdə din və dini düşüncəyə diqqət get-gedə artmaqdadır. Gündəlik həyatda mənəvi gözəlliklər axtarışdadır. Dünya nicat tapmaq və öz ictimai əlaqələrini gözəlləşdirmək üçün dinin gücünə və onun mənəvi cazibələrinə ciddi surətdə yönəlmişdir."

O deyir:

"Bütün bunlar yeni bir dəvətin nəticəsidir ki, İmam Xomeyni(r) öz dini inqilabı ilə dünya cəmiyyətinin fikir və düşüncə meydanında başlamışdır."[1]

---

[1] "Hüzur" jurnalı, №12, 1374-cü ilin yayı.

[1] "Keyhan" qəzeti, "Mədəniyyət və təfəkkür sütunu", 22/5/1375.

### *İranın Vatikanda o zamankı səfiri*

O, "dinin intibahdan sonra və İslam inqilabının zühurundan əvvəlki dövrə kimi, ümumiyyətlə, dünyanın heç bir yerində, hətta ictimai, eləcə də siyasi və iqtisadi meydanlarda olmamasına" işarə edərək yazır:

Kilsə istər onun rəsmi kadrı (Vatikan), istərsə də qeyri-rəsmi camaat səviyyəsində təkcə Allahla şəxsi münasibətlər üçün resept yazırdı və heç vaxt ictimai səhnələrdə, hətta əgər kilsənin ən məşhur vəzifəsində belə bir hadisə baş verərdisə, bir fikir bildirməzdi.

İkinci Dünya müharibəsində sülh naminə və yaxud Hitlerə qarşı hər hansı bir bəyanat verilməməsi (bütün kütləvi qırğınlara baxmayaraq), sükut rüsvayçılığı indi də kilsənin üzərindən təmizlənməmişdir.

O bu gerçəkliyi qeyd edərək demişdir: "Həzrət İmam Xomeyni(r) ictimai həyatda din layihəsinə əsaslanmaqla İslam inqilabını qələbəyə çatdırmayana qədər heç bir kəs inqilabı belə dərin təsəvvür etmirdi."

O daha sonra demişdir:

"Bu inqilab din və dindarlıq meydanında ən böyük dünya dəyişikliyi idi ki, ilk dəfə belə vüsətlə zühur etmişdi… və İmam Xomeyni hərəkatı dindarlıq dünyasında "yeni " yaratdı…"

O, xristian cəmiyyətlərinə Həzrət İmam Xomeyninin(r) beynəlmiləl mənəvi şüarlarının ciddi nüfuz etdiyini və bu yeni dalğadan katolik kilsəsinin geniş təsir aldığını qeyd edərək demişdir:

"…Demək olar bütün bəyanatları 80-ci onillikdən əvvələ kimi dinin nəzəri məsələləri ilə bağlı olan və ictimai məsələlərə təsiri olmayan rəsmi Vatikan xristianlığının son onillikdə əksər bəyanatlarının mövzusu azadlıq, ədalət, ictimai tərəqqi, müharibə və sülh, bəşər hüququdur. On dörd ildən çox müddət ərzində II Jan Polun yeddi rəsmi bəyanatından üçü kilsənin ictimai doktrinası haqqındadır.

O daha sonra əlavə etmişdir:

[Burada] Papa II Jan Polun 1991-ci ilin mayında verdiyi "Cente, simus, annus" adlı ən mühüm sərəncamı rəsmi Vatikanın ictimai işlərlə əlaqəsinin ən yüksək zirvəsidir.

Bu bəyanatda Papa nəzərə çatdırmışdır ki, marksizmin məğlubiyyəti ictimai və iqtisadi ülgü kimi kapitalizmin qələbəsi sayılmamalıdır.

Bu bəyanatda marksizmin böhranı, Qərbin özünə biganəliyi, azad bazar, mənfəət məsələsi, şərtli mülkiyyət, istehsal vasitələri, insanların ictimai həyatda iştirakı, iqtisadiyyat və siyasət mədəniyyətinə diqqət yetirilmişdir.

Həmin proses Papa II Jan Polun fidyə ilə bağlı müraciətində davam etdirilmişdir…

Vatikanın 1992-ci ildə Ramazan bayramı münasibətilə verdiyi sonuncu bəyanatda yazılmışdır:

"Dinlər arasında dialoq təkcə çağırış fikirləri və xeyirxah niyyətlərlə məhdudlaşmamalı, siyasi və ictimai həyatda da müzakirə olunmalıdır. Biz dialoq vasitəsilə insanların üzləşdiyi real məsələləri araşdırmalı və onlar üçün nəzərəçarpacaq həll yolları tapmalıyıq."

O bu məsələyə işarə etmişdir: "Vatikan papalarının əsas xüsusiyyəti Roma kilsəsindən çıxmamaları olmuşdur, o cümlədən İtaliya folklorunda qeyd olunmuşdur: "Papanın Vatikanın 50 kilometrliyində yerləşən bir kilsədə görüş keçirməsi üçün ora səfər edənədək bir əsr keçdi."

O yazmışdır: "Lakin bu onillikdə Papa o qədər səfərlər etmişdir ki, bütün informasiya vasitələri Papa II Polu səyahətçi papa adlandırırlar".

O, ənənəvi xristian cəmiyyətləri arasında dini özünüdərketmə hisslərinin gündən-günə artan təsirlərinin digər amillərinə işarə edərək yazmışdır:

"Həzrət İmam Xomeyninin Salman Rüşdiyə qarşı tarixi fitvasından sonra ənənəvi xristianlığa təzyiqlər olundu və onlardan Məsihə qarşı kitabların nəşri və filmlərin istehsalının qarşısı alınması tələb edildi. Bu, dünyanın müxtəlif bölgələrində ciddi şəkildə müzakirə olundu və çox yerlərdə mitinqlərlə müşahidə edildi. Bu məsələ xüsusən Avropa və Amerika cəmiyyətlərində daha çox müşahidə olunur.

Məsələn, 1990-cı ildə Buenos-Ayresin dörd yüz kilometrliyində Maril Pelata əyləncə şəhərciyində (yayda turistlərin axını ilə öz simasını dəyişir) Jan Luk Qudarın "Məryəmə salam" adlı filmini göstərmək istəyirdilər ki, orada

Həzrət İsa(r) ciddi təhqir olunmuşdu. Lakin üzərində xaç əlaməti və üstəgəl şəklində silahlar çəkilmiş adamların şiddətli xəbərdarlıqlarının yayılması dövlət rəhbərləri tərəfindən filmin qadağan olunmasına səbəb oldu[1]"[2]

## İKİNCİ FƏSİL:

## İMAM XOMEYNİ (R) ƏSRİ VƏ MÜASİR İNSANIN DİNİ VƏ MƏNƏVİ YÖNÜMÜ

[1]Seyyid Məhəmməd Əli Əbtəhi, "İslam" qəzeti, 19/3 və 17/3/1371
[2]Əlbəttə, gələcək bölmələrdə də müxtəlif münasibətlərlə xristian dini rəhbərlərinin bəyanatları çərçivəsində dünya ölkələri, xüsusilə Qərb cəmiyyətlərində dünya ölkələrinin siyasi və ictimai meydanlarda kilsənin misilsiz fəaliyyətindən bəhs edən müxtəlif nümunələri təqdim edəcəyik.

# 1 – İMAM XOMEYNİ(R) ƏSRİ VƏ İNSANIN DİNİ VƏ MƏNƏVİ YÖNÜMÜ QƏRBLİ ŞƏRHÇİLƏRİN NƏZƏRİNDƏ

Müasir insanın dini və mənəvi uğurunun yüksəlişi həmin bəşəri təzahürləri dərk etmək və onları təhlil etmək üçün Qərb alimlərinin nəzərəçarpacaq həssaslığı və gündən-günə artan səyləri ilə müşahidə olunur. Qərb mütəxəssisləri müxtəlif vaxtlarda bu sahədə apardıqları araşdırmalarını və fikirlərini açıqlayıblar. Amerikalı jurnalist və tədqiqatçı Bil Mayres PBS televiziya kanalında yayınlanan on ardıcıl proqramında bu barədə apardığı araşdırmaların nəticələrini təqdim edərək bildirmişdir:

"Bütün dünyada insanlar maddi dəyərlərdən və materializmdən usanmışlar və sürətlə mənəviyyata doğru qayıdırlar və bu qayıdış bir müddətdir ki, başlanmışdır."

O daha sonra əlavə etmişdir: "Din və onun əsaslarına xalis itaətçilik bir daha diqqət mərkəzindədir."[1]

Qərb mütəfəkkiri Corc Vigel kimi şəxslər dünyanın qeyri-maddiliyini [dini] XX əsrin sonlarında həyatın üstün gerçəkliklərindən hesab edirdilər."[2]

---

[1] "Həmşəhri qəzeti", 29/7/1375 "Cümhuri-ye Eslami" agentliyi.

[2] Sivilizasiyaların toqquşması, Hantinqton və tənqidçiləri, siyasi və beynəlxalq araşdırmalar idarəsi.

Finlandiya Universitetinin tədqiqatçı və müəllimlərindən olan Doktor Penti Kaynen də bu fikirdədir:

"[Bugünkü dünyada] dini qəbul etməyə meyl yaranmış və bu meyl artmaq üzrədir."[1]

Məşhur alman yazıçısı və siyasət şərhçisi Piter Şulator "İslam və dünya mədəniyyəti arasındakı ixtilafları" mövzusuna dair seminarda çıxış edərkən demişdir:

"İndi dinə və yüksək mədəniyyətə qayıdış hərəkatı başlanmışdır."[2]

Afinanın siyasi kilsə və ilahiyyat fakültəsinin müəllimi Corc Metalinas açıqlamışdır:

"…Bu əsrdə din və dindarlığa qayıdış güclənmişdir."[3]

İspaniya mütəfəkkiri professor Xose Mario isə demişdir:

"İndi dünyada dinə yönəlmə artmışdır."[4]

Amerikanın "Nyu-York Tayms" qəzetinin müxbiri Qustav Yunber də amerikalı natiqlərin dinə qayıtmağın zəruriliyini təkid etdikləri geniş hesabatında bildirmişdir:

"Təkcə Amerikada deyil, dünyanın bütün bölgələrində insanların din və Allaha üz tutmaları genişlənməkdədir."[5]

***Dinin sona çatması nəzəriyyəsinin etibardan düşməsi***

Qərb şərhçilərinin əksəriyyəti dinə yönəlmə prosesinin təsəvvür olunan həddən daha qüvvətli olduğunu söyləyərək aşağıdakı fikri vurğulamışlar:

"Hazırkı şəraitdə (dünyada) dindən daha qüdrətli heç bir ictimai qüvvə yoxdur."[6]

---

[1] "Keyhan-e həvayi" ilə müsahibədə, "Keyhan-e fərhəngi", 1372-ci ilin azər ayı.

[2] "Keyhan qəzeti", 12/9/1374

[3] "Keyhan-e fərhəngi", 1371-ci ilin bəhmən ayı

[4] "Məcəlle-ye şer", 1372-ci lin şəhrivər və mehr ayı.

[5] "Sübh" jurnalı №67, 1375-ci ilin isfənd ayı

[6] Qraham Fuler, Xarici siyasət işlərində SİA təşkilatının məşhur nəzəriyyəçisi, "Farin Pali" jurnalı, Amerika çapı, "Cümhuri-ye Eslami" qəzeti, 24/3/1374

Onlar "Dünya əhalisinin istər Şərqdə, istərsə də Qərbdə gündən-günə artan şəkildə Allah, din və mənəviyyata tərəf irəliləməsini"[1] vurğulayaraq öz fikirlərini belə bildirmişlər:

"Dinə millətlərin qayıdışı prosesi təlatümlü bir sel kimi irəli getməkdədir və sekularizmin bütün dünyanı bürüməsi təsəvvürü artıq sona çatmışdır."[2]

Sonra isə açıqlamışlar:

"Hamı səhvən bu fikirdə idi ki, dünya nemətlərinə bağlılıq dini təhlil etməkdir və heç nə ona mane ola bilməz."[3]

### *XXI əsr: Dinin nüfuzunun genişlənməsi əsri*

Qərb mütəfəkkirlərinin əksəriyyəti müasir bəşəriyyətin dini həyatının yeniləşməsinə və onun artan tələskənliyinə inanaraq, XXI əsrdə bu hadisənin önündə olacaq parlaq üfüqlərdən danışırlar, onlar "XXI əsri bəşər həyatının müxtəlif sahələrində dinin fövqəladə yayılma əsri"[4] hesab edirlər.

Amerika yazıçısı Robert Makvand mövcud statistik hesablamaları, rəqəmləri və dəlilləri təqdim etməklə bəşəriyyətin diqqət və mənəviyyat əsri saydığı XXI əsr haqqında proqnoz verərək "yeni əsr yeni dini həyəcanlar dövrü olacaq və bu sahədə insanların intizarları şiddətlə artacaq"[5] demişdir.

Fransanın "Obezrovator" qəzeti böyük yazıçı və Fransanın keçmiş mədəniyyət naziri Andrey Moleronun proqnoz layihəsi ilə yanaşı həmin gerçəkliyi təsdiq edib onun dilindən yazmışdır:

"XXI əsr ya ümumiyyətlə, mövcud olmayacaq, ya da din əsri olacaq." Bu həftəlik qəzet daha sonra əlavə etmişdir:

"Moleronun proqnozuna əsasən həqiqətdə dinə qayıdış ardıcıldır və hər yerdə gözə çarpır."[6]

---

[1] Fransanın "Novel Obezrovator" qəzetinin analitiki (təhlilçisi), "Ebrar qəzeti", 6/6/1375.

[2] "Vaşinqton Tayms" Amerika nəşriyyatının analitiki, "İran" qəzeti, 15/5/1376.

[3] Devid Bart, Xristian dünyası ensiklopediyasının məsul nümayəndəsi, "Cümhure-ye Eslami" qəzeti, 24/5/1371

[4] Fransanın "Novel Obezrovator" həftəlik qəzetinin analitiki, "Ebrar" qəzeti, 6/6/ 1375

[5] "Sübh" jurnalı №78, "Cümhuri-ye Eslami" agentliyi, Xristian Sayns Monitor nəşriyyatından götürülüb.

[6] "Ebrar" qəzeti, 6/6/1375

## 2 – QƏRB CƏMİYYƏTLƏRİ VƏTƏNDAŞLARININ DİNİ VƏ MƏNƏVİ YÖNÜMÜ

İmam Xomeyni(r) əsrində insanın mənəvi dəyərlər və dini əqidələrə yenidən qayıdışı prosesi dünya miqyasında sürətli inkişaf və genişlənmə halındadır.

Amma qeyd olunmuş prosesin müasir dünyada, yəni etinasızlıq və ifrat materializmin hökm sürdüyü Qərb cəmiyyətlərində baş verməsi və genişlənməsi hər bir tədqiqatçının marağına səbəb olmuşdur.

"Brend Fyuçerz Qrup" müəssisəsi tərəfindən hazırlanmış statistik araşdırmanın nəticəsinə əsasən, Qərb ölkələrinin vətəndaşları, xüsusən yenilikçilər arasında dini məsələ və mövzulara diqqət və yönəlmə prosesi artmaqdadır."[1]

Qərb mütəxəssisləri "İndi Qərbdə kilsələrə əvvəlkindən daha çox adam gəldiyini"[2] vurğulayaraq bildirmişlər: "Bu günlərdə Amerika, İngiltərə, Fransa və İspaniyada dinə qayıdış o qədər qüvvətlidir ki, hər bir şeyi öz işığına qərq etmişdir."[3]

Qərb insanının dindarlıq təzahürü Qərb mədəniyyətinin ağırlıq mərkəzi, yəni Amerika Birləşmiş Ştatlarında böyük dəyişikliklərə səbəb olmuşdur.

Mütəxəssislər bu fikirdədirlər: "Amerika əhalisi arasında dindarlıq səbəbindən istər fərdi, istərsə ictimai şəkildə onların dini məsələlərə diqqəti artmışdır və bu iş Amerikada şəksiz 70 və 80-ci onillikdə ən mühüm və ən nadir hadisədir.

Bu prosesin bütün Amerika cəmiyyətini, əhalinin rəftarı və ölkənin mədəniyyətini əsrin gələcək illərində öz təsiri altına salacağını desək, səhvə yol vermərik."[4]

Priston Universitetinin sosiologiya müəllimi Robert Vutna və dini jurnalist Dan Latin "Behiştdən sonra" və "İman almaq

---

[1] İngiltərənin "Deyli Teleqraf" nəşriyyatı, "Resalət" qəzeti, 6/3/1376

[2] "Yeni yüz yıl" nəşriyyatı, Türkiyə çapı, 18/5/1997.

[3] Həmin yerdə.

[4] Foriver Kolembo, "Allah Amerikada", Məhəmməd Bəqayinin tərcüməsi, səh.242, Foriver Kolembo, sosioloq və İtaliyanın "El-estampo" qəzetinin baş redaktoru və Kolumbiya universitetinin beynəlxalq məsələlər fakültəsinin müəllimi.

ardınca" adlı yeni kitablarındakı ardıcıl müsahibələrinə və apardıqları tədqiqatların nəticələrinə əsasən bu fikirdədirlər:

"İndi Amerika əhalisinin dinə qayıdışı misilsiz şəkildə artmaqdadır."

Bu iki mütəxəssis ABŞ-ın şərq və qərbində ayrılıqda apardıqları araşdırmalarında bu nəticəyə gəlmişlər:

"Əhali arasında Allaha etiqad və ibadətlərə başlamaq hər dövrdən daha çox adətə çevrilmişdir."[1]

Qərb mütəfəkkirlərindən digəri bu barədə yazmışdır:

"Din Amerika cəmiyyətində özünü müxtəlif şəkildə göstərmişdir və indi də Amerika əhalisinin mədəniyyətini formalaşdırmaqdadır."[2]

### *Qərbin dini və mənəvi yönümü məlumatlar aynasında*

Allahı tanıma və mənəviyyatla bağlı cərəyanın Qərb ölkələrini əhatə etməsi son bir neçə əsrin ən qəribə dəyişikliklərini yaratmışdır ki, mövzunun əhəmiyyətinə görə bu sahədə mövcud olan hesabatlardan bəzisinin araşdırılmasına başlayırıq:

"Bu gün Cənubi Amerikanın mühüm hissəsi – Cənub-şərqdən Qərbə kimi olan ərazini dini qurşaq (Religius Beit) adlandırırlar, çünki bu məntəqədə dini fəaliyyət son iki onillikdə inkişaf etmişdir. Bu fikri kilsədə iştirak edənlər və anketlərə cavab yazanların çoxu təsdiq etmişdi. İndi Amerika əhalisinin 80%-dən çoxu özlərini dini şəxslər kimi təqdim edirlər, Amerika əhalisinin 90%-i bildirmişdir: Allah mövcuddur."

Bu sorğularda İngiltərə əhalisinin 60-65%-i və İtaliya əhalisinin 70%-i belə bir fikri bildirmişlər."[3] PYU sorğu mərkəzinin (Vaşinqtonda) məlumatına əsasən, "Amerika əhalisi günbəgün daha çox dinə üz tutur və onların Allah və ilahi möcüzələrə inamı cari onillikdə keçən onilliyə nisbətən dəfələrlə artmışdır."[4]

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 14/8/1378

[2] Robert Makland, Amerika yazıçısı, "Sübh" jurnalı №78, 1376-cı ilin bəhmən ayı.

[3] Doktor İmami, Tehran universitetinin müəllimi, "Mərifət" jurnalı №21

[4] "Sübh" jurnalı №78, 1376-cı ilin bəhmən ayı.

Kanada Statistika İdarəsinin rəsmi məlumatında bildirilmişdir:

"Kanadada dindar adamların sayı artmaqdadır."[1]

Həmçinin Beynəlxalq İctimai Statistika Mərkəzi (dünyanın 21-dən çox ölkəsində 19.000 nəfər sorğuya cəlb olunmuşdur) bildirmişdir:

"Ölümdən sonrakı həyata inanan Şərqi Avropa ölkələri cavanlarının sayı artmaqdadır."

Bu mərkəz tərəfindən təqdim olunmuş hesablamaya əsasən "Amerika, İrlandiya və Polşa kimi ölkələrdə əhalinin dinə marağı həmişəkindən daha çoxdur."[2]

Amerikanın USTD qəzeti ölkə əhalisinin dini maraqlarının artmasına işarə edərək yazmışdır:

"İndi amerikalıların 29%-i bu fikirdədirlər ki, dini təhsil üçün çox az azadlığa malikdirlər. Bu rəqəm həmin mövzuda keçənilki sorğuya görə 30% və 1997-ci ildə 80% artmışdır.

Amerika əhalisinin təxminən 48%-i də bu fikirdədir ki, dövlət rəsmiləri şagirdlərə məktəblərdə dua etməyə icazə verməlidirlər. Amerika vətəndaşlarının 64%-i isə idman mərkəzlərində dua etmənin yasaqlanmasına etiraz etmiş və bununla razılaşmırlar."

Bu qəzet daha sonra əlavə etmişdir:

"Saysız-hesabsız Amerika əhalisi şagirdlərin idman mərkəzlərində dua oxumasının qadağası ilə bağlı ölkənin ali məhkəməsinin qərarından şikayətlənmiş və onu pisləmişlər."[3]

### *Qərblilərin dini və mənəvi maraqlarının artmasının nəticələri*

Qərbdə mənəvi dəyərlərin genişlənməsi hərəkatının nəticəsi olan ictimai dəyişikliklər indi yaxşıca hiss olunur. Hazırda Qərb ölkələrində öz dövlətlərindən dini və mənəvi tələblərinə təzyiq və məzhəb əqidələrinə vəfadarlığın bildirilməsi məqsədilə təşkil olunmuş əhalinin böyük toplantılarının inkişafda olan prosesini aşkarca müşahidə etmək olar.

---

[1] "Resalət" qəzeti, 28/6/1377.

[2] "Cümhuri-ye Eslami" qəzeti, 24/5/1371.

[3] "Keyhan qəzeti", 11/4/1379.

"1376-cı ilin mordad ayında katolik cavanların beynəlxalq günü münasibətilə Papa II Jan Polun iştirak etdiyi böyük bir toplantı keçirildi ki, orada bir milyondan çox insan dua etmiş və həmin mərasimdə 140 ölkənin katolik cavanları iştirak etmişlər."[1]

"Həmçinin Filadelfiyada amerikalı zənci qadınların toplantısının milyonlarla iştirakçısı bildirmişlər: İndi zəncilərin ailə və cəmiyyətində ruhi və mənəvi bağlılığın möhkəmlənməsi zamanı yetişmişdir."[2]

Los-Anceles şəhərində təşkil olunmuş digər mərasimdə Amerika cavanlarından 43.000 nəfər İsanın tərəfdarları adı altında yığışmış və mənəvi dəyərlərlə, habelə şəxsi iman haqqında yeni fikirlərlə tanışlığın bu toplantının əsas məqsədi olduğunu qeyd etmişdilər."[3]

"15.000 amerikalı qadın Ohayo şəhərinin cəmiyyətlər salonunda toplaşaraq Amerika əhalisini təkallahlığa dəvət etməklə yanaşı, öz cəmiyyətlərinin hazırkı çıxılmaz vəziyyətdən yeganə çıxış yolunu mənəvi və dini dəyərlərə qayıdışda görmüşdülər."[4]

Əlbəttə, bu məsələ də qeyd olunmalıdır ki, Qərb ölkələrində, xüsusilə Amerika Birləşmiş Ştatlarında dini və qeyri-maddi istəklərə israr əsasında təşkil olunan toplantılar təkcə dərin mənəvi dəyişikliklərin təsirlərindən bir hissəsidir.

Qərb cəmiyyətlərində cari dəyişikliklər haqqında mövcud xəbər və hesabatlara nəzər salmaqla onların dini və mənəvi yönüm təsirlərinin vüsət və genişliyi ilə yaxşıca tanış olmaq olar ki, burada həmin təsirlərin çox kiçik hissəsinə işarə edirik.

Mövcud xəbərlərə əsasən, "Qərbdə tədqiqat mərkəzlərinin mütəxəssisləri ticarət müəssisələrinin bazar axtarışında olan layihəçilərinə … qətiyyətlə tövsiyə edirlər ki, öz proqramlaşdırmalarında insanların dinə yönümünün artımına diqqət etsinlər və onu nəzərdə tutsunlar."[5]

---

[1] Cərayid.
[2] "Keyhan" qəzeti, 13/7/1376 və "Sübh" jurnalı, №76
[3] "Mübəlleğan" informasiya nəşriyyatı (Bəsairə əlavə), 1376-cı ilin azər ayı
[4] "Sübh jurnalı" №67, 1375-ci ilin İsfənd ayı.
[5] "Resalət" qəzeti, 6/3/1376, "Deyli Teleqraf" ingilis nəşriyyatından götürülüb.

Qərbin, xüsusilə Amerika vətəndaşlarının din və məzhəbə yönümünün artımı ilə "indi Amerikada dini proqramlar yayan radio-stansiyaları milyonlarla dinləyicini özünə cəlb etmişlər"[1] "Röyter" xəbər agentliyinin məlumatına əsasən, Amerikada İnternetdən istifadə edənlərin 1/4 -i (təxminən 28 milyon nəfərdir) bu şəbəkədə dini və ya mənəvi məlumat sorağındadır və həmin rəqəm gündəlik üç milyon nəfər artır."[2]

İndi dini kitablar Qərbdə ən çox satılan kitablar siyahısının başında durur. "Qaliup (Galiup) tədqiqat müəssisəsinin hesabatına əsasən Amerika bazarında təxminən 2000 adda kitab var ki, mövzuları ibadətə həsr olunmuşdur. Bu rəqəm digər mövzularda çap olunmuş kitablardan üç dəfə çoxdur."[3]

Qərb cəmiyyətlərinin dini məsələləri ümumən qəbul etməsi… elə bir fəza yaratmışdır ki, … "Bu gün [hətta] Qərb fizik, astronom və münəccimləri üçün kitabın daxilində Allaha aid bir şey olmasa da, Allahın adını kitablarının üzərində yazmaqla faydalı olmuşdur. Buna görə "God and the new Physies" və "The Mihd of God" kimi ifadələr və s. çox yayılmışdır."[4]

SNN televiziya kanalı da bu sahədə apardığı statistik hesablamalarının təqdimi ilə bildirmişdir:

"1995-ci il ərzində ümumi kitabların nəşri 6%-ə yaxın artmışdır, halbuki dini kitabların nəşrinin artım miqdarı həmin müddətdə 20%-ə bərabər olmuşdur."[5]

Qərb ölkələrində əhalinin dini və mənəvi təmayüllərinin artması siyasi səhnədə, xüsusilə seçki rəqabətlərində də mühüm dəyişikliklər yaratmışdır."

Son illər bəzi Qərb ölkələrində məclis nümayəndəliyi, baş nazir və prezidentliyə namizədlər tərəfindən əhalinin razılığı və səsinin cəlbi məqsədilə dini təbliğatdan istifadə geniş yayılmışdır. Necə ki, "İngiltərədə hər iki partiyadan - Mühafizəkarlardan və Fəhlə partiyasından baş nazirliyə namizədlərdən hər biri özünəməxsus şəkildə öz dini etiqadlarını

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 8/3/1376.
[2] "Keyhan" qəzeti, 9/10/1380
[3] "Suruş" jurnalı № 635.
[4] Mehdi Gülşəni, Sekular elmdən dini elmə kimi, səh.58
[5] "Ettealat" qəzetinə əlavə, 5/4/1375

bəyan etmişdilər.[1] "Amerika prezidentliyinə ötən seçkilərdə Demokrat partiyasından Klinton və Respublikaçılar partiyasından Bob Dall da öz dini şüarlarını şərh etmişdilər."[2]

"Amerika prezidentliyinə son seçkilər prosesində də Respublikaçılar partiyasından iki namizəd Corc Buş və Mekkin öz təbliğat proqramlarında Həzrət İsanın(ə) tövsiyələrinin onların şəxsiyyətinə təsirləri və din haqqında öz daxili əqidələrindən danışmışdılar. Demokrat partiyasının iki namizədi Elqur və Bill Bradli "Cəmiyyətin islah olunması üçün dini dəyərləri möhkəmləndirmək lazımdır" - deyərək özlərinin və ailələrinin dindar olduqlarını bildirmişdilər."[3]

### *Qərb cəmiyyətlərində dindarlıq və mənəvi dəyərlər cərəyanının əsilliyi*

Qərb ölkələrində dini və mənəvi təmayüllərin inkişafda olan cərəyanına aid müfəssəl hesabatlardan bəzisinə nəzər salmazdan əvvəl bir məsələni qeyd etmək zəruridir:

Bəzi analitiklər: - Həqiqi Qərbi qüdrətə yönəlmiş iradə, hesablayıcı ağıl və təfəkkür qüvvəsi ilə texniki işğaldan başqa cür tanımırlar və bildirirlər ki, onların mənəvi təfəkkürlə bağlı danışıqları yalnız öz nəfslərini qüvvətləndirmək üçündür."[4]

Onlar Qərb cəmiyyətlərinin dindarlıq və mənəvi dəyərlər hərəkatını Qərb insanının müxtəliflik, ləzzətaxtarma və özünü unutma istiqamətində fəaliyyəti kimi təhlil edib insanların dərin və əsil ehtiyaclarının səthi razılığından çox qəbul etmirdilər. Amma mövcud gerçəkliklər və müasir cəmiyyətlərdə dini və mənəvi dəyişikliklərin daxilindəki dərinlik bizi buna inandırır ki, İmam Xomeyni(r) əsrində Qərb insanının şövq və həvəsi "mənəvi aclıq, millətlərin vəhy dəyərlərinə təmayülü"nün təsirlərindən bir hissəsi və mənəvi şüurun nəticəsidir ki, İmam onu yeni əsrin xüsusiyyətləri qismindən saymışdır.

İnkişaf etmiş sənaye cəmiyyətlərinin yüksək mənəvi və dini təmayülləri özünüdərketmə, Allahla insanın fitri əhdinin

---

[1] "Keyhan qəzeti", 11/1/1376 (Toni Bleyer və onun rəqibi)
[2] "Sübh jurnalı"№35, Mehdi Gülşəni ilə müsahibə.
[3] "Cümhure-ye Eslami" agentliyi 20/6/1378 və "Resalət" qəzeti 8/10/1378.
[4] Məhəmməd Mədədpur, Cari qurtum, səh.595.

təzələnməsində kökü olan bəşərin özünü unutmasında yox, Qərbdə doğacaq günəşin müjdəsidir.

Bəli, biz buna inanırıq ki, "bu gün müasir cəmiyyətlərdə dinə tərəf çaşbaş təmayüllər zühur və formalaşma ərəfəsindədir və bu onların millətlərinin oyanış və özünüdərketmələrinə ümid verir. Belə ki, (şübhəsiz) 1995-ci ildə ABŞ-ın müsəlman zəncilərinin Vaşinqtonda toplaşması və Amerika prezidentinin iqamətgahı Ağ evin qarşısında güclü "Allahu-Əkbər" səslərinin ucalması müasir cəmiyyətdə mənəvi və əxlaqi dirçəlişin xoş nişanəsidir."[1]

### *Qərbin dini və mənəvi təmayülü haqqında məlumatlar*

"Əl-Əvsət" qəzeti dinə yönəlmə və onun Qərb mədəniyyətinin beşiyi olan ABŞ-da təsirlərini təhlil edən məlumatında yazmışdır:

Belə nəzərə çarpır ki, "din" Amerika prezident seçkilərində təsirli amillərdən biridir.

…Amerikanın indiki prezidenti Bill Klinton həmişə öz çıxışlarını "Ey Allah, Birləşmiş Ştatları xoşbəxt et! " - sözləri ilə bitirirdi.

Corc Taun Universitetinin müəllimi Qri Vifer bu barədə demişdir: "Əgər Klinton öz çıxışının sonunda bu fikri deməyi unutsa, amerikalıların şiddətli tənqidlərindən qurtara bilməyəcək! Çünki deyiləcək ki, o, dinə hörmət etməmişdir və bu, elə bir zamanda baş verir ki, Amerika Konstitusiyası dini hər cür himayə etməyi, həmçinin din və siyasəti bir-birinə qarışdırmağı dövlətə qadağan etmişdir." Bu qəzet daha sonra əlavə etmişdir: " Amerika cəmiyyəti heç vaxt dinə bu qədər diqqət göstərməmişdir. Bu diqqət və səy elə bir yerə çatmışdır ki, Virciniyada İslamı Himayə Təşkilatının sədri doktor Cabir əl-Əlvani demişdir:

---

[1] Doktor Seyyid Əli Əsğər Kazimi, Müasir cəmiyyətin böhranı, səh.168.

"Amerikada[1] dindar protestantlardan bəzisi mənimlə ərəb filosofu İbn Rüşd haqqında mübahisə edərək deyirdilər ki, Laizmin Qərbə daxil olması məsuliyyəti ərəb dünyasının bu filosofunun adı ilə bağlıdır! "

Corc Vaşinqton Universitetinin İslam tarixi üzrə müəllimi, doktor Con Vell demişdir:

"İyirmi beş il əvvəl ABŞ-ın sabiq prezidenti Karter dindarlığını bildirən zaman amerikalılar təəccüblənmişdilər. Çünki o zaman dinsizlik və laizm iftixar sayılırdı. Buna görə də Kendi seçki mübarizələrində öz dindarlığını inkar etməyə çalışırdı."[2]

Amerika yazıçısı Robert Makvand "Kristian Sayns Manitor" jurnalında yazdığı məlumatda xüsusilə sonuncu onillikdə dinin bu ölkə əhalisinin mədəniyyətinə daxil olmasını vurğulamış və bu əsri "mənəvi maraq əsri" adlandırmışdı.

Makvand dini hadisələri, o cümlədən öz öhdəçiliklərində israr edən xristianların "əhdə vəfadarlarının" yürüşünü sadalamaqla yazmışdır:

"Din Amerika cəmiyyətində özünü müxtəlif şəkillərdə göstərmiş və indi də Amerika əhalisinin mədəniyyətini formalaşdırmaqdadır."

O yazmışdır:

"Hətta son illərdə, o cümlədən 1376-cı ildə istər daxildə, istərsə də xaricdə həm dərin mədəniyyət göstəricisi, həm də hadisələri istiqamətləndirməkdə təsirli olan dastan və macəralarda din yönümü hiss olunur.

Uzun illər unudulmuş, yaxud kiçik nəşriyyatlarda dəfn olunmuş dini məsələlər və ifadələr indi qəzetlərin ilk səhifələrini özününküləşdirmişdir.

Televizor kanalları öz əsas vaxtlarını "məftunedici sevimlilik qazanmış" dini hadisələrlə doldururlar və mənəviyyatla bağlı kitablar ən çox satılan kitablar sırasına daxildir.

---

[1] Corc Taun universitetinin rəsmi hesablamasına görə Amerika əhalisinin 70%-i protestant və 23%-i katolikdirlər. Müsəlman və yəhudilər hər biri 2%, qalan dinlər isə 3%-dir. (əl-Əvsətdən götürülüb, 4/5/2000)

[2] "Şoma" qəzeti, əl-Əvsətdən götürülüb, 14/5/2000.

Çikaqoda "Kristian sençeri" qəzetinin baş redaktoru Devid Haym demişdir: "Camaat bu günlərdə özlərini mənəviyyat axtarışında müşahidə etməyi sevirlər. Başqa sözlə, onun nəticəsi dini əqidələrə qayıdır."

Ruhani çağırışlar və Allah-Təalanın mələklərindən bəhs edən televiziya filmləri cari ildə saysız-hesabsız tərəfdarlar toplamışdır və bütün bu filmlər heç vaxt dini məsələlərə diqqət etməyən və hətta ona qarşı düşmənçilik mövqeyində duran Hollivudda istehsal olunmuşdur.

Televiziya araşdırmaları göstərir ki, bu proqramların tamaşaçıları da indi bir növ mənəvi maraq sahibi olmuşlar və mənalı verilişlər arzulayırlar. Makvand NBC televiziya kanalının əyləncəli proqramlar şöbəsinin müdiri Varon Litl Filddən eşitdiklərinə əsasən yazmışdır: "Dini sərmayələr elə bir şeydir ki, bütün Amerikada televiziya tamaşaçılarının ona həvəslə tamaşa etməsi nəzərə çarpır."

Makvand daha sonra əlavə etmişdir:

"Amerikanın Çoxsatılan Kitablar Cəmiyyətinə istinadən, əsasən din və mənəviyyat haqqında kitablar yeganə qeyri-təxəyyüli kitablardır ki, keçən il öz satışını itirməmişdir."[1]

Qərb yazıçısı Barbara Kantruvits aşağıda bəzi hissələrini qeyd edəcəyimiz nisbətən müfəssəl məlumatında Amerika cəmiyyətində mənəvi dəyərlər və dini çağırışlara diqqətin gündən-günə artan prosesini şərh edərək yazmışdır:

Hollivudda kino çəkən studiyalar da öz filmlərinə Allahı dərketmə və ölümdən sonrakı həyat dadı əlavə etmişlər. Papa II Jan Polun "Ümid darvazasından keçid" adlı yeni kitabı çoxsatılan kitablar siyahısının başında durur.

Ceyms Rid Fildin Allahı dərketmə və mənəviyyat mövzusunda yazdığı "İlahidən gələcəyi xəbər vermə" romanı dastan kitabları siyahısının başında durur.

Musiqi aləmində də Santo Daminqo Düsilus kilsəsinin Benedikt rahiblərinin oxuduqları ilahi mahnılar albomunun 2/8 milyon nüsxəsi indiyə kimi satılmışdır.

1993-cü ildə nəşr olunmuş Katlen Noresin "Dakuta bir mənəvi coğrafiya" kitabı çox satılan kitablar sırasındadır. O

---

[1] "Sübh" jurnalı №78, 1376-cı ilin bəhmən ayı.

deyir ki, indiyə qədər öz mənəvi təcrübələrini ona bildirmək istəyən oxuculardan üç min məktub almışdır... "

O öz məqaləsinin davamında əlavə etmişdir:

"Amerikalı siyasətçilər israr edirlər ki, ölkə məktəblərində ibadət mərasimlərinin icrası icbari olsun. Dini məruzə və mərasimlərdə əhalinin iştirakı bir neçə dəfə artmışdır və bu məruzələrdən bəzisində iştirak etməkdən ötrü qeydiyyatdan keçmək üçün aylarla gözləmə siyahısında qalmalıdırlar."

Kantruvids əlavə etmişdir: "Universitetlərdə Allahı dərketmə və mənəvi mövzular haqqında təşkil olunmuş kurs və məruzələrdə siniflər tələbələrlə ağzına kimi dolu olur."

Kembricdə İnterfis müəssisəsi bu sahədə yeddi yüz kurs və sinif təşkil etmişdir və bu il iyirmi min könüllü bu siniflərdə iştirak üçün adlarını qeyd etdirmişlər. Keçən il isə bu rəqəm on üç min nəfərdən çox olmamışdır.

Bu ilin payızında təxminən iki min nəfər adətən dolaşıq nitqlər söyləyən doktor Din Urnişin məruzələrində iştirak etmiş və onun "Daxili sakitlik sayəsində infarktdan qorunmaq olar" məruzəsinə qulaq asmışlar."[1]

Daxili tədqiqatçılardan biri də bugünkü dünyada mənəviyyat və dini yönüm prosesinin digər aspektini və bu prosesin İslam inqilabı, Həzrət İmam Xomeyninin(r) mənəvi və ilahi çağırışlarından təsirlənməsini qeyd edərək bu fikri açıqlamışdır:

"Keçən həftə televiziya peyk kanalları müasir yayın dünyasında ilk dəfə olaraq mənəvi mahnı yayınladılar ki, İran İslam inqilabından sonra cəmiyyətin mənəvi tələbatının və mənəvi dəyərlərə olan ehtiyaclarının aşkar nişanələrindən biridir. Puedes Liegar simvolik adı ilə təqdim olunmuş bu mahnı İspaniyanın ən məşhur xanəndələri, o cümlədən dini qruplar tərəfindən ifa olunmuşdur və hamılıqla dini geyimlər geyinmiş xor qrupu həqiqətən də tərifə layiq idi."

O daha sonra əlavə etmişdir: "Müqəddəs kitab, yəni İncilin ayələrindən hissələri oxuyan gəlinciklərin istehsalı və satışı mənəvi təmayüllərdə yeni bir təzahürün təkrarıdır. İslam

---

[1] "Şərq" jurnalı "Müqəddəs işin axtarışında", Əmir Qasiminin tərcüməsi, ikinci və üçüncü nömrəsi.

inqilabından əvvəl təkcə Amerika cəmiyyətində yüz milyon dollar dəyərində olan mənəvi ticarət məhsullarının sövdələşmə həcmi hazırda üç milyard dollara qədər artmışdır.

Dini və ya mənəvi bazar adlı ticarət və beynəlxalq xidmətlərdə yeni CD-nin hazırlanması bəzi dini təhsil mərkəzlərində və kilsə təşkilatlarında geniş yayılmışdır və burada başlıca məqsəd sifarişçi ilə daha çox mənəvi münasibət yaratmaqdır."

O, sonda yazmışdır: "Kasıb bir rahibə olan və rahibəlik paltarından başqa heç nəyi olmayan Mari Anjelika katolik möminlərini kabel televiziyasının işə salınmasında iştirak etməyə həvəsləndirməklə 45 milyon tamaşaçısı olan güclü televiziya kanalı yaratmış və onun vasitəsilə yeni mənəvi ehtiyaclara cavab verməyə müvəffəq olmuşdur."[1]

---

[1] Sina Vahid, "Keyhan" qəzeti, Mədəniyyət və düşüncə sütunu, 23/5/1375.

## 3 – ALİMLƏRİN DİNƏ VƏ DİNDARLIĞA QAYIDIŞI

İmam Xomeyni(r) əsrində qəribə dəyişikliklərdən biri də müxtəlif elm sahələrində çalışan alimlərin yenidən dinə, imana, elmlə dinin harmoniyasına etiqada, varlığın həll olunmayan qaranlıq məsələlərinin aşkarlanması üçün dini biliklərə qayıdışıdır.

Müasir dünya alimləri arasında son iki onillikdə dinə inamın genişlənməsi və möhkəmlənməsi, yeni elmi çətinliklərin aşkarlanmasında dinin həlledici roluna sonsuz əminliyin artması fövqəladə və heyrətləndirici dərəcədə inkişaf etmişdir.

### *Dünyanın böyük alimlərinin dinə münasibəti*

Bəzi mühakimlərin əksinə olaraq, XVI əsrdə Kepler,[1] XVII əsrdə Qaliley[2] və Nyuton[3], habelə digər elm baniləri dindar insanlar idilər"[4]. Əsasən Qaliley kimi XVII əsr alimləri etiqadlı katolik idilər və Robert Boylu[5] elm üçün dini missiya daşıyıcısı"[6] hesab edirdilər. Bu cərəyanın tanınmış şəxsi olan və bu gün elmin ona borclu olduğu Nyuton da ilahi fizik, təkallahlığa etiqad edən xristian nəslindən idi. O, İsanı Allahın bəndələrindən biri saymış və ilahiyyata çox böyük həvəs göstərmişdir.[7] Necə ki, XIX əsrin məşhur Şotlandiya fiziki Ceyms Klark Maksol bazar günlərini ilahiyyatla bağlı mütaliələrə ayırmışdı.[8] Həqiqətdə Kepler, Qaliley, Nyuton, Arsted,[9]

---

[1] İohan Kepler (1571-1630) Alman astronomu və riyaziyyatçısı. O, üç qanunu kəşf etməyə nail olmuşdu ki, onun əsasında Nyuton cazibə qanununu kəşf edə bilmişdi..."

[2] Qallilo Qaliley (1564-1642) İtalyan astronomu.

[3] İsaak Nyuton (1642-1727) ingilis alimi. O, təbiətşünaslıq və riyaziyyat sahələrində çoxlu tədqiqatlar aparmışdır.

[4] Doktor Mehdi Gülşəni, "Keyhan" qəzeti, 22/4/1378.

[5] Robert Boyl (1627-1691)

[6] Eyan Barbor, Elm və din, Bəhaəddin Xürrəmşahinin tərcüməsi.

[7] Doktor Mehdi Gülşəni, "Keyhan" qəzetinə müsahibəsi, 22/4/1378.

[8] Həmin yerdə.

[9] Məşhur fizik

Amper,[1] Maykl,

Faredey,[2] Henri və Maksod kimi klassik fiziklər təbiətin nizam və uyğunluğuna əsasən Allahın varlığını sübut edirdilər və bütün bu alimlər fizikanı təbiətdə Allahın nişanələrini görmək üçün qanunauyğun bir yol sayırdılar.[3] Qaliley demişdir: "Allah təbiətin işlərində İncilin müqəddəs cümlələrindən az görünmür."[4]

### *Dindarların tərki-dünya dövrünün başlanması*

XIX əsrdə klassik fizikanın inkişaf etməsi və alimlərdən bir qrupunun elmin gücünə həddindən çox söykənməsi, eləcə də pozitivist[5] təfəkkürlərin yaranması və inkişafı və onun XIX əsr, XX əsrin I yarısında Qərb elminə hakim kəsilməsi ilə yanaşı, alimlərdən bir çoxu təcrübələrə arxalanaraq din, fəlsəfə və Allahı dərketməyə əsaslanan hər növ metafizikanı inkar edərək dini bilikləri məsxərəyə qoyurdular.

"Təkcə müşahidə olunan işləri elmi sayan və özünü insaniyyət dininin peyğəmbəri adlandıran"[6] fransız filosofu və sosioloqu Avqust Kant (1798-1857) kimi fikir sahiblərinin hakimiyyəti qeyd olunmuş dövrün fikir və elm mühitində Qərbin dindar və etiqadlı alimlərinin dini baxışlar meydanını son dərəcə daraltmışdır. Bu qaranlıq dövrdə çoxlu etiqadlı alimlərin olmasına baxmayaraq, xalis elmiliyə əsaslanan zərərli mühit son iki əsrdə elmi proseslərə dağıdıcı təsir göstərmişdir. Belə ki, "XX əsrin əvvəllərində müxtəlif elm sahəsində 1000 nəfər alim arasında keçirilmiş sorğuya 700 nəfər cavab vermiş və məlum olmuşdur ki, onların yalnız 40%-i Allaha inanırlar. Bu

---

[1] 1775-1836, məşhur fransız fiziki

[2] 1791-1867 məşhur ingilis fiziki və kimyaçısı

[3] Doktor Mehdi Gülşəni, Qərb fizikləri və Allaha inam məsələsi, "Qəbəsat" jurnalı, 1376-cı ilin baharı

[4] Həmin yerdə.

[5] Positivisme = isbat, təhsil, tədqiq. İfrati-təcrübi məktəbdir ki, onun əsasını hisslərin vasitəsiz nəticələrinə kifayətlənmə təşkil edir (tədqiq və isbatı hiss və təcrübədə tanıma üsulları ilə məhdudlaşır.)

[6] Ustad Misbah Yəzdi, Fəlsəfə təlimi, c.1, səh. 50

nəticə ilə XX əsrin sonunda Allaha inananların faizinin azalacağı proqnozlaşdırılmışdı."[1]

An Port kimi məşhur universitet müəllimi və fikir sahibi 1950-ci ildə demişdir: "Mən Amerikada 50 adda psixologiya dərsliyini araşdırdım. Onların heç birində din haqqında, insanlıq və xeyirxahlıq bəhsində kiçik bir mövzuya belə toxunulmamışdı."[2]

### *Nisbi dərketmə dövründə yeni elmi problem*

XX əsrin I yarısından sonra xalis elmiliyin çıxılmaz vəziyyətə düşməsi və onun nəticəsi olaraq Qərbdə böhranların aşkarlanması tədricən din və elmin harmoniyasına inanan alimlərin sayını artırdı.

Bu dövrdə Quantum[3] fizikasının nəzəriyyəçisi Maks Plan[4] kimi alimlər elm və dinin yekdilliyi və onların xurafata qarşı bərabər mübarizəsindən aydın şəkildə danışmışdır."[5]

Amerika fiziki və Nobel sülh mükafatçısı Şavlov (A.Shawlow) Allaha inamı, əsas suallarla dinə müraciətin zəruriliyi və onlara dində cavab tapılmasından danışmışdır."[6]

İngilis fiziki Poking Horn dinsiz elmin qüsurları mövzusunu araşdırmışdır. Amerikalı fizik və Eynşteynin həmkarı Marqenau elmin dinə olan ehtiyacı və Eynşteynin[7] etiqadına əsaslanan öz nəzəriyyəsini irəli sürərək demişdir: "Təbiətin təsdiq etdiyi əsaslı bir qanunun kəşfi Allahdan ilhamdır."[8] Kersi Morisen[9] və Rovire[10] kimi alimlər Allahı sübut

---

[1] Doktor Mehdi Gülşəni, "Keyhan" qəzetinə müsahibəsi, 22/4/1378

[2] Doktor Mahmud Qolzari, "Peqah" jurnalı, 1380-cı ilin tir ajı

[3] Quantum. Bu nəzəriyyə sübut edir ki, enerji maddə kimi kəsik quruluşuna malik parıltıdır. Ancaq zərrəciklər kvantlar şəklində mövcud ola bilər. Bu nəzəriyyə müasir fizikanın əsasını təşkil edir.

[4] Max Planck (1858-1947) alman fiziki.

[5] Doktor Mehdi Gülşəni, Qərb fizikləri və Allaha inam məsələsi, "Qəbəsat" jurnalı, 1376-cı ilin baharı

[6] Həmin yerdə.

[7] Albert Eynşteyn, alman fiziki (1879-1955).

[8] Doktor Mehdi Gülşəni, həmin yerdə.

[9] Nyu-york Elmlər Akademiyasının müəllimi.

[10] H.Rouvire (Paris tibb fakültəsinin anatomiya müəllimi)

etmək və həyatın məqsədi üçün fizika, biologiya, fiziologiya və riyaziyyatdan kömək ummuşdular.[1]

Bu dövrdə humanitar elmlərdə də dəyişiklik baş vermişdi. Belə ki, Qərbdə psixologiya sahəsində "freydizmə qarşı bir hərəkatın yaranması ilə dinə son dərəcə bağlı psixoloqlar yetişdi ki, onlardan Viktor Frankel[2], Meri Daqlas, Karen Horney[3], Karl Rocerz[4], Alpurt[5] və İbrahim Moslovun[6] adlarını çəkmək olar.

Bu psixoloqlar Freydin[7] əksinə olaraq əmindirlər ki, dindarlıq insanın vücudunda əsil təmayüldür.[8] Freyd isə bu fikirdədir ki, dinə yönəlmə övladın anaya cinsi eşqindən yaranan Udipi[9] düyünüdür və dindarlıq həqiqətdə ruhi xəstəliyin bir növüdür.

### *İslam inqilabı və alimlərin dinə qayıdışı*

Bəşəriyyət tarixində dinin mühüm mövqeyinin dərki üçün münasib şəraitin yaranması, din haqqında şəxsiyyətlərin baxışı, elmi və tədris mərkəzlərində əsaslı dəyişiklik yaratmaq yolunda tək bir Allaha inanan imanlı alimlərin çoxunun həvəsləndirilməsinə baxmayaraq, son bir neçə onillik ərzində İran İslam inqilabınadək din mövzusuna mənfi baxışlar nəticəsində dinə inananlar dindən və onun təlimlərindən uzaqlaşmalı oldular.

---

[1] Bax: Kersi Morisen, İnsanın yaradılış sirri, Rouvire, Həyat və məqsədi olma, Abbas Şeybaninin tərcüməsi.

[2] Alman psixoloqu

[3]Horney (1885-1952) alman psixoloqu, Amerika Psixologiya İnstitutunun təsisçisi.

[4] Karl Rogere (1902-1987) Amerika psixoloqu.

[5] Gordon Allport (1897-1967) Amerika psixoloqu

[6] A.N.Maslow (1908-1970) Amerika psixoloqu.

[7] Siqmund Freyd (1856-1939)

[8] Doktor Humayun Himməti, İmam Xomeyninin(r) dini tanıma yolu, "Keyhan-e fərhəngi", №136, 1376-cı ilin mehr ayı.

[9] Freydin fikrincə Allah zehni bir təxəyyül və Allahpərəstlik özündən asılı olmayaraq Udip düyününün nəticəsidir..., yəni insan aləmlər miqyasında yerin atası təsvirini düzəldir ki, öz rahatlığı və arxayınçılığı üçün ona pənah apara bilsin. Başqa sözlə, dinin mənşəyi insanın arzuları və iman tələb etməsinin nəticəsidir. (Necə ki, Lüdviq Feyerbax (1804-1872) da Allah məfhumunu insan təxəyyülünün nəticəsi sayırdı) Bax: Eyan Barbur, Elm və din, Bəhaəddin Xürrəmşahinin tərcüməsi, səh.293.

Amma çoxlu dəlillər və cari dəyişikliklər bu gerçəklikdən xəbər verir ki, İslam inqilabının qələbəsi və etinasız insanın əvvəlkindən daha çox fitri oyanışı tədqiqat mərkəzləri, elmi dərnəklər və müxtəlif elm sahələrində çalışan alimlərin dinə yönəlməsini yeni bir mərhələyə daxil etmişdir.

Ölkəmizin mütəfəkkirlərindən biri yuxarıdakı gerçəkliyi təsdiq edərək demişdir:

"Əgər siz Avropa və Amerikanın iyirmi il əvvəlki vəziyyətini indiki vəziyyəti ilə müqayisə etsəniz, görərsiniz ki, ümumiyyətlə, müqayisə olunası deyil. Mən hətta yeddi, səkkiz il bundan əvvəlki vəziyyəti indiki vəziyyətlə " müqayisə etdikdə görürəm ki, fərq böyükdür."

O daha sonra əlavə etmişdir:

"Bir neçə il əvvəl Londona (fiziki nisbiliyin izahı) seminara getmişdim. Kosmologiya bəhsi müzakirə olunurdu. Bir belçikalı fizik və filosof kosmologiya modeli haqqında danışarkən Allahın adını çəkdi. Oksford Universitetindən amerikalı fizik dedi: Fizika konfransı Allahın adını çəkməyin yeri deyil! " Mən özüm bunun şahidi idim. Amma indi vəziyyət elə dəyişmişdir ki; "dörd il əvvəl Amerikanın ən böyük elm cəmiyyəti olan və məşhur elm xadimlərinin iştirak etdiyi Amerikanın Elmi Tərəqqi Cəmiyyəti növbəti seminarını keçirirdi. Həmin seminarda ilk dəfə olaraq konfranslarla bağlı keçirilən iclaslardan əlavə, elm və dinin əlaqəsi haqqında da iclas təşkil etdilər. Bu iclaslar o qədər səsli-küylü oldu ki, digər iclasları kölgədə qoydu və birinci seminarın əks-sədasını ört-basdır etdi. Yəni vəziyyət tamamilə dəyişmişdi. Bir zaman din adını elmi, tədris və s. mühitlərdə demək dəbə zidd idi, amma indi belə deyil."[1]

"Mən 1998-ci ildə bir konfransa getmişdim. Orada iki böyük kosmoloq mənə dedilər: "Son illərdə tədqiqatlarda bu nəticəyə gəlmişik ki, elmdə özünə arxalanmaq olmaz və sualların çoxuna cavab vermək üçün Allaha üz tutmaq lazımdır."[2]

---

[1] Doktor Mehdi Gülşəni, "Keyhan" qəzeti, 7/11/1375 və 22/4/1378

[2] Həmin yerdə.

Deyilənlərin təsdiqi üçün Kaliforniya Universitetinin müəllimi professor Brus Monqonun sözlərinə işarə etmək olar. O, II Elmlə dinin uyğunlaşdırılması konqresindəki çıxışında (Hindistan, Yanvar 1996) son illərdə alimlərin dinə və mənəviyyata yönümünün hədsiz dərəcədə artmasına toxunmuş və demişdir:

"Hazırkı əsrin əvvəllərindən elmi metodika sahəsində durğunluq yarandı və xarici quru həqiqətlərin müşahidələri ilə məhdudlaşdı, din və dini təcrübəyə əbədi düşmən gözü ilə baxıldı. Amma xoşbəxtlikdən indiki onilliyin başlanğıcından elmi işlərdə dini və mənəvi məlumatlılığa və təcrübələrə həvəs tamamilə dəyişmişdir."[1]

Dünyanın, xüsusilə Qərbin elmi mərkəzləri və mötəbər universitetlərinin çoxunda baş verən dini baxış və təmayüllərin güclü dəyişikliyi son illərdə belə idi:

"Hazırda bir neçə il bundan əvvəl ibadəti dəyər saymayan Amerikanın Stenfurd Universitetində təxminən üç yüz, beş yüz tələbə müntəzəm olaraq ibadət mərasimlərində iştirak edirlər."[2]

Mövcud statistikaya əsasən, "Fransada milli elmi-tədqiqat mərkəzlərində çalışan mütəxəssislərin yarısının Allaha imanı vardır və böyük bir qismi isə bu mərhələyə yaxınlaşdıqlarını hiss edirlər."[3]

Hazırlanmış məlumatlara əsasən, Kembric Universitetində elm və ilahiyyat mövzusunda məruzələr başlamışdır və 1998-ci ildə elm və din kafedrasının açılması üçün Oksford Universitetinə bir milyon yüz min funt hədiyyə olunmuşdur.

Həmçinin İngiltərənin Leydz Universiteti elm və din təlimləri haqqında ilk təhsil və tədqiq mərkəzini təşkil etmiş, Boston Universiteti isə Amerikada elm, din və fəlsəfə sahəsində doktorluq proqramını həyata keçirmişdir."[4]

1960-1970-ci illərdən etibarən dini məsələlər haqqında psixoloji tədqiqatların yeniləşməsi prosesi son illər ərzində daha da artmışdır. Belə ki, bu illərdə onlarca mötəbər jurnal çap

---

[1] "Ettelaat" qəzeti, 3/4/1376.
[2] "Sürüş" jurnalı, № 635
[3] "Keyhan" qəzeti, elm səhifəsi, 25/9/1370. Fransanın "Novel Obezrovator" qəzetindən götürülüb.
[4] Doktor Mehdi Gülşəni, "Sekular elmdən dini elmə kimi", səh.59 və 60.

olunmuş, onlarca simpozium və seminar keçirilmişdir. Xristian Psixoloqlar Cəmiyyətinin üzvlərinin sayı 1993-cü ildə təxminən 200 nəfər idisə, son illərdə 16000 nəfərə çatmış və humanitar nəzəriyyə sahələrində dinlə bağlı tədqiqatlar İnternet şəbəkəsində xeyli artmışdır."[1]

Keçmişdə elmi psixologiya bu fikirdə olmuşdur ki, xəstələrin müalicəsi zamanı dəyər məsələləri onlardan gizli saxlanmalıdır. Amma təkcə 1987-ci ildən 1993-cü ilə kimi xəstələrin müalicəsində dinin rolu və əhəmiyyəti haqqında 6000-dən çox elmi məqalə çap olunmuşdur."[2]

Həmçinin son illərdə Amerika və Avropa universitetlərinin çoxunda elm və din dərsi təqdim olunmuşdur və bu, "New Scientist"in gəldiyi nəticəyə görə, ən inkişaf edən elm sahəsi olmuşdur!"[3]

"Amerika Siyasi Elmlər Cəmiyyəti (American Political Science Association) də on ildən çoxdur ki, din və siyasət şöbəsini fəaliyyətə salmışdır və hər il bu sahədə yazılan ən yaxşı kitaba mükafat təqdim olunur."[4]

### *Allahsızlıq və maddi dəyərlər dövrünün sona çatmasının başlanğıcı*

İslam inqilabının qələbəsi dini əsas və təlimlərə söykənməklə müasir maddi mədəniyyətin ateist təfəkkürünün dayağını sarsıtdı və alimlərin çoxunun yenidən dini etiqadlara qayıdışı üçün fövqəladə yol açdı, habelə qeyri-dini mədəniyyətdən ciddi məyusluq baş verdi. Fransanın "Hovel obozrovator" qəzeti bu barədə yazmışdır:

"İnformatika və texnika elminin başgicəlləndirici tərəqqiyə malik olduğu indiki zamanda hər gün materialistlər və qeyri-dindarların fikri əsaslarının artan süqutu ilə üzləşirik…

---

[1] Doktor Mahmud Qolzari, "Peqah" jurnalı, 1380-cı ilin tir ayı.

[2] Doktor Ənbər Həqq, Malayziya universitetinin müəllimi, "Dini sağlamlıqda dinin rolu" I beynəlxalq konfransda çıxışından, "Peqah" jurnalı, 1380-cı ilin xordad ayı.

[3] Doktor Mehdi Gülşəni, həmin yerdə, səh.59 və 60

[4] Həmin yerdə.

…Artıq bu, Allahı tanıma deyil ki, elmi məfhumlardan öz xeyrinə istifadə etsin. Bu bir elmdir ki, böyük şövqlə Allahı istəyir."[1]

Məşhur fransız sosioloqu Jül Kopelin fikri isə belədir:

"Təhsilli qeyri-dini insanlar inanırlar ki, qeyri-dindar mədəniyyəti onları çıxılmaz vəziyyətə salmışdır. Bu çıxılmaz vəziyyətin nəticələrini də ağır cinayətlər, boşanma, QİÇS və narkotik maddələr və s. məsələlərdə görürlər, onlar elmlə iman arasında ənənəvi təzadı inkar edirlər."[2]

"Sayntifik Amerikan" aylıq elmi jurnalı bu barədə yazmışdır:

"Həyatın mənası, dəyər və əxlaq işləri ilə bağlı olan məsələlərə cavab verməkdə elmin gücsüzlüyü keçmişdə inkarçılıq və ateist ruhiyyəsinə malik olan alimlərdən çoxunu əvvəlki metoddan uzaqlaşmağa və dini təlimlərə üz tutmağa vadar etmişdir."[3]

### *Alimlər və din gerçəkliyinin dərki istiqamətində artan səylər*

Son illər ərzində bəşərin dünya miqyasında dini inamlara üz tutması ilə yanaşı hazırkı dünya, xüsusilə Qərb mütəfəkkirləri arasında böyük bir hərəkat başlanmışdır. Elmlə dinin qarşılıqlı əlaqəsi sahəsində səhv fikirlərin islahı, eləcə də bəşər həyatında dinin dəyərli mövqeyinin yeni dərkinə nail olma istiqamətində proses getməkdədir.

Din və elmin qarşıdurmasının təkzibi, son illərdə alimlər, elmi-tədqiqat müəssisələri tərəfindən həyata keçirilmiş və keçirilməkdə olan cəmiyyətlərin elmi iftixarına dinin müsbət təsirlərinin təsdiqi məqsədilə çoxsaylı konfranslar, geniş tədqiqat layihələri və çoxlu kitablar bu müddəanın düzgünlüyünə sübutdur: Məsələn, Avropa və Amerikada elm və dinlə bağlı yeni yaranan cəmiyyətləri, tədqiqat mərkəzlərini göstərmək olar."[4]

Yaxud Hindistanda bütün dünyadan olan 1100 nəfər fizik, kimyaçı, bioloq, filosof və ilahiyyatçının iştirakı ilə "Elm və

---

[1] "Keyhan" qəzeti, 25/9/1370

[2] "Suruş" jurnalı, №551, 1370-ci ilin fərvərdin ayı.

[3] "Keyhan" qəzeti, 5/6/1377.

[4] Doktor Mehdi Gülşəni, "Sekular elmdən dini elmə kimi", səh.59.

dinin uyğunlaşdırılması" mövzusunda keçirilən beynəlxalq konqresi qeyd etmək olar."[1] Eləcə də məşhur alimlərdən çoxunun iştirakı ilə Breklidə Kaliforniya Universitetində elmlə dinin əlaqəsinin tədqiqinə həsr olunmuş konfransın təşkil olunması."[2]

Belə ki, Kaliforniyada Din və Təbii Elmlər Mərkəzi axır ki "elm və mənəvi tədqiqat" adlı tədqiqat layihəsinin həyata keçirilməsinə başladı. Bu layihənin rəhbəri Mark Riçardson demişdir: "Bu iş təbiət və din elmləri alimlərinin iştirakı ilə müvafiq konfransın keçirilməsinin başlanğıcıdır. Məqsədimiz dəqiq elmlərin dini etiqadları rədd etməsi məsələsi ilə bağlı alimlərin baxışını dəyişməkdir."[3]

Son illər ərzində elm və dinin əlaqəsi mövzusunda çap olunmuş müsbət baxışlı yüzlərlə kitabdan Qərb mütəfəkkiri xanım Cenifer Trustedin "Fizika və metafizika" kitabını qeyd etmək olar (O, fəlsəfə və elmin fəlsəfəsinə dair çoxlu kitabların müəllifidir). C.Trusted bu kitabda dinə və dini etiqadlara çox müsbət yanaşaraq "din elmin tərəqqisinə mane olmuşdur" yanlış fikrini zehnlərdən təmizləmək niyyətindədir. O, əmindir ki, orta əsrlərdə də elmin iftixarı din fəlsəfəsinə minnətdar olmuşdur."[4]

### *İmam Xomeyni(r) əsri, elm və düşüncədə inqilab*

Burada diqqətəlayiq məsələ budur ki, son bir neçə ildə, xüsusilə İslam inqilabından sonra hazırkı dünyanın müxtəlif elm sahələri alimlərinin dini baxış və təmayüllərində yaranmış qəribə dəyişikliklər həqiqətdə elm və düşüncə sahəsində böyük bir inqilabın baş verməsidir. Təbii ki, bu inqilab müasir alimləri əvvəlkindən daha çox Allaha və ilahi inamlara tərəf qayıtmağa sövq edir.

Amerikanın "Taym" jurnalı 7 aprel 1980-ci il tarixli sayında yazır: "Təfəkkür və düşüncədə sakit bir inqilab baş verməkdədir və Allah qayıtmaqdadır."[5]

---

[1] Həmin yerdə, səh.58.
[2] "Keyhan" qəzeti, 5/6/1377.
[3] "Keyhan" qəzeti, 5/6/1377.
[4] "Rutelc" nəşriyyatı, İngiltərə, London 1994, "Qəbəsat" jurnalından götürülüb.
[5] Doktor Mehdi Gülşəni, həmin yerdə, səh.60

"Sayntifik Amerikan" aylıq elmi jurnalı da qeyd olunmuş dəyişiklikləri araşdırmaqla Kaliforniyada "Elm və dinin əlaqəsinin tədqiqinə həsr olunmuş kofransda müzakirə olunmuş mövzulara toxunaraq yazır: "Konfrans ərəfəsində aydınlaşan çox mühüm məsələ bu idi ki, artıq alimlər dinə adi və məlum inamlar əsasında baxmırdılar. Əksinə həqiqi elmi təcrübələr dairəsində gerçək aləmə təcrübə gözü ilə baxırdılar."

Jurnal daha sonra əlavə etmişdir:

"Belə nəzərə çarpır ki, alimlərin çoxu iki məsələdə razılığa gəlmişlər, birincisi odur ki, Allah mövcuddur və ikincisi budur ki, dinsiz elm löngdir və elmsiz din kor."[1]

Amerikanın "News week" (20 yanvar 1998) jurnalı elm sahəsində qeyd etdiyimiz inqilabı belə bir ifadə ilə yada salır: " Elm Allahı tapır."[2]

### *Dinə yönəlmədə alimlərin təsiri*

Alimlər və elmi-tədqiqat mərkəzləri arasında dini inamların yeniləşməsi müasir insanın Allaha tərəf böyük qayıdış prosesinin tərkib hissəsi olsa da, ictimai məsələlər üzrə şərhçilər qətiyyətlə buna inanırlar ki, elm sahəsində qeyd olunmuş dəyişikliklərin formalaşması, elm və din qarşıdurması zəminində qeyri-həqiqi təsəvvürlərin aradan getməsi ilə müasir insanın dini göstəriş və təlimlərə, təkallahlılıq əqidələrinə diqqətinin artması istiqamətində münasib şərait yaratmışdır.

İngiltərədə çap olunan "Deyli teleqraf" nəşri bu barədə yazır: "İctimai analitiklər deyirlər: İnsanların dinə daha çox diqqət yetirməsinin başlıca səbəblərindən biri budur ki, din və elm keçmişdəki kimi bir-biri ilə ixtilafda deyillər."[3]

---

[1] "Keyhan" qəzeti, 5/6/1377.
[2] Doktor Mehdi Gülşəni, həmin yerdə, səh.60.
[3] "Resalət" qəzeti, 6/3/1376. "Cümhuri-ye Eslami" agentliyindən istifadə edilib.

## 4 – İMAM XOMEYNİ(R) ƏSRİ VƏ DİNİN MÜSBƏT NƏTİCƏLƏRİNƏ ARTAN DİQQƏT

İranda İslam inqilabının baş verməsi ilə dünya bəşəriyyət tarixində bu inqilabın bir sıra mühüm təsirlərinin şahidi oldu. Müxtəlif elm sahələrində çalışan alimlərin bəşərin yaddaşında dinin müsbət nəticələrinin kəşfi zəminində misilsiz fəaliyyətlərinin genişlənməsi və artmasını müasir dünyanın İslam inqilabının əsaslı müraciətləri və imam Xomeyninin(r) göstərişlərindən təsirlənən obyektiv nümunələrindən biri saymaq lazımdır. Alimlərin dini inamlarının qüvvətlənməsi, bəşər cəmiyyətlərinin vəhy təlimlərini ümumi qaydada qəbul etməsi ilə yanaşı, bizim dünyamız bu gün insan həyatının nizamlanmasında elmi-tədqiqat mərkəzlərinin dini təlimlər və imanın xüsusi mövqeyinə maraq və diqqətinin yeni şahididir. Biz bu bölmədə onun yığcam şəkildə təhlilinə başlayırıq.

### *Din bəşəriyyətin yeganə səadət yoludur*

İnsan varlığının həqiqəti üç sahədə – düşüncə, əxlaq və əməldə inikas olunduğundan, peyğəmbərlər də bu üç məsələdə öz nicatverici təlim və göstərişlərini təqdim etmişlər.

**Birinci sahə:** İnsanın düşüncəsi ilə bağlı olan bu sahə etiqadlar, əqidələr və dünyagörüşü əsasları bölməsidir. İlahi peyğəmbərlər insanın "Allah kimdir?  "İnsan kimdir və varlıq necədir? " və s. kimi əsaslı və fitri suallarına cavab verməyə gəlmişdilər.

**İkinci sahə:** Böyük peyğəmbərlər insanın əxlaqi meyarlar çərçivəsində düzgün istiqamətlənməsinin təfsirçi və şərhçisidirlər. Onlar insanda gizli istedadların qayğısına qalmaqla, insan və dünya gerçəkliyinə münasibətdə onun təlim alması və istiqamətlənməsi ilə məşğul olmuşlar. Həqiqətən də həmin dünyagörüşündən əxlaq və əxlaqi normalar müəyyənləşdirilir.

**Üçüncü sahə:** Eyni elmi hökmlərdir ki, istilahda füruiddin adlanır və fiqh (müsəlman qanunvericiliyi) onu izah edir. Ona görə "füruiddin" adlandırılmışdır ki, bu hökmlər etiqadla bağlı

əsasların nəticəsidir. Onun az əhəmiyyət kəsb etməsi başlıca şərt deyil.

Fəlsəfə, mistika, ehkam və əxlaq kimi elmlər iman və əxlaqın əsaslarından qaynaqlanır və praktik təlimatlar da yeni humanitar elmlər, xüsusilə siyasi hüquq və elmlər, idarəetmə, hakimiyyət və iqtisadiyyatın geniş dairəsini əhatə edir.

Həqiqətdə müsəlman qanunvericiliyi dinin həmin elmi və ideoloji hökmləridir ki, İmam Xomeyninin(r) sözü ilə desək, bəşər həyatının beşikdən qəbrə kimi idarə proqramını öhdəsinə götürmüşdür.

Qeyd olunmuş üç sahə insan həyatının əsas sahələrini təşkil edir və bəşər həyatının əsas səyləri, dəyişkən eniş və yoxuşları bu üç sahədə baş verir. Belə ki, hazırkı əsr insanının həyatında mövcud olan əsas çətinlik, problem və boşluqlar da bu üç sahədən biri ilə bağlıdır.

Bu girişi verməkdə məqsədimiz odur ki, din bu üç sahədə iddia sahibi olmuş və böyük peyğəmbərlər də öz ilahi missiyalarına əsasən həmişə dinin faydasını qeyd etmişlər.

Başqa sözlə, insan həyatındakı problemlərin həll olunmasında dinin işə yararlılığı və insanın cürbəcür ehtiyaclarının ödənilməsində dini biliklərin qüdrəti din və dini təlimlərin həqiqətinin nəticəsi ilə bağlıdır; çünki bu təlimlərin kökündə ilahi vəhylər dayanır:

**( ما ينطق عن الهوى ان هو الا وحى يوحى )**[1]

Yalnız Allah-Təala insan həyatının bütün həqiqi xeyir əməllərini və fitnə-fəsadlarını bildiyindən onun elçilərinin ilahi şəriət qanunları və ilahi təlimlər çərçivəsində bəşəriyyətə təqdim etdikləri insanın maddi və mənəvi dərdlərinin müalicəsi üçün yeganə yol və yeganə doğru reseptdir.

### *Maddi məktəblərin çıxılmaz vəziyyəti və dünyanın dinə diqqəti*

Hər gün beynəlxalq teleks ötürücülərində geniş səviyyədə yer tutan xəbərlər, informasiyalar və təhlillərə müraciət etməklə bir mühüm məsələni dərk edirik ki, İran İslam inqilabının təsiri

[1] "Nəcm" surəsi (53), ayə 3; Peyğəmbər(s) istək və həvəs üzündən söz demir, dedikləri bütünlüklə ona nazil olan vəhydir.

nəticəsində bəşəriyyətin dinə meylliliyinin yaranması ilə dünya miqyasında heyrətamiz dəyişikliklər baş verməkdədir.

Bu gün dinə qarşı təlimlərin öz əhəmiyyətini itirməsi və insanın yaratdığı məktəblərin çıxılmaz vəziyyətə düşməsi ilə o artıq hər dövrdən daha çox dünya cəmiyyətinin dolaşıq problemlərinin həllində "Laik" sistemlərinin gücsüzlüyünü dərk edərək öz nicat yolunu dini təlimlərə sığınmaqda görür.

İngiltərə alimi Con Keyn Türkiyəyə səfəri zamanı bu ölkənin nəşrlərindən birinə müsahibəsində qeyd olunmuş gerçəkliyi açıqlayaraq bildirmişdir:

"Qərbdə dövlət mexanizmi iflasa uğramışdır və Laizm də insanların susamış ruhunu doyuzdura bilməmişdir."

O, Nitşeni tənqid edərək əlavə etmişdir:

"Nitşe Qərbdə Allahı öldürmək zərurətini qarşıya qoyanda laizm özünün ən yüksək səviyyəsinə çatmışdı. Amma bu gün görürük ki, Qərb cəmiyyətlərində dini həyat yenidən dirçəlir və din ictimai sahədə fəaliyyətini davam etdirir."[1]

Bu gün ictimai, siyasi, iqtisadi və s. münasibətlərin tənzimlənməsində dinin yararlılığının dünya təzahürü, insanın mənəvi, psixoloji və cismani dərdlərinin müalicəsi və onların qarşısının alınmasında onun xüsusi mövqeyinin kəşfi ilə dinin müsbət nəticələri haqqında tədqiqat işi aparan mötəbər elmi-tədqiqat mərkəzlərinin sayı gündəlik artır.

Qeyd olunan tədqiqatlar dini etiqadlarla mənəvi və cismani sağlamlıq arasında birbaşa əlaqəni təsdiq edir və dini öhdəliklərlə ailə əsasının möhkəmləndirilməsinin zəruriliyini vurğulayır. O, həmçinin həyat şəraitinin qorunması, Qərbin cilovsuz təsirlərinin genişlənməsini nəzarətdə saxlamaq üçün dini və məzhəbi etiqadların müsbət təsirlərini təsdiqləyir.

Bu araşdırmalar əlacsız və öldürücü xəstəliklərin qarşısını almaqda dini təlimlərdən faydalanmağın zəruriliyini xatırladır və mömin şəxslərin dərin xoşbəxtlik hisslərinə malik olduqlarını təsdiq edir.

Bəzi tədqiqatçılar tədris müəssisələrində dini təlimlərə diqqətin artırılmasını tövsiyə etməklə yanaşı, bu təlimlərin təhsil

[1] "Yeni yüz yıl" nəşriyyatı, Türkiyə çapı, 18/5/1997

mühitlərində dərslərin öyrənilməsi prosesinə müsbət təsirini israr edirlər.

### *Qərb alimləri və vaxtilə dinə göstərilən diqqət*

Bəşəriyyətin səadətinin təmini, insanın mənəvi və cismani sağlamlığında din və onun təlimlərinin xüsusi və əhəmiyyətli rolu hələ qədimdən dünya, xüsusən Qərb alimləri arasında məlumdur.

Qərb mütəfəkkirləri arasında dini araşdırmaların əhəmiyyətini açıqlayan kəslərdən Amerika psixiatriyasının atası Beniamin Raşı (1745-1813) göstərmək olar. O bu fikirdə idi ki, havanın tənəffüs üçün nə qədər əhəmiyyəti varsa, dinin insan ruhunun tərbiyə və sağlamlığı üçün bir o qədər əhəmiyyəti var.[1]

Ceymz[2], Yanq[3], Frankl, From və başqaları digər Qərb mütəfəkkirlərindəndirlər ki, hər biri öz növbəsində dini rəftar və etiqadların əhəmiyyətini xatırlatmışlar.[4]

Professor Volfqanq[5] da bu zəmində Almaniya orta məktəblərinin qız və oğlan şagirdlərinin tərbiyəsi üzrə məsul olan Syurix fəlsəfə kafedrasının müəllimi (1897-1913) Fridrix Vilhelm Fosterin (1869-1966) dəyərli və diqqətəlayiq təcrübələrinə işarə edərək bildirmişdir:

Foster əməli surətdə göstərdi ki, dinsiz proqram sistemində cavanların əxlaqi tərbiyəsi üçün hər növ elmi, təcrübi proqramlaşdırma və səylər səmərəsiz və nəticəsiz işdir.

---

[1] Doktor Baqiri Benab, "Əndişe və rəftar" jurnalı, №40, 1374-cü ilin bahar ayı.

[2] William James (1842-1910) Məşhur Amerika psixoloqu.

[3] Karl Gustav Jung. Psixoloq və Freydin məşhur şagirdlərindən.

[4] "Əndişe və rəftar" jurnalı, "Klinik psixologiya və psixiatriya" jurnalı. Doktor Baqiri Benabın məqaləsi, səh.49, №40, 1374-cü ilin baharı.

[5]Almaniyanın məşhur mütəfəkkir və yazıçılarındandır ki, onun tərbiyə və fəlsəfəyə aid əsərləri dünyanın əksər dillərinə tərcümə olunmuş və 250000-dən çox tirajla nəşr edilmişdir.

Volfqanq daha sonra əlavə etmişdir:

O öz ömrünün sonuna kimi bu fikirdə qalmışdı ki, yeniyetmələrin mənlik və şəxsiyyətinin düzgün tərbiyəsi yalnız dinlə əqidənin uyğunlaşdırıldığı sistemdə fayda verə bilər."[1]

### *Dinin yararlılığına inananların tərki-dünya dövrü*

Əksər alimlərin dini etiqadların əhəmiyyəti və müsbət təsirlərinə təkid etmələrinə baxmayaraq, İran İslam inqilabının qələbəsinədək cari gerçəkliklər intibah dövrü dəyişikliklərinin bətnindən çıxmış fikri və mədəni proseslərlə mübarizədə dinin yararlılığına inamın məğlubiyyəti və tərki-dünyalığı aydın şəkildə özünü büruzə verirdi.

Qərbdə kilsə sahibləri tərəfindən din və dindarlığın ləkələnməsi dinin yararlılığını sual altına salmaqla yanaşı, Freyd kimi mütəfəkkirlərin ixtiyarına müstəsna imkan verdi ki, dinə qarşı çıxaraq dini etiqadları "norotik"[2] pozğunluq kimi tanıtdırsınlar. Onlar dindarlığı nəinki insanın ruhi sağlamlığına zərərli hesab edirdilər, hətta onu ruhi sağlamlıq üçün təhlükəli sayırdılar.[3]

Alman alimi professor Volfqanq din və dinə olan imanla qarşılaşma prosesində Qərb dünyasında yaranmış şəraiti təsvir edərək bildirmişdir:

Cəmiyyətdə yaranmış şərait tədricən Allah və onun hökmlərinə imanın öz rəngini dəyişməsinə, yaxud sönməsinə səbəb olmuşdur. Həmin prosesin nəticəsində bu gün elə bir təfəkkür forması ilə qarşılaşmışıq ki, bəyənilmiş həyatın idarə olunması üçün elmi məlumatlılıq və şəxsi məntiqi təfəkkür kifayətdir. Dinlər və əqidə sistemlərinə isə göz yummaq olar."[4]

---

[1] "Keyhan-e fərhəngi", №129.

[2] Neuroticism (əsəbi və ruhi pozğunluqlar)

[3] Bax: Mustafa Həmidiyyə, "Ruhi sağlamlığa dini etiqadların təsiri, səh.34, "Nida" nəşriyyatı, №19 və 20.

[4] "Keyhan-e fərhəngi", №129

***İslam inqilabı və dinin yararlılığına diqqətin artması***

İslam inqilabının baş verməsi, dinin ona vurulan ləkələrdən təmizlənməsi və dinin yüksək təlimləri sayəsində müasir insan dini təlimlərdən öz keçmiş dərdlərinin müalicəsi üçün axtarışa başladı. İngilis alimi Con Keynin sözü ilə desək, qərb cəmiyyətlərində ruhani həyat yenidən dirçəlmiş və din ictimai sahədə öz fəaliyyətini göstərir."[1]

Bugünkü dünyada hamının, xüsusən Qərb dünyasının mütəfəkkir və alimlərinin diqqətini dini göstəriş və əqidələrin fəaliyyət sahələrinə tərəf yönəldən yeni yüksəliş kəmiyyət və keyfiyyət baxımından son bir neçə əsrdə olmamışdır.

Son illər ərzində dinə gündən-günə artan diqqət müxtəlif elm sahələrində çoxsaylı sualların yaranmasına səbəb olmuş və psixologiya elmi də bu təsirlərdən kənarda qalmamışdır.[2]

Bu baxımdan dindar və qeyri-dindarların əxlaq fərqlərinin müəyyənləşdirilməsi üçün "qeyri-dindarların rəftarına dinin təsiri ilə bağlı çoxlu tədqiqatlar aparılmışdır."[3]

Ölkəmizin (İranın) psixiatriya institutunun baş psixoloqu insanın ruhuna və cisminə ali və dini etiqadların müsbət təsirinin getdikcə artmasına işarə edərək bildirmişdir:

Keçən iyirmi-otuz ildə Qərbdə aparılan tədqiqatlar göstərir ki, insan, nə qədər müsbət və ali təmayül və etiqadlara malik olsa, bir o qədər cismani və mənəvi baxımdan sağlam olar və daha az xəstələnər.[4]

İranlı psixiatorlardan başqa birisi qeyd etdiyimiz prosesi açıqlamaq üçün aydın bir misal çəkmişdir:

Bu yaxınlarda məruzə oxumaq üçün Amerikada keçirilən konfranslardan birinə getmişdim. Məni dünyanın mühüm və məşhur mərkəzlərindən sayılan Sent-Lui Universitetinin Ruhi Sağlamlıq Mərkəzi dəvət etmişdi. Söhbət qurtarandan sonra mənə bir kitab hədiyyə etdilər. Bu kitab yenicə çap olunmuş və onu iki nəfər məşhur psixoloq yazmışdı. Kitabın adı belə idi: "Ruhi sağlamlıqda unudulmuş amillər." Bu kitabın müəllifləri

---

[1] Həmin yerdə.

[2] Doktor Markil Arqil. Oksford Universitetinin tədqiqatçısı, elmi-tədqiqat məqaləsi, "Həmşəhri", qəzeti, 14/7/1372.

[3] Həmin yerdə.

[4] Doktor Cəfər Bulhəri, "Keyhan" qəzeti, 22/9/1375

digər tədqiqatçıların köməyi ilə belə bir nəticəyə gəlmişdilər ki, əgər xəstəxanalarda ruhi xəstə kimi yatan şəxslərin 50%-dən çoxunu müalicə etmək istəsək, dindən heç şübhəsiz ki, mühüm amil kimi bəhrələnməliyik. Onlar bu kitabda digər yenilikləri də təqdim etmişdilər. Bu kitabdakı bütün məlumatlar real faktlara əsaslanır. Məsələn, təhlükəli vəziyyət hissi ilə bağlı olan, yaxud iztirab və kədərdən yaranmış xəstəliklər və ürək narahatlıqları dindarlar, habelə qeyri-dindarlar arasında nə qədərdir? Verilən məlumata görə həftədə bir dəfə kilsəyə gedib namaz qılan şəxslər (özlərinin təbiri ilə) daha az problemlərlə üzləşirlər.

Bu psixiator sonda əlavə etmişdir: "Dini etiqad və mərasimlərin müsbət təsirinə diqqət dünyanı ona tərəf qaytarmaqdadır."[1]

Bəli, bu gün dünya, xüsusən Qərb mütəfəkkirlərinin əksəriyyəti açıq-aşkar insanın həyatının nizamlanmasında dinin müstəsna imkanlarından söz açır və bunu təsdiq edirlər.

Amerikanın USL Universitetinin sosioloqu Volter Alen bu sahədə etiraf edərək demişdir:

Biz indi müəyyənləşdiririk ki, dini öhdəliklərin qəbul olunması ailələrin vəziyyətində nə dərəcədə faydalı ola bilər və İslam dininin dəyərləri insanların yüksəliş və kamilliyində və övladların tərbiyəsində böyük təsirə malikdir."[1]

Bu əsasda son zamanlar Qərb tədqiqatçıları xüsusi elm və ixtisasdan danışırlar ki, təkcə ilahiyyat sahəsinin ruhani və mütəxəssisləri (bəşərin mənəvi və cismani dərdlərinin müalicəsi üçün) ondan istifadə edirlər. Belə ki, bu sahədə Qərb tədqiqatçılarından biri yazmışdır:

Bəlkə ilahiyyat sahəsinin mütəxəssisləri və dindar müəllimlər, eləcə də ruhanilər ruhun müalicə və yüksəldilməsi sahəsində elm və ixtisasa malikdirlər ki, psixoloqlar ondan məhrumdurlar.[2]

---

[1] Doktor Qulaməli Əfruz, Namaz seminarı, 72-ci il, "Namaz – xaliq və məxluqun peyvəndi" kitabı, səh.36,37

[1] "Los-Anceles taym" qəzeti, "Resalət" qəzeti, 6/5/1372

[2] Markil Arqil, Oksford tədqiqatçısı, "Həmşəhri" qəzeti, 14/7/1372

## *Dini təlimlərin yararlılığı haqqında tədqiqatlar*
## *Dini dəyərlərə bağlanma bəşər sivilizasiyasının davamı yoludur*

Harvard Universitetinin min nəfər alimi tərəfindən aparılmış tədqiqatların nəticələrinə əsasən, dini dəyərlər həyat problemlərinin həllində həssas rola malikdir. Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annanın birinci müşaviri bu tədqiqatların nəticələrinin açıqlanmasından sonra həyat şəraitinə dair verdiyi müsahibəsində demişdir: Siyasi, iqtisadi və təhlükəsiz həyatımız ən ali əxlaqi və mənəvi dəyərləri hərəkətə gətirməsə və onların daha da zənginləşdirilməsinə şərait yaratmasa, mədəniyyətimiz gələn əsrin sonuna kimi sabit və möhkəm qalmayacaq.

Bu mətbuat konfransında Birləşmiş Millətlər Təşkilatının nümayəndəsi demişdir:

"Allah-Təalanın yaratdığı ən gözəl məxluq kimi öz məsuliyyətimizi yerinə yetirərkən tutduğumuz yol uzaqgörən olmamışdır və biz uçuruma doğru gedirik."[1]

## *Dini dəyərlər və Qərbin mənfi təzahürləri*

Qərb mütəfəkkiri doktor Şumaxer Qərbin iqtisadi inkişafının qeyri-sabitliyi, onun mənfi təzahürləri və bu zəmində Qərb ölkələrini bürümüş çıxılmaz vəziyyətə işarə edərək yazmışdır:

Belə bir çətinlikdən çıxış texnologiya sahələrində yeniləşmə, xammalın məsrəfi və geniş istehsalında tarazlığa riayət və nəhayət, ruhi həyəcanları aradan qaldırmaq məqsədilə dini və əxlaqi dəyərlərə qayıtmağı zəruri etmişdir.[1]

## *Din və ailənin qorunması*

Kanada Statistika İdarəsi tərəfindən aparılmış araşdırmaya əsasən, ardıcıl olaraq öz dini ayinlərini yerinə yetirən və hər həftə ibadətgahlara gedən şəxslər başqaları ilə müqayisədə daha gözəl hisslərə malik olurlar. Bu cür insanlarda daxili iztirab və nigarançılıq son dərəcə azdır və onların nikahları uğurlu olur.

---

[1] "Sübh" aylıq jurnalı, №87, 1377-ci ilin azər ayı

[1] Həyat şəraiti təşkilatının elmi jurnalı, №2, 1369.

Aparılan tədqiqatların nəşr olunmuş nəticələrinə görə, 1970-ci onillikdə evlənmiş adamların 34%-i qeyri-dindar şəxslər bir-birindən ayrılmışdır. Amma dinə bağlı adamlar arasında bu göstərici 15% olmuşdur.[1]

Qərb tədqiqatçılarından biri dindar adamların fəaliyyəti və yaşayış vəziyyətinə dair apardığı tədqiqatların nəticələrinə toxunaraq yazmışdır:

Əksər hallarda dindarların fəaliyyəti qənaətbəxşdir. Onlar daha çox bir-birinin köməyinə tələsir və xeyir, xeyirxahlıq yolunda əllərindən gələni əsirgəmirlər. Başqa sözlə desək, dinə lazım olan dini öhdəlikdir. O, daha sonra əlavə etmişdir:

"Din möminlərin sağlamlıq və xoşbəxtliyinə təsir edir və onlar çox nadir hallarda boşanırlar. Nikah baxımından da çox xoşbəxt olduqlarını bildirirlər."[2]

### *Dinin tələbələrin təhsilində rolu*

BBC televiziya kanalı öz məlumatında bildirmişdir:

Amerikada tibb universitetlərindən çoxu bu fikrə gəlmişlər ki, dini əsas və dəyərlərin tədrisi olmadan tibb dərslərini tədris etmək olmaz!

Bu televiziya kanalı yuxarıdakı xəbərin şərhində əlavə etmişdir:

Həmin universitetlərdən biri Corc Vaşinqton Universitetidir və orada çalışan müəllimlər həm tibbi biliklər, həm də dini-mənəvi dəyərlərdən söhbət açaraq hər iki cəhətin eyni dərəcədə əhəmiyyətli olduğunu vurğulayırlar."

Mövcud statistik hesablamalara əsasən, tibb elmlərini öyrənən tələbələr dini imana malik olsalar, dərslərin öyrənilməsi onlar üçün daha asan olar və gələcəkdə də yaxşı həkim olarlar.

BBC televiziya kanalı daha sonra əlavə etmişdir: Corc Vaşinqton Universiteti Amerikanın otuz universitetindən biridir və hazırda burada tələbələr üçün dini məsələlərlə bağlı xüsusi kurslar keçirlər."[1] Əlbəttə, "Kristian Sayns Monitor" qəzetinin yazdığına görə 2000-ci ildən Amerikanın müxtəlif ali təhsil

---

[1] "Resalət" qəzeti, 28/6/1377.

[2] Doktor Markil Arqil, Oksford Universitetinin tədqiqatçısı, "Həmşəhri" qəzeti, 24/7/1372

[1] "Xəbər" mərkəzi şöbəsi, "Resalət" jurnalı, 19/12/1376

müəssisəsinin 72 tibb fakültəsində mənəviyyat və xəstəliklərin müalicəsi məsələləri ilə bağlı dərslər tədris olunur ki, bu da 1992-ci illə müqayisədə hədsiz artımı göstərir.[2]

### *Dinin QİÇS və əlacsız xəstəliklərin qarşısının alınmasında rolu*

Dünya Səhiyyə Təşkilatı öldürücü QİÇS xəstəliyi ilə mübarizə yollarının müəyyənləşdirilməsi üçün apardığı rəsmi tədqiqatlarının nəticələrini müzakirə edərək bildirmişdir:

Dini təlimlərin vasitəsilə münasib əxlaq normalarına tərəf qayıdış QİÇS-dən qaçmağın, xilas olmağın son çarəsidir.[1]

İngilis həkimi xanım Kuliber "QİÇS-əsrin taunu" adlı kitabında yuxarıdakı gerçəkliyə işarə edərək yazmışdır:

Bir müxbir London xəstəxanalarından birində QİÇS-ə tutulanların sayına nəzarət edən psixoloqdan soruşmuşdu: Bu xəstəliyin atəşində yanan insanlar dini göstərişlərə əməl etsəydilər, bu gün öz yanma və məhv olmalarının şahidinə çevrilərdilərmi?

Psixoloq cavab vermişdi:

Əlbəttə yox, amma sizi Allaha and verirəm, bunu qəzetinizdə mənim dilimdən yazmayın.[2]

### *Dini əqidələrin insanın sağlamlığına təsiri*

İnsanın ruhi və cismani sağlamlığı, habelə dini etiqadlar və dini əqidə arasındakı əlaqələrin aydınlaşdırılması ilə bağlı aparılan genişmiqyaslı tədqiqatlar və əldə olunmuş nəticələr bu gün hər dövrdən daha çox tibb tədqiqatçıları üçün mühüm əhəmiyyət kəsb edir. Aydın olmuşdur ki, insanın Allah-Təala ilə mənəvi əlaqələri, dini ayinlərin ardıcıl icrası və dini əqidələrdən faydalanma insanın ruhi və cismani sağlamlığının

---

[2] "Keyhan qəzeti", 6/10/1380

[1]"Həmşəhri" qəzeti, 11/5/1372, "QİÇS-in qarşısını almaq və onu nəzarətdə saxlamaq üçün dinin rolu kitabının araşdırılması. Dünya Səhiyyə Təşkilatının çapı.

[2] Doktor Əbülfəzl Dərvijə, QİÇS və Qərbdə əxlaq böhranının köklərinin tapılması, səh.90

qorunması, eləcə də onun müxtəlif xəstəliklərə tutulmasının qarşısının alınmasında nəzərəçarpacaq dərəcədə təsirlidir.

Buna görə də insanın sağlamlığının qorunmasında dini əqidələrin müsbət təsirlərinə inamı olan həkimlərin sayı gündən-günə artmaqdadır.

Fransız agentliyinin məlumatına əsasən, Harvard Tibb Məktəbi tərəfindən aparılmış tədqiqatların nəticələri göstərir ki, Amerikada əksər ailə həkimləri dini etiqadların onların müalicə etdiyi xəstələrə faydalı şəkildə kömək etdiyini dərk etmişlər."[1] Amerika Ailə Həkimləri Akademiyasının konfransında müzakirə olunmuş həmin tədqiqatların nəticələri belədir:

"Ailə həkimlərinin 99 faizi sorğuya cavab olaraq bildirmişlər ki, xəstələrin sağalmasında dini etiqadların təsir və gücünə inanırlar."[2]

Bununla bağlı başqa bir məlumatda isə deyilmişdir:

Amerikadakı tibb institutlarından biri bu nəticəyə gəlmişdir ki, xəstələrin müalicəsi üçün "dini imandan" qaynaqlanan mənəvi qüvvələrdən istifadə etmək lazımdır.

Buna görə də həmin tibb institutunun tələbələri saatlarla xəstələrlə söhbət edirlər və onların sözlərini dinlədikcə iman yolu ilə sağalacaqlarına daha çox ümid edirlər.

Bu məlumatda daha sonra deyilir:

Bu institutun məsul nümayəndələri bildirmişlər ki, insanda fiziki sistemlə yanaşı dini etiqadlar və inamların mürəkkəb sistemi də mövcuddur və bu şəksiz hər bir şəxsin fiziki sisteminə təsir göstərir.

Onlar inanırlar ki, həkimlər gələcəkdə xəstələrin müalicə ilə bağlı ehtiyaclarından əlavə, onların mənəvi ehtiyaclarına da əhəmiyyət verməlidirlər.

Buna görə də məşhur Harvard Universitetində çalışan ürək həkimi Hubert Benson öz xəstələrinə ardıcıl olaraq ibadət etməyi tövsiyə edirdi. Çünki onun fikrincə, bu iş xəstələrin sağalmasına kömək edir.[3]

---

[1] "Ruz-e həftom", jurnalı, 17/12/1375.
[2] "Keyhan" qəzeti, Elm səhifəsi, 19/4/1376.
[3] "Süruş" jurnalı, №635.

Xəstələrin sağlamlığının qorunmasında dini etiqadların xüsusi rolu haqqında Qərb həkimlərindən bəzisinin inamı o qədər dərinləşmişdir ki, onlar aydın şəkildə bildirmişlər:

Xəstələrin müalicəsində Allah-Təalanın rolunu nəzərə almayan həkim öz vəzifəsinin icrasında xəsislik etmişdir.[1]

Onlar bu fikri bəyan etmişlər: Görünür ki, iman sizin düçar olduğunuz dərdin dərmanı üçün faydalıdır.[2] Deməli, bu amilə bundan daha çox göz yummaq qəbul olunmayacaq."[3]

### *İnsanın cisminə və ruhuna dinin təsiri haqqında tədqiqatlar*
### *1-Dindarlıqla fiziki sağlamlığın əlaqəsi*

"Çikaqo tribun" (Amerika) qəzeti öz məlumatında "Nəhayət, elm inanır ki, iman müalicə edəndir" – fikrini açıqlayaraq yazmışdır: Gündən-günə artan tibbi tədqiqatlar göstərir ki, güclü dini əqidələrə malik insanlar nisbətən zəif inamlara malik insanlarla müqayisədə daha sağlamdırlar və daha uzun ömürlüdürlər. Bu tədqiqatların nəticəsi bir daha təsdiq edir ki, həmin insanların çox az hissəsi ürək xəstəliyindən vəfat edirlər. Onlar daha tez qəm-qüssəyə qalib gəlirlər, qan təzyiqi aşağı olur, müdafiə sistemləri isə qüvvətlidir.[4]

"Beynəlxalq psixologiya" jurnalı da 1997-ci il oktyabr tarixli sayında yeni tədqiqatların nəticələrini nəşr edərək bildirmişdir:

Dini iclaslarda ardıcıl olaraq iştirak edən yaşlı adamlar iştirak etməyənlərdən iki dəfə çox sağlamdırlar və daha qüvvətli, daha sabit müdafiə sisteminə malikdirlər.

Şimali Karolinada (Amerika) 65 yaşdan yuxarı 1718 nəfər yaşlı adam arasında aparılmış tədqiqatlara əsasən məlum olmuşdur ki, həftədə ən azı bir dəfə dini toplantılara gedənlərdə interlukinin (yaşın artması ilə çoxlu xəstəliklərə səbəb olan

---

[1] Artur Koren Haber, Amerikanın "Brayn şəhərinin psixoloqu, "Süruş" jurnalı №635.

[2] Vaşinqtonun Corc Taun xəstəxanasından doktor Dil Matioza, "Çikaqo tribun" qəzeti, "Cümhuri-ye Eslami"nin xüsusi buraxılışı, 9/10/1377.

[3] Həmin yerdə.

[4] "Cümhuri-ye Eslami" qəzeti, 4/8/1376.

müdafiə sistemində zərərli qan proteinidir) miqdarı belə toplantılara getməyənlərlə müqayisədə yarıbayarı azdır.[1]

"Vaşinqton Taymz" qəzeti də bu barədə yazmışdır:

İmanın sağlamlıqla əlaqəsi haqqında həyata keçirilmiş ən böyük tədqiqatlardan birinə əsasən daha çox iman və açıqürəkliliklə dini ayinləri yerinə yetirən 65 yaşdan yuxarı insanların 40%-dən daha azı yüksək qan təzyiqinə tutulurlar.

Bu qəzet daha sonra əlavə etmişdir:

Ardıcıl surətdə dini mərkəzlərə getmək və müqəddəs səmavi kitab oxumaq nəinki sizin ruhunuza nicat verər, həm də həyatınızı daha da uzun edər.

Bu məlumata əsasən, hər həftə dini mərkəzlərə gedən və dua edən insanlar daha az ürək narahatlıqlarına və ya beyinə qansızmasına düçar olurlar.

"Vaşinqton taymz" Duk Universitetinin tədqiqatçılarından birinin sözlərinə istinadən yazmışdır: "Dini etiqadların müsbət təsiri çox böyükdür."

Bu universitetin kafedra müdiri isə demişdir:

"Bu tədqiqat onu göstərir ki, imanla bədənin əlaqəsi nə qədərdirsə, bədənlə ağılın əlaqəsi də bir o qədərdir."[2]

Son illərdə Amerikanın Boston ştatının Harvard Universitetində "Duanın müalicəvi dəyərləri" adlı konfrans keçirilib. Bu seminarda Harvard Tibb Universitetinin müəllimi və qeyd olunmuş seminarın təşkilatçısı Hobert Benson ibadət və duanın insanın bədəninə müsbət təsirini təsdiq edərək demişdir:

Dua oxumaq beyni hərəkətə gətirir, QİÇS-in nəticələrini azaldır, qan təzyiqini aşağı salır və sonsuzluğu müalicə edir.

Duaların təkrarlanması və beyindən digər fikirlərin uzaqlaşdırılması əksər insanlarda fizioloji dəyişikliklər yaradır.

O daha sonra əlavə etmişdir:

"İnsanların müalicəsində elmlə mənəviyyat arasında fasilə yoxdur, duaları təkrarlamaq tənəffüs miqdarının və beyinin həyəcanlı fəaliyyətinin azalmasına səbəb olur və bəzən bu elə

---

[1] Həmin yerdə.

[2] "Resalət" qəzeti, 14/5/1377

müalicə gücünə malikdir ki, cərrahiyyə əməliyyatı və böyük vəsait tələb edən müalicəyə belə ehtiyacı aradan qaldırır."[1]

Əlbəttə, din və mənəviyyat günəşinin doğduğu əsrdə təkcə Benson ibadət və duanın şəfasından danışmamışdır. Başqa bir məlumatda (bu sahədə nəşr olunmuş yüzlərlə məlumatdan biri) isə oxuyuruq:

Texas xəstəxanasının mütəxəssislərindən biri öz məqaləsində xəstələrdə duanın şəfaverici təsirlərinə toxunaraq 1988-1990-cı illərdə San-Fransisko xəstəxanasının damarlar şöbəsində xəstələrin sağalmasında duanın təsiri ilə bağlı apardığı tədqiqatdan istifadə etmiş və sonda belə yazmışdır:

"Əgər bu dərmanın (dua və ibadət) təsirliliyini etiraf etsək, reseptlərimizdə yazmalıyıq: "Gündə üç dəfə dua edin."[2]

### *Müfəssəl məlumatlar (Duanın sağlamlığa təsiri)*

**Birinci məlumat:** Kanadanın "Toronto star" qəzeti Tom Harmerin duanın fayda və təsiri haqqında yazdığı məqaləni çap edərək qeyd olunmuş mövzunun araşdırılmasına başlamışdır. Belə ki, müəllif bu məqalədə yazır: "Dua gözəgörünməz bir qüvvədir, ancaq buna şübhə ilə yanaşanlar və ya Allaha inanmayanlar bu iddianı məsxərəyə qoyacaqlar." Tom Harmer yazır: "Biz dua edirik, çünki ona ehtiyacımız var və faydalıdır. Bunu bəzi insanlar və ya özümüz əminlik baxımından demirik, bu, mənim şəxsi təcrübəmdir və uzun illərdir onun təsirini çoxlarının həyatında görmüşəm."

O daha sonra əlavə etmişdir ki, Amerikanın şimalında böyük dərmandüzəltmə şirkətləri tərəfindən dərman istehsalında tədqiqat aparmaq üçün milyonlarla dollar sərf olunduğu halda, duanın sağlamlığa təsiri barəsində tədqiqat üçün heç bir vəsait sərf olunmamışdır.

Kaliforniya Universitetinin ürək həkimi Endolf Bayer bu cür xəstələrdən 400 nəfərlik bir qrupu iki hissəyə bölmüşdür.

Həmin qruplarda həkimin nəzarəti tamamilə eyni olduğu halda, xəstəliyin xüsusiyyətləri və bir qrupun üzvlərinin adı

---

[1] "Keyhan" qəzeti, 23/1/1375.

[2] "Henqam" həftəlik qəzeti, №13, səh.13, Tibb və təzkiyyə, №23, 1375-ci ilin qışı

bütün ölkənin könüllülərinə verildi və hər komandadan bu qrupun bir xəstəsi üçün dua etmək məqsədilə beş-yeddi nəfər könüllü dua edən xahiş edildi. On aydan sonra dua olunan qrup yoxlanıldı və müəyyənləşdi ki, beş dəfə az antibiotik istifadə olunmuşdur. Onlarda ağ ciyərin şişkinliyi üç dəfə az müşahidə edilirdi. Digər qrupun on iki nəfərinin süni tənəffüsə ehtiyacı olduqları halda, həmin qrupda (bu işə) tələbat görünmürdü və sonuncu budur ki, bu qrupda laboratoriya dövründə ölənlərin sayı "dua olunmamışlar" qrupundan daha az idi.[1]

**İkinci məlumat:** Kanzas sitidə fəaliyyət göstərən "Yunayted-press" agentliyinin məlumatına əsasən, tədqiqatçılar və həkimlər indi xəstələrin müalicəsində əvvəlkindən daha çox duanın müsbət təsirinə inanırlar.

Amerikanın Kardiologiya İnstitutunun tədqiqatçıları Sent-Luk xəstəxanasında apardıqları araşdırmalara əsasən bu nəticəyə gəlmişlər ki,  dualar xəstələrin şəfa tapması üçün onların daha az dərmandan istifadə etmələrinə və daha tez sağalmalarına imkan verir.

Tədqiqatçılar ürək xəstəlikləri üzrə mütəxəssis Vilyam Herisin rəhbərliyi ilə epilepsiya kimi təhlükəli ürək xəstəliklərinə tutulmuş 990 xəstəni yoxladılar.

Onlar beş qrupdan ibarət könüllü dua edənlər seçdilər ki, hər gün 466 xəstədən biri üçün dua etsinlər. Könüllülərin xəstələrin adları və xəstəliyindən başqa məlumatları yox idi, onları müalicə edən həkimlər də dua etmək proqramından xəbərsiz idilər…

Heris deyir:

"Sağalmaları üçün dua olunan xəstələrin halı yaxşılaşdı. Bu tədqiqatçılar istifadə olunmuş dərmanların sayı və növü, xəstələrin xəstəxanada yatma müddəti, ürək döyüntülərini tənzimləyən aparatdan istifadəyə ehtiyac, sağalma sürəti, xəstənin ölümü və s. kimi 35 tibbi qiymətləndirməyə yenidən baxmaqla əldə olunmuş nəticələrə nəzarət etdilər. Orta hesabla şəfa tapmaları üçün dua olunan xəstələr 11% yaxşılaşmışdılar. "

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 23/4/1373.

Bu məlumata əsasən, "Daxili tibb arxivi" nəşrinin baş redaktoru Ceymz Valen "bu araşdırma yaxşı şəkildə planlaşdırılmış və yazılmışdır" – deyə bildirmişdir.

O daha sonra əlavə etmişdir: "Əgər dua dərman olsa, onda belə bir nəticəyə gəlmək olar ki, bu faydalı dərmandır."

Məlumata əsasən Herisin nəticələri 1980-ci onilliyin axırlarında San-Fransisko şəhər xəstəxanasında həyata keçirilmiş oxşar araşdırmanın nəticələri ilə uyğunluq təşkil edir."[1]

**Üçüncü məlumat:** Tibbdə ruhi əməliyyatlardan istifadəyə maraqlı olan doktor Yelizavet Targ müxtəlif etiqadlı bir neçə nəfərdən xahiş etmişdi ki, bir həftə müddətində gündəlik 1 saat QİÇS-ə tutulmuş iyirmi xəstəyə dua etsinlər. Dua edən könüllülər yalnız xəstələrin adını bilir və onların şəklinə malik idilər. Altı aydan sonra dua olunmuş xəstələrin halı müalicə altında olmayan digər xəstələrin halından daha yaxşı idi. Həmçinin başqaları 68 gün xəstəxanada yatdıqları halda, dua olunmuş xəstələr yalnız on gün xəstəxanada qaldılar. Onların həkimə müraciətləri də azaldı. Məlum oldu ki, dua olunmayan şəxslər 189 dəfə, dua olunanlar isə 26 dəfə həkimə müraciət etmişlər. Eləcə də dua olunmuş adamlar ikinci dəfə infeksiyaya və ya əsəb gərginliklərinə daha az mübtəla oldular.

Doktor Targ xatırlayır: "Bir neçə il əvvəl ürək xəstələri üzərində buna oxşar tədqiqat aparılmışdı və həmin xəstələrə də duanın müsbət təsiri müəyyənləşmişdi."

Qeyd etmək lazımdır ki, doktor Targın apardığı tədqiqatın nəticələri Florida ştatının Klirvater şəhərində keçirilən Amerika Tibbi Psixologiya Cəmiyyətinin konqresində elan olunmuşdu.[2]

### *2- Mənəvi sağlamlığa dini əqidələrin təsiri*

Dini etiqadların, dini ayinlərin insanın fiziki sağlamlığı ilə əlaqəsinin öyrənilməsi istiqamətində aparılmış tədqiqatlardan əlavə, insanın ruhi sağlamlığına dini iman və dindarlığın təsirinin araşdırılması ilə bağlı geniş tədqiqatlar da həyata

[1] "Cümhuri-ye Eslami" qəzeti, 23/12/1376.
[2] "Cümhuri-ye Eslami" qəzeti, 23/12/1376.

keçirilmişdir. Bu tədqiqatların müsbət nəticələri psixologiya və psixioterapiya elmini də geniş şəkildə mütəəssir etmişdi.

Burada bununla bağlı olan bəzi məlumatları təqdim edirik:

İngiltərənin "İndipendent" qəzeti son zamanlar yuxarıdakı mövzu ilə əlaqədar olan bir tədqiqat layihəsinə istinadən yazmışdır:

"Dini etiqadlara malik olmaq insanın daha az kədərlənməsinə və öz ruhi sağlamlığını qorumasına səbəb olur. Məsələn, məscid və ya kilsəyə gedən insanlar heç vaxt belə yerlərə ayaq basmayanlarla müqayisədə daha sağlam olurlar, xəstəliklərdən də tez qurtulurlar və cəmiyyətdə də özlərinə layiq yer tuturlar."

Qəzet iman, namaz və dini mətnlərin qiraətini insan etiqadlarının yaxşı və faydalı tərəfləri kimi sadalayaraq yazmışdır:

"Aparılmış araşdırmalara uyğun olaraq məlum olmuşdur ki, ruhi narahatlıqlardan əziyyət çəkən adamların çoxu dini mühitlərdə iştirak etməklə sakitlik qazanırlar."[1]

Amerika Duk Universitetinin psixiatoru və dini etiqadların müsbət təsiri sahəsində aparılmış tədqiqatlar layihəsinin rəhbəri Doktor Harold Kuinq əldə olunmuş nəticələrə toxunaraq demişdir:

"Kilsə, ya sinaqoqa (və ya məscidə) ardıcıl surətdə gedən adamlar ruhi baxımdan daha sağlamdırlar və həddən artıq güclü müdafiə sisteminə malikdirlər."[2]

İnternet şəbəkəsinə daxil edilmiş başqa bir məlumatda isə ruhi xəstələrin müalicəsi üçün lazımi şəraitin yaradılmasında dini rəhbərlərin bacarıqlarına toxunularaq yazılmışdır:

"Psixoloqlar bu nəticəyə gəlmişlər ki, dini etiqadlar belə xəstələrin müalicəsi üçün münasib bir yol tapa bilər və çünki onlar dini etiqadın əsaslarına malik olmaqla daha rahat müalicə olunurlar."[3]

---

[1] "Keyhan" və "Cümhuri-ye Eslami" qəzetləri, 14/7/1378. "Cümhuri-ye Eslami" agentliyindən istifadə edilib.

[2] "Beynəlxalq psixiatriya" jurnalı, oktyabr, 1997 və "Cümhuri-ye Eslami" qəzeti, 4/8/1376.

[3] "Entexab" qəzeti, 2/2/1378.

Oksford Universitetinin tədqiqatçısı doktor Markil Arqil də bu sahədə öz tədqiqatlarının nəticələrini belə açıqlamışdır:

"İmanlı və dindar təbəqələr arasında intiharın miqdarı digər təbəqəyə daxil olan insanların sayı ilə müqayisədə daha azdır. Yaşlı möminlərin, xüsusilə dul və subayların sağlamlığı daha çox diqqəti cəlb edir."[1]

Kanada radiosu da ruhi xəstəliklərin müalicəsi ilə bağlı proqramında bir psixiatriya tədqiqatçısına istinadən bildirmişdir:

"Ruhi və əsəbi xəstələrin təxminən 70 faizi mənəvi dəyərlərə qayıtmaqla müalicə olunurlar."[2]

### *İslam mədəniyyətində dini iman və etiqadların şəfavericiliyi*

Bu gün tədqiqat mərkəzlərinin təkid etdikləri din və Allaha imanın şəfaverici xüsusiyyətləri mötəbər İslam mətnlərində yazılmış gerçəklikdir. Məsələn, Həzrət Əmir(ə) öz müqəddəs açıqlamasında Allah-Təalaya xitabən hələ sirləri açılmayan aləmə toxunaraq demişdir:

" يا من اسمه دواء و ذكره شفاء" [3]

Ustad Şəhid Murtəza Mütəhhəri Həzrət Əmirin(ə) bu mövzu ilə bağlı başqa bir fikrini də açıqlayaraq buyurmuşdur: "İmanın başqa bir təsiri vücud və canın sağlamlığıdır."

Əli(ə) möminlik haqqında buyurur:

دواء داء قلوبكم و شفاء مرض اجسادكم

"Möminlik ruhi xəstəliyin dərmanı, cismani xəstəliklərinizin şəfasıdır."

Ustad Şəhid Murtəza Mütəhhəri "Əlbəttə məlumdur ki, iman toz dərman, həb və ya kapsul deyil" - söyləyərək buyurmuşdur:

"İnsan vücudunun və ruhunun sağlamlığı imanla sıx bağlıdır. Bu gün xəstəxanaları dolduran ruhi xəstələrin sayının artması və onların getdikcə daha da çoxalması mövzusu dövrün sosial məsələlərindən biri sayılır. Statistik hesablamalar göstərir

---

[1] "Həmşəhri" qəzeti, 14/7/1372

[2] CBC radiosu, dekabr 1998, Kanada, Seyyid Əhməd Rəhnəmayi, Qərbşünaslıq", səh.111

[3] "Kumeyl" duası; "Ey Allah, adın dərdlərin dəvası və zikrin xəstəliklərin şəfasıdır." ("Məfatihul-cinan")

ki, bu xəstəliklərin böyük əksəriyyəti, Allaha iman və ali başlanğıca saf etiqaddan bəhrələnməyən təbəqə arasındadır."

O daha sonra demişdir:

"Bu ruhi xəstəliklərin mənşəyi ictimai məhrumiyyət və aldadılma hissləridir və iman profilaktik dərman hökmünə malikdir. Əlbəttə, məqsəd bu deyil ki, imanın zərurəti bütün məhrumiyyətlərə təslim olmaqdır, [bəlkə] məqsəd budur ki, iman olduqda məhrumiyyətlər insanı əldən salmır və onun tarazlığını saxlayır."[1]

Məsumların(ə) hədislərində də Quran və dualarla şəfa istənilməsi dəfələrlə vurğulanmışdır. Quranın göstərişləri və pak imamların(ə) hidayətinin bir hissəsi şəfa diləmək mövzusuna həsr edilmişdir. Belə ki, Əllamə Təbatəbayi "İsra" surəsinin 72-ci ayəsində toxunulan

**(و ننزل من القرآن ما هو شفاء و رحمة للمؤمنين و لا يزيد الظالمين الا خسارا)**

"Sizə nazil olan Quran möminlər üçün şəfa və rəhmətdir, zalımlar üçün xəsarətdən başqa bir şey artırmaz!" – fikrini xatırladaraq buyurmuşdur:

"Digər təfsirçilərin dediyi sözlərdən biri budur ki, bu ayədəki şəfadan məqsəd cəhalət, şübhə, şəkk, çirkin nəfsani adətlər və fiziki xəstəliklərin daxil olduğu ruhi xəstəliklərin müalicəsidir."[1]

Mərhum Təbərsi (hicri tarixi ilə VI əsrin böyük şiə alimidir) dəyərli "Məkarimul-əxlaq" kitabında ruhi və fiziki xəstəliklərin müalicəsi üçün kömək umulan ayə və duaları tövsiyə edən müqəddəs hədisləri toplanmışdır."[2]

Həmin kitabda İmam Sadiqin(ə) aşağıdakı hədisindən istifadə olunmuşdur ki, Həzrət tövsiyə etmişdir: "Əgər bir şəxs fiziki xəstəliyə mübtəla olsa, əlini ağrıyan yerə qoyub şəfa tapmaq üçün bu duanı oxusun:

**" اللهم انى اسئلك بحق القرآن العظيم الذىنزل به الروح الامين و هو عندك فى ام الكتاب لدينا لعلى حكيم ان تشفينى بشفائك و تداوينى بدواك و تعافينى من بلائك"**

Bu dua üç dəfə oxunduqdan sonra Məhəmmədə və Məhəmmədin(s) ailəsinə salavat göndərilir."[3]

---

[1] "İyirmi söhbət" səh.155
[1] Əl-Mizan, c.13, səh.255
[2] Şeyx Rəziəddin Təbərsi, "Məkarimul-əxlaq", səh.363-394
[3] Həmin yerdə, səh.390

Müqəddəslik və paklıq nümunəsi olan Əhli-beytdən daxil olmuş hədislər təbii yollarla xəstəliklərin müalicəsini tövsiyə etməklə yanaşı, ayə və duaların şəfavericiliyini də xatırlatmışlar.

Buna görə də dualardan və Qurandan şəfa diləməyin kökü müsəlmanların tarixindədir. "Tibb tarixi" kitabında Qutrinin (tarixçi) Mənsuri xəstəxanası haqqında dediklərinə istinadən yazılmışdır:

"Əlli nəfər (Quran oxuyan) xəstəxana mühitində gecə-gündüz Quran oxuyurlar."

***Ayə və duaların şəfavericiliyi haqqında araşdırmalar***

Qurani-Kərim, dualar və dini etiqadların şəfavericiliyinin təsiri haqqında aparılmış tədqiqatların çox müsbət nəticələri vardır və bu fəslin gözəl sonluğu üçün onlardan bəzisini qeyd edirik.

**Birinci məlumat:** 1373-cü ildə Pedaqoji universitetdə Qurani-Kərim səsinin "xəstəliyin azalmasına təsirinin miqdarının araşdırılması" ilə bağlı tədqiqat aparıldı və müsəlmanların rəhbərindən (Allah onun himayəsini bizim üstümüzdən əskik etməsin) yazılı icazə aldıqdan (Fitva 12061)sonra birinci tədqiqat işi kimi tibb elmlərində dini məfhumlardan istifadə icra mərhələsinə daxil oldu.

Bu tədqiqatda qarın cərrahiyyəsindən sonra xəstələrin ağrısının azalmasında Misir Quran oxuyanı (qaresi) ustad Şəhat Məhəmməd Ənvərin ruhlandırıcı səsi və müqəddəs "Yusif" surəsindən (7-23-cü ayələr) istifadə olundu. Xəstələrin ağrısı fizioloji əlamətlər üzrə yoxlanmaqla yanaşı, "visual anaicque scaie" vasitəsilə ölçüldü. Maqnitofon və patefonla müdaxilə tədqiq olunan vahidlərə eşitdirildi.

Tədqiqatın nəticələri göstərir ki, qarnın cərrahiyyə əməliyyatından sonra Qurani-Kərimin səsi ağrının azalmasında ürəyə yatan dini, mistik bir ahəng, ritmik səs kimi qəribə təsirə malikdir."[1]

[1] Əlirza Nikbəxt Nəsrabadi, feldşerlik üzrə magistr diplom işi, Pedaqoji universitet, 1373-cü il. Qarın cərrahiyyə əməliyyatından sonra ağrının azalmasına Qurani-Kərim səsinin təsiri miqdarının tədqiqi.

Amerika müsəlmanlarından biri bu barədə bildirmişdir ki, o, nəzarət qrupu ilə müqayisədə təcrübi qrupun miqreninin azalmasında Quranın avazla qiraətinin təsirini göstərə bilmişdir."[2]

**İkinci məlumat:** 1991-ci ildə "Britiş" jurnalında "Müqəddəs Quranın avazla qiraətindən istifadə" edilərək radio frakans iynə terapiyası üsulu ilə xərçəngin müalicəsinə dair tədqiqat işi çap olundu.

Bu tədqiqatda doktor İmam bir tibbi qrupla səkkiz il müddətində böyük səbrlə yarımtəcrübi, bəlkə də tibb elmində ilk dəfə olaraq dindən istifadə sahəsində araşdırmaya başladılar.

Tədqiqatın aparılması qaydasına əsasən Qurani-Kərimdən müəyyən ayələrin avazla qiraətini "Yasin" surəsinin 1-19-cu ayələri) trans diversinin köməyi ilə radio dalğaları şəklində xəstənin bədəninin iynə terapiyası aparılan nöqtələrinin üzərinə ötürürdülər və hər xəstə üçün bir həftə ərzində gündəlik on dəqiqə bu iş davam edirdi.

Tədqiqat səkkiz il müddətində 20-80 yaş arasında olan və xərçəngin müxtəlif növlərinə tutulan 75 xəstə üzərində aparıldı.

Bu xəstələrdən 64-nün üzərində aparılan patoloji və travmatoloji yoxlamalarla onların ziyanlılığı sübut olunmuşdu və onkoloqlar onları ənənəvi müalicə üsulları ilə müalicə etmişdilər. Xəstələrin əksəriyyəti uşaqlıq və döş xərçənginə tutulmuşdular, araşdırmanın sonunda bu nəticəyə gəlindi ki, xəstələrdə (ağrının sakitləşməsi, yuxunun yaxşılaşması, ürəkbulanma və qusmanın aradan qaldırılması, hərarətin azalması və yaranın sürətli sağalması) kimi kliniki müalicənin aparıldığı və simptomların azalması müşahidə olundu. Bundan əlavə, aparılan patoloji yoxlamalara əsasən verilən cavabların 20 faizi mənfi olmuş, 40 faizində isə müalicənin uğursuz olduğu aşkarlanmışdır."[1]

**Üçüncü məlumat:** "Ölkəmizin psixi sağlamlıq mütəxəssisləri tədqiqatlar və araşdırmalar aparmaqla belə bir nəticəyə

---

[2] Murtəza Məntiqi, "İslam tibbinin daxilində qəribə dünya, İslam və İranda tibb tarixi" mövzusunda beynəlxalq seminar, 1371-ci il.

[1] Doktor Sanei Nəsrabadi, "İslam tibbi araşdırmalarında Quranın yüksək mövqeyi", "Tibb və təzkiyyə" jurnalı, №23, 1375-ci ilin qışı, səh.69-70.

gəlmişlər ki, dini etiqadların insanların ruhi sağlamlıq və sakitliyinə müsbət təsiri vardır.

Bu araşdırmada yoxlanılan insanlar Şiraz Universitetinin ədəbiyyat və humanitar elmlər fakültəsinin tələbələri idi. Belə ki, ümumi dərs siniflərindən yüz qız və yüz oğlan tələbə təsadüfi şəkildə seçilmişdilər. Onların yaş həddi 18-35, orta yaş həddi isə 25-27-dir.

Bu araşdırmada MHO anketindən istifadə olundu və bu anketdə iztirab narahatçılığı, xəstəliyin qorxusu, vasvasılıq və psixozun miqyasları qeyd olunmuşdu.

Həmçinin dini dəyərlərin ölçülməsi üçün alnurt, vernon və lindezi dəyərləri anketi də istifadə olundu. Bu araşdırmanın nəticələri göstərdi ki, daha yüksək dini təmayülə malik olan tələbələr daha çox sakitliyə malikdirlər və onların ruhi sakitliklə dini dəyərləri arasında mənalı bağlılıq mövcuddur."[1]

**Dördüncü məlumat:** 1376-cı ilin mehr ayında İranın Gigiena, Müalicə və Tibbi Təhsil Nazirliyinin mütəxəssislərindən biri tərəfindən Məkkə və Mədinənin mənəvi məkanlarının Allah evinin zəvvarlarının mənəvi və psixi sağlamlığına təsiri üzərində tədqiqat aparıldı və bu araşdırma çox müsbət nəticələrə malikdir. Aparılan tədqiqatlar bir daha müqəddəs və mənəvi Məkkə və Mədinə zəvvarlarının ruhi sağlamlığına mühitin dərin təsirlərindən bəhs açır."[2]

---

[1] "Keyhan" qəzeti, 21/9/1378

[2] Bax: "Miqat" jurnalı, №25, 1377-ci ilin payızı.

# ÜÇÜNCÜ FƏSİL:

# MÜASİR İNSANIN DİNƏ VƏ MƏNƏVİYYATA QAYIDIŞININ SƏBƏBLƏRİ

Müasir insanın İslam inqilabına üz tutması elə bir təzahürdür ki, onun amillərini insanşünaslıq və sosiologiya baxımından araşdırmaq olar. İnsanın taleyini, ehtiyac və istedadlarını öyrənməklə onu təbiiliyə səsləyən, puçluqdan xilas edən, həyatını nizamlayan sədaqətli çağırışlara əsasən onun taleyini təhlil etmək olar. Bu fəsildə insanın dini və mənəvi yönümü amillərini aşağıdakı mövzular əsasında araşdıracağıq:

İnsanın həqiqəti axtarma fitri hissi və onun hərtərəfli məktəbə ehtiyacı;

İnsanın ruhi və mənəvi boşluqdan məyusluğu

Maddi mədəniyyətin gündən-günə artan nizamsızlığından məyusluq

Maddi mədəniyyətin əxlaqi və mənəvi tənəzzülündən

Məyusluq.

## BİRİNCİ AMİL: HƏQİQƏTİ AXTARMA

İnsan həmişə öz ilahi təbiətinin tələblərinə uyğun olaraq varlıq həqiqətlərinin və kainatın sirlərinin öyrənilməsi axtarışında olmuşdur.

Həmin stimul onu bitkilər və heyvanlar cərgəsindən ayırır, çünki əsasən insan olmaq və insaniyyət məqamına qovuşmağın zərurəti varlığın rəmz və sirrinin daimi axtarışıdır.

Ümumiyyətlə demək olar ki, tarixin keçid məqamlarında materiya və həyat xətlərinin kəsişdiyi məkanda öz "məni"ni şadlıq, kədər və zəruri cazibələrə qapılmaqdan üstün tutan və özü üçün həyatı müəyyənləşdirə bilən hər bir ağıllı insandan ötrü həyatın məqsədi və fəlsəfəsi barədə sual yaranır.[1]

Həyatın məqsədi və fəlsəfəsi ilə bağlı yaranan sual, məxluq və varlıq məchullarını öyrənmək narahatlığı məlumatlı və ağıllı insanların mənəvi həyatının nişanəsi olmuş və olmaqdadır:

Gecələr fikir məni alanda
Qəlbin əhvalından xəbər soranda
Soruşdum dünyaya gəlişim nəymiş?
Vətəndə yaşayan yurdsuz olarmış?
Yarandım nə üçün yolum nə, mənzilim nə?
Fikir məni apardı, fikrin nə, xəyalın nə?[1]

### *1 – İnsanın varlığın həqiqətlərinə əli çatmamasının zərərləri*

Müasir insan həmin qanuna və dəyişilməz təbii və tarixi uyğunluğa əsasən bir an belə məxluqun həqiqətinin və varlığın müəmmasının dərk olunmamasından yaranan iztirabda sakitlik tapmamış və fitri həqiqəti axtarma hissi həmişə onu bu sahədə çoxsaylı sualların əhatəsində (Allah, məxluqun sirri və s. haqqında) qoymuşdur.

Bu inkarolunmaz gerçəklikdir ki, insan dinin zalımcasına zorla qəbul etdirilmiş və təhrif olunmuş guşənişinliyindən yaranan mənəvi məhrumiyyətə düçar olduğu texnologiya əsrində dünya həqiqətlərinə əli yetməkdə özünü son dərəcə

---

[1] Əllamə Məhəmməd Tağı Cəfəri, "Fəlsəfə və yaşayışın məqsədi", səh.16

[1] Qəzəl Mövləviyə məxsusdur, Doktor Zəbihollah Səfa, "İran elmləri və ədəbiyyatı tarixi", səh. 173.

gücsüz və aciz görür. Buna görə də həqiqəti axtaran insanların çoxunun həyatında həqiqi sakitlik aradan getmiş və çoxlu əqli və ruhi zərərlər onları bürümüşdür. Onun bir nümunəsini geniş təhriflərin qurbanı olmuş səmavi din və ayinlərin ardıcıllarının dönüklüyündə müşahidə etmək olar.

Belə ki, İntibah dövründə və ondan sonra xristianların çoxunun dönük çıxmasının əsas səbəbi kilsənin kainatın sirlərini və məxluqun nizam qaydalarını düzgün şərh edə bilməməsində gizlənmişdir:

Bertrand Rassel məşhur "Nə üçün xristian deyilik" əsərində xristian əqidələrinin qeyri-kamilliyi, xüsusilə Allahın varlığına ilkin səbəbdə qeyri-müəyyənliyi öz dönüklüyünün əsası sayır.[1]

Yaxud məşhur Qərb jurnalisti Uryana Falaçi dini istibdad və kilsənin Allahı xoşagəlməz təsvirini özünün dinə laqeydliyinin səbəbləri bilir."[2]

Ustad Şəhid Murtəza Mütəhhəri bu məsələni açıqlayarkən buyurmuşdur: "Kilsə istər ilahiyyatda təqdim olunmuş naqis məfhumlar baxımından, istərsə də insan kütlələri, xüsusən alimlər və azad fikirlilər təbəqəsi ilə qeyri-insani rəftarı baxımından xristian dünyasının, qeyri-müstəqim şəkildə qeyri-xristian dünyasının materializmə təmayülünün əsas səbəblərindəndir.

...Kilsə Allaha insan təsviri verdi və Allahı insanlara bəşər formasında tanıtdırdı. İnsanlar kilsənin dini nüfuzunun təsiri altında uşaqlıqdan Allahı həmin insani və maddi çərçivələrlə qəbul etdilər və elmi inkişafdan sonra dərk etdilər ki, bu fikirlər elmi, həqiqi və əqli ölçülərlə uyğun gəlmir…və dini məfhumlar elmi miqyaslarla düz gəlmədiyindən fikri kökündən inkar edirdilər.

Ustad Şəhid Murtəza Mütəhhəri bu prosesin bəzi dəlillərini saymaqla əlavə etmişdir:

"Allahın varlığının sübutu" adlı bir kitab vardır ki, müxtəlif sahələrdə çalışan qırx mütəxəssis alimin qırx

---

[1] Ustad Şəhid Murtəza Mütəhhəri, "Materializmə təmayülün səbəbləri", səh.126

[2] Uryana Falaçi, "Heç vaxt doğulmamış uşağa məktub", səh.5

məqaləsindən ibarətdir… Volter Oskar Lendberq adlı alim allahşünaslıq haqqında elmi bəhs edir və bununla yanaşı "Nə üçün alimlərdən bir qrupu materializmə yönəldilər" mövzusunda araşdırma aparır. İki səbəbi qeyd edir ki, biri bizim dediyimiz səbəbdir – yəni evdə, yaxud kilsədə bu ad və ünvanla insanlara naqis məfhumları öyrədirdilər."[1]

Həmin tarixi gerçəkliyə əsasən, Qərb tarixi dəyişikliklərinin şərhçilərindən çoxu bu əqidədədirlər ki, Qərb sekularizmi orta əsrlərdə[1] təhrif olunmuş xristianlığın ətəyindən baş qaldırmış və onun qeyri-müəyyən və naqis təlimləri istiqamətində inkişaf etmişdir.

### *2 – Dinçiliyin məqsədinin aydınlaşdırılması*

Müasir insanın xatırlatdığımız dinçiliyi bəşəriyyətin dinin mahiyyətinə yenidən qayıdışı mənasındadır ki, təkallahlılıq, qeybə iman, ilahi peyğəmbərlərin peyğəmbərlik missiyasının təsdiqi və s. kimi bütün ilahi dinlər arasındakı həmin müştərək əsas və zəruri məsələlərdən təşkil olunmuşdur.

**( قل آمنا با لله و ما انزل علي ابراهيم و اسماعيل و اسحاق ويعقوب و الاسباط و ما اوتي موسي و عيسي و النبيون من ربهم لانفرق بين احد منهم و نحن له مسلمون)** [2]

İnqilabın müdrik rəhbəri də bu məsələyə toxunaraq buyurmuşdur:

"Bu gün siz diqqət edirsinizmi dini stimul, dinə maraq, mənəviyyat, xüsusilə dinin müştərək və xalis hissəsinə diqqət, yəni mənəviyyatın əxlaq tərəfi və ona bağlılıq dünyanı bürümüşdür və gündən-günə də artmaqdadır."[3]

İntibah dövründə də inamlarda xristianlığın ayrılmaz hissələri kimi qəbul olunmuş xurafatdan başqa, dini mahiyyət

---

[1] Ustad Mütəhhəri, həmin yerdə, səh.71 və 72

[1] Orta əsrlər (Middle Ages) (1300-1325) IV əsrdən XIX əsrə qədər, yəni intibah dövrünə kimi davam edən Qərb tarixinin nisbətən uzun dövrü.

[2] "Ali-İmran" (3) surəsi, ayə 84; "De! Yeganə Allaha və Allah tərəfindən İbrahim və İsmayıl və İshaq və Əsbata nazil olana, Allah tərəfindən Musa, İsa və peyğəmbərlərə verilənə iman gətirdik, onların heç biri arasında fərq qoymuruq və onlara təslimik.

[3] İslam inqilabı mühafizəçiləri ilə Ayətullah Xameneinin görüşündə, 21/8/1378.

kəsb edən məfhumlar – təkallahlılıq, qeybə iman, axirət dünyası, bəndəliyin və itaətkarlığın zəruriliyi kimi peyğəmbərlərin təlimləri də inkar olunurdu.

Ümumiyyətlə, Qərbdə imanın tənəzzülünə səbəb dini mahiyyət və peyğəmbərlərin təlimlərindən ayrı olan xurafat və əlavə şeylərin inkarı yox, dinin mahiyyətinin və sütunlarının nəzərə alınmamasıdır.

### *3 – Kilsənin mənfi fəaliyyəti*

Dinlərin fəlsəfəsi haqqında nəzəriyyəçilər tərəfindən irəli sürülən şübhələrin əsas hissəsi kilsənin mənfi fəaliyyəti və məfhumların naqisliyinə əsaslanır ki, din çərçivəsində onları təbliğ etmişdilər. Bu səbəbdən "sekularizm" din və onun əsas məfhumlarının təhrifində kilsənin sapınmasından yaranmışdır və bu iki sapınmış cərəyandan hər biri öz növbəsində insanın mənəvi dəyərlərdən və etiqaddan məhrum edilməsinə əsaslanır.

### *4 – Qərbpərəst ziyalılar və avropalıların köhnə sözlərinin təkrarı*

Daxili qərbpərəst ziyalılar inqilabın aşkar düşmənləri ilə yekdillik siyasətini qəbul edərək dini dəyərlərə zərbə vurmaqla onları zəiflətmək üçün səs vermə, təsirləri yönəltmə və nəzəriyyələri qəbul etmə yolunu tutmuşlar ki, onların əsas vətəni intibah dövrü Avropası və o dövr kilsə sahiblərinin hökmran süst və qeyri-məntiqi əqidələri və dəyərsiz fəaliyyəti olmuşdur.

Dahi rəhbər İslam dininin yararlılığını inkar edən bəzi qərbpərəst ziyalıların mənfi fəaliyyətinə toxunaraq buyurmuşdur:

"Bu gün gördüyünüz kimi, fikir, düşüncə və siyasət meydanına yenicə daxil olanların dilə gətirdikləri fikirlər XIX əsr Avropa filosof və siyasətçilərinin sözləridir və onlar elə xəyal edirdilər ki, dinin [işi] bitmişdir!"

"Bunların təcrübəsi göstərirdi ki, xurafat, siyasət və qaranlıqlara qarışmış din elmin hücumu qarşısında tab gətirə bilmədi [buna görə] əridi və aradan getdi. Bunlar təsəvvür etdilər ki, din insanlar arasında harada mövcuddursa, onların Avropa və Qərbdə malik olduqları həmin nümunənin eynidir. Həmin xristianlıq, həmin dindarlıq, həmin təəssüblər eyni

zamanda həmin təəssüblərin daxilində olan çoxlu fəsadlar. Bunlar [həmin əsasla] düşünürdülər ki, dinin [əsası] aradan getmiş və dünyada din məsələsi tamamilə həll olunmuşdur! "[1]

Bu gün xalis İslamın qüdrətli ocağında dinin siyasətdən ayrılığı, dində nisbilik və s. kimi məfhumları təbliğ edib yayan qərbpərəst ziyalıların fikir mənbəyi və mahiyyətinin daha çox aydınlaşdırılması üçün mərhum Əllamə Məhəmməd Tağı Cəfərinin bu barədə dediyi sözlərə toxunmaq kifayətdir. O, 1374-cü ildə "Süruş haqqında (onun əqidə və fikirləri) sizin fikriniz necədir?" məzmunlu suala cavab olaraq buyurmuşdur:

"Onun dediyi sözlər eynilə Devid Hyumun[2] XVII əsrdə dediyi sözlərdir. Bertrand Rassel[3] Devid Hyumun fikirləri haqqında mənim özümə demişdi: Bir zamanlar Devid Hyumun əsassız nəzəriyyələrinə cavab vermək Qərb alimləri üçün əyləncə vasitəsinə çevrilmişdi. Belə ki, asudə vaxtlarını tum çırtlamağa sərf edən kimi, Hyumun dolaşıq və əsassız nəzəriyyələrinə cavab verirdilər."[4]

Dini etiqadları sual altına almaq və dini inamlarla bağlı çoxlu dolaşıqlıq yaratmaq istiqamətində ölkənin bəzi qərbpərəst ziyalılarının mənfi və sual doğuran fəaliyyəti o dərəcədə biabırçı idi ki, hətta Qərbin İslamı yeni qəbul etmiş mütəfəkkirlərinin şiddətli etirazına səbəb olmuşdu.

Almaniyanın Bermen Politexnik İnstitutunun prorektoru və uzun illər Qərbin din əleyhinə çıxan filosofları ilə bilavasitə üzləşən və İslamı yenicə qəbul etmiş professor Yuves Usves İranın qərbpərəst ziyalılarının ləyaqətsiz fəaliyyətinə toxunaraq demişdir:

"İranın (qərbpərəst) ziyalı təbəqəsi ölkədəki azadlıqdan sui-istifadə edərək qərblilərin dolaşıq fikirlərinin yayılması istiqamətində apardıqları işə son qoymalıdır."[1]

---

[1] İslam inqilabı mühafizəçilərinin Ayətullah Xamenei ilə görüşündə, 21/8/1378

[2] Devid Hyum (1711-1766), ingilis filosofu.

[3] B.Rassel, ingilis filosofu.

[4] "Pərtov" jurnalı, 23/9/1378

[1] "Sübh" jurnalına müsahibəsində, 27/7/1374

### *5 – Qərbdə ideoloji boşluq*

Kilsə rəhbərlərinin insanın əsas suallarına cavab verməkdə bacarıqsızlığı, eləcə də İntibah dövründən sonra yaranmış dünyəvi məktəblərin ilahi dinlərin mahiyyət və həqiqətini inkar etməsi, dinin əsilliyinə şübhə ilə yanaşması, varlığın sirlərinin həllində və bu sahədə mövcud suallara cavab verməkdə acizlik göstərməsi insanı müasir cahilliyin üfunətli vadisinə sürüklədi.

Bu dövrün əsas fikrini bəşərin özünün əsaslığında görən əksər humanizm nəzəriyyəçilərinin nəzərində insan ruhsuz və birtərəfli varlıqdır. Onların nəzərində insanın varlıq coğrafiyası yalnız doğumdan ölümə kimi məhdud dairəni əhatə edir! "[1]

Təbiidir ki, onların varlıq, məxluq, insan, Allah və s. kimi məfhumları qeyri-dəqiq və dolaşıq izah etmələri insanın tələb edən və həqiqəti axtaran təbiətini daimi olaraq öz əsarəti altında saxlaya bilmədi. Bu şəraitdə müasir dünyada, xüsusən Qərb dünyasında çox mühüm bir boşluq yarandı və dahi rəhbərin sözləri ilə desək:

"Varlıq aləminin düzgün izahına söykənən bir fikir, yolgöstərən düşüncə və ideologiyanın olmaması Qərb dünyasının ən mühüm boşluğudur və bu sahədə Qərb cəmiyyətlərinə təlqin olunmuş yalançı ideologiyalar (müsbət) təsirə malik olmayacaq".[2]

Modern[3] əsrin başlanğıcından təxminən beş yüz il və bu dövrün əksər ideologiyalarının formalaşmasından (Yer kürəsinin əksər sakinlərinin həyatı üzərində qeyri-iradi təfəkkürün mütləq hakimiyyəti ilə başa çatdı) üç yüz ilə yaxın müddət keçdikdən sonra modern ağıl istiqamətində elə mütəfəkkir və nəzəriyyəçilər yetişdi ki, insan və varlıq dünyasının düzgün təfsirini təqdim etməklə bəşərin fikri

---

[1] Həzrət İmam bu barədə buyurmuşdur: "Biz insanı tanıdıq" deyənlər özü insan olmayan bir insanabənzərdirlər, insanın heyvani təbiətinin siluetini tanıdılar və güman etdilər insan elə odur" ("Nur səhifəsi" c.8, səh.6)

[2] Tələbə səfərbərliyində iştirak edən tələbələrlə Ayətullah Xameneinin görüşündə, 14/6/1378.

[3] Modern istilahı latın dilində "modo"dan götürülmüşdür. Bu sözün mənası "gün ərzində olmaq" (of todoay) və ya "cərəyanda olmaqdır" (what is current) Modernizm də son əsrlərdə, xüsusən XX əsrin başlanğıcında Avropa və Şimali Amerikada işlənən yeni mədəniyyət və əqli düşüncəyə işarədir. (Seyyid Əhməd Rəhnəmayi, "Qərbşünaslıq", səh.99.

ehtiyaclarını razı salmaq əvəzinə cəfəng bir nəticəyə gələrək ona israr etdilər.

Mərhum ustad Əllamə Məhəmməd Tağı Cəfəri(r) bu barədə yazır:

"Qeyd edilmiş sualın (həyatın fəlsəfəsi və məqsədi ilə bağlı) yaranmasına səbəb olan ikinci məsələ XVIII əsrin sonlarından bu günədək genişlənməkdə olan və həyatın simasının avtomobilin hay-küylü səsinə qərq olaraq dəyişməsidir. Nəticədə ruhi xəstəlikdən əziyyət çəkən mütəfəkkirlər şəhvətpərəstlik hissinin razı salınması üçün özlərinə münasib yer axtarırdılar və insanların həyat mənbəyinin üstünə düşmüş daşı götürməyə çalışmaq əvəzinə qışqırırdılar ki, quyuda (mənbədə) su yoxdur, ya mənbənin suyu qurtarmışdır və beləcə onlar həyatın puçluğu nəticəsinə gəldilər.[1]

### *6 – Maddi mədəniyyət, insanın təhqir və məxluqun təhrif olunması*

İntibah dövründən sonrakı nəzəriyyəçilər həyatın puçluğunu elan etməklə ilahi dünyagörüşü aspektində duran və öz daxilində Allah-Təalanın yerdəki nümayəndəsi məqamına qovuşma istedadını gizlədən insanı yüz faiz maddi ehtiyacları olan və ancaq iqtisadi alət kimi şəxsiyyətsiz varlıq səviyyəsinə endirdilər.

Argentinanın müasir və görkəmli mütəfəkkiri Ernesto Sabuto "XIX əsrin çox böyük hissəsi və XX əsrdə elm və tərəqqinin mütləq hakimiyyəti insanın məqamını böyük bir maşının təkərinin dəndənəsinə kimi alçaltmışdır" fikrini açıqlayaraq bildirmişdir:

"Kapitalist və marksist nəzəriyyəçiləri eyni şəkildə bu kobud baxışı genişləndirdilər ki, onların baxışında fərd kütlə içərisində əriyir və ruhun sirri ölçülən şüaların yayılma həddinədək aşağı salınır."[1]

Təkcə Sabuto yox, bəlkə də Qərb mütəfəkkir və alimlərinin böyük əksəriyyəti Qərb mədəniyyəti onun inkişafı

---

[1] "Fəlsəfə və həyatın məqsədi", səh.18

[1] "Pəyam-e Yunesko" jurnalı, №243

kontekstində və cərəyanında insanın ali məqamının təhqir olunmasına etiraz edərək demişlər:

"Qərbdə ictimai və humanitar elmlər insanlıq haqqında dəhşətli və əksildici təsvirlərdən başqa bir şey təqdim etmirlər, insanlıq həqiqətini ya alət, ya iqtisadiyyat, ya da cinsiyyət səviyyəsinə qədər alçaldırlar."[1]

Əlbəttə, həqiqət və kamillik axtaran insan bəşərin hər növ axmaqlıq və təhqirinə israr edən nəzəriyyələrin mühasirəsinə tab gətirməmiş və dini həqiqətlərin dərki üçün dini təlimlərə qayıdış prosesinə başlamışdılar.

Qriqori Universitetinin müəllimi və Katolik Universitetlərin Beynəlxalq Federasiyasının tədqiqat mərkəzinin müdiri doktor Ariç Larut müasir mədəniyyətə qarşı çıxaraq demişdir: "Müasir mədəniyyət insanı bir iqtisadi amil həddinə endirməyə çalışır və insanları istehsal və ya məsrəf amilləri kimi təqdim edir."

O, daha sonra bildirmişdir: "Modernizmdən sonrakı dövrdə bu istiqamətdə insanın ruhu tabe olmur, insanlıq məqamının belə endirilməsinə qarşı inqilab edir və bu təbəqəni sındırıb kənara çıxır. Necə ki, 1989-cu ildə marksist materializminin şahidi olduq."[1]

### *7 – İnsanın varlıq aləminin həqiqətlərini öyrənmə cəhdi*

Varlıq aləminin həqiqətləri və kainatın sirlərinin dərki istiqamətində bəşərin daimi səyləri əsası insanın ilahi fitrətində olan bir gerçəklikdir və hətta uzun illər dinsizlik və Allaha qarşı biganəliyin hökm sürdüyü məkanda yetişən şəxslər də bu səylərdən istisna deyillər. Misal üçün bu xatirəni danışmaq olar:

İmanlı xristian filosofu Jan Giten "deyirlər bu yaxınlarda Fransanın (keçmiş) prezidenti (Fransua Mitteran) sizin görüşünüzə gəlmişdir, sizin onunla münasibətləriniz necədir?" sualına cavabında demişdir: "Əlli ildir ki, onu tanıyıram. O, son

---

[1] Helm Herbort, fransız mütəfəkkiri, üçüncü dünya ölkələrində tədqiqatçı, Fransanın Lion şəhərinin Məscidül-Rəhmanında məruzəsi (1983) "Name-ye fərhəng", 1375-ci ilin yayı.

[1] Ölkənin xarici işlər nazirliyinin araşdırmalar idarəsində məruzə, "Kəlme-ye daneşcu" jurnalı, №15, 17/3/1373.

görüşdə məndən soruşmaq istəyirdi ki, ölümdən sonra həyat olacaqmı və o necədir?

O mənə demişdi ki, yeddi yaşından Allah barəsində düşünmüş və heç vaxt Allahı unuda bilməmişdir! O demişdir: Bir xərçəng xəstəsi müalicə üçün həkimə müraciət etdiyi kimi, mən də bir xristian filosofu kimi gəlmişəm səndən soruşam ki, ölümdən sonra həyat olacaqmı?

Giten daha sonra əlavə etmişdir: Mən ona ölümdən danışdım və dedim ki, insan axırıncı nəfəsindən sonra başqa dünyaya qədəm qoyur.

Mitteran soruşdu: Jan Pol Sarter haqqında sənin fikrin necədir? Dedim: Ya dünyanı puç və mənasız hesab etməlisən, ya da əksinə, dünyada Allahın mövcudluğunu və onun məqsədliliyini qəbul etməliyik. Əgər dünya puç və mənasızdırsa, tapança ilə intihar etməliyik, amma əgər digər dünyanı qəbul etsək, məqsəd və istəyə malik olacağıq. Üçüncü yol yoxdur.

Mitteran mənə dedi: Allahlılıq və allahsızlıq, məqsədlilik və puçluq arasında seçim haqqında kitab yazmalıyıq və mən bu işi başlamışam. Hər kəs bu iki yoldan birini seçməlidir, sirləri qəbul edən kəslər xoşbəxtdirlər.[1]

### *8 – Dinin varlıq haqqında təfsirinin üstünlüyü*

İndi dünya bu gerçəkliyin şahididir ki, bəşərin səhvi qəbul edən ağıl və təxəyyülündə kökü olan maddi və ateist məktəbləri varlıq sirlərini soruşan və həqiqəti axtaran insanın təbii ehtiyacları ilə mübarizədə çarəsiz son yolu seçmişdir.

Görkəmli ingilis mütəfəkkiri Arnold Tünbi[2] bu barədə demişdir:

"Bu Adəm övladı olan insan təkcə cəmiyyət üçün yaşamır, onun ən böyük məqsədi yüksək mənəvi və ruhi həqiqətlə daimi bağlılığı və harmoniyasıdır ki, "Allah" adlanır. Cəmiyyət də belə bir məqsədə tərəf yollanmalıdır, əks təqdirdə cürbəcür sürüşmə və sapınmalara düçar olacaq…"

---

[1] "Keyhan-e fərhəngi", №120

[2] Arnold Toynbee, ingilis filosof və tarixçisi (1889-1975) və dünya sivilizasiyaları haqqında kitabların müəllifi.

Tünbi daha sonra əlavə etmişdir: "…Səmavi dinlər bu böyük həqiqəti Adəmə öyrətmişlər və onda olan bu parlaq və işıqlı bulağı ona göstərmişlər, amma ideologiyalar və "izmlər" dinin şəffaf, saf çeşməsini insana göstərə bilməmişlər."[1]

Şəksiz hər hansı bir insan dini təlimlər, mənəviyyatçılıq və allahpərəstlik meydanında addım atmadan çiçəklənməmiş, öz həqiqəti, varlığın sirlərini dərk etməmiş və həqiqət çeşməsinə qovuşmağa nail olmamışdır.

### *9 – İslam inqilabı və bəşərin ali düşüncəyə nail olması*

İnsan təkcə vahid bir fikir sistemindən və təkallahlılıq dünyagörüşünə etiqaddan istifadə ilə məxluqun sirlərinin dərkinə qadir olmuş və ruhi yüksəlmə və dərin ruhi sakitlikdən bəhrələnmişdir. Bu səbəbdən varlıq dünyasının sirlərinin öyrənilməsi üçün vəhyani dünyagörünüşünə nail olmaq istiqamətində səyləri, şübhəsiz, müasir dünya və Qərbdə dini və mənəvi yönüm və islamçılığın əsas amillərindən biri sayılmalıdır.

Bugünkü dünyada İslamın ilhamverici ocağından, yəni İran İslam inqilabından dünya hegemonluğunun bərk qorxmasının əsas səbəblərindən biri kimi ali və xilaskar düşüncənin insanlara çatdırılmasını öz yerində təhlil etmək və araşdırmaq lazımdır.

İslam inqilabının dahi rəhbəri bu barədə buyurmuşdur:

"Qərb dünyasının (başçılarının) İslam inqilabından qorxmasına səbəb olan əsas amil bu həqiqətin nəticəsidir ki, İslam inqilabı düzgün təfəkkür kimi təsvir olunmuş, kainata əsaslı və məntiqi dünyagörüşünə söykənən bir yol təqdim etmiş və bu imkanı yaratmışdır ki, hər kəs yolun harasında dayandığını və hansı məqsədə tərəf hərəkət etdiyini bilsin."[2]

İslam dini arqumentlər və məntiq əsasında insan həyatının müxtəlif sahələrinə hərtərəfli baxma xüsusiyyətindən istifadə etməklə yüksək şəkildə əqli və dini ehtiyacların razı salınmasına və dünyanın sirlərinin aşkarlanmasına başlamışdır. Prinsipcə,

---

[1] Əli Əkbər Kəsmayi, "Bugünkü və sabahkı dünya", səh.250

[2]Tələbə səfərbərliyi düşərgəsində iştirak edən tələbələrlə Ayətullah Xameneinin görüşündə, 14/6/1378

İslam ağıla meydan verməklə və bu bəsirətli peyğəmbərdən faydalanmaqla cəhalət, küfr və xurafatla mübarizəyə qalxmışdır."[1]

### *10 – İslam və varlıq həqiqətlərinin kəşfinin əqli məntiqi*

Ustad Şəhid Murtəza Mütəhhəri İslam mədəniyyətində din və ağlın çox sıx bağlılığına toxunaraq buyurmuşdur:

"Biz İslam kontekstində ağılın fövqəladə himayəsi ilə rastlaşırıq ki, bu dinlərdən heç birində görünmür… Siz İslamı xristianlıqla müqayisə edin, xristianlıq imanın əhatəsində ağlın müdaxilə haqqının olduğunu demir və bildirir: insanın iman gətirdiyi şey haqqında fikirləşməyə haqqı yoxdur və ağıla sərbəstlik də vermək olmaz. Bir keşiş və insanların imanının qoruyucularının vəzifəsi budur ki, iman hövzəsinə ağlın zehni və arqumentli müdaxiləsinin qarşısını alsınlar və prinsipcə, xristian təlimləri bu əsasdadır."

Ustad Şəhid Murtəza Mütəhhəri əlavə etmişdir: "İslamda məsələ tamamilə əksinədir. İslamda din və din əsaslarında ağıldan qeyri bir şeyin müdaxilə haqqı yoxdur. İslam kontekstlərində bu barədə fövqəladə dərəcədə yüksək və heyrətamiz sözlər deyilmişdir."[2]

Əsasən hazırkı əsrdə, İslamın ruhlandırıcı məktəbinin cazibədarlığını artıran və ilahi həqiqət tərəfdarlarının nəzərini özünə yönəldən amil həmin məntiqlilik xüsusiyyəti və (xristianlıqda) üçlük kimi xurafatçı təlimlərdən azad olmasıdır.

Fransız katolik keşişi Mişel Lilang yuxarıdakı gerçəkliyi açıqlayaraq demişdir:

"Bəndəçilik fikrində olan katoliklər hər yerdə yalnız mənasız məfhumlarla üzləşirlər. Katoliklərin çoxu üçlük kimi təəssüb və əqidələri qəbul etmirlər. Onlar İslama təbii bir din kimi baxırlar."[3]

Oksford Universitetinin İslami Araşdırmalar Mərkəzinin rəhbərliyini öz öhdəsinə götürmüş İngiltərə şahzadəsi Çarlz

---

[1] Nümunə üçün bax: "Üsuli-kafi", c.1, əl-Əql və-l-cəhl kitabı, səh.30-79

[2] "Kamil insan", səh.90 və 91

[3] "Name-ye enqelab-e Eslami" jurnalı, №22, bəhmən 65. Alman agentliyindən götürülüb.

varlıq dünyasının məntiqi izahında İslamın düzgün üslubuna toxunaraq demişdir:

"Bu gün İslam dünyanı düzgün dərk və şərhetmə üslubunu və onda yaşamaq üsulunu bizə öyrətməyə qadirdir. Bu elə bir üslubdur ki, xristianlıq əldən verdiyinə görə ona böyük ehtiyac duyur."

O, "dünyanın mənəvi, müqəddəs və həyati taleyinə etimad mühüm bir işdir ki, İslamdan öyrənmək lazımdır" - deyərək əlavə etmişdir:

"Həyatın dərin mənası başqa bir yerdə (Qərbin maddi mədəniyyətindən ayrı) və İslam etiqadlarının mahiyyətində gizlənmişdir."[1]

### *Müasir insanın həqiqəti axtarması*

İndiki əsrin dinçilik hərəkatının yaranmasında insanın həqiqəti axtarma hissinin mövqeyinin daha çox araşdırılması məqsədilə müsəlmanlığı yenicə qəbul etmiş qərblilərin dediklərinə nəzər yetirərək bu cərəyanın bəzi nümunələrini təqdim edirik.

**A) İslam dünyagörüşü məni sarsıtdı:** Almaniyanın Hamburq şəhərində müsəlmanlığı yenicə qəbul etmiş xanım İnqrid (Səidə) İslama yönəlməsinin səbəbini izah edərkən demişdir:

"Etiqad baxımından məntiqi cavablar tapmaq nəticəsində protestant məzhəbindən uzaqlaşdım və həyatın məfhum və məqsədini axtarmağa başladım. Əlbəttə, mənim axtarışım faydasız idi."

O, müsəlman tərbiyəçisi ilə tanışlığa və onun yolgöstərmələrindən faydalanmağına toxunaraq demişdir: "O, mənə "Dünyagörüşü və İslamda həyat" adlı kitab hədiyyə etdi. Kitab məni öz güclü təsiri altına saldı və özünə cəlb etdi. İslam dünyagörüşü məni sarsıtdı və o an sanki varlıq dünyası və bütün varlığın həyat məfhumu və məntiqini aydınca başa düşdüm. Hiss edirdim ki, yenidən dünyaya gəlmişəm. İslamın əsaslarını çox sürətlə qəbul etdim və hiss edirdim ki, bir nur gözlərimi və qəlbimi işıqlandırmışdır. Təzəcə dərk edirdim ki, qərbli insan

---

[1] "Mərifət" jurnalı, №1, III il, 1373-cü ilin yayı

həqiqətdə həyatın kənarından keçir və yalnız davamlı acgözlülük və səylə pul və qüdrət arxasınca gedir və varlıq məfhumunun dərkinə qüdrəti çatmır."[1]

**B) İslamda itirdiyim fikrimi tapdım:** Almaniyanın Bermen şəhərində müsəlmanlığı yenicə qəbul etmiş xanım Zəhra da bu fikri bəyan etmişdi ki, "Cavanlığın ilk anlarından suallar zehnimdə dolaşırdı. Misal üçün, Məsih Allahın oğludursa, Allahın neçə oğlu ola bilər. Yaxud biz dünyaya günahkar gəlmişik fikri mənim üçün çox ağır idi…" O demişdir:

"Xristianlıq təlimlərindən nə qədər çox öyrənirdimsə, o qədər məndə şəkk-şübhə yaranırdı və daha da narazı olurdum. Bu şübhələrimin nəticəsində soruşduğum sualların müqabilində həmişə cavab alırdım ki, bunları izah etmək olmur və olduğu kimi qəbul edilməlidir…On səkkiz yaşıma kimi illər elə keçdi ki, daxildən sınmış və parça-parça olmuşdum. İtirdiyimin ardınca gəzirdim, amma nədən ibarət olduğunu bilmirdim. Neçə dəfə özüm-özümdən sual etmişdim ki, ümumiyyətlə, dünyaya nə üçün gəlmişəm və mənim varlığımın nə təsiri vardır?…"

Bu avropalı müsəlman aşağıdakı gerçəkliyə işarə etmişdir:

"Buna görə müxtəlif dinlərin araşdırılmasına başladım. Əlbəttə, araşdırmanın əvvəlindən dərk etdim ki, onların çoxu puçdur…"

O daha sonra əlavə etmişdir:

"Mənim üçün yavaş-yavaş İslam məktəbi ilə tanış olmaq və onu tanımaq imkanı yarandı və buna görə almanca Quran kitabını əldə etdim. Həmçinin İslam haqqında digər mənbələri daha çox mütaliə edirdim. Bundan sonra daxilimdəki parçalanma və pərişanlıq halı azaldı. Nəhayət, hiss etdim ki, öz itirdiyimi tapmışam. İllərlə ardınca gəzdiyim və onu tapmaq üçün hər qapını döydüyüm İslam olmuşdur. Allahın vahidliyi məsələsi məni özünə şiddətli surətdə cəzb etmişdi…"[1]

**C) İslam mənim çoxdankı suallarıma cavab verdi.** 1954-cü ildə anadan olmuş Amerika vətəndaşı, protestant və

[1] "Pəyam-e zən" jurnalı, Qum şəhəri, İslam Təbliğat İdarəsinin nəşriyyatı, 1374-cü ilin mehr ayının nömrəsi.
[1] Süsən Səffari, "Qaranlıqda dirçəliş", səh.76-80

jurnalist Barbara Braun 90-cı onillikdə müsəlmanlığı qəbul etmişdi. O, müsəlman olmağının səbəbləri haqqında demişdir:

"Mən protestant ailəsində böyümüşəm və islahatçı xristian əqidəsinə (christian reformed fith) malik idim.

Belə ki, bazar günlərində iki dəfə kilsəyə gedirdim. Tətil günlərində də kilsəyə müraciət edirdim. Xristian təlimlərini görürdüm və müqəddəs kitabı öyrənmək üçün yay məktəblərində, dini düşərgələrdə iştirak edirdim və xristian cavanlarla get-gəlim vardı. Bütün bunlara baxmayaraq, əqidəm haqqında çoxsaylı suallarla üzləşirdim və heç kəs 37 il ərzində bu suallarıma cavab verə bilməmişdi."

O sonra əlavə etmişdir:

"Mən 1991-ci ilə kimi, yəni İslamla tanış olana qədər Allah və Ona düzgün ibadət yolu haqqında azğınlıqda yaşayırdım.

Bir kənd kitabxanasında "İslamın dərki" (Understanding İslam) adlı kiçik bir kitab gözümə sataşdı. Orta Şərqdə yayılmış dinlə tanış olmaq üçün kitabın səhifələrinə baxdım.., kitabı mütaliə edən zaman dərk etdim ki, İslam uzun illər üzləşdiyim suallarıma cavab vermişdir. Çox vaxt itirmədim, mən müsəlman oldum və öz məqsədimə çatdım."[1]

**Ç) İslam əqidələri tamamilə aydın və məntiqidirlər.**

Amerikada müsəlmanlığı yenicə qəbul etmiş jurnalist xanım Key Siblani (49 yaşı var, Amerikanın Miçiqan ştatında anadan olmuşdur, tarix üzrə bakalavr dərəcəsi vardır. İndi İslam örtüyü ilə camaatın qarşısında görünür.) "İslamda hansı xüsusi məfhumlar vardı ki, siz bir xristian kimi onları daha cazibəli və daha maraqlı qiymətləndirdiniz? " - sualına cavabında demişdir:

"Xristian olanda həmişə mənə deyilirdi ki, biz dünyaya günahkar gəlirik və yaxşı olmaq üçün tərki-dünyalıq yolunu keçməliyik və bu iş mənim üçün çox mənasız idi."[2] Amma İslamın araşdırılmasına başlayan zaman… [bu sahədə] İslamın sözü mənim üçün tamamilə aydın və məntiqli oldu…"

---

[1] Həsən əl-Səid, İslam və Qərb, Şakir Kəsrainin tərcüməsi, səh.166 və 167

[2] Nümunə üçün: Sent Avqustin islamşünaslıqda görkəmli xristian mütəfəkkir-lərindən biri kimi növün təbiətinin günahkar olmasını demişdir. Avqustinin baxışında insanın Allahdan mütləq uzaqlığı ehtimalı Allah şəhərinin mahiyyətinin (mənəvi həyat) yer şəhərindən (maddi həyatdan) ayrılığıdır.

O, bu fikri də bəyan etmişdir: "Mənim üçün çox qəribədir ki, sufi və hissiyyatlı əqidələrə inanan (Misal üçün, İsa(ə) Allahın övladıdır) Qərb dünyanı yarımməntiqi qəbul edir."

O sonra demişdir:

"İslamı qəbul etməmişdən qabaq din, təhrif olunmuş xristianlıq haqqında öyrəndiklərimi qeyri-məntiqi bilirdim. Buna əsasən belə bir nəticəyə gəlmişdim ki, Allah yoxdur. Uzun illər inamsızlıq halında yaşayırdım və bu məni çox narahat edirdi."

O daha sonra əlavə etmişdir:

"Heç vaxt İslamı qəbul etdiyim və Allahın varlığına inandığım ilk gecəni unutmaram. O gecə çarpayımda həyatımın ən yaxşı yuxusuna malik oldum. Çünki sakit və aram idim."[1]

**D) Xristianlıqdan cavab almadım**. Müsəlmanlığı yenicə qəbul etmiş rumıniyalı xanım Zəhra Əhsən də müsəlman olmasının səbəblərinə toxunaraq demişdir:

"On iki yaşım olarkən ruhi təzyiq hissi duyurdum. Allah haqqında bilmək istəyirdim. Təəssüflər olsun ki, mənə düzgün cavab verən bir adam yox idi. Bütün insanların böyüyərkən malik olduğu suallara düzgün cavab verilmirdi. Xristianlıqdan cavab almadım. Çarəsiz qalıb müxtəlif kitablara pənah apardım. Böyüdükcə məndə Şərq dinlərinə maraq yarandı. Amma mənim pərişanlığım aradan getmirdi. Beləcə, mütaliə edib universitetə daxil oldum. Orada müsəlmanlarla tanış oldum və beləliklə, yeni dünyanın qapısı üzümə açıldı…İndi Allaha şükr edirəm ki, [müsəlman olmağımla] rahatlıq tapmışam."[2]

**E) Xristianlığın sözləri ağlabatan deyildi.** Amerikada müsəlmanlığı yenicə qəbul etmiş filosof və universitet müəllimi professor Məhəmməd Legenhausen[3] müsəlman olmasının səbəbləri barədə demişdir:

"Mən katolik məzhəbli ailədə dünyaya gəldim. Amma ilk gündən xristianlığın bəzi təlimləri ilə bağlı problemlərin olması

---

[1] İslam Respublikasının tele-radiosunun ölkədən xaric İngiltərə radiosuna müsahibəsində. "Cümhuri-ye Eslami" qəzeti, 27/5/1377

[2] "Hüzur" jurnalı, №24, 1377-ci ilin yayı

[3] Məhəmməd Legenhausen: Amerikanın Texas ştatında Rays Universitetinin fəlsəfə elmləri üzrə doktoru. O, on il müddətində Rays vəTexas universitetlərində fəlsəfəni tədris etmişdir və 1983-cü ildə İslam dinini qəbul etmişdir.

diqqətimi çəkdi. Məsələn, mənim üçün "bir insanın, yəni Həzrət Məsihin Allah olması necə mümkündür?" sualı çox qəribə görünürdü… İncildə nə qədər axtardımsa, bu fikri aşkarcasına sübut edən bir şey tapmadım… Görürdüm ki, xristianlığın sözləri ağlabatan deyil.

O sonra əlavə etmişdir: "Mənim tələbələrimdən çoxu xarici, bəzisi də müsəlman idilər. Bu tələbələrin fikirləri ilə tanışlıq məndə daha çox dəyişiklik yaratdı. Gördüm ki, onların din haqqında baxışları bizim baxışımızdan fərqlənir. Mənim üçün daha əhəmiyyətlisi Allah məfhumu idi. Müsəlmanların Allah haqqında malik olduqları məfhum mənə daha maraqlı gəlirdi. Buna görə də keçmiş etiqadlardan əl çəkdim. Həmin etiqadlardan xilas olanda başa düşdüm ki, mən əvvəllər necə xurafata inanmışam…Təxminən üç il keçdikdən sonra müsəlman oldum…[1]

## İKİNCİ AMİL: RUHİ BOŞLUQDAN MƏYUSLUQ

Hazırkı əsr insanının həyat gerçəklikləri ətrafında bir qədər düşünməsi bu fikri aşkar etmişdir ki, müasir əsr insanının ruhi boşluğu və mənəvi puçluqdan güclü məyusluğu bəşərin dini-mənəvi dəyərlərə yenidən yönəlməsinin əsas amillərindən başqa birisidir. Çünki din insanı Tanrısı ilə birləşdirməklə həyat məfhumunun valehedici təsvirini təqdim edir və insanın məqsədli olmasını bildirməklə yanaşı, onun varlıq sirlərinə çatması üçün yolu açır.

Həqiqətən də, insanla dini təlimlərin bağlılığı və bəşəriyyət üçün varlığın yaradıcısı ilə əlaqə sahəsində əldə olunan nəticə həmin qaytarılmış mahiyyət, yəni sakitlik və təskinlikdir ki, bəşər həmişə ona çatmaq arzusunda olmuşdur:

(ا لا بذکرالله تطمئن القلوب)[2]

Qeyd olunmuş mübarək ayədə məhdudiyyət ifadə olunur, yəni insanın inkişaf və yüksəlməyə (ruhi inkişaf) nail olduğu əminlik və arxayınlıq yalnız Allaha dərin imanın sayəsində mümkündür.

---

[1] "Pərtov" həftəlik qəzetinə müsahibəsində, №3, 19/11/1377

[2] "Rəd" (13), 28-ci ayə

(الذين آمنوا ولم يلبلسوا ايمانهم بظلم اولئك لهم الامن وهم مهتدون).[1]

İman gətirib imanlarını zülm ilə qarışdırmayan kəslər əmin-amanlıqdadırlar və hidayət olunmuşlar da onlardır.

Həzrət Əmir(ə) fəsahətli müraciətlərindən birində buyurmuşdur:

"من آمن امن"[2]

Allaha iman gətirən kəs ruhi sakitlik tamını dadar."

"والا يمان امان"[3]

"Allaha iman ruhi əmin-amanlıq və asayişi hədiyyə edər."

Başqa bir yerdə buyurmuşdur:

" :مفارقة الدين مفارقة الامن000"[4]

Allahın dinindən ayrılıb məhrum olan və dindar olmayan kəsə həmişə qorxu və arxayınsızlıq yaxın olacaq."

***1 – Xalis elmə meyllilik cərəyanı və din tərki-dünyalığı***

İntibah dövrü dəyişiklikləri və orta əsrlərdə kilsənin mənfi fəaliyyəti nəticəsində Qərbin din həqiqətindən uzaqlaşdığı, tədricən dini təlimlərlə müqavimətə qalxdığı və Allahı insanın ruhi problemlərinin səbəbkarı bildirdiyi, dini xəbərləri məntiqsiz və qeyri-real təqdim etdiyi zaman din və onun saf təlimləri tərki-dünyalıq guşəsinə sürükləndi.

Ustad Şəhid Murtəza Mütəhhəri bu kədərli hekayənin bir hissəsini belə təsvir etmişdir:

"XV-XVI əsrlərdə Qərbdə dinlə ziddiyyət təşkil edən renessans hərəkatının qələbəsi, dünya mədəniyyət səhnəsində ateist təfəkkürlərin hakimiyyəti Avropa cəmiyyətlərində dindarlıq və allahpərəstliyin dəyərə zidd və köhnəpərəstlik kimi qəbul olunmasına səbəb oldu. Elmi təhlillər çərçivəsində beyinlərə yeridildi ki, din əsri sona çatmışdır, bilik və bəşər uğurları Allahın rəqibsiz canişinidir."[5]

---

[1] "Ənam" (6) surəsi, 82-ci ayə
[2] Təsnifu Qurərul – hekəm, Əbdülvahid ibn Məhəmməd Təmimi Amədi, Mustafa Dirayəti, səh.88
[3] Həmin yerdə.
[4] "Mizanül-hikmə", c.3, səh.370
[5] Ustad Mütəhhəri, "Materializmə yönəlmənin səbəbləri", səh.204

Əlbəttə, demək lazımdır ki, kilsə tərəfindən dinin təhrif olunmuş təsvirinin təqdimi qeyd olunmuş cərəyanın yaranmasında layiqli rola malik olmuşdur:

O, bu barədə də bildirmişdir:

"Xristian dünyasında Tövratın təhrif olunmuş bəzi hissələri vasitəsilə zehnlərə elm və imanın təzadı düşüncəsi nüfuz etmişdir və buna görə də Avropa mədəniyyət tarixini son min beş yüz ildə iman və elm dövrlərinə bölürlər."[1]

Elm və imanın ayrılığı fikri dindarlığın bütün faydalarına şübhə ilə yanaşmaqla, hətta onu tam inkar etməklə yanaşı, iman əsrinə cəhalət, xurafat, maddi gerilik, dini diktatura kimi ünsürləri aid etdi. Azadlıq, təkamül, elmi və texniki tərəqqi, maddi rifah kimi ünsürləri isə dini inamları tapdalama və ya elm dövrünə şamil etdilər. Beləliklə, Qərbdə elmi-texniki təfəkkürün dini təfəkkür üzərində qələbəsi üçün (əlbəttə, din və dini inamlarla mübarizə vasitəsilə) lazımi zəmin yarandı.

Belə ki, "XVIII əsrdə dindarlıqla texniki təfəkkür arasındakı üçəsrlik qarşıdurma texniki təfəkkürün qələbəsi ilə sona çatdı və hamı "məişət ağlının" köməyi ilə cəmiyyətin dünyəviləşməsi sayəsində tərəqqiyə etiqadda birləşdi. Texniki təfəkkür və onun qanunları tamamilə dini təfəkkür və şəriətin yerində oturdu. Qərb bəşəriyyəti nicat, səadət və xoşbəxtliyi bu təfəkkürdə tapdı."[2]

Bəşərin bu dövründə "yeni elm bu xoş xəbəri çatdırdı ki, insanın əziyyət və məşəqqətlərini azaltmağa, maddi xoşbəxtlik və dünyəvi ləzzət və sevinclərdən onun zövq almasını həyata keçirməyə qadirdir."[3]

Əsas xüsusiyyəti bəşərin dini təmayülü ilə mübarizə olan xalis elmə meyllilik cərəyanı intibah dövrünün dəyişiklikləri ilə yarandı və zaman keçdikcə Qərb bəşəriyyətinin inamında kök saldı. Beləliklə, Qərb cəmiyyətlərində öz yerini göstərdi və təcrübi elmə meyllilik və ya sientizm (scientizm) Qərb mədəniyyətinin sabit xüsusiyyətlərindən birinə çevrildi.

---

[1] Ustad Mütəhhəri, "Əsərlər məcmuəsi", c.2, səh.21-dən sonra
[2] Məhəmməd Mədədpur, "Qərb cəmiyyətlərinin düşüncə əsasları", səh.58
[3] Həmin yerdə, səh.23

Sientizm cərəyanının hərtərəfli nüfuz dairəsi Qərbdə bəşər həyatının müxtəlif sahələrində o qədər genişləndi ki, mənəviyyat, din, əxlaq və dəyərlər kimi onun həyatının digər əsas məziyyətlərini öz təsiri altına saldı.

Nəhayət, qeyd olunmuş cərəyan Qərb insanını elə ovsunladı ki, o, dinin üstün mövqeyini inkar edərək təkəbbür və qürurla dolu olan elmi bütün fərdi və ictimai dəyərlər, hökmlər və qanunların mənşəyi saydı və müasir cahillik və xudbinlik əhatəsində özünü səmavi şəriət və ilahi qanunlardan hər cür ehtiyacsızlığını elan etdi. Bu tarazlığın təbii və zəruri nəticəsi dinin bəşərin ictimai münasibətlərinin tənzimi, onun ruhi-fikri ehtiyaclarının ödənməsi səhnəsindən çıxarılmasından başqa bir şey deyildi.

### *2 – Qərbdə xalis elmə meyllilik cərəyanının zərərverici təsiri*

Təcrübi elmlərə mütləq etimad və Qərbin dini etiqadlarla qarşılaşması qərblilər üçün ağır xəsarətlərə gətirib çıxardı.

Yeni əsrin elmə meyllilik cərəyanının rolu elmi kəşflərin sürətləndirilməsində və insanın maddi rifahının sonsuz artımında inkar olunmasa da, qeyd olunmuş cərəyan heç zaman bəşəriyyətə vəd olunmuş səadəti bəxş edə bilmədi. Həqiqətdə "sientistlər"[1] və "texnokratlar"[2] bəşər həyatının müxtəlif sahələrində elm və texnikanın hərtərəfli hökmranlığını müdafiə etməklə, dinin mənəviyyat bəxş edən təlimlərini inkar etdilər və tədricən onu varlığın puçluğu, güclü mənəvi və etiqadi boşluq tələsində dustaq edib gerçək xoşbəxtliyi də ondan aldılar.

İnsanın zəngin dini təlimlər mənbəyindən məhrumluğunun davam etməsi nəticəsində tədricən Qərbin səmərəsiz mədəniyyətində Qərb insanının puçluğu böhranı kök saldı və həyatın puçluğuna inam yeni mədəniyyətin göstəricilərindən birinə çevrildi. Beləcə Qərbdə onun müxtəlif üsullarla şərhi və yayılmasına başladılar.

"İndiki əsrdə həyatın puçluğu fikrini bəzi Qərb yazıçılarının təsvirində görürük. Frantes Kafka, Alber Kamo, Samuel Bekket, Artur Adamov, Jan Pol Sarter, Ujen Yunesko

---

[1] Scientist: elm və elmi üsulun əsilliyini deyən şəxs

[2] Technocrat; texnikanın əsilliyini deyən şəxs

kimi şəxslər həyatın puçluğu baxışını yaratmışdılar. Onlar öz əsərlərində həyatın boşluq və mənasızlığını dram əsəri və məqalə halında qələmə almışlar. Yazıçılardan bir hissəsi əsərlərində insan həyatı və bəşər taleyinin boşluğunda əqli dəlilləri göstərməyə çalışmışlar. Digər qrup isə sənətlərinin köməyi ilə bəşər həyatının mənasızlığı və insan bədbəxtliyini məntiqi üsul və dəlillərə istinad etmədən təqdim etməyə səy göstərmişlər. Bu yazıçılar məxluqu puç və mənasız bilirlər."[1]

"…Sarter və ya Kafkanın əsərlərini təcrübi bilik və ənənəvi dəyərlərin alçaldılmasının mənfi nəticələri saymaq olar. Onların fikrincə, insan mənasız bir vücud və mənasız dünyada buraxılmış bir varlıqdır… Belə mənasızlıq və puçluq düşüncələri bütün yeni Qərb ədəbiyyatı nümunələrini doldurmuşdur."[1]

Hər halda puçluq fikrinin yayılması və "yaşamağın mənasızlığı və dünyanın heç olmasının bildirilməsi ilə (qərblilərin çoxu üçün) Yer üzərində həyat öz məna və məfhumunu itirmişdir. Qərb mədəniyyəti müasir insana cürbəcür maddi imkanlar vermişdir ki, keçən nəsil onları yuxuda da görə bilməzdi. Lakin bu mədəniyyətdə insan məna kəsb etmədiyindən onun dərin ümid və arzuları nəzərə alınmamışdır. Bütün bu maddi imkanlar da insanın bədbəxtçilik və ümidsizlikdə məhv olmasına maneçilik törədə bilmir."[2]

### *İztirab əsri*

Müasir əsrin heyrətləndirici texnoloji tərəqqisinə baxmayaraq, insan Dünya Səhiyyə Təşkilatının fikrincə, sağlamlığın mühüm əlamətlərindən biri və xoşbəxt həyatın əsası olan ruhi sakitliyə nail olmamışdır: Bugünkü insan rahatlıq hiss etmir və o, daha çox alçaldılır…və öz fəaliyyətində mənasızlıq hissi duyur."[3]

---

[1] Abdullah Nəsri, İnsan xilqətinin fəlsəfəsi, səh.16 və 22

[1] Jan Farastiye, Universitet böhranı, Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.105

[2] Roze Dipaskiye, İslam sərgüzəşti, Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.19

[3] Erik Firum, İnsan özü üçün, Əkbər Təbrizinin tərcüməsi, səh.14

Ondan daha təəssüflüsü budur ki,– psixoloqlar bu əsri "iztirab əsri" adlandırıblar. Statistikaya görə, ABŞ xəstəxanalarındakı çarpayıların çoxu ruhi xəstələrə məxsusdur."[1] Problemin kökü bu gerçəklikdədir ki, bu gün bizim dünyamız varlıq dünyasının mənəvi təfsirinin qıtlığına düçar olmuşdur.[2]

Dahi rəhbər yuxarıdakı tarazlığın şərhində buyurmuşdur: "Allaha məhəbbət və eşq həyata məna bəxş edir, bəşərin mənəvi və həyat boşluqlarını doldurur və yaşayışın bütün meydanlarında bəşəriyyətə müvəffəqiyyət gətirir. Səbəbi budur ki, Amerika kimi ölkələrdə heç nə, hətta pul, hərbi güc və elm xoşbəxtlik, ruhi sakitlik yaratmadı. Bunun səbəbi Allaha və mənəviyyata biganəlikdir."[3]

### *Qərblilər mənəvi ehtiyaclarını təmin edə bilmirlər*

Ola bilsin Qərb mədəniyyətinin maddi təzahürləri, onun valehedici elmi tərəqqisi və fövqəladə texnologiyasının vurğunlarının çoxu bu nəzəriyyəni qəbul etmək istəməsinlər. Ancaq pul, hərbi qüdrət və elm Qərbdə xoşbəxtlik və mənəvi rahatlıq yarada bilmədi.[4] Mövcud gerçəkliklər də bu nəzəriyyəni təsdiq edir.

Qırx ildən çox Almaniyada yaşayan iranlı həkimlərdən biri bu barədə demişdir:

"Qərbdə maddi cəhətdən yaxşı vəziyyətə malik olan insanlar heç vaxt xoşbəxtliyi tam mənasında dərk edə bilməyiblər. Onlar zahirən xoşbəxtdirlər.

Dünyanı "Mersedes benz" və gözəl evlə xoşbəxt etmək olmaz. Amerika və Avropada mənəvi boşluq hiss olunur.

Avropanın digər şəhərləri ilə müqayisədə daha çox milyonerlər yaşayan Almaniyanın Hamburq şəhərində mənəviyyatsızlıq problemi insanların bütün yaşayış sahələrinə mənfi təsir etmişdir. Qərb cəmiyyətlərində insanlar rifah

---

[1] Doktor Məhəmməd Rza Şərifi, "Rüşd" jurnalı, IV il, 1374-cü ilin payız və qışı

[2] Doktor Məhəmməd Rza Şərifi, "Rüşd" jurnalı, IV il, 1374-cü ilin payız və qışı

[3] Ayətullah Xameneinin bəyanatından, 18/5/1375

[4] Dahi rəhbər, həmin yerdə

imkanları baxımından qorxulu həddə çatmışlar, amma bununla belə, mənəviyyatsızlığa düçar olmuşlar. Bu "əgər Qərb ölkələrinə getsələr, xoşbəxt olacaqlar" kimi fikirləşən insanlar üçün böyük bir xəbərdarlıqdır."[1]

Qərbdə yaşayan digər məşhur iranlı həkim də yuxarıdakı gerçəkliyi təsdiq edərək demişdir:

"Şübhəsiz, texnika maddi ehtiyacların təmini üçün işin bir tərəfidir və Qərb dünyası böyük sürətlə irəliləyir. Amma çox təəssüf ki, qərblilərin ruhi ehtiyacların təmin olunması üçün texnikaları yoxdur, bizim isə varımızdır. Buna görə də ağlı olan hər bir kəs öz dinini və mənəvi dəyərlərini qoruyub saxlamalı və onların texnikasını əldə etməlidir. Belə insanlar bu meydanın qalibidir."[2]

### *3 – Xalis elmə meyllilik dövrünün sonu*

Müasir dünyada, xüsusilə Qərbdə elm və texnikaya mütləq etimad və arxalanmanın dağıdıcı təsirlərinin əvvəlkindən daha çox araşdırılması nəticəsində əsil elmə meylliliyi səadətə çatmağın yeganə yolu kimi təqdim edən birinci nəzəriyyə tədricən məğlubiyyətə uğradı. Alimlər arasında sientizm və əsil elmə meyllilik cərəyanının böyük məğlubiyyətindən tam aydınlıqla söz açan yeni bir cərəyan yarandı.

Ustad Şəhid Murtəza Mütəhhəri bu barədə buyurmuşdur:

"Bu gün artıq dərk etmişlər ki, sientizm (xalis elmə meyllilik) və xalis elmi tərbiyə insanın formalaşdırılmasında tam gücsüzdür. Xalis elmi tərbiyə yalnız birtərəfli insan yaradır. Bu gün hamı dərk edir ki, xalis elm dövrü sona çatmışdır və cəmiyyətləri bir əqidə boşluğu hədələyir… Vil Dyurant etiraf etmişdi ki, bu boşluq birinci növbədə əqidə boşluğudur. Məqsəd, istək və əqidələrdə elə bir boşluqdur ki, boşluqla da sona çatır."[3]

### *Qərblilərin etirafı*

Bu gün elm və düşüncə sahəsinin fikir sahiblərindən çoxu Qərbin təcrübi elmlərdə aldanmasının təhlükəli təsirlərinə

---

[1] Doktor Seyyid Məhəmməd Əqili, "Keyhane-həvayi", 13/8/1371

[2] Professor Xudadust, məşhur göz həkimi. Ölkə xaricində yaşayan iranlı həkimlərin toplantısında. "Resalət" qəzeti, 29/2/1370

[3] Ustad Mütəhhəri, "İslam dünyagörüşünə giriş", səh.24 və 25

toxunaraq bəşər cəmiyyətlərindəki problemlərin həllində "akademik" beyinlərin gücsüzlük və uğursuzluğundan danışırlar.

Avropa və Amerika universitetlərində nüvə fizikası üzrə mütəxəssis, "Tayvi fizik" çoxtirajlı kitabının müəllifi Fritof Kopra "Qayıdış nöqtəsi" (Turning point) adlı kitabında cəmiyyət problemlərinin hərtərəfli həllində təcrübi elmlərin yararlılığı haqqında yayılmış inamların dəyişməsini şərh edərək demişdir:

"ABŞ-da Ağ evin belə bir ənənəsi var idi ki, həmişə prezidentin elmi müşaviri kimi universitetin görkəmli müəllimlərindən istifadə edirdilər. "

O yazmışdır: "Mövcud gerçəklikdən bu nəticəyə gəlmək olar ki, hazırkı şəraitdə belə universitet beyinləri artıq dolaşıq problem və çətinliklərin həllində təsir mənbəyi ola bilmirlər."

Bir az əvvəl "Vaşinqton post" qəzeti akademik beyinlər və Ağ evin elmi müşavirlərinin gücsüzlüyü haqqında ətraflı bir məlumat çap etmişdi. Bu qəzetin müsahibə aldığı alimlərdən biri Nyu-York Universitetinin müəllimi professor Henri Lyuk idi. O, mövcud çətinliklərin həllində alimlərin rolu haqqında suala cavab tapmaqda aciz qalan müxbirə demişdir:

"Mən malik olduğum məqam və mövqedən kənarlaşıram, çünki deməyə bir sözüm yoxdur. Mənim real fikrimi bilmək istəsəniz, deyə bilərəm ki, heç bir kəsin daha deməyə sözü yoxdur."

O sonra yazmışdır:

"Əslində akademiklər yayılmış elmi baxışa etiqadlarına görə yalnız həqiqətdən qeyri-kafi faydalanma ilə kifayətlənirlər və bu qeyri-kamil faydalanma heç vaxt dövrün problemləri ilə üzləşməyə qadir deyil."[1]

Son onilliklər ərzində əksər Qərb alimləri arasında "təcrübi elmin bəşərin qeyri-müəyyənliklərinin yeganə öyrənilməsi yolu kimi tanıdılması" həqiqətə zidd iş kimi qəbul olunmuşdur.

Stenfardda xammal elmi üzrə müəllim və elektrik mühəndisi Riçard Bob demişdir:

---

[1] "Name-ye fərhəng", №13, səh.61-77

"İndiyə kimi təxminən bütün dünyada qəbul olunmuş ən pis yalanlardan biri elmi üsulun həqiqətə tərəf yeganə arxayın yol olması fikridir."[1]

Bəzi Qərb alimləri etiraf edirlər ki, "yeni elmlər insanın həyatının məqsədini və insanlıq yolunu göstərməkdə tamamilə gücsüzdür, onlar yaşayış üçün düzgün və dəyərli məna və məfhum təqdim edə bilmir və həyatın yeni dəyərlərini tanımırlar…"[2]

Yeni dövrdə Qərb mütəfəkkirləri bildirmişlər ki, "elm və texnikanın tərəqqisinin bəşərin səadətinə səbəb olması haqqında sadəlövh inam artıq aradan getmək üzrədir. Buna görə də həmin gerçəkliyin dərkindən başqa bir çarə yoxdur və olmayacaq: sırf maddi tərəqqi insanın problemlərini həll etmir."[3]

İlahinin vəhy təlimlərindən, mənəvi və əxlaqi dəyərlərdən bəhrələnməyən elmin inkişafı insan həyatında uzun müddət təhlükəli və dağıdıcı rol oynayacaqdır. Məşhur Qərb alimi Juliyan Hekselli "Elm və mübarizə" kitabında yazmışdır:

"Elm bu həyatda bizə sonsuz biliklər bəxş etmişdir. Amma bizə deməmişdir ki, ondan necə istifadə edək. Həqiqətən də, elm cadugər rolunu oynamışdır və texnologiya adlanan təhlükəli dühanı zəncirdən qırılmış dəli kimi insanların canına salmışdır."[4]

Bu baxımdan digər Qərb mütəfəkkirləri də inanırlar ki, "elmin müqəddəs dəyərlərdən ayrılması cəmiyyətdə mənfi və xoşagəlməz halların yaranmasına səbəb olmuşdur. O bizim təfəkkür və idrakımız üzərində inhisarçılıq, hətta zülm, işgəncə növünü tətbiq etməyə çalışdı."[5]

Onlar təkidlə bildirirlər ki, biz tədricən elmin əxlaq və əxlaqi mövzulardan uzaqlaşmasının faciəli nəticələrini dərk edirik.[6]

---

[1] Hüseyn Mehri, "Dəyişikliyin ayaq səsi", səh.71

[2] Herbert Armstronq, "Bugünkü və sabahkı dünya", Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.211

[3] Emriş Kurt, "Name-ye fərhəng", III il, №1, 1372-ci ilin baharı səh.104 və 105

[4] Jan Furastiye, Universitet böhranı, Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.69

[5] Helm Herburt, fransız mütəfəkkiri, "Name-ye fərhəng", 1375-ci ilin yayı.

[6] Helm Herburt, fransız mütəfəkkiri, "Name-ye fərhəng", 1375-ci ilin yayı.

Onlar bu inamdadırlar: "Birəsrlik elmi işin nəticəsi bu oldu ki, biz öz etiqadlarımıza etimadı və hətta özümüzə inamı əldən vermişik…Bu sistemdə kiməsə əxlaq və ya əxlaqla bağlı xüsusiyyət verilsə, təhqir kimi qəbul olunardı."[1]

Bəşər cəmiyyətlərində baş verən dəyişikliklər sientizm cərəyanının, eləcə də elmin din, vəhy, əxlaq və mənəvi dəyərlərdən ayrılığının dağıdıcı təsirlərini o qədər aşkarladı ki, bu gün Qərb mütəfəkkirlərinin böyük əksəriyyəti mütləq elmə meyllilik vasitəsilə bəşəriyyətin çıxılmaz vəziyyətə sürüklənməsindən danışırlar.

İngiltərə şahzadəsi Çarlz Xarici İşlər Nazirliyində çıxış edərkən bu məsələni etiraf edərək açıqlamışdır:

"Elm XX əsrdə insanlığı tamamilə çıxılmaz vəziyyətə sürüklədi."[2]

Bu inam zehnlərə o qədər nüfuz etmişdi ki, fransız sosioloqu Jil Kopel təcrübi elm tərəfdarlarının dini inamlara yönəlmə səbəblərinə toxunaraq demişdir:

"Təhsilli qeyri – dindar insanlar əmindirlər ki, qeyri-dini mədəniyyət onları çıxılmaz vəziyyətdə qoymuşdur."[3]

Böyük fransız antropoloqu Klod Lui Ştraus xalis elmə meyllilik dövrünün bədbəxt nəticələri ilə bağlı fikir söylərkən demişdir ki, "Qərb insanı instinktlər dağarcığıdır" və "Renessans avropalı insanı eqoist və özündən razı etdi."

O yazmışdır: "Bizim indi mənəvi inqilaba ehtiyacımız var. Məsələn, xristianlığın zühuru ilə nəticələnən inqilab kimi.[4]

### *4 – Qərbin mənəvi boşluğu dini bədbəxtliyin nəticəsidir*

Sientizm cərəyanının Qərb cəmiyyətlərinin intellektual və mədəni fəzasında qələbəsi, habelə bəşərin özünə arxalanmasında israr etməsi və müasir düşüncə tərzi və əsassız vədlərlə din həqiqəti ilə qarşıdurma qərbliləri dağıdıcı mənəvi boşluq tələsinə saldı.

Qərbin özünə arxalanma cərəyanının məhsulu olan müasir əsr insanı vəhy və allahpərəstlikdən ayrılmaqla ruhi çaşqınlıq və

---

[1] Nil Postmen, Texnologiya, səh.79

[2] "Çeşməndaz" jurnalı, İslami irşad nazirliyi, 1376-cı ilin ordibeheşt ayı.

[3] "Süruş" jurnalı, №551, 1370-ci ilin fərvərdin ayı.

[4] Hüseyn Mehri, Dəyişikliyin ayaq səsi, səh.45 və 47

boşluq hisslərində qərq oldu. Dahi rəhbər müasir Qərb insanının ruhi çaşqınlığını onun Allah və mənəviyyata qarşı biganəliyində görür. Necə ki, şəhid Ayətullah Məhəmməd Baqir Sədr kimi dahilər də Qərbdə materializmin təhlilində Qərbin ruhi və mənəvi boşluğunun ən köklü amilini Yerin göydən qırılmasında, yəni təkallahlılıq və allahpərəstlikdən ayrılmada görürlər.[1]

Bu gün Qərb informasiya vasitələri, ölkənin mədəni, siyasi, elmi və ictimai şəxsiyyətləri müxtəlif yollarla Qərb vətəndaşlarının böyük mənəvi boşluq və ruhi çaşqınlıq bəlasını diqqət mərkəzində tuturlar:

Fransanın "Novel Obezravator" həftəlik qəzeti sənaye cəmiyyətlərinin hazırkı vəziyyətinin təhlilində yazmışdır:

İndi dünyanın inkişaf etmiş istehlakçı sənaye cəmiyyətlərinin milyonlarla insanı boşluq hissi duyurlar.[2]

İngiltərə şahzadəsi Çarlz da bu ölkənin tələbə və dini rəhbərlərinin toplantısında çıxış edərkən demişdir:

"Bu gün Qərb cəmiyyətləri məqsədsizlik və puçluqdan əziyyət çəkirlər."[3]

Məşhur Qərb nəzəriyyəçisi və təcrübəli Amerika siyasətçisi Berjinski də yuxarıdakı gerçəklik haqqında demişdir:

"Mənəvi boşluq mənəvi puçluğun daha dəqiq ifadəsidir. Bu həmin mənəvi puçluqdur ki, Qərb mədəniyyətinin böyük hissəsini bürümüşdür."[4]

### *Qərb insanlarının yetimlik hissi*

Amerika mütəfəkkiri, ərəb və fars dili və ədəbiyyatı, fəlsəfə, hikmət tədqiqatçısı doktor Ceyms Moris incə ifadə ilə Qərb insanının mənəvi kasıblıq və miskinliyini belə xatırlamışdır.

O, mübarək ayəyə işarə edərək

( و يطعمون الطعام على حبه مسكينا و يتيما و اسيرا )[5]

---

[1] Seyyid Məhəmməd Baqir Sədr, İqtisaduna, səh.19 və 20

[2] "Ebrar" qəzeti, 6/6/1375

[3] "Çeşməndaz" nəşriyyatı, İslami İrşad Nazirliyi, 1376-cı ilin ordibeheşt ayı

[4] Zbiqnev Berjinski, Nəzarətdən xaric, Əbdürrəhim Nəvə İbrahimin tərcüməsi, səh.84

[5] İnsan(76) surəsi, ayə 8: "Yeməyi istəkləri ilə yoxsula, yetim və əsirə yedirdərlər."

demişdir:

"Yetim o kəsə deyilər ki, ata və anası yoxdur, lakin həqiqətdə dayaqları olmayan kəslər vardır. Buna görə də Qərb dünyasında insanların çoxu yetimlik hissi keçirirlər! "[1]

Tanınmış ingilis rejissoru Mayk Li Qərbdə müasir insanın ruhi və mənəvi çaşqınlığına toxunaraq, bu çaşqınlığı "mənlik və özünü unutma böhranı" adlandırmışdır:

"Qərb dünyasının problemlərindən biri "mənlik böhranı" ilə bağlıdır. Ətrafımızda gördüyümüz insanların çoxu özlərini itirmişlər və məqsədsiz insanlardır. Haradan gəldiklərini, nə etdiklərini və hara gedəcəklərini bilmirlər."

O daha sonra əlavə etmişdir:

"Qərbin sənaye cəmiyyəti insanlardan mexaniki maşınlar düzəltmişdir."[2]

Həqiqətən də insan müasir sənaye cəmiyyətlərində inkişaf etmiş maşına çevrilmişdir. Çünki allahpərəstlik və mənəviyyata fitri ehtiyacını nəzərə almadığından ruh və mənəvi dəyərlərdən ayrılmışdır.

Məşhur fransız filosofu Luk Feri müsahibələrindən birində (iyun 1995) həmin mövzuya toxunaraq bildirmişdir:

"Dindən uzaqlaşmış dünyanın mənəviyyat haqqında deməyə sözü yoxdur və onun böyük problemi də bundadır."[3]

Hətta Franis Fokoyama kimi liberalizmin güclü müdafiəçiləri kommunizmin süqutundan sonra nəşr etdirdiyi "Tarix sona çatmışdırmı? " məqaləsində ruhi boşluq və mənəvi puçluğu liberalizm ideologiyasının əsas və inkarolunmaz zəifliyi kimi təqdim etmişdir.

Amerikanın keçmiş prezidenti Niksonun müşaviri doktor Robert Kerin də Amerika cəmiyyətində dinsizlik və dinlə qarşılaşma prosesi və onun mənfi nəticələrinə toxunaraq demişdir:

"Bu mübarizənin, qarşıdurmanın nəticəsi (Amerika cəmiyyətinin) ictimai həyatında mənəvi puçluq və … olmuşdur."[1]

---

[1] "Keyhan-e fərhəngi", 1373-cü ilin tir ayı, səh.7 (elmi "dəyirmi masa"; irfan və mədəniyyət)

[2] "Sinema video" jurnalı, 22/3/1375

[3] Əslən yaponiyalı, müasir Amerika strateqi.

Bu səbəbdən məşhur Amerika psixoloqu Bencamin Spak Amerika cəmiyyətinin ictimai vəziyyətini təhlil edərək belə bir nəticəyə gəlmişdir: "Bizim cəmiyyətimiz mənəvi dəyərlərin yoxluğundan bərk əziyyət çəkir."[2]

Qərb ölkələri əhalisinin mənəvi puçluğu ilə yaxından tanışlıq məqsədilə onun bariz nümunələrindən birinə işarə edirik. Məşhur fransız dramaturqu Ujen Yunesko ölümündən qabaq son mətbuat müsahibəsində "Dünya camaatına nə demək istəyirsiniz?" sualına cavabında demişdir:

"Uzun illər ömür sürmüşəm, uzun illər yazmışam, lakin hələ başa düşməmişəm ki, dünyaya nə üçün gəlmişəm və bütün bu səylərim nəyə görə olmuşdur. İndi ürəyim özümdən sonra bir vəsiyyətnamə qoymaq istəmədiyi halda dünya ilə xudahafizləşmək astanasındayam."[3]

### *5 – Dini əqidələrin olmaması və mənəvi boşluğun mənfi təsirləri*

Ruhi və mənəvi boşluq həmişə insan cəmiyyətlərində çoxlu zərər və mənfiliklərin mənşəyi olmuşdur, amma onun dağıdıcı təsirləri Qərbdə daha geniş və daha artıqdır. "Buna görə də hər gün Qərbdə, bugünkü dünyada və Qərb üslubunda yaşayan bütün ölkələrdə əsəb xəstəliyi, ruhi sarsıntıları olan və müxtəlif narkotik maddələrə aludə olan cavanların sayı durmadan artır…"[4]

Bu gün nəzəriyyəçilərin çoxu Qərb ölkələrindəki mənəvi boşluğu, bu ölkələrin vətəndaşları arasında cavan və yeniyetmələrin intiharının artmasını, pərişanlıq, əsəbi və ruhi xəstəliklərin genişlənməsini, narkotik maddələr, eləcə də yuxu və sakitləşdirici dərmanların geniş şəkildə istifadə olunması ilə əlaqələndirirlər.

---

[1] "Kəlme-ye daneşcu", №16, "Əl-Fələstin əl-müsəllimə" jurnalından, London çapı, noyabr 1995

[2] "Uşaqlarımız üçün daha yaxşı dünya", Mənsurə Həkiminin tərcüməsi, səh.153.

[3] "Həmşəhri" qəzeti, 1373-cü ilin fərvərdin ayı, №371

[4] Roje Dupaskiye, İslamın sərgüzəşti, İnsanın taleyi, Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.21

Belə ki, Əllamə Məhəmməd Tağı Cəfəri bu barədə demişdir:

"Puçluq və intihar təhriklərinin çoxalmasının (qəribədir ki, bu hallar dünyanın ən inkişaf etmiş ölkələrində başqa yerlərdən daha çox baş verir) dəqiq və qərəzsiz araşdırmaları aydın şəkildə sübut etmişdir ki, "insanların din və mənəviyyatdan üz çevirməsi bu kimi mənəvi sarsıntıların ən əsas amil və stimullarındandır."[1]

Pensilvaniya Universitetində çalışan amerikalı psixoloq doktor Martin Siqmen Amerika cəmiyyətində pərişanlığın artmasını dini əqidələrin olmaması ilə əlaqələndirərək demişdir:

"Dini etiqadların zəifləməsi dayağı əldən vermək mənasındadır ki, insanı müsibətlər və məğlubiyyətlər qarşısında ziyandan qoruya bilər."[2]

Məşhur Amerika psixoloqu Bencamin Spak da Amerikada intihar hallarının hədsiz çoxalmasını bu cəmiyyətin mənəvi boşluğunun nişanəsi sayaraq yazmışdır:

"Son iyirmi il ərzində Amerika yeniyetmələri arasında cəmiyyətin ciddi xəstəlik nişanəsi olan intiharın miqdarının dörd dəfə çoxalmasının əsas səbəbi mənəvi əqidələrin olmamasıdır."[3]

Hər halda mənəvi boşluqdan baş verən itkilər şiddətlə yüksələn və nəzarətolunmaz bir proses olaraq dünyada, xüsusən Qərbdə geniş narahatlıqlara səbəb olmuşdur.

Məşhur Argentina mütəfəkkiri və yazıçısı Ernesto Sabuto "Məni həqiqətən narahat edən məsələ müasir cəmiyyətdə özünü dərk edən qüvvələrin susdurulmasının kədərli nəticəsi olan dövrümüzün mənəvi faciəsidir" - fikrini bəyan edərək demişdir:

"Biz psixi sarsıntıların, qeyri-sabitliyin, kobudluğun və nəhayət, narkotik maddələrdən istifadənin çoxaldığı iztirablı, əsrdə yaşayırıq. Qərb texnologiyasının qəfil inkişafı və dəyərlərin nəzarətsizliyi böyük itkilərə səbəb olmuşdur."[4]

---

[1] Əllamə Məhəmməd Tağı Cəfəri, Bəşərin bugünkü çıxılmazlığı, səh.43

[2] "Resalət" qəzeti, (25/9/1371) "Nyu-York Tayms"dan. "Artan dirçəlmə bahasına pərişanlıq" məqaləsi

[3] Bencamin Spak, "Uşaqlarımız üçün daha yaxşı dünya", səh.49

[4] "Pəyam-e Yunesko" nəşriyyatı, №243

### *Ruhi böhranın dəlilləri*

Məşhur Amerika yazıçısı və nəzəriyyəçisi Elvin Tafler də cəmiyyət dəyişikliklərinin təhlilçiləri və mütəfəkkirləri arasında təzahür olunan Qərb cəmiyyətinin mənəvi çaşqınlığından yaranmış böhranlardan dərin narahatlıq keçirdiklərindən danışmışdır. Tafler bu sualları müzakirə etmişdir:

"Texnoloji dəyişikliklər və ictimai üsyanlar dostluq, eşq, ictimai öhdəçilik və bağlılıq, ürəyiyanma və qəmxarlığın sonu deyilmi? Elektronik qəribəliklər sabah insan münasibətlərini olduğundan daha mənasız və vasitəli etməyəcəkmi? O daha sonra yazmışdır: "Bunlar qanuni suallardır, amma elə suallardır ki, ağlabatan narahatlıq və qorxulardan qaynaqlanır və yalnız xam düşüncəli texnokrat asanlıqla onlardan keçə bilər.

Çünki ətrafımıza nəzər salsaq, bu mənəvi böhranın çoxlu dəlillərini tapa bilərik."

O sonra getdikcə artan bu mənəvi böhranın dəlillərini araşdıraraq yazmışdır:

"Əhalisi firavan yaşayan ölkələrdə acizlik fəryadı və tanış gileylər eşidilir. Yeniyetmələrin intiharının sayı artmaqdadır, alkoqolizm hökmranlıq edir, ruhi düşgünlük hər yeri bürümüşdür, cinayət adi hal almışdır.

Birləşmiş Ştatlarda xəstəxanaların təcili yardım otaqları marixuana, kokoin, heroinə aludələr, sürət dəliləri, xuliqan və quldur dəstələrinin üzvləri, nəhayət, ağır əsəbi böhrana tutulmuş adamlarla doludur.

İctimai yardım və ruhi sağlamlıq uğrunda mübarizə hər yerdə sürətlə genişlənməkdədir. Vaşinqtonda prezident idarəsinin nəzdində olan bir ruhi səhiyyə komissiyası elan edir ki, Birləşmiş Ştatların vətəndaşları əsəbi gərginlikdən əziyyət çəkirlər. Ölkənin müvafiq müəssisələrinin birində çalışan psixoloq iddia edir ki, təxminən ruhi sarsıntı keçirməyən heç bir ailə yoxdur. O, yeni zamanda bildirir ki, gələcəyi narahat, pərişan olan Amerikanı ruhi gərginlik bürümüşdür..."

Tafler əlavə etmişdir: "Gündəlik həyat həqiqətən rüsvayçı tərzdə öz keyfiyyətini itirmişdir, hamının əsəbləri tarıma çəkilmiş və dağınıqdır. Metroda əlbəyaxa olmaq və ya bir-birini güllələmək, habelə yanacaq doldurma məntəqələrindəki növbələr bu gerçəkliyin göstəricisidir ki, əsəblərə nəzarət

insanların əlindən çıxmışdır. Milyonlarla insan ağıllarının son həddinə çatmışdı."

...Biz minimum Qərbdə dəlilik haqqında ziyanverici röyaların "yaradıcıları"nın şahidiyik. Qumru yuvasının yuxarısında uçuş təlimi almış qəhrəmana hörməti (qəfəsdən bir dəli uçmuşdur) nümunə kimi çəkmək olar: Çoxsatılan kitablar iddia edirlər ki, dəlilik bir əsatirdir. Bütün nəşriyyatlar bu şüar üzrə ixtisaslaşmışlar; dəlilik, dahilik və müqəddəslik hamısı bir sahəyə aiddir, oxşar ad və etibara malik olmalıdırlar."

O açıqlamışdır: "Eyni zamanda milyonlarla insan dəli kimi özləri üçün mənlik axtarışındadırlar, ya da möcüzə yarada biləcək hansısa bir dərmanı əldə etmək istəyirlər. Elə bir dərmanı ki, onların şəxsiyyətlərinə yenidən bütövlük bəxş etsin, onlar üçün ünsiyyət, ülfət, varlıq həvəsi yarada bilsin, ya da onları ağlın ən ali mərhələlərinə aparsın."

Tafler sonra demişdir: "Bu gün... insanların çoxu öz ətraflarında ruhi düşgünlük, hərc-mərclikdən başqa bir şey görmürlər. Onlar şəxsi gücsüzlük, məqsədsiz və mənasız acizlik hisslərindən əziyyət çəkirlər."[1]

Fransa agentliyi də amerikalıların mənəvi çaşqınlığı haqqında məlumat verərək bildirmişdir:

"Amerikalıların gündəlik həyatı bu günlərdə o qədər pərişanlaşmışdır ki, onlar öz sakitliklərinin təmini üçün "Kişilərin qadınlara dedikləri 101 yalan", "Dil-bədən üzvlərinin başı", "Pullu olmaq üçün ən yaxşı yol", "Röyalar mədəniyyəti – sizin bugünkü taleyiniz" və sairə kimi kitablara üz tuturlar.

Bu məlumatda yazılmışdır: Amerika naşirləri də bu (mənəvi) çaşqınlıqdan istifadə edirlər. Necə deyərlər, təkcə bu yolgöstərici kitablardan naşirin xeyri 279 milyon dollar olmuşdur və bu kitablar mənəviyyatını əldən verməmiş çaşqın amerikalıya cavabdır."[2]

### *Qərbdə mənəvi boşluğun mənfi təsirləri*

**A)** İntiharın artması

---

[1] Elvin Tafler, Üçüncü dalğa, Şəhindoxt Xarəzminin tərcüməsi, səh.17, 5, 4, 503

[2] "Həmşəhri" qəzeti, 31/3/1375. "Cümhuri-ye Eslami" agentliyi

Mövcud məlumatlara əsasən təbiət üzərində öz qüdrət səviyyəsini yüksəltmək üçün texnoloji imkanlardan maksimum istifadə edən insan mənəvi yoxsulluğuna görə ruhi təzyiqlər, həyatın eniş-yoxuşları ilə mübarizədə tamamilə zəifləmişdir. Belə ki, indi inkişaf etmiş ölkələrin vətəndaşlarının böyük bir hissəsi intiharı mövcud problemlərdən yeganə nicat yolu kimi seçirlər.

"Qərb psixoloqlarının fikrincə, inkişaf etmiş ölkələrdə intiharın (günah və cinayət) miqdarı o qədərdir ki, onun təsəvvür olunması üçün "epidemiya" sözü belə çox kiçik görünür."[1]

Bu gün Amerika, Almaniya, Fransa, Finlandiya və digər ölkələrdə nəzarətsiz intihar problemi mürəkkəb ictimai şərait yaratmışdır.

## *Danimarka*

Almaniyanın "Frankfurter Ruendşau" qəzeti bu barədə verdiyi məlumatda yazmışdır:

"Danimarka dünyanın ən dövlətli və inkişaf etmiş ölkələrindən sayılsa da, ildə 12000 nəfər insan intihara cəhd edir və bu proses şiddətlə artmaqdadır."[2]

Danimarkada bir tədqiqat mərkəzinin verdiyi məlumata əsasən, hər iyirmi nəfər danimarkalı gəncdən biri intihara cəhd etmişdir və hazırda ölkə cavanlarının yarısı intihar haqqında fikirləşirlər."[3]

## *İtaliya*

"İtaliya Ruhi Araşdırmalar Birliyinin məlumatına görə, bu ölkənin cavanlarından 25%-i intihar fikrindədirlər. İtaliyanın Tibbi-Əxlaqi Komitəsi bildirmişdir: "İldə yüz min gənc intihar edir." Komitə rəisi intihar hallarının heyrətamiz statistikasına toxunaraq bildirmişdir:

---

[1] Frityov Kapra, Avropa və Amerika universitetlərinin tanınmış müəllimi. Ruhi sağlamlıq üzrə alimi "Viktofaşdan" götürülüb, "Name-ye Fərhəng", №13, səh.61

[2] "Cümhuri-ye Eslami" qəzeti, 5/6/1373 və "Cümhuri-ye Eslami" agentliyi.

[3] "Sübh" jurnalı, №62, 1375-ci ilin mehr ayı (Xarici mənbədən götürülüb)

"Yeniyetmələr və gənclər arasında intihar hallarının sayı artmaqdadır."[1]

### *Finlandiya*

Amerikanın "Vaşinqton post" qəzeti Finlandiyadan bu barədə verdiyi məlumatda yazmışdır:

"Finlandiyada intiharın artım prosesi onun üçün cavab tapa bilməyən Qərb tədqiqatçılarının narahatçılığına səbəb olmuşdur."[2]

### *Fransa*

Fransanın "Luparizin" qəzeti bu ölkədə intihar problemi haqqında məlumatında yazmışdır:

"Fransada hər qırx dəqiqədə bir nəfər intihar edir və intihar 25-34 yaşlı cavanlar arasında ölümün birinci, 14-25 yaşlılar arasında isə ölümün ikinci səbəbidir."

Bu məlumatda yazılmışdır:

"Fransa 12000 intihar və 160000 intihara cəhdə görə ilk yerlərdən birini tutur. İntihardan ölüm faktları yol-qəza hadisələrinə görə ölüm faktlarından xeyli çoxdur."[3]

"Həmçinin "Sufers" sorğu müəssisəsinin İntiharla Mübarizə İttifaqı ilə əməkdaşlıq çərçivəsində aparılmış tədqiqatların nəticələrinə əsasən müəyyən olunmuşdur ki, Fransada hər il intihara cəhd edən cavanların sayı 50000 nəfərə çatmışdır. Bu ölkənin əhalisinin 13%-i ən azı bir dəfə intihar fikrinə düşmüş və onların 35%-i boyunlarına almışdır ki, öz yaxınları, o cümlədən ailə üzvləri və dostlarının intiharı halları ilə üzləşmişlər."[4]

### *Almaniya*

Almaniyanın "Frankfurter Ruendşov" qəzeti yazmışdır:

"Keçən il (1994-cü ildə) 12960 nəfərdən çox insan intihar nəticəsində həyatını qurban vermişdir, halbuki bu ölkədə həmin

---

[1] "Keyhan" qəzeti, 5/8/1378 (USE Tudi Amerika qəzetindən)
[2] "Sübh" jurnalı, №86, 1377-ci ilin aban ayı
[3] "Keyhan" qəzeti, 17/11/1377
[4] "Resalət" qəzeti, 20/11/1378

il yol hadisələri qurbanlarının sayı 10000 nəfərdən də az olmuşdur!"[1]

### *Avstraliya*

"Rəsmi hesablamalara görə yol-qəza hadisələrindən sonra intihar avstraliyalı gənclərin ölümünün ikinci səbəbidir və 1998-ci ildə bu göstərici əvvəlki illə müqayisədə 30% artmışdır."[2]

### *Amerika Birləşmiş Ştatları*

"Amerika Birləşmiş Ştatlarında çap olunmuş məlumatlara əsasən, hər altı saatda yaşı 19-dan aşağı olan bir yeniyetmə odlu silahla intihara cəhd edir. 1990-cı ildə 10-19 yaşlı yeniyetmələr arasında 1447 nəfər odlu silah vasitəsilə intihar etmişdir."[3]

"Mövcud hesablamalara əsasən, intihar Birləşmiş Ştatlarda 15-24 yaşlı cavanlar arasında ölümün ikinci əsas səbəbidir."[4]

Cons Hopkins Universitetinin psixiatriya müəllimi doktor Ridfeld Ceymson bu barədə demişdir:

"İldə təxminən 30000 amerikalı intihar edir və 750000 nəfər isə intihara cəhd göstərir. Keçən bir il ərzində hər beş amerikalı yeniyetmədən biri intihar etmiş, ya da ciddi şəkildə intihar qəsdində olmuşdur."[5]

"Mövcud statistik hesablamalar onu göstərir ki, bu ölkədə 1970-1980-ci illərdə 15-20 yaşlı yeniyetmələr arasında intiharın miqdarı 50% artmışdır."[6]

Əlbəttə, Amerika Birləşmiş Ştatların intihar halları haqqında digər maraqlı tədqiqatlar Amerika psixiatorları doktor Alen Bermen və Div Çapz tərəfindən aparılmışdır. Onlar "Cavanların intiharı – qiymətləndirmə və qarşısını alma" adlı kitablarının çapı ilə öz geniş tədqiqatlarının nəticələrini geniş

---

[1] "Cümhuri-ye Eslami", 11/7/1373, "Cümhuri-ye Eslami" agentliyi. Demək lazımdır ki, qeyd olunmuş hesablama 1377-ci ildə yenidən təkrarlanmışdır ("Cümhuri-ye Eslami" qəzeti, 18/4/1379)

[2] "Keyhan" qəzeti, 26/3/1378, "Sidney Moninq" qəzetindən nəql. Avstraliya çapı.

[3] "Həmşəhri" qəzeti, 1/8/1375 (mənbə Famil rcircle)

[4] Nelson, Uşaqların tibb mənbələri, səh.348

[5] "Sübh" jurnalı, №86, 1377-ci ilin aban ayı

[6] Nelson, həmin yerdə, səh.348

ictimaiyyətə çatdırmışlar. Kitabda yazılmışdır: "Amerika Birləşmiş Ştatlarında ildə 15-24 yaşlarında olan 15000 cavan intihar edir və bu intiharların əksəriyyəti mart, aprel və may aylarında (bahar fəslində) baş verir.

Adı çəkilən tədqiqatçılar bahar fəslində intiharın miqdarının artması səbəbini aşağıdakı iki fərziyyə üzrə açıqlamışlar:

**1.** Bahar fəsli həyatın yeniləşməsi və ümidverici fəslidir. Adətən çox tez təsirlənən guşənişin və ümumiyyətlə pessimist cavanlar özlərini bu fəslə uyğunlaşdıra bilmirlər. Onlar bir qayda olaraq yeniləşməyi də xoşlamırlar. Buna görə də ümidsizlik və məyusluq halında intihara əl atırlar.

**2.** Gənclərin əksəriyyəti bahar fəslində ruhi təzyiqlərlə, son imtahanlarla, habelə həmişəlik ailə ocağını tərk etmək kimi hallarla üzləşdiklərindən, son nəticədə intihara cəhd edirlər."[1]

### *Qərbdə ruhi xəstəliklərin artması*

İnkişaf etmiş sənaye ölkələrində intiharın güclü artımı ilə yanaşı ruhi təzyiqlər, iztirab, pərişanlıq, ümidsizlik hissləri və sairə də xeyli artmışdır və nəticədə sakitləşdirici, yuxu və ağrısızlaşdırma dərmanlarının məsrəfinin artımı prosesi də yüksəlmişdir.

### *Almaniya*

"Komunder Müalicə Sığorta Şirkəti (Almaniyanın Münxen şəhərində) Almaniyada ruhi sıxıntıların artması haqqında məlumatında elan etmişdir: "Alman vətəndaşları arasında ruhi xəstəliklərin mövcudluğu ölkəyə böyük ictimai və iqtisadi ziyan vurmuşdur. Belə ki, il ərzində Almaniyanın ümumi xəzinəsinə üç milyon marka ziyan dəymiş, on bir milyon iş günü hədərə getmiş və insanlar on beş min gün müalicə mərkəzlərində yatmışlar."[2]

---

[1] "Omid-e enqelab" jurnalı, №243

[2] "Ettelaat" qəzeti, əlavə, 4/11/1377

### *İngiltərə*

"Digər tərəfdən ilk dəfə olaraq İngiltərənin Milli Statistika İdarəsinin bu ölkənin nazirliyi üçün hazırladığı hesablamalara görə müəyyən olunmuşdur ki, İngiltərə əhalisinin 1/6-i ruhi düşgünlükdən əziyyət çəkir və şəhərlərdə ruhi sarsıntıların miqdarı kənd məntəqələrindən 50% çoxdur.

Bu məlumata əsasən İngiltərə əhalisi arasında ən geniş yayılmış ruhi narahatlıq düşgünlük və iztirabla əlaqədardır."[1]

### *İspaniya*

"El-pays" qəzeti bildirmişdir: İspaniya əhalisinin 30%-i yuxusuzluqdan əziyyət çəkir və bu iş ispanları məcbur etmişdir ki, ildə təxminən 60 milyon qutu yuxu dərmanı istifadə etsinlər."[2]

### *İsveç*

İsveçin uşaq və yeniyetmələr psixoloqu professor Enlizfon Knorinq "AB" qəzetinin 08/09-1993-cü il tarixli sayında çap etdirdiyi "İsveç yeniyetmələri şiddətli ruhi narahatlıq keçirirlər" başlıqlı məqaləsində yazmışdır:

"İsveç şagirdlərinin ruhi vəziyyəti və sağlamlığı haqqında aparılan tədqiqatlardan müşahidə edirik ki, uşaq və yeniyetmələrin çoxu ruhi düşgünlükdən əziyyət çəkirlər. Bundan tamamilə təəccüblənmişik."

O daha sonra əlavə etmişdir: Çox təəssüf ki, yeniyetmələrin ruhi düşgünlüyü məsələsi sadəcə bir pərişanlıq deyil. Bu özünə inamsızlıq, ümidsizlik hissi, təhsil və işlərdə irəliləmə həvəsinin azalması, yuxusuzluq, iştahasızlıq, baş və ürək ağrıları, süstlük və tənbəlliyə səbəb olmuşdur. Getdikcə artmaqda olan bu əlamətlərin ictimai quruluşda yaranmış dəyişikliklərlə birbaşa əlaqəsi vardır."[3]

Bu barədə başqa bir məlumatda oxuyuruq:

"1980-ci onilliyin sonlarında İsveçdə ildə orta hesabla beş milyard kroun yuxu və sakitləşdirici dərmanların alınmasına sərf

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 11/4/1377

[2] "Keyhan" qəzeti, 4/8/1371

[3] Mənuçehr Dəbir Siyaqi, "Qərbdə nə baş verir? ", səh.53 və 82

olunur. Qış fəslində, xüsusilə guşənişinlik və münasibətlərə ehtiyacın daha çox duyulduğu milad bayramı, habelə yeni il tətilləri ərəfəsində daha çox artır."[1]

### *Fransa*

Fransanın Milli Səhiyyə və Tədqiqat Müəssisəsi nəşr etdirdiyi 320 səhifəlik məlumatda bildirmişdir:

"Fransanın gənc nəslinin vəziyyəti çox narahatedici və kədərlidir."

Bu məlumatda yazılmışdır: "11-19 yaşlı yeniyetmələr üzərində aparılan müfəssəl və uzunmüddətli tədqiqatların nəticəsində məlum olmuşdur ki, Fransada gənc nəslin əsas narahatlığı onlarda həyat eşqinin olmamasıdır!"

Bu məlumata əsasən, fransız cavanların 41,5 %-i rahat və sakit yuxuya mane olan ruhi problemlərə düçar olmuş və 49,6 %-i gün ərzində ruhi düşgünlük və narahatlıq hissi keçirir."[2]

### *İtaliya*

Nəşr olunmuş statistik hesablamalara görə, hər iki italiyalı ailəsindən biri ruhi problemlərlə üzləşmişdir! İtaliyanın səhiyyə naziri bu hesablamalara əsasən elan etmişdir: On milyon İtaliya vətəndaşı ruhi problemlərə mübtəla olmuşdur. İtaliyanın səhiyyə naziri yuxarıdakı fikrinə qayıdaraq demişdir:

"Dövlət bu xəstəxanaların və ruhi xəstələrin saxlanması üçün ildə min milyard lirə xərcləyir."[3]

### *Amerika Birləşmiş Ştatları*

"Ekonomist" jurnalı 1999-cu il 1 yanvar tarixli sayında ABŞ-da ruhi düşgünlük, onun nəticə və səbəbləri haqqında çap etdiyi məlumatında yazmışdır:

Psixoloqların fikrincə, ruhi düşgünlük modernizm və onun təzyiqlərindən yaranan bir xəstəlikdir. Yeniliyin dünyanın digər bölgələri ilə müqayisədə daha tez duyulduğu Amerikada gənclər erkən yaşlarından bu xəstəliyin tələsinə düşürlər.

---

[1] Həmin yerdə

[2] "Cümhuri-ye Eslami" qəzeti, 9/5/1373

[3] "Keyhan qəzeti", 26/10/1379

"2020-ci ildə ruhi düşgünlüyü ürək xəstəliklərindən sonra bəşəri bürüyən ən geniş xəstəlik olacaq. Bu jurnalda yazılmışdır:

Amerikanın Masaçust Texnologiya İnstitutunda çalışan doktor Ernest Brent və institutun əməkdaşları belə bir nəticəyə gəlmişlər ki, Amerikada ruhi xəstəliklərə aid xərclər ildə 44 milyard dollardan artıqdır, yəni təxminən damar xəstəliklərinə çəkilən xərclərə bərabərdir. Bu o deməkdir ki, hər amerikalı ruhi düşgünlük xəstəliyinə görə ildə min dollar ödəyir.

Bu jurnal daha sonra yazır:

Ruhi düşgünlük xəstəliyinin müalicəsinə xərclənən pullar on iki milyard dörd yüz min dollara çatır. Həmin xəstəliyə düçar olanların intiharı bu rəqəmə yeddi milyard beş yüz milyon dollar əlavə edir ki, burada insan qüvvəsinin itirilməsindən yaranmış xəsarət nəzərdə tutulmayıb.

"Ekonomist"də daha sonra oxuyuruq:

Bununla belə ruhi düşgünlüyə qarşı istifadə olunan dərmanların qiyməti çox bahadır. Masaçust Texnologiya İnstitutunun hesablamalarına görə, bu dərmanların dünya bazarında dəyəri yeddi milyard dollardan artıqdır ki, gələn beş il ərzində 50% qalxması gözlənilir:

Bu gün, xüsusilə Amerikada geniş yayılmış ruhi düşgünlüyün müalicəsi üçün ən məşhur dərman "projak"dır ki, onu istehsal edən "Əli-lili" şirkəti öz səhmdarlarının cibinə ildə iki milyard altı yüz milyon dollar axıdır."[1]

Bu barədə maraqlı bir məlumatda oxuyuruq:

"Amerikalılar yuxu dərmanından istifadə rekordunu keçmişlər." Bu məlumata əsasən, amerikalılar hər gecə üç milyon həbdən çox yuxu dərmanı məsrəf edirlər ki, əgər bir il bu həbləri bir-birinin üzərinə yığsaq, təxminən 600000 kiloqram olar. Və bu 600 ton həb səkkiz sutka müddətində bütün dünya əhalisini yuxuya aparmaq üçün kifayətdir."[2]

### *6 – Qərblilər və mənəvi dəyərlərə qayıdışın zəruriliyi*

Uzun müddətdir ki, Qərb mütəfəkkirləri və alimləri mənəvi dəyərlərə laqeydlikdən bəşəriyyətə vurulmuş böyük

---

[1] Mənuçehr Dəbir Siyaqi, "Qərbdə nə baş verir? ", səh.53 və 82

[2] "Danestəniha" jurnalı, 5/7/1362

xəsarətləri etiraf edərək, insanın mənəvi dəyərlərə qayıdışının zəruriliyi mövzusunu müxtəlif yollarla müzakirə edirlər .

"Eynşteyn[1] ruhi boşluq və bədbəxtlikdən qaçmağın həlli yolunu insan həyatının məqsədinin qeyri-müəyyənliyinin və nizamsızlığının aradan qaldırılmasında görürdü. Erik From[2] və Frankil[3] məna axtarışını həyat üçün yeganə çıxış yolu kimi qəbul edirdi.

Briqson[4] yeni əxlaqi və mənəvi mənbələrə ehtiyacın zəruriliyini xatırladaraq, əxlaqi davranış normalarının dəyişdirilməsini nicat yolu kimi qəbul edirdi.

Maks Plank[5] ateizmin qələbəsini mədəniyyətin aradan getməsi və gələcəyə hər cür ümidin yox olması mənasında qəbul etmiş və ateizmlə mübarizə aparmağı istəmişdir.

Albert Şvateyzer[6] əxlaqi ənənələrin yenidən bərpa olunmasını təkid edir...və professor Adam Şaff[7] "İnformatika cəmiyyətində fərd" kitabında iki fəsli həyatın mənasını və dəyər sistemini axtaran insana həsr etmişdir."[8]

Amma bu da şübhəsizdir ki, təxminən keçən iki onilliyə qədər bəşəriyyətin dini və mənəvi yönümünün zəruriliyi fikri Qərb mütəfəkkirlərinin ağlına belə gəlmirdi. Təsadüfi deyildi ki, heç bir zaman indiki dövr kimi Qərb cəmiyyətlərinin ictimai meydanını belə mühüm ictimai, mədəni və siyasi dəyişikliklərin qurbanı etməmişdi.

---

[1] Albert Eynşteyn, məşhur alman fiziki (1879-1955)

[2] Erich Fromm, əslən alman olan Amerika psixoloqu və mütəfəkkiri (1980-1990)

[3] Viktor Frankl, alman psixoloqu (?-1905) (bax: Henrix Mizyak, Psixologiyanın tarixçəsi və məktəbləri, Əhməd Rizvaninin tərcüməsi, səh.668 və 669

[4] Fransa filosofu (1859-1941)

[5] Alman fiziki (1859-1947)

[6] Fransız həkim və natiqi (1875-1965)

[7] Adam Schaff, Roma klubunun yazıçılarından

[8] Doktor Məhəmməd Bastani, "Name-ye fərhəngi-ye Şərif" jurnalı, 1371-ci ilin qışı.

### *7 – Mənəvi dəyərlərə qayıdış zərurətinin dərkinin yeni dalğası*

Bu gün Qərb mütəfəkkirlərinin yeni nəslinin bir çox nümayəndələri etiraf edirlər ki, "biz yolumuzu azmışlarıq, özümüzdən yuxarı və öz zəif düşüncəmizdə elə ocaqların axtarışındayıq ki, bizim əxlaq və düşüncəmizi əxlaq və mənəviyyat silahı ilə təchiz etsin."[1] Onlar dərin mənəvi kasıblığın mövcudluğunu etiraf edərək, "maddi və iqtisadi məsələlərə sonsuz maraq və diqqət Qərb cəmiyyətlərini mənəviyyatdan uzaqlaşdırmışdır" fikrini vurğulayır və "mənəvi inqilabın olması zəruriliyini israr edirlər."[2]

Digər tərəfdən, indi Qərb cəmiyyətində yaşayan vətəndaşların böyük əksəriyyəti din və mənəviyyata qarşı biganəliyin dağıdıcı təsirlərini və nəticədə yaranmış dolaşıq şəraiti dərk edərək belə bir qənaətə gəlmişlər ki, "dünya və insan haqqında təsəvvürlərə nail olmalıdırlar ki, həyat da məna və məqsəd daşısın, əxlaqi və mənəvi dəyərlər ciddi arxa tapsın."[3]

Qeyd olunmuş dəyişikliklər Qərb dünyasında daha böyük dəyişikliklərin mənşəyi olmuşdur ki, onu müasir Qərbin mənəvi və dini yönümü adlandırmaq lazımdır.

### *Qərbin mənəvi yönümü qərblilərin etirafında*

Qərb mütəfəkkirləri çağdaş dünyanın mənəvi böhranının şiddətlənməsi və Qərbdə əvvəlkindən daha çox mənəviyyat axtarışı əlamətlərinin yaranması ilə əlaqədar olaraq bəyan etmişlər: "Təkcə indiki dövrün ən heyrətləndirici ictimai hadisələrini, yəni dini kitab və firqələrin hədsiz yayılmasını dərk edə və üç amili – sənaye mədəniyyətinin aradan getməsi nəticəsində yaranmış quruluşun olmaması, məqsədsizlik və mənasızlığı bir-birinin yanında yerləşdirə bilərik."[4] Onlar aşkar şəkildə etiraf edirlər: "Həqiqətən, Qərbdə bir boşluq, maddi rifah

---

[1] Nil Postmen, Texnopoliya, Sadiq Təbatəbayinin tərcüməsi, səh.211

[2] Antonio Moderanu (İspan yazıçısı) "Cümhuri-ye Eslami" ölkədən kənar İspaniya radiosuna müsahibəsi, "Maarif" radiosu, 28/11/1378

[3] Həmin yerdə

[4] Elvin Tafler, Üçüncü dalğa, Şəhindoxt Xarəzminin tərcüməsi. "Mütərcim" nəşriyyatı, VII çap, 1371-ci il, səh.517

və mənəvi naqislik müşahidə olunur və Qərbin əhalisi öz həyatlarını mənalandırmaq istəyir."[1]

Qərb yazıçısı doktor Berni Siqnel bu barədə yazmışdır:

"[Qərbdə insanlar] ciddi surətdə mənəvi məsələlərə ehtiyac duyur və həyatın mənasını tapmaq istəyirlər."[2]

Fransız tədqiqatçısı və müsəlmanlığı yenicə qəbul etmiş Kristin Bono Qərb ölkələrində ictimai dəyişikliklərə toxunaraq demişdir:

"Qərb cəmiyyətləri siyasi və iqtisadi söhbətlərdən yorulmuşlar və onlar mənəviyyata ehtiyac duyurlar."[3]

Amerika Universitetinin müəllimi professor Danil Driserbak da bu fikirdədir: "[Qərb] əhalisi maddiçilikdən yorulmuşdu, onların mənəviyyata maraq və təmayülü həmin yorğunluq və sapınmadan qaynaqlanır."[4]

"Vaşinqton post" qəzeti puçluq və məqsədsizlikdən yorulmuş bəşərin mənəviyyat axtarması prosesinin obyektiv dəlillərindən birinə toxunaraq yazmışdır:

"İndi iyirmi milyon insan öz ruhi ehtiyacları üçün dini radio proqramlarına qulaq asırlar."

Bu qəzet daha sonra hadisəni təhlil edərək yazmışdır: "İnsanların çoxu Amerikanın gündəlik təlatümlü həyatından yaranmış ruhi məyusluq və narahatlıq ucbatından dini radio proqramlarına qulaq asmağa başlayıblar ki, özlərini sakitləşdirsinlər və cəmiyyətdə icra olunan dini göstərişlərə yaxınlaşsınlar."[5]

Qərb ictimai dəyişiklikləri üzrə analitiklərin əksəriyyəti dini biliklərə geniş təmayülün səbəbini sənaye və texnologiya dünyasının mənəvi boşluğundan yorulmuş insanın "susuzluğunda" görürlər.

Los-Ancelesdə Buddizmi Araşdırmalar Kollecinin direktoru doktor Xuan Pola Amerikada insanların buddizm təlimlərinə geniş üz tutmasına işarə edərək demişdir:

---

[1] Revi Dyum, Belçikanın üçüncü dünya araşdırmalar mərkəzinin rəisi, "Hüzur" jurnalına müsahibəsində, №18, 1378-ci ilin qışı

[2] "Məşriq" jurnalı, №2 və 3, "Müqəddəs işin axtarışında" məqaləsi.

[3] "Cümhuri-ye Eslami" qəzetinə müsahibəsində, 5/9/1375

[4] "Sübh" jurnalı, №70, 1376-cı ilin xordad ayı, Röyter agentliyindən.

[5] "Cümhuri-ye Eslami" qəzeti, 8/3/1376

"Amerikalılar yaşayış, sənaye və texnologiya dünyasının sıxıntılarından yorulmuşlar və buddizm təlim mərkəzlərinə pənah aparmaqla öz ruhlarını bu problemlərdən xilas edirlər."

O sonra əlavə etmişdir:

"Bu yönüm Amerika cəmiyyətinin din və yeni mənəvi üsula məhəbbətinin nişanəsidir."[1]

Bu gün Qərbdə cəmiyyətlərin mənəvi diqqət və yönümünün maraqlı əlamətləri nəzərə çarpır və bu əlamətlərə diqqət yetirilməsi prosesi daha dərindən başa düşməyə kömək edir.

Nyu-York Universitetinin dinlər və irfan şöbəsinin müəllimi professor Vilyam Çetik ABŞ-da Mövlananın mənəvi şeri və qəzəllərinin tərcüməsinin geniş yayılmasına toxunaraq demişdir:

"Mən keçən il xarici jurnalda bir məqalə oxudum ki, Mövlana Cəlaləddin Ruminin əsərləri Amerikada ən çox satılan kitabdır və bu qəribə bir məsələdir."

O bu məsələnin mənşəyini açıqlayarkən demişdir:

Bu yüksəliş bir neçə səbəblə bağlı ola bilər; biri qərblilərin mənəviyyata ehtiyacıdır və bu, çox mühüm elementdir."[2]

Bu barədə başqa bir məlumatda oxuyuruq: "Son vaxtlar Qərbin müasir musiqi ulduzu və Hollivudun neomuzikal filmlərinin aktyoru (Utiya) bir albomunu Amerikanın musiqi bazarlarına çıxarmışdır ki, elə ilk günlərdə Qərbdə satış rekordunu vurmuşdur. Bu hay-küyə səbəb olan albomun məzmunu heç nə deyil, yalnız Şəms Molaye-Ruminin böyük divanından qəzəllərin ingilis dilinə tərcüməsidir.

Bu albomda məharətlə ingilis dilinə çevrilmiş şeirlərin hamısının məzmunu bəşərin daxili zülmətlərdən xilası, nur aləminə pəncərə açılması və ruhun Allah-Təalanın ziyafətinə çağırışıdır.

Amerika dövlət radiosunun məlumatına əsasən, Mövləvinin mistik şerlərinin tərcüməçiləri indi "Məsnəvi-ye mənəvi"ni ingilis dilinə tərcümə edirlər.

---

[1] İslami İrşad Nazirliyinin mədəniyyət bülleteni, №58, 73, səh.9

[2] "Keyhan" qəzeti, 18/6/1378

Bu məlumatın əsasında Amerika universitetlərinin mədəniyyət ekspertlərinin iddiasına görə Şəms qəzəllərinin tərcüməsi, xüsusən cib kitabçaları şəklində yayılması Amerikanın cavan nəsli arasında fövqəladə marağa səbəb olmuşdur."[1]

### *Mənəviyyat - bəşəriyyətin dini yönümü*

Təsadüfi hadisələrdən xali olan dünyada həyatın istər təbii, istərsə də ictimai proseslərinin arxasında bir məna və məfhum gizlənir. Və hər bir hadisənin məqsədi var və bu ən azı nəzəri baxımdan misilsiz bir töhfədir ki, yalnız din, dini maarif və ilahiyyat tərəfindən insana hədiyyə olunmuşdur."[2] İnsan həyatın həqiqi məna və məfhumunun axtarışında din və onun ali təlimlərinə üz tutmuşdur. Həqiqətən də, müasir əsrin insanının mənəvi dəyərlərə meylliliyi onun dini həqiqətə, yəni irfan və allahpərəstliyə nail olması ilə bağlı fitri ehtiyacının göstəricisidir. İndi bəşəriyyət öz mənəvi ehtiyaclarını ödəmək üçün saxta din və firqələrə əl uzatsa da, onun mənəvi yönümündə dindarlıq və allahpərəstlik başlıca yer tutur.

Şəksiz, insanın mənəvi ehtiyaclarının yaranması ilə İmam Xomeyninin beynəlxalq miqyasda müqəddəs düşüncəsinin üst-üstə düşməsi bəşəriyyətin mənəvi oyanış prosesini surətləndirməklə yanaşı, insanın dini tələblərində böyük izlər qoydu. Həzrət İmam(r) onu "bəşər cəmiyyətlərinin vəhy dəyərlərinə təmayülü" kimi xatırlamışdır.[3] Müasir insan üçüncü minilliyin astanasında ateist və bəşərin yaratdığı materialist məktəblərinin təlimlərindən uzaqlaşmaqla özünün təkallahlılıq mahiyyətinə qovuşması və ilahi dini təlimlərə yenidən qayıtması yolunda səylərini daha da artırmışdır. Buna görə də "Müasir bəşəriyyətin mənəvi yönümü bəşərin vəhy inamlarına və ilahi dinlərə yenidən qayıdışının nişanəsi deyil"[4] nəzəriyyəsi arqumentsiz və gerçəklikdən uzaq iddia hesab olunur.

---

[1] "Cəbhə" jurnalı, 4/2/1378

[2] Nil Postmen, Texnopoliya, Sadiq Təbatəbayinin tərcüməsi, səh.274

[3] "Nur səhifəsi", c.20, səh.126

[4] Dariyuş Şayqan, "Camee" qəzeti, 28/2/1377, səh.10

Amerika jurnalisti və araşdırıcısı Bel Boyros bu ölkənin PBS ümumi televiziya kanalında yayımladığı on ardıcıl proqramda demişdir:

"İnsanlar bütün dünyada maddiyyatdan yorulmuş və sürətlə mənəviyyata tərəf qayıdırlar."

O, sonra əlavə etmişdir: "Din və ona tam itaət yenidən (dünya əhalisinin) diqqət mərkəzindədir."[1]

"Vaşinqton Tayms" qəzeti də bu barədə yazmışdır:

"Millətlərin dindarlığa qayıdışı prosesi təlatümlü bir sel kimidir və sekularizmin dünyanı bürüməsi təsəvvürü sona çatmışdır."[2]

Həmçinin, Beynəlxalq "Qalup" sorğu mərkəzinin direktoru Corc Qalup müasir dünyada, xüsusən Qərbdə mənəviyyata yönümün həqiqəti və mahiyyətini təhlil edərək demişdir:

"Bugünkü nəslin çaşqınlığı onları Allaha tərəf qaytarmışdır və bu, böyük bir dəyişiklikdir."[3]

### *Qərbin dini rəhbərləri və qərblilərin mənəvi ehtiyacı*

Qərbin dini rəhbərləri insanların mövcud mənəvi tələbatlarını və Qərb cəmiyyətlərinin dini müraciətləri qəbul etmələrini başa düşərək bildirmişlər: "Texnologiyanın məhsulu olan insan mənliyini əldən verməkdədir."[4] Onlar həmçinin vurğulamışlar: "Maşın həyatının nəticəsi olan şəxsiyyətsiz insanın yeganə nicat yolu (dini) imandır."[5] Öz dini fəaliyyət və təbliğatlarını artırmışlar və aşkarcasına dini təlimlərin artırılması zərurətini Qərbin ruhi və mənəvi boşluğunun yeganə çarəsi olduğunu deyirdilər.

İngiltərənin Kanterberi kilsəsinin baş yepiskopu Corc Keri bu barədə demişdir: "İngiltərə vətəndaşları bir növ ruhi boşluğa

---

[1] "Həmşəhri" qəzeti, 29/7/1375
[2] "İran" qəzeti, 15/5/1376
[3] "Həmşəhri" qəzeti, 29/7/1375
[4] Papa II Jan Pol, "Resalət" qəzeti, 22/4/1377
[5] Papa II Jan Pol, "Resalət" qəzeti, 22/4/1377

düçar olmuşlar ki, onu təkcə dini təlimlər vasitəsilə aradan qaldırmaq olar."[1]

Almaniyada çap olunan "Divelt" qəzeti də xristian dini qrupların müvəffəqiyyəti haqqında yazmışdır: "Dini qruplar bəşəriyyətin əmin-amanlığını təmin edir. Dini təlimlərə ehtiyac duyan insanlar üçün İncilin hər kəlməsi firavanlıq okeanında nicat gəmisi məqamındadır. Bu səbəbdən əgər əsaslı xristian qrupları Qərb ölkələrində nəzərə çarpacaq qarşılanma ilə üzləşsələr, təəccüb etmək lazım deyil."[2]

### *İslam və Qərbin yeni müsəlmanları*

Şübhəsiz, İslam insanın mənəvi qənaəti və onun mənəvi boşluqlardan nicat tapması yolunda böyük qüdrətə malik yeganə dindir ki, varlığın məntiqi və ruhani təfsirinin təqdimi və insanın düşüncə və dünyaya baxışında onu əsasdan dəyişə bilər. Bu elə bir gerçəklikdir ki, aydın şəkildə Qərbin yeni müsəlmanlarının fikirlərində əks olunmuşdur.

Öz peşəsini tərk edib İslamı qəbul edən məşhur ingilis xanəndəsi Kət Stivens İslama üz tutmasının səbəbləri haqqında danışarkən onu dolaşıq vəziyyətə salan əziyyətli mənəvi boşluğa toxunmuş və demişdir:

"Mən televizor, fəza səfərləri, sənayenin ildırımsürətli tərəqqisi əsrində Londonda böyümüşəm və Qərbin inkişaf etmiş dünyasında yaşamışam. Mən uzun illər insanın arzuladığı hər bir şeyə malik olmuşam, amma həmişə öz həyatımda bir boşluq hissi keçirmişəm."

O sonra əlavə etmişdir: Mən özümə spirtli içki və siqaretlə təsəlli verməyə çalışırdım, amma... [müvəffəq olmurdum...] Şərq fəlsəfəsi, Budda dini, hisslərin mərkəzləşdirilməsi və yoqaya üz tutdum. Bu mənim həqiqəti tapmaq üçün atdığım birinci addım idi. Axırda, görünür, İslamla başa çatmalı idi."[3]

O demişdir:

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 6/1/1373, "Cümhuri-ye Eslami" agentliyi, BBC radiosundan götürülüb.

[2] "Keyhan" qəzeti, 30/1/1376

[3] Neda-ye cəmi zənan-e enqelab-e Eslami, №17 və 18

"İslama üz tutanda mənim təbiət, insan, eləcə də dərk edilməyən dünya haqqında bütün narahatlıqlarım aradan qalxdı və sanki,

(لله ما فی السموات و ما فی الارض) ayəsindən can alırdı."[1]

Avropalı yeni müsəlman xanım Bergit Cəmilə İslamı qəbul etməmişdən əvvəl düçar olduğu ruhi boşluqdan üzücü əziyyət çəkdiyini söyləyərək demişdir:

"Mən bütün 26 illik həyatım dövründə dindar insan deyildim və digər avropalılar kimi xoş və firavan həyat tərzi keçirirdim. Amma həmişə öz həyatımda boşluq və çatışmamazlıq hiss edirdim. Bu həyat boşluğunu aradan qaldırmaq üçün göstərdiyim bütün səylərə baxmayaraq, ruhi vəziyyətim gündən-günə daha da pisləşirdi. Əlbəttə, zahirən şad bir insan təsiri bağışlayırdım.

Mən şirkətdə katibə vəzifəsində işləyirdim və maddi cəhətdən hər şeyə malik idim. Amma bütün bunlar sərgərdan ruhuma sakitlik bəxş etmirdi. Müxtəlif dinlər haqqında çox şeylər oxumuşdum, amma onlardan heç birində itirdiyimi tapmırdım. Əlbəttə, İslamı qəbul etdiyim dövrə kimi…

Başı örpəkli qadınlar, məscidlərin minarələrindəki azan səsləri ruhumu titrədirdi. Beləcə, Quranın mütaliəsinə başladım, nə qədər çox oxuyurdumsa, hiss edirdim ki, ruhi vəziyyətim gündən-günə yaxşılaşır.., 26 yaşında İslamı qəbul etdim."[2]

Almaniyanın 23 yaşlı yeni müsəlmanı Tanıya Polingin bu barədə söylədikləri çox maraqlıdır.

O, müxbirin "Siz İslamı qəbul etmək üçün çoxlu qurbanlar vermisiniz, bütün azadlığınızı, köhnə dostlarınızı itirmisiniz, bu fədakarlıqların müqabilində nə əldə etmisiniz? " - sualına cavabında demişdir:

…Mən hər şeyi əldən versəm də, əvəzində "özümü" tapmışam. Mən həmişə boşluq, çıxılmaz vəziyyət və acizlik hissi keçirirdim. Bu il iyirmi il əvvəl itirdiyim "özümü" və tamamilə yadlaşdığım Allahı tapmışam və hər şeyi və hamını İslamda əldə etmişəm: bizim mənəvi azadlığımızı, ruhi sakitliyi, yaxşı, nəcib və sevimli imam və rəhbəri (Həzrət Ayətullah

---

[1] "Sübh" jurnalı, №74, 1376-cı ilin mehr ayı

[2] Süsən Səfaverdi, həmin yerdə, səh.63

Xamenei), Almaniyada (Hamburq) və Avropada, hətta bütün dünyada din bacı və qardaşlarımı.

Mən iyirmiillik uzun bir gecədən gündüzün fəcr günəşinin doğumuna çatmışam, İslam günəşi məni təravətli bir bahar ağacı etmişdir və iyirmiillik qış yuxusundan oyatmışdır."[1]

Yenicə İslamı qəbul etmiş Almaniya vətəndaşı Leyla xanım demişdir:

"İslam insana daxili sakitlik və sülh bəxş edir. Bu elə bir şeydir ki, Avropa və Qərbin insanları iztirab və stresə görə ondan faydalana bilmirlər."[2]

Almaniyanın Divisburq şəhərinin sakini Yutta Moşen belə demişdir: "Əvvəllər…mənim İslam haqqında təsəvvürüm çox mənfi, bədbin və bəzən də nifrətli olurdu. [Amma] içimdə həqiqəti öyrənməyə olan meyl bir şölə kimi alovlandı və gördüm ki, qəlbimdə bu ilahi dinə münasibətdə necə yeni pəncərələr açılır." O demişdir:

"İslam mənim həyatımı kökündən dəyişdi. Bu daxili və ruhi dəyişiklik mənim zahirimi də dəyişdi. İslamla mənim həyatım istiqamətli və məqsədli oldu və ondan əvvəl düçar olduğum ruhi düşgünlükdən xilas oldum. Ümidsizlik və qeyri-sabitlik mənim həyatımdan uzaqlaşdı və onun yerini fikri və mənəvi sabitlik, ruhi tarazlıq, gələcəyə ümid və Allahın rəhmətinə əminlik doldurdu."

O daha sonra demişdir:

"Mən Almaniyada həqiqətən həyatın məqsədinin axtarışında olan çox adamlarla rastlaşmışam. Hərçənd ki, onlar kütləvi informasiya vasitələrindən heç bir aydın fikir və ya açıqlama tapmırdılar.

İnsanların böyük əksəriyyəti məqsədsiz yaşadıqlarına görə əsəbi, ruhi və cismi narahatlıqlara düçar olublar. Bu məqsədsizlik və ümidsizlik cəmiyyətin bütün yaş qrupları arasında müşahidə olunur... Almaniyada insan həyatı maddi dəyərlərə, o cümlədən rifah, vəzifə müvəffəqiyyətləri, məsrəfçilik və sairə ilə bağlıdır və bütün bunlar Qərb həyat

---

[1] "Emamət" jurnalı, №2, 1378-ci ilin tir və mordad ayı, səh.52

[2] Süsən Səfaverdi, həmin yerdə, səh.63

tərzinin başlıca dəyərləri və hədəflərinin ən böyüyüdür. Zahiri və maddi məqsədlər isə insanı puçluğa sürükləyir."[1]

Amerikalı yeni müsəlman Əhməd Hənif Kəvasi Amerika və Qərb əhalisi arasında İslamın sürətlə yayılmasının səbəblərini şərh edərkən demişdir:

"Mən belə fikirləşirəm ki, biz gərək insanın təbiətinə qayıdaq, çünki insanın təbiəti onun əleyhinə olan mühitdə olmağı qəbul etmir…

Qərblilərin hər bir şeyi – cürbəcür telefonları, televizor və maşınları vardır, amma əmin-amanlıqları yoxdur; nəinki ictimai, hətta daxili əmin-amanlıqları da yoxdur.

O daha sonra əlavə etmişdir:

"Birisi özünü təqdim edəndə və ya "mən kiməm? " sualına cavab vermək istəyəndə deyir: Mənim işim belədir, həyat yoldaşım, övladım var, filan mühitdə yaşayıram. Sonra yaşadığı mühit haqqında məlumat verir, amma öz mənliyi barədə danışmır və bir növ onda nihilizm yaranır. Nəticədə intiharın miqdarı xeyli yüksəlir və ya.., onlardan çoxu şeytanın yolunu tuturlar.

…Qərblilər artıq belə həyatdan yorulmuşlar, onlar mənəvi normaların bərqərar olmasını istəyirlər."

O sonra demişdir:

"Şərqdə yaşadığım zaman diqqətimi cəlb edən maraqlı məsələ bu idi ki, Şərq daha az xarici ictimai normalara malikdir, məsələn, sizin sürücülüyünüz çox dəhşətlidir!"

"Amma bilik cəhətdən siz daha nizamlısınız, biz isə pərakəndəyik. Bizim nəfsimizin nəzarəti yoxdur, hər gün yeni bir ehtiyac yaranır və insanlar onun ardınca gedirlər. Amma burada dindar olmayanlar üçün də bir növ daxili normalar mövcuddur."

"Siz ölkənizdə xarici normalar barədə düşündüyünüz kimi, bizi də Qərbdə daxili nizam-intizam qaydaları düşündürür. Buna görə də biz tez müsəlman oluruq."[2]

İsveç radiosunun müxbir və şərhçisi Monika Molemstrom Avropada İslamın yayılması haqqında hazırladığı məlumata

---

[1] "Emamət" jurnalı, №1, I il, 1378, səh.76, 77, 78

[2] Tehran Universiteti tələbələrinin toplantısında, "Keyhan" qəzeti, 11/11/1377

əsasən Fransanın yeni müsəlman olmuş cavanlarından biri öz müsahibəsində belə demişdir:

"Parisin küçələrindən birində əynində cins şalvar, çiynində yol çantası olan Serc adlı 21 yaşlı gənclə qarşılaşdım. O, 6 ay əvvəl müsəlmanlığı qəbul etmişdi. Serc mənimlə görüşündə dedi ki, bugünkü müasir həyatın səthi və içiboşluğundan, sərhədsiz cinsi əlaqələrdən, diskotekalardan, pivə içməkdən üz çevirmiş və İslamı qəbul etməklə sabitlik, mənalı və sakit bir həyata başlamışdır. O, səhər tezdən yuxudan oyanır ki, öz gündəlik ibadətinə başlasın."

O sonra əlavə etmişdir:

…Fərdi və ictimai həyatda qanunlara ehtiyac və sabitlik də fransız gənclərin İslama üz tutmasına kömək edir. Mən və müsəlman olmuş digər fransız dostlarım başqa dost və həmyaşıdlarımızı da İslamı qəbul etməyə çağırırıq."[1]

## ÜÇÜNCÜ AMİL: MADDİ MƏDƏNİYYƏTİN GÜNDƏN-GÜNƏ ARTAN NİZAMSIZLIĞINDAN MƏYUSLUQ

**Müqəddimə**

Mövcud beynəlxalq dəyişikliklər haqqında dərindən düşünərkən yeni mədəniyyət, onun dağıdıcı təsirlərindən bəşərin məyusluğu, müasir insanın həyatını nizamlamaqda bu mədəniyyətin gücsüzlüyü və nəticədə onun din və mənəviyyata üz tutmasını yaxşıca dərk edirik.

Qərb mədəniyyətinin yaradıcıları və onun aparıcı nümayəndələri renessans dövründə və ondan sonra kilsəni səhnədən qovmaq, öz yalnış fikirlərinə həqiqilik donu geyindirməklə ağıl və vəhy, elm və iman arasındakı uyğunsuzluğa əsaslanan ən mühüm elmi uğurlarını təqdim etmiş və tədricən sekularizm cərəyanını bəşərin ictimai həyatına gətirdilər. Beləliklə də, onlar insan həyatının nizamlanması və idarə olunması sahəsində din və dini təlimlərin qurucu fəaliyyətinin yolunu bağladılar.

---

[1] Dəbir Siyaqi, Qərbdə nə baş verir?. səh.237

Sekularizm cərəyanı həqiqətdə dinin insanın bütün elmi, ictimai və siyasi imtiyazlarından ayrılığını təbliğ edir. Onu da demək lazımdır ki, Qərbdə yaranmış məktəblərin çoxu bu düşüncə tərzinin təsiri altına düşmüş və Qərbin mədəni normaları belə bu təfəkkürün məhsuludur.[1]

Qərbin birtərəfli və materialist mədəniyyəti öz mənasız iddialarına baxmayaraq, insanın ictimai həyat imtiyazlarının dini təlimlərlə ciddi qarşıdurması istiqamətində tədricən bəşərin dolaşıq maddi və mənəvi problemlərinin həllində gücsüzlüyünü büruzə vermişdir.

Bu gücsüzlüyün sirrini mədəniyyətin əsas yaranış özəyində, yəni Qərb fəlsəfi təfəkkürü və mədəniyyətinin sosiologiya və antropologiya baxışlarında axtarmaq lazımdır.

Onun izahı budur ki, Qərb mədəniyyəti aləm və insana ateist baxışı ilə və vəhydən tam uzaqlaşmaqla bəşər həyatını tənzimləmək üçün yollar göstərməyə çalışdı, amma bu yollar insan varlığı və dünyanın gerçəklikləri ilə uyğunsuzluq təşkil etdiyinə görə lazımi yararlılığa malik olmadı. İnsanın həqiqi imkan və bacarıqlarının inkarına əsaslanan düşüncə və təfəkkür, eləcə də bunun əsasında formalaşan yeni mədəniyyət bəşər həyatını tənzimləməkdənsə, müxtəlif ictimai nizamsızlıqların yaranması və çoxalmasına zəmin yaratdı, Qərb və qərbçi cəmiyyətləri bu nizamsızlığın girdabında məhv etdi.

## 1 – YENİ MƏDƏNİYYƏT – BUGÜNKÜ DÜNYANIN NİZAMSIZLIQLARININ ƏN MÜHÜM AMİLİ

Bu yazıda Qərb mədəniyyətinin uğurlarının birbaşa təkzibi və mütləq inkarı fikrində deyilik. Amma "yer behiştini yaratmaq

---

[1] Ruzigar və ya dünya mənasında olan sekularizm tədricən Qərb düşüncəsində istilah formasını almışdır ki, "dini"nin müqabilində "dünyəvi" sözünün yerində işlənir və Qərb təfəkküründə bu dünya, dini və axirət məsələləri ilə əlaqəsizliyə bağlı olana sekular deyirlər. (Doktor Məhəmməd Əli Nəqəvi, Qərbçilik sosiologiyası, c.2, səh.57) Qərb mədəniyyətində bu məktəb üçün işlənən digər kəlmə Laizm, ya laikdir. Yunan sözü (laos,laikosdan) dan götürülmüş Laik sözü "insanlar" mənasındadır və elmi, ruhani, kilsə əhli müqabilində olan insanlar üçün işlənir. Laizm bir dövlət idarəçiliyi siyasətidir ki, onda ruhanilərin rolu yoxdur.( Dəbir Siyaqi, Qərbdə nə baş verir?. səh.237)

məqsədilə formalaşan yeni mədəniyyət" dünyanın şimal yarımkürəsində yaşayan insanların 15%-nin inhisarında olan (Qərb ölkələri) bəşər mədəniyyətinin tərəqqisinin nisbi əsaslarını yaratmaq əvəzinə, insan həyatının müxtəlif sahələrində böyük itkilərə səbəb oldu.

"Şəksiz, bu gün kimsə yeni dəyişiklik və hadisələri, habelə parlaq əsrin məhsulu olan təfəkkürdə sənaye inqilabını, insan həyatında istehsal üsulunu və baxışını inkar edə bilməz. Amma əgər bütün bu uğurları eyni zamanda baş vermiş sağlam ağıla biganəliklə, nizamsızlıqla, sapınmalarla, mədəni və əxlaqi qarşıdurmalarla müqayisə etsək, cəmiyyətdə hansı problemlərlə üz-üzə durduğumuzu aşkar şəkildə görə bilərik.

Dünya XXI əsrin astanasında taleyüklü problemlər qarşısındadır və bütün millətləri və dövlətləri ictimai, siyasi, iqtisadi və intellektual sahələrdə müəyyən çətinliklərlə üz-üzə qoymuşdur. Üstün mədəniyyətə malik cəmiyyətlərin informasiya inqilabı və dəyişilmiş dəyərləri inkişaf etməkdə olan xalqların quruluşu və davranış qaydaları üzərində qələbə çalmağa çalışırlar. Bu elə normalardır ki, o, bədnam modernizm şəklində millətlərə təqdim olunur və əslində dünyada nizamsızlığın ən mühüm amili və mənşəyidir."[1]

Qərb bir tərəfdən dünya ölkələrinin hərtərəfli inkişaf və tərəqqi etməsinin zəruriliyini vurğulayır, digər tərəfdən isə geri qalmış ölkələrin həyati məna kəsb edən var-dövlətindən ədalətsiz şəkildə faydalanaraq, ədalətsiz iqtisadi siyasətini davam etdirir və beləcə dövlətli və kasıb ölkələr arasında dərin uçurumların əsasını qoyur.

Ümumiyyətlə, "Qərb texnologiya və iqtisadiyyat sahəsindəki fəaliyyəti ilə üçüncü dünyanın vəziyyətini daha da təhlükəli etmişdir."[2]

Qərb modernizmi öz ağlının imkan verdiyi təkliflərə tabe olmaqla, insanı bir alət kimi qəbul etməklə və təbiətdən sərhədsiz istifadəyə icazə verməklə özü bəşəriyyət üçün ən qorxulu və ən dağıdıcı amilə çevrildi. Bu baxımdan ətraf

---

[1] Doktor Seyyid Əli Əsgər Kazımi, Müasir cəmiyyətin böhranı, səh.88

[2] Kardinal Razinger, katolik məktəbini müdafiə cəmiyyətinin rəisi, Romada mətbuat müsahibəsində, "Keyhan" qəzeti, 17/11/1376

mühitin kəskin şəkildə pisləşməsi və atom silahlarının fövqəladə çoxluğu onun aydın nümunələridir.

### *Maddi mədəniyyətin kor-koranə təqlidi dövrünün sonu*

Bəşəriyyət Qərb mədəniyyəti təlimlərinin kor-koranə qəbul edilməsi və böyük itkilərlə üz-üzə gəldiyi dövrü keçdikdən sonra artıq yeni mədəniyyətin zorla qəbul etdirilməsi məsələsi təkamül və tərəqqi kimi qəbul olunmur. İndi Yer kürəsi sakinlərinin böyük hissəsi bu həqiqəti dərk edir ki, "yeni əsrin bütləri və onların aldadıcı vədələri nəinki insan arzularını həyata keçirməyə qadir deyil, əksinə insanın özünü belə məyusluğa düçar edir."[1]

Ustad Əllamə Məhəmməd Tağı Cəfəri(r) bununla bağlı olaraq dünyanın bir qrup məşhur alimlərinin iştirakı ilə Kanadanın Vankuver şəhərində keçirilən iclasa və burada qəbul edilən "Vankuaver" Bəyannaməsinə toxunaraq iclası keçirənlər və bəyanatı imzalayanların dünyanın nizamsız vəziyyətinə və insan həyatını məhv olma təhlükəsinə salan müxtəlif təhdidlər haqqında aşkar xəbərdarlıqlarına habelə iqtisadi və siyasi strukturların məsuliyyətsizliyini xatırladaraq yazmışdır:

"Bəli, XIX əsr və XX əsrin birinci yarısında yaşayan insanlar bir gün bəşərin bütün düha sahiblərinin və mütəfəkkirlərin, siyasət və iqtisadiyyat üzrə idarəçilərinin işlərini mədəniyyət və təkamül kimi qəbul edirdilər və etiraz edən hər kəsə deyirdilər: İnsanlar, ayıq olun, bu günün sabahı da var. Onlar isə cavab olaraq deyirdilər: Get işinin dalınca! Sən bəşəriyyətin tərəqqisinə sədd çəkmə! Artıq nadanlığın bəşəriyyətə hakim olduğu zaman keçib. Bu gün yalnız elm dili ilə danışmaq olar!

Bunun müqabilində məlumatlı olanlar deyirdilər: Sizi and veririk vicdanınıza, insan və həqiqi mədəniyyət yaradan məqsədli elmin həqiqətinə, bizi belə boş-boş sözlərlə aldatmayın. Çünki biz çox qədimdən bu həqiqəti dərk etmişik:

---

[1] Yuaxim Mayimer, Almaniyanın Köln kilsəsinin baş yepiskopu, "Zud Deviçe Sutyunq" qəzeti, "Sübh" jurnalı, №80, 1377-ci ilin fərvərdin ayı

Yol hamardır, altında tələlər
Tələlərin arasında məna qıtlığı
Sözlər və adlar kimidir tələlər,
Şirin söz ömr suyumuzun çınqılı.[1]

Ustad Əllamə Cəfəri(r) Vankuver bəyannaməsinin [indiki dünya]nın siyasi və iqtisadi strukturlarının yalnız qısamüddətli mənafeləri barədə düşündüklərinə dair hissəsini qeyd edərək demişdir:

Siyasətin və iqtisadiyyatın praktik icraçılarının yalnız qısamüddətli mənafelər barədə düşünmələrinə təəccüb etmək lazım deyil, təəccüblüsü odur ki, universitetlər və elmi mərkəzlər həmin fikri sadəlövh tədqiqatçıların beyinlərini dəyişən gerçəklik kimi elmi şəkildə vermişlər."[1]

### *Maddi mədəniyyət tənqid hədəfi kimi*

Yeni mədəniyyətin əldə etdiyi nailiyyətlərin təriflənməsi ilə bağlı dövrün keçməsindən sonra indi maddi mədəniyyət və ondan əldə olunmuş siyasi və iqtisadi strukturlar (xüsusilə Qərbdə) hər zamandan daha çox analitiklərin tənqidinə məruz qalmışdır.

Dünyanın üçüncü minilliyə daxil olması və materialist məktəblərin puç vədələri ilə bağlı həqiqətin aşkar olduğu zaman beynəlxalq analitiklər bildirmişlər:

"Kommunizm, sosializm və kapitalizm quruluşları tarazlığın yaradılması və insanların həyatın mənəvi və maddi nemətlərindən faydalanması məsələlərində öz arzularına çatmadılar, "üçüncü yol"un iddiaçısı olan sosial-demokrat nəzəriyyəsi də üçüncü minillikdə problemlərin həlli, dövlətli ilə kasıblar arasındakı uçurumu aradan qaldırmağa nail ola bilmədi:"[2]

---

[1]Əllamə Fəqid Məhəmməd Tağı Cəfəri, "Bəşərin bugünkü çıxılmazlığı", Toplayan: Məhəmməd Rza Cavadi, səh.31 və 32

[1] Əllamə Fəqid Məhəmməd Tağı Cəfəri, "Bəşərin bugünkü çıxılmazlığı", Toplayan: Məhəmməd Rza Cavadi, səh.31 və 32

[2] Jak Atali, fransız nəzəriyyəçisi, "Ekspress" qəzeti, "Keyhan" qəzeti, 16/10/1378

Bu gün Qərbdə şərhçilərin çoxu bu fikirdədirlər ki, kapitalizmin deməyə artıq bir sözü yoxdur və "kapitalizm ruhlar gəmisi kimidir ki, qaranlıq gecədə dənizdə hərəkət edir və onun üçün hər an toqquşma təhlükəsi vardır."[1]

Təhlilçilərin bu qrupunun fikrinə görə "elm Qərbdə öz beşyüzillik inkişafı prosesində bəşər tarixini elə bir yerə çatdırmışdır ki, onu bir faciə kimi xarakterizə etmək o qədər də çətin deyil. Faciə bizim yaxınlığımızdadır; ardıcıl kimyəvi və nüvə sınaqlarından yaranan təhlükələr, ətraf mühit təhlükəsi, bəşərin 3/4-nün aclığı və…"[2]

Onlar əmindirlər ki, gündəlik həyatda insan münasibətlərinin pozulmasına nəzər salsaq görərik ki, bu mədəniyyət insanların psixoloji və mənəvi həyatını necə məhv etmişdir.[3]

### *İnsanlığın məhv olması*

Qərb analitiklərinin bir qrupu da dünyanı təhlükə və tədrici dağılma ilə üzləşdirən faciəni təsvir etməklə Qərbin insanlara maddi inkişafın ən yaxşı yolu kimi təqdim etdiyi üsulu insanlığın məhv olması adlandırmış və bildirmişlər:

"Ötən neçə əsr ərzində Qərb təbiət və bizim onunla əlaqəmiz haqqında yeni inqilabi təfəkkür tərzini müəyyən etdi və həmin yeni təfəkkür tərzi sənaye və tərəqqi əsrinə gedən yolu asanlaşdırdı.

Yeni təfəkkür tərzi şəhərlərin genişləndirilməsini, işıq, avtomobil, göydələn, istehsal edilmiş ərzaq məhsulları, televizor və kompüterdən istifadə olunmasını, habelə fəza səfərlərini insanlara bəxş etmişdir."[4]

Amma həmin yeni təfəkkür tərzi heyvan növlərinin nəslinin kəsilməsi, torpağın korlanması, iqlimin zəhərlənməsi, ozon təbəqəsində yarığın yaranması, turşu yağıntıları, meşələrin

---

[1] Pyero Bordo, Fransa sosioloqu və 70 yaşlı kollec müəllimi, "Keyhan" qəzeti, 16/4/1379

[2] Helm Herbert, Fransa mütəfəkkiri, "Name-ye fərhəng", 1375-ci ilin yayı

[3] Cermi Rifken, Ted Havard, "Dünya süqut enişində", doktor Mahmud Behzadın tərcüməsi, səh.19

[4] Cermi Rifken, Ted Havard, "Dünya süqut enişində", doktor Mahmud Behzadın tərcüməsi, səh.19

məhv olması, şəhərlərin genişlənməsi problemi, milli mədəniyyətlərin aradan getməsi, genişlənmiş qıtlıqlar və hazırda enerji və onunla əlaqədar evlərin isidilməsi böhranı ilə nəticələnmişdir.[1]

Şübhəsiz, modernizmin yaratdığı dağıntılar deyilənlərdən daha çox və daha təhlükəli olmuş və əsasən insanın ali fitri qabiliyyəti və azadlığı mahiyyətinin inkarına yönəlmişdir.[2]

Belə ki, çağdaş tarixi, təbii olaraq, insanlığın məhv olması tarixi adlandırmaq olar. Parl Datenburqun sözü ilə desək, yeni insan, yəni intibahdan sonrakı insan dəfn olunmaq üçün hazırlanmışdır."[3]

Birləşmiş Millətlər Təşkilatının yüksək vəzifəli şəxslərindən bir çoxu texnologiya əsrində dünyanın nizamsız vəziyyəti haqqında mötəbər məlumat, statistika və rəqəmlərə istinadən aşkar şəkildə bildirmişlər ki, bəşəriyyət XXI əsrin astanasında tufana düşmüş bir gəmi kimidir və hansı istiqamətdə hərəkət edəcəyini bilmir."

Onlar daha sonra xəbərdar etmişlər: "[Bəşərin hərtərəfli] problemlərinin çoxu hər növ hədd və sərhədləri aradan qaldırmış və indi beynəlmiləl xarakter kəsb etməkdədir. Artıq XXI əsrin həyat uğrunda mübarizə əsrinə çevrilməsinin mümkünlüyü tam reallıqdır."[4]

Almaniyanın "Frankfurter şav" qəzeti bəşəriyyətin maddi mədəniyyətinin dünya üçün yaratdığı böyük təhlükələrə işarə edərək yazmışdır:

"Dünyanın siyasi şərhçi və təhlilçilərindən heç biri [XXI əsrdə dünyanın gələcəyi haqqında] öz dediklərinə və təhlillərinə inanmırlar və dünya qaranlıq və nizamsız gələcəyə tərəf hərəkət edir."[5]

---

[1] Həmin yerdə

[2] Cermi Rifken, Ted Havard, "Dünya süqut enişində", doktor Mahmud Behzadın tərcüməsi, səh.19

[3] Cermi Rifken, Ted Havard, "Dünya süqut enişində", doktor Mahmud Behzadın tərcüməsi, səh.19

[4] Cerom Bandiye, Parisdə Yuneskonun təhlil və tədqiqat idarəsinin müdiri, "Ettelaat" qəzeti, 8/3/1378

[5] "Xəbər" mərkəzi şöbəsi, 30/4/1373

### *Müasir insanın dini yönümü*

Bəşəriyyət maddi mədəniyyətin, onun siyasi təlimləri və iqtisadi mədəniyyətinin zərərli sahələrindən əvvəlkindən daha çox agah olduqca, bir daha dini təlimlərə üz tutmağı, yenidən dini imanla bağlılığı və Allaha həqiqi etiqadı dünyanın maddi mədəniyyətin özü ilə gətirdiyi çoxsaylı təhlükələrdən yeganə nicat yolu kimi diqqət mərkəzində saxlayır.

"BMT Harvard Universitetinin min nəfər alimi tərəfindən aparılmış üçillik tədqiqatların nəticəsini elan etmişdir: Dini dəyərlər ətraf mühitdəki problemlərin həllində həssas rola malikdir.

Birləşmiş Millətlər Təşkilatının baş katibinin birinci müşaviri bu tədqiqatın nəticəsini elan edərkən bildirmişdir: "İqtisadi təhlükəsizlik və siyasi həyatımız müqəddəslik və hərəkətvericiliklə ən ali mənəvi və əxlaqi dəyərlər üzərində qurulub ona xidmət etməsə, mədəniyyətimiz XXI əsrin sonuna kimi qalmayacaq."[1]

Ohayada min nəfər amerikalı qadının iştirak etdiyi toplantını təşkil edənlərdən biri xanım Robin Rat toplantıda çıxış edərkən indiki problemlərin həlli üçün bəşəriyyətin yenidən dini etiqadlara qayıdışının zəruriliyini açıqlayaraq demişdir:

"Dünya ədalətsizlik, insafsızlıq, istismar, zorakılıq, hüquqi bərabərsizlik, inhisarçılıq və maddi meyllilikdən od tutub yanmaq üzrədir və Allahı tanıma, onun elçiləri tərəfindən bizə göstərilən yolları aramaqdan başqa bu problemlərin heç bir həlli yolu yoxdur."

O sonra demişdir: "Parlamentlərdə qəbul olunmuş qanunlar artıq yararlı deyildir və bu qanunların icraçıları öz işlərində pozğunluğa yol verirlər."[2]

Amerikanın Orizona universitetinin tarix müəllimi Maykl Denis Bradin (1992-ci ildə İslamı qəbul etmişdir) demişdir:

"Mənim fikrimcə, Qərb mədəniyyəti tezliklə çıxılmaz vəziyyətə düşəcək və onun yerini İslam mədəniyyəti tutacaq…

[1] "Sübh" jurnalı, №87, 1377-ci ilin azər ayı

[2] Həmin yerdə, №76, 1375-ci ilin isfənd ayı

Amerika və bütün dünya bu gün elə bir böhrana düçar olmuşdur ki, tarixdə onun misli görünməmişdir. Əgər hər hansı bir dövrü Peyğəmbərin(s) zühurundan əvvəlki cahillik dövrü ilə müqayisə etməli olsaq, bu bizim dövrümüzdür… Buna görə dünya, xüsusilə, Amerika İslamı qəbul etməklə özlərində daxili inqilab yarada bilərlər. Təkcə bu dindir ki, mənim ölkəmi və dünyanı maneələrdən və əyriliklərdən xilas edə bilər."[1]

Amerika prezidentinin (Nikson) sabiq müşaviri doktor Robert Kerrin də "Amerika cəmiyyətinin böyük problemlərinin həlli üçün yalnız İslam dini dəvadır" fikrini irəli sürərək demişdir:

"Dünyanın ən ağır problemlərinin mövcud olduğu Amerika cəmiyyətindəki çətinliklər Amerikanın böyük orqanları və dostunun dinin təfəkkür və əməlin əsası seçilməsi yolu ilə apardığı mübarizənin nəticəsidir."[2]

Dünyanın bəzi məşhur siyasətçiləri müasir dünyanın nizamsız vəziyyətini tənqid etməklə və "insanlar üçün pul və güc hakimiyyəti bir faciədir" fikrini bildirməklə vurğulamışlar: "Yalnız əxlaqi əsaslar və dini etiqadlar bəşəriyyətə gələcəyin yolunu açmalıdır."[3]

Fransa mütəfəkkiri, Qərb və İslam təşkilatının rəhbəri, professor Lamand kimi alimlər bildirmişlər:

"Qərbin tutduğu yol ictimai əsaslar və mədəniyyətin məhvi ilə nəticələnəcək və Qərb dünyasının itirdiyi yolu tapması üçün İslama ehtiyacı vardır."[4]

### *Mütəfəkkirlər dinə qayıdışı etiraf edirlər*

Müasir mütəfəkkirlərin təhlil və proqnozları və dünya miqyasında baş verən cari dəyişikliklər bəşəriyyətin maddi mədəniyyətdən məyusluğunu, din və mənəviyyata yeni qayıdışını sübuta yetirir.

---

[1] "Keyhan" qəzeti, 24/7/1380

[2] "Kəlme-ye daneşcu", №16, "Əl-Fələstin əl-müsəlləmə" jurnalından, London çapı, noyabr 1995

[3] Lex Valensa, Polşanın keçmiş prezidenti "Dünya-2000-nin istiqaməti" Almaniyada beynəlxalq konfransda məruzəsi, "Cümhuri-ye Eslami" qəzeti, 23/7/1378

[4] "İran" qəzeti, 7/9/1375

Afina Universitetinin (Yunanıstan) dinlər üzrə sosioloqu Corc Mitalinus bu barədə demişdir:

"İndi kapitalizmdə ədalətsizlik, sosializmdə isə yoxsulluq nəzərə çarpır. Yaxın müasir tarixdə baş verəcək hadisə üçüncü qüdrətin meydana çıxmasıdır ki, bu da din adlanır."[1]

Məşhur fransız sosioloqu Jil Kopel "Obezravator" qəzetinə verdiyi müsahibəsində öz geniş tədqiqatlarının mühüm nəticələrini şərh etmiş və "dini hərəkatların zühuru hadisəsi bütün dünyanı bürümüşdür" gerçəkliyini bəyan edərək, bu mühüm hadisənin təhlilində demişdir:

"Dünyada dini hərəkatların meydana gəlməsi müasir mədəniyyətdən ümumi narazılığın nişanəsidir."[2]

Bəli, "indiki bəşəriyyət ikinci minilliyin sonu və üçüncü minilliyin astanasında ən böyük böhranlara (Cvsis) düçar olmuşdur...

Bu vəziyyəti dəyişə bilən və gələcək nəslin ruhunda yeni ümid yaradan yeganə söykənəcək bəşəriyyətin əxlaq və mənəvi dəyər məsələlərinə yenidən üz tutması və Yer kürəsində insanın Allah-Təalanın elçisi məqamına qayıdışıdır. Bu qayıdışın nişanələri YUNESKO-nun, dünya ölkələrinin təlim-tərbiyə başçılarının elmi konfransları, habelə dünya birliklərinin qətnamələri, bəyanatları, təlimatları və nəşrlərinin məzmununda aydın şəkildə müşahidə olunmuşdur."[3]

### *Allaha inamsızlıq - müasir mədəniyyətin problemi*

Müasir insanın böyük cəhdlə can atdığı dini etiqadlar və dini iman bəşəriyyətin yeni mədəniyyət problemlərindən və Qərbin ifrat maddi meylliliyindən yeganə nicat yoludur.

Bu həmin mühüm müraciətdir ki, Həzrət İmam Xomeyni (r) keçmiş SSRİ-nin başçısına ünvanlamışdır və əslində bu böhrana düçar olmuş dünyanın bütün sakinlərinə göndərilmiş müraciətdir.

İmam(r) Sovet İttifaqının rəhbərinə öz tarixi məktubunda bu fikri bəyan etmişdir ki, sizin müvəffəqiyyətinizə səbəb olacaq

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 16/11/1369. Tehranda səkkizinci İslam təfəkkürü konfransından kənar müsahibəsində.

[2] "Süruş" jurnalı, №551, 1370-ci ilin fərvərdin ayı.

[3] Doktor Əbdüləzim Kərimi. Dini tərbiyəyə əsaslı yönüm, səh.15, 19

birinci məsələ sələflərinizin cəmiyyətdən Allahı və dini uzaqlaşdırmağa dair apardıqları siyasətə yenidən baxmağınızdır."[1]

O, eyni zamanda müasir texnologiya əsrinin problemlərinin əsas səbəblərini bəyan edərək yazmışdır:

"Cənab Qorbaçov!

Həqiqətdən üz çevirmək lazım deyil. Sizin ölkənizin əsas problemi mülkiyyət, iqtisadiyyat və azadlıq məsələsi deyil. Sizin probleminiz Allaha həqiqi etiqadın olmamasıdır. Bu həmin problemdir ki, Qərbi bayağılığa və çıxılmaz vəziyyətə salmaqdadır və salacaqdır. Sizin əsas probleminiz Allah, varlığın başlanğıcı və yaranışla uzun və mənasız mübarizədir."[2]

Həzrət İmamın tarixi müraciətindən bir onillik sonra Qorbaçov Həzrət İmamın(r) iti düşüncəsi və onun müraciətinin hazırkı dövrün gerçəkliklərinə uyğunluğunu etiraf edərək demişdir:

"Əgər biz Ayətullah Xomeyninin həmin müraciətdə söylədiklərini ciddi qəbul etsəydik, bu gün yəqin belə bir vəziyyətin şahidi olmazdıq. (Sovet İttifaqının dağılması, Rusiyanın gündən-günə zəifləməsi və s.) Ayətullah Xomeyni dünyada böyük bir iz qoya bildi. Mən əminəm ki, o, dövrünün uzaqgörən siyasətçisi idi və məkan miqyasına sığmırdı."[3]

İmamın(r) dünya və axirət səadətinə qovuşmaq üçün Allaha həqiqi inam zərurətini vurğulaması həqiqətdə Qurani-Kərimin mübarək ayələrinin və məsumların(ə) hədislərinin məzmununun bir daha bəyan edilməsidir.

İslam təlimlərinə əsasən bəşəriyyətin həmişə nail olmaq istədiyi üstün mədəniyyət yaranışın başlanğıcına həqiqi iman və etiqad sayəsində reallaşa bilər və bu, məxluqun şübhəsiz və dəyişməz qanunlarındandır:

**( و من اعرض عن ذکری فان له معيشة ضنکا و نحشره يوم القيامة اعمى)[4]**

---

[1] "Nur səhifəsi", c.21, səh.66 və 67

[2] "Nur səhifəsi", c.21, səh.66 və 67

[3] Xəbər" mərkəzinə müsahibəsində, "Cümhuri-ye Eslami" qəzeti, 15/3/1378

[4] "Taha" (20) surəsi, ayə 124: "Kim məni xatırlamaqdan uzaqlaşsa, həyat onun üçün çətinləşəcək və Qiyamət günü məhşur kor olacaq."

"Ümumiyyətlə, ictimai əxlaq və ədalət, ictimai təhlükəsizlik və insaniyyət elə sərmayələrdir ki, onları əldə etmək və qorumaq üçün başqa bir mənbəyə ehtiyac duyulur. Onun adı imandır."[1]

Həzrət Əmir(ə) də yaranış aləminin bu şəksiz qanununu izah edərkən buyurmuşdur:

**من استحكم لى فيه خصلة من خصال الخيراحتملته عليها واغتفرت فقد ما سواها ولااغتفر فقدعقل و لا دين لان مفارقة الدين مفار قة الامن فلا يتهنا بحياة مع مخافة وفقد العقل فقد الحياة ولا يقاس الاّ بالاموات** [2]

"Əgər kimsə insana xas ən yaxşı keyfiyyətlərdən birinə malik olsa, iki şeydən başqa onun digər keyfiyyətlərinə dözərəm və bağışlayaram; biri ağılsızlıq, biri isə imansızlıq. Din və imanın olmadığı yerdə təhlükəsizlik yoxdur, təhlükəsizlik, etimad və arxayınlıq olmayan yerdə həyat xoşagələn deyil, daim nigarançılıq, qorxu, iztirab var. Ağıl olmayan yerdə insan ölülərlə müqayisə olunmalıdır."

## 2 – MÜASİR MƏDƏNİYYƏTİN BÖHRANI STATİSTİKADA

Məşhur Qərb alimi Fritof Kopra "Qayıdış nöqtəsi" kitabında bu gün dünyanı, xüsusilə sənaye ölkələrini bürümüş problemlərin sənədli izahını verməklə bizim iddiamızın daha çox aydınlaşdırılması üçün yol açmışdır. O öz kitabında yazmışdır:

"XX əsrin son iki onilliyində biz özümüzü dünya böhranı ilə üzləşmiş gördük; bu böhran çox mürəkkəb olub, həyatımızın bütün sahələrini – səhiyyəni, ictimai münasibətləri, ətraf aləmi, iqtisadiyyatı, texnologiyanı və siyasəti əhatə etmişdir. Bu böhran fikir, əxlaq, mənəviyyat və psixoloji sahələri bürümüşdür. Heç vaxt belə böyük və həssas böhran olmamışdır."

O sonra demişdir: "Bugünkü mədəni dünyada bir tərəfdən Yer kürəsini nəinki bir dəfə, hətta bir neçə dəfə məhv etməyə qadir olan dağıdıcı silahların istehsalı üçün böyük və texnoloji sərmayələr qoyuruq, digər tərəfdən il ərzində on beş milyondan çox insanın (əksəriyyəti uşaqdır) aclıqdan öldüyünü, beş yüz

---

[1] Ustad Şəhid Murtəza Mütəhhəri, İyirmi söhbət, səh.154-155

[2] "Mizanul-hikmə", c.3, səh.370

milyon insanın pis qidalanmadan əziyyət çəkdiyini və dünya əhalisinin 40%-dən çoxunun səhiyyə xidmətlərindən istifadə edə bilmədiyini müşahidə edirik.

İndi dünya əhalisinin 35%-i sağlam içməli sudan məhrumdurlar. Halbuki alim və mühəndislərin yarısı müharibə üçün silahların genişləndirilməsi işi ilə məşğuldurlar.

Kopra ictimai mühitlə bağlı nizamsızlıqların ruhi düşgünlük, şizofreniya və digər belə ruhi narahatlıqlara səbəb olmasına toxunaraq yazmışdır:

"İctimai nizamsızlıqların nişanələrini yol qəzalarının, intiharların artmasında, spirtli içkilər və narkotik maddələrdən istifadənin çoxalmasında, əqli və cismi naqisliyi artan uşaqlarda müşahidə etmək olar."

Kopra daha sonra yazmışdır ki, "iqtisadçılar inflyasiya kimi mürəkkəb iqtisadi problemin həlli və dərkində aciz qalıblar. Həkimlər xərçəng və digər xəstəliklərin müalicə üsulu və səbəbləri haqqında başlarını itirmişlər. Psixoloqlar şizofreniya hadisəsi qarşısında ovsunlanmışlar. Polislər cinayət və günahların artımı müqabilində gücsüz qalmışlar və s."

O sonda xatırlatmışdır:

"Yaşadığımız şəraitə daha dəqiq baxsaq, dərk edəcəyik ki, indiki böhran dünya miqyasındadır. Nəinki fərdlər, nəinki cəmiyyət, nəinki mədəniyyət səviyyəsindədir – "Biz indi elə bir məqama çatmışıq ki, "qayıdış" və ya "dönüş" nöqtəsidir."[1]

### *Bəşəriyyətin tufana düşmüş və azmış gəmisi*

Kopra kimi başqa mütəfəkkirlər də statistik məlumatları və rəqəmləri təqdim etməklə bəşər problemlərinin həllində müasir mədəniyyətin uğursuzluğundan söz açmışlar.

Parisdə YUNESKO-nun Təhlil və Tədqiqat İdarəsinin müdiri Cerom Bandiye dünyanın səksəndən çox mühüm qəzet və jurnalında çap olunan məqalələrdə bugünkü dünyanın pərişan vəziyyəti və həyatın müxtəlif sahələrində insanı cürbəcür təhdidlərə məruz qoyan təhlükələrə işarə edərək, "Bizim XXI əsrə daxil olmağa hazırlığımız vardırmı?" - sualının cavabında yazmışdır:

---

[1] "Name-ye fərhəng"dən №13, səh.61-77

"Bəşəriyyət müqavimət və sabitlik tələb etdiyindən münasib vaxtda dörd böyük qarşıdurma ilə üzləşməlidir; birinci qarşıdurma artan bərabərsizlikdir ki, onun nəticəsi tarixdə misli görünməyən yoxsulluqdur. Bu elə bir aclıqdır ki, ictimai və mədəni bərabərsizliklər fonunda keçmişdə misli görünməyən sərvətlərlə müşahidə olunur!

1960-1996-cı illərdə bütün dünyada təkcə 15 ölkə böyük iqtisadi inkişafın şahidi olmuşdur. Belə ki, sayı bir milyard beş yüz milyon nəfərə çatan bu ölkələrin əhalisinin böyük hissəsi sərvətlərini artıra bilməmişdilər.

Eyni zamanda digər yüz ölkə iqtisadi durğunluğun şahidi olmuşdur. Bu durğunluq bir milyard altı yüz milyon nəfərin gəlirinin azalmasına səbəb olmuşdur.

XXI əsrə daxil olma astanasında dünya əhalisinin bir milyard üç yüz milyon nəfərindən çoxu yoxsulluq şəraitində yaşamışlar və bu rəqəm hər gün artmaqdadır. Hətta ekspertlər bildirirlər ki, bu rəqəmin iki milyard nəfərdən çox olacağı mümkündür.

Eyni zamanda səkkiz yüz milyondan çox insan aclıqdan, yaxud pis qidalanmadan əziyyət çəkirlər, bir milyondan çox insan isə əsas səhiyyə və təhsil xidmətlərindən, münasib olaraq içməli sudan məhrumdurlar. Digər tərəfdən iki milyard nəfər elektrik cərəyanı ilə təminolma imkanından məhrumdur. 4,5 milyondan çox insan rabitə vasitələri və yeni texnologiyalardan məhrumdurlar.

Bandiye öz məqaləsində həmçinin yazmışdır:

"Yer kürəsində yoxsulluq şəraitində yaşayan əhalinin 2/3 hissəsinin yaşı on beş yaşdan çox deyil və hər üç nəfərdən ikisi qadındır."

O daha sonra yazmışdır:

"XXI əsrdə qarşımızda duran ikinci qarşıdurma ardıcıl inkişaf mövzusundadır. Qoyulan sual belədir: "Yeniləşməyən mənbələrdən artan istifadəyə əsaslanan üsul və yollar bir gün gələcək nəsillərin zərəri ilə nəticələnməyəcəkmi? "

Bəşəriyyətin XXI əsrin astanasında üzləşdiyi üçüncü qarşıdurma budur ki, insan bu əsrdə hansı istiqamətdə hərəkət etməsini bilməyən tufana düşmüş bir gəmi kimidir...

...Mövcud problemlərin çoxu hər cür hədd və sərhədləri aradan qaldırmışdır. Beləliklə, bugünkü həyatın bütün problemləri beynəlmiləl xarakterə malikdir. Hətta o həddədək ki, XXI əsrin həyat üçün müharibə əsrinə çevrilməsi mümkündür.

Bu gün soyuq müharibə sona çatmışdır. Amma bu həqiqətin əksinə olaraq, sülhsevər sahələrə sərmayə qoymaq əvəzinə, sülhə zidd və daha mürəkkəb sahələrə sərmayə qoyuruq. Məsələn, dünyada hərbi məqsədlər üçün ayrılan xərclər 800-9204 milyard dollardan çoxdur. Halbuki təqribən 1/3 milyard yoxsul insanın yaşayışının təmin olunması üçün 130 milyard dollar onların mənzil, su, əsas səhiyyə imkanlarına [kifayət edər]...[1]

### *Qərbin siyasəti - müasir dünyanın nizamsızlığının əsas amili*

Müasir dünyanın mürəkkəb problemlərinin artmasının əsas səbəblərindən biri Qərbin apardığı iqtisadi, mədəni və hərbi siyasətdir. Qərb zəngin maddi və maliyyə imkanlarına malik olsa da, öz böyük siyasətini heç vaxt dünyanın mürəkkəb problemlərinin aradan qaldırılması üçün həyata keçirməmişdir.

Tarixi təcrübə göstərir ki, qərblilər dünyada öz azadlıqlarını qorumağı həmişə insan növünün mühafizəsindən üstün tutmuş və özünün bütün imkanlarını bu istiqamətdə sərf etmişlər. Prinsipcə yarım əsrə yaxın iqtisadi inkişaf və rifah Qərb demokratiyaları, ondan əvvəl isə ABŞ-ı elə süstlüyə düçar etmişdir ki, Yer kürəsində genişlənən qara ləkəni müşahidə etməyə macal tapmırlar."[2]

Bu gün Qərbin inkişaf etmiş ölkələrinin inkişaf etməkdə olan ölkələrə qarşı apardıqları ədalətsiz siyasət nəticəsində onlar üçün yaratdıqları qeyri-bərabərlik şəraiti açıq şəkildə tənqid olunur və inkişaf etməkdə olan ölkələrin başçıları Qərbi həmişə qeyri-bərabər ticarət şəraiti və çox borclar yaratdığına görə tənqid edirlər.

---

[1] "Ettelaat" qəzeti, 8/3/1378

[2] Oktavio Paz, məşhur Qərb yazıçısı və Nobel ədəbi mükafatının qalibi, Siyasi-iqtisadi xəbərlər, №63

Belə ki, Malayziyanın baş naziri Mahatir Məhəmməd inkişaf etməkdə olan ölkə başçılarının iclasında (15-ci qrup)[1] çıxış edərkən aşkarcasına demişdir:

"Qərbin mütərəqqi ölkələrinin bütün siyasətləri inkişaf etməkdə olan ölkələrin istismarı istiqamətinə yönəlmişdir."

Həmin iclasda Yamaykanın baş naziri Ci Pi Paterson da iqtisadi qloballaşmanı sual altına qoymaqla demişdir: "Zəngin Qərb ölkələri inkişaf etməkdə olan ölkələri "yoxsulluq qəbristanlığına tərəf aparırlar."[2]

### *Qərbin ədalətsiz siyasəti*

Bugünkü dünyada kasıblıq, fəlakət, qıtlıq və aclıq dünya əhalisini geniş həyat imkanlarından məhrum etmişdir. Belə ki, Nyu-York və ya Parisdə dünyaya gələn hər bir uşaq ömrü boyu inkişaf etməkdə olan ölkələrdə dünyaya gəlmiş bir körpədən əlli dəfə çox məhsul məsrəf edir.[3]

Avropalılar ildə it, pişik və digər ev heyvanları üçün on yeddi milyard dollar dəyərində qida alırlar.[4] Amerika və Avropada yüzlərlə kiçik və böyük zavod və emalatxanalar ev heyvanlarının geniş istehsalı ilə məşğuldurlar. Guya sivilizasiyalı görünən Qərb elə əngəllər yaratmışdır ki, nəinki təkcə ədalət kəlməsi onlar üçün məna kəsb etmir, həm də öz qeyri-qanuni mənfəətlərinə çatmaq məqsədilə digər millətlərin hüquqlarını rahat şəkildə təhlükəyə salırlar.

"Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən, üçüncü dünyanın on dörd milyon günahsız uşağı 1970 və 1980-ci illərdə Amerika, İngiltərə, İsveç, Hollandiya, İsveçrənin bir neçə millətli şirkətləri tərəfindən satılan quru uşaq südü sayəsində (bu şirkətlərin qəsdən xəsisliyi üzündən) əlil olmuş və ya ölmüşlər."[5] Bu elə bir halda baş verir ki, Qərb rəhbərləri yenə də öz iqtisadi, siyasi və mədəni sahələrində, həm də dünya səviyyəsində öz

---

[1] Əlcəzair, Argentina, Misir, Braziliya, Malayziya, Meksika, Nigeriya, Venesuella, Çili, İndoneziya və s.

[2] "Cümhuri-ye Eslami" qəzeti, 1/4/1379, "Röyter" agentliyindən

[3] 1998-ci ildə insan artımı haqqında məlumat, Millətlər Təşkilatının abadlıq proqramı, "Keyhan" qəzeti, 25/6/1377

[4] "Sübh" jurnalı, 1377-ci ilin bəhmən ayı, №89, "Şərqül-əvsət"dən

[5] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir, səh.107

böyük siyasətlərinin icrasına israr edirlər və bunun əvəzini geridə qalmış millətlər ödəyirlər.

Professor Roje Qarudi Misirin "əl-Əhram" qəzetinə verdiyi müsahibədə Qərb ölkələrinin "dünyaqurma" siyasətinə qarşı çıxaraq demişdir:

"Dünyaqurma – dünyanın iki hissəyə kasıb və dövlətli hissələrə bölünməsi üçün vasitədir. Belə ki, Qərb dünyası inkişaf və çiçəklənmə ilə doludur, üçüncü dünya kasıblıq və aclıqla. Bu bölgü nəticəsində üçüncü dünya sakinlərinin 45%-i canlarını qurban verəcəkdir. YUNESKO-nun məlumatına görə, onların on üç milyonu uşaqdır və bu, bəşəriyyət tarixində ən böyük cinayətdir."

O, sonra əlavə etmişdir: "Bu gedişlə Amerikanın tərəqqi xərcini inkişaf etməkdə olan ölkələr ödəyəcəklər...Qərb inkişaf etməkdə olan ölkələrin sərvətini oğurladıqdan sonra bu ölkələr indi Qərbə milyonlarla dollar borcludurlar."[1]

## 3 – MƏDƏNİYYƏTİN QƏRB NÜMUNƏSİNİN ƏN YAXŞI DAĞILMA DƏLİLİ

Bu günədək Qərb ölkələrinin ciddi və hərtərəfli çətinlikləri üzərində üstün yolları göstərməkdə aciz qalan inkişaf və mədəniyyətin Qərb resepti çağdaş dünyanın müxtəlif xəstəliklərinin müalicəsi üçün lazımi gücə malik deyil. Həmin gücsüzlüyün özü inkişaf və mədəniyyətin Qərb nümunəsinin dağılması üçün ən yaxşı dəlildir.

Amerikanın Masaçust Politexnik İnstitutunun idarəetmə və iqtisad müəllimi Lister Taro polşalı müxbir Yukovskiyə verdiyi müsahibədə "Bizi Qərb mədəniyyətinin tədricən dağılması hədələyir" fikrini bildirərək demişdir:

"İndi artıq tənəzzüldəyik. Qərbi Avropada işsizlik iyirmi ildir ki, artmaqdadır və indi 12%-ə çatır. Amerikada iyirmi beş ildir ki, cəmiyyətin yarımkasıb təbəqəsinin gəliri azalır. Bu yavaş, amma dayanmayan bir prosesdir. Son iyirmi beş il

---

[1] "Keyhan" qəzeti, 21/4/1379

ərzində daha məhdud ictimai təminatdan bəhrələnən 60% amerikalı müxtəlif maneələr nəticəsində 20% azalmışdır."

O daha sonra vurğulamışdır: "Dünyanın ən mütərəqqi ölkələrinin əksər vətəndaşları həqiqətdə daha da kasıblaşırlar. İşin çətinliyi budur ki, demokratik kapitalizm quruluşunun daxilində ən azı iki əsas ziddiyyət mövcuddur: birincisi, demokratiya və bərabərsizlik yaradan bazar arasında qarşıdurma. İkincisi, məsrəf və kapital qoyuluşu arasında mübarizə. Kapitalizm quruluşu məsrəfi həvəsləndirməklə yanaşı, sərmayə qoyuluşunu zəruriləşdirir. Mənfəətləri eyni zamanda həm məsrəf, həm də sərmayə qoyuluşuna sərf etmək olmaz."[1]

Professor Taru daha sonra demişdir:

"Qərbdə, xüsusilə Amerikada hələ də bizim vəziyyət təəccübləndirici şəkildə yaxşıdır. Heç kəs başqasının deyinməsini eşitmək istəmir. Heç kəs varlıq hissinin korlanmasını istəmir. Adamlar yalnız yaxşı xəbərlər eşitmək istəyirlər. Əlverişsiz proqnozlaşdırmalar çox yaxşıdır, amma Afrika üçün! Bizim qulaqlarımız yalnız yaxşı proqnozlara alışmışdır...Siyasətçilər onları tapmağı bacarırlar! Necə olsa, sülhümüz var, inkişaf edən ticarətimiz var, ölkəmizdə milyonerlərin sayı həmişəkindən daha çoxdur."

Taru Qərbdə ümumi biganəliyə və bu sahədə Qərbin yalançı siyasətçilərinin roluna işarə edərək Qərb dünyasında mövcud reallığın açıqlanmasına başlamışdır:

"Bu adamların çox böyük hissəsi uduzacaqlar, onların nəvə və nəticələri də həmçinin. Onlar ildən-ilə amerikasayağı qeyri-real röyalarda qərq olurlar. İtaliya və İspaniyada cavanların 60%-i məktəb və ya universiteti bitirdikdən sonra üç il ərzində işsiz qalırlar. Sorğulara əsasən, amerikalıların çoxu əmindirlər ki, övladları daha pis yaşayacaqlar."[1]

### *Avropalıların düzgün yol seçimində şəkk-şübhəsi*

Fransız sosioloqu və Fransa kollecinin müəllimi Pyero Bordo İspaniyanın "El-mond" qəzetinə verdiyi müsahibədə Qərb

---

[1] "Sübh" jurnalı, №89, 1377-ci ilin bəhmən ayı, "Fəraz" nəşrindən

[1] "Sübh" jurnalı, №89, 1377-ci ilin bəhmən ayı, "Fəraz" nəşrindən

ölkələrinin düçar olduğu mürəkkəb vəziyyətdən bərk narazılığını bildirərək demişdir:

"Avropada ictimai hakimiyyətin olmaması günah, işsizlik, narkotik və spirtli içkilərə aludəçilik, xəstəlik və savadsızlığın artması ilə nəticələnmişdir. İnsanların böyük bir qismi cəmiyyətdən təcrid olunmuşdur və hökumətlər onların qarşısını almaq üçün bir növ zorakılıqdan istifadə etməyə məcburdur. Bu məsələ getdikcə daha da gərgin şəkil alır."

Bordo Qərb vətəndaşlarının çoxunun qarşıdakı yolu haqqında şübhələrindən aydın şəkildə söz açaraq demişdir:

"İndi yalnız fransızlar özlərindən "Bizim iş üsulumuz düzdür, ya yox", -deyə soruşmurlar. Bu sual, ümumiyyətlə, bütün avropalılar üçün mövcuddur."[1]

### *Qərbin yeni üsul və siyasətə ehtiyacı*

Fransa nəzəriyyəçisi Jak Atali 2000-ci ilə daxil olmaq münasibətilə

"Ekspres" qəzetində yazdığı məqalədə kapitalist quruluşunun "Qərb cəmiyyətlərindəki problemlərin həllində və insan həyatını nizamlamaqda müvəffəqiyyətlər əldə edə bilmədiyini qeyd edərək yazmışdır:

"İndi Amerikada dörd milyon yoxsul və Fransada altı milyon imkansız mövcuddur. İndi bütün dünyada milyardlarla insanın iki dollardan az gəliri vardır. Görəsən, İqtisadi qloballaşmanın təsirlərini gözləmək lazımdırmı? Və ya Amerikadan nümunə götürüb orta əsr üsulları ilə cəmiyyətdəki yoxsulları karantində saxlamaq lazımdır."

O sonra əlavə etmişdir: "Nə amerikalıların üsulu, nə də fransızların təşəbbüsü, yəni işsizlər və az gəlirlilərə dövlət büdcəsindən minimum təqaüdün ödənməsi yoxsulluq və işsizlik kimi məsələləri həll etməyəcək."

Jak Atali dünya ölkələrindəki problemlərin aradan qaldırılmasında Qərb nümunəsinin tam məğlubiyyətinə aydın şəkildə işarə edərək yazmışdır:

"2000-ci ildə ictimai təbəqələri, nəsil və qohum qruplarını bir-birindən ayıran maneələri tam cəsarətlə aradan qaldırmaq,

[1] "Keyhan" qəzeti, 16/4/1379

insanların yaşayışını nizamlamaq üçün yeni üsul və siyasəti həyata keçirmək lazımdır."[1]

### *Qərb öz çirkin mədəniyyətinin tələsindədir*

Qərb mədəniyyəti nəinki Qərb və beynəlxalq cəmiyyətlərin arzuolunan nizamlanmasında heç bir uğura çatmadı, hətta öz daxili tələbinə görə müasir dünyada çoxlu nizamsızlıqların yaranmasına gətirib çıxardı. Birinci Dünya müharibəsini Qərb yola saldı, onun mədəniyyətinin mərkəzindən faşizm və nasizm baş qaldırdı.

Görkəmli ingilis mütəfəkkiri Arnold Tyunbi bu barədə yazmışdır:

"Qərb mədəniyyəti məni bezdirir. Ona görə yox ki, Qərbə məxsusdur, ona görə ki, məni çarxın dəndənələrində həbs etmişdir... Təkcə bu səbəbdəndir ki, Qərbi sevmirəm. Mənim yeniyetməlik dövrümdən Qərb iki dünya müharibəsini törətmişdir. Kommunizm, faşizm, nasionalizm və sosializmi yaratmışdır. Mussolini, Hitler, Makkartini ərsəyə gətirmişdir."[2]

Şübhəsiz, bu gün qərblilər dinə arxa çevirməklə özləri üçün qurduqları tələyə düşmüşlər və Qərbin çirkin mədəniyyətinin daxili tələbi olan çoxlu bəlalar indi qərblilərin ətəyindən yapışmışdır. Buna görə inanmaq lazımdır ki, Qərb çıxılmaz vəziyyətə çatmış və ya çatacaq."[3]

Roma və Turində terrorçular küçələrdə pusqu qurmuşlar, Paris və Londonda sakit gündə vəhşilik, oğurluq və döyülmələr getdikcə artmaqdadır.

Çikaqoda yaşlılar hava qaralandan sonra küçələrdə addımlamaqdan qorxurlar. Nyu-Yorkun məktəbləri və metro dayanacaqlarında kobudluq çoxalmışdır.

Kaliforniyaya qayıdaq. Bir jurnal öz oxucularına əl silahları, tüfəngatma kursları, təlimgörmüş, oğrututan mühafizə itləri, özünümüdafiə üçün təhlükəsizlik alətləri və təhlükəsizlik kompüter sistemlərindən istifadə üçün əməli göstərişlərini təqdim edir."[4]

---

[1] "Keyhan" qəzeti, 16/10/1378
[2] Tyunbi, Dəyişkənliyin ayaq səsi, Hüseyn Mehrinin tərcüməsi, səh.13-15
[3] Həzrət İmam Xomeyninin(r) Qorbaçova müraciətindən
[4] Elvin Tafler, Üçüncü dalğa, Şəhindoxt Xarəzminin tərcüməsi, səh.506

Həqiqətdə, dünyadan faydalanmaq üçün dini inkar yolunu seçən və bu qaranlıq keçiddən cilovsuz maddi meylliliyin dolaşıq problemlərinin dərin quyusuna düşən qərblilər Həzrət Əmirin(ə) mübarək kəlamının bariz nümunəsidirlər:

"لا يترك النّاس شيئا من أمر دينهم لإستصلاح دنياهم إلاّ فتح الله عليهم ما هو أضرّ منه"[1]

İnsanlar Allahın onları daha zərərli bir işə mübtəla etməsindən başqa dünyalarının islah olunması üçün dini işlərindən bir işi tərk etmirlər."

Bu, möhkəm ilahi sünnət və məxluqun dəyişməz qanunudur ki, Allah buyurur:

( من أعرض عن ذكرى فإنّ له معيشة ضنكا )1

***Qərb mədəniyyətində cinayətkarlığın təşviqi***

Maddi mədəniyyət təlimlərinin azğın nəfsani istəklərlə sıx bağlılığına görə Qərb mədəniyyəti yolunda kobudluqların tədricən ən pis şəklə düşməsi Qərb və qərbyönümlü cəmiyyətlərin aşkar gerçəkliklərindədir. Liberal mədəniyyətinin təlimləri qeyri-qanuni və azğın istəklərə əsaslanaraq cinayətkarların nəzarətsiz inkişafı üçün əlverişli zəmin yaradır. "Dünyanın iyirmi sənaye ölkəsində aparılmış tədqiqatlara əsasən cinayətkarlığın artımı ölkələrin əhalisinin kasıblığı və geriliyi nəticəsində deyil, Qərbin sənaye cəmiyyətləri və demokratik quruluşlarının rifahına görə yaranmışdır."[2]

Vyanada Avstriya Narkotik Maddələrə Beynəlxalq Nəzarət Komissiyasının sədri Qərb cavanları arasında narkotik maddələrə aludəçiliyin günbəgün artmasına toxunaraq bu hadisənin səbəbini açıqlayarkən demişdir:

"Qərb mədəniyyətlərindən bəzisində bugünkü cavanlar elə mühitlərdə böyüyürlər ki, nəinki narkotik maddələrdən istifadəyə qarşı çıxırlar, əksinə bu işə təşviq olunurlar."[3]

Amerikanın tanınmış rejissoru Avliverston da bu fikri açıqlamışdır:

---

[1] "Nəhcül-bəlağə", Hikmət 106.
[2] "Ettelaat" qəzeti, əlavə, 25/11/1371, "Cümhuri-ye Eslami" agentliyi, Almaniyanın "Fokus" qəzetindən.
[3] "Resalət" qəzeti, 24/11/1377

"Kobudluq Qərb cəmiyyətinin mühüm hissəsinə çevrilmişdir və hamı qeyri-əxlaqi məsələlər girdabına düşmüşdü."

O demişdir:

"Biz cavanları cinayətə sürükləyən azğın bir cəmiyyətdə yaşayırıq. Necə ki, "Fitri qatillər" filmində qatillərdən qəhrəmanlar düzəldilməsini nəzərə çatdırmışam."[1]

### *Qərb informasiya vasitələri və pozğunluğun yayılması*

Qərb kütləvi informasiya vasitələri, o cümlədən Qərb liberal mədəniyyətinin yazı, tele-radio nümayəndələrinin fəaliyyəti bizim iddiamızın düzgünlüyünə başqa dəlildir. Liberalizmin məşhur nəzəriyyəçisi və filosofu Karl Puper Avropa informasiya vasitələrinin fəaliyyətinə ciddi etiraz edərək demişdir:

"Kütləvi informasiya vasitələri, xüsusilə, Avropa televiziyaları təcavüz və cinayəti yaymaqla gənc nəslə kobud təlim verirlər."

O, Qərb ölkələrinə bu sahədən daxil olmuş müsibətlərin dərinliyindən xəbərdar olduğuna görə ciddi tövsiyə etmişdir:

"Televiziyanın cani tərbiyə edən proqramlarının qarşısını almaqdan ötrü televiziya işçiləri üçün həkim nəzarətinə oxşar nəzarət mexanizmi yaradılmalıdır!"[2]

Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti Nikson ölkədəki nizamsızlıqların və gənclərin narkotik maddələrə artan aludəçiliyinin qarşısının alınması zəruriliyinə toxunaraq yazmışdır:

"Əgər narkotik maddələrə qarşı çıxmasaq və hətta Hollivudda və yaxud digər kütləvi sənət bölmələrində onunla bağlı yayılmış pərəstiş etməni pisləməsək, narkotik maddələrlə mübarizədə bizim qələbəmizə heç bir ümid yoxdur!"[3]

Ağ evin Narkotik Maddələrə Nəzarət Siyasəti İdarəsinin rəisi general Bermek Kefri Vaşinqtonda keçirdiyi mətbuat konfransında demişdir:

---

[1] "Əxbar" qəzeti, 5/11/1376

[2] Karl Puper, Bu əsrin dərsi, Əli Payanın tərcüməsi, səh.102-106.

[3] Nikson, Fürsəti qazanaq, Hüseyn Vəsfinijadın tərcüməsi, səh.276

"Ata və analar övladlarının tamaşa etdiyi, ya qulaq asdığı şeylərə daha çox nəzarət etməlidirlər."

O demişdir: "İki yüz kinofilm və min mahnı haqqında aparılmış tədqiqat göstərir ki, spirtli içkilər və tütün məmulatlarına həvəsləndirmə bu filmlərin böyük hissəsini, yəni 1/5-ni təşkil edir. Narkotik maddələr və spirtli içkilərdən istifadəyə həvəsləndirmə də mahnıların 1/5-ni təşkil edir."

O sonra əlavə etmişdir: "Amerikada kinofilmlər və musiqilərin çoxunda insanlar narkotik maddə, spirtli içki və tütün məmulatlarına sövq edilirlər və onların bundan təsirlənməsi gerçəklikdən uzaq bir məsələ deyil..."

Kefri daha sonra xəbərdar etmişdir ki, belə bir məlumat kütləvi və mədəni informasiya vasitələrinin təsiri altında olan yeniyetmələrin bir qrupu üçün çox təhlükəli ola bilər. Qeyd olunan tədqiqatın nəticələri göstərir ki, kinofilmlərin 93%-i spirtli içkiləri, 89%-i tütün məmulatlarını və 22%-i narkotik maddələri təbliğ edirlər.[1]

Amerikanın məşhur nəzəriyyəçisi Zbiqnev Berjinski bu barədə demişdir: "Amerika Birləşmiş Ştatlarının kütləvi informasiya vasitələrinin daim təbliğ etdiyi dəyərlər tam şəkildə əxlaq pozğunluğu və mədəni tənəzzülün inikasıdır."[2]

## 4 – QƏRB ÖLKƏLƏRİNİN İCTİMAİ NİZAMSIZLIQLARI MƏLUMATLAR AYNASINDA

Qeyd olunmuş etiraflara istinadən "Qərbdə gündən-günə artan əxlaqi və maliyyə pozuntularının qarşısını almaq üçün Avropa və Amerika qitələrinin 32 ölkəsinin ədliyyə nazirlərinin məcburi iclası"[3] kimi xəbərlərin təhlilinin öhdəsindən yaxşıca gəlmək olar.

---

[1] "Keyhan" qəzeti, 15/2/1378.

[2] Berjinski, Nəzarətdən xaric, doktor Əddürrəhim Nəvə İbrahimin tərcüməsi, səh.85

[3] "Cümhuri-ye Eslami" qəzeti, 24/4/1373

Qərbin inkişaf etmiş ölkələri mədəni kasıblıq və yoxsulluqdan [nisbi maddi rifahla yanaşı] və güclü təbəqə fərqlərindən yaranmış ictimai nizamsızlıqlar atəşində çapalayırlar.

Sənədli məlumatlar Qərb ölkələrində ictimai qeyri-bərabərliklərin sürətli və geniş inkişafını təsdiq edir ki, bu məlumatlardan bəzisini müzakirə edirik.

### *Saxtakarlıq və cinayətkarlıq*

"Avropa Birliyinə üzv ölkələrə saxtakarlıq və cinayətkarlıqdan ildə beş milyard funtdan çox (7,5 milyard dollar) ziyan dəyir.

İngiltərənin [keçmiş] xarici işlər naziri Daqlas Herd, Avropa Komissiyasının mart iclasında Avropanın bu böyük problemi ilə mübarizə üçün ciddi səylər göstərilməsini tələb etmişdir."[1]

Həmçinin Almaniya Təhlükəsizlik Təşkilatı Kölndə Avropa ölkələrində cinayətkar dəstələrin fəaliyyəti ilə bağlı məlumatı nəşr etməklə bildirmişdir ki, ildə narkotik maddələr, silah, müasir avadanlıq və texnologiya sövdələşmələrindən əldə olunan səkkiz yüz milyarddan çox marka dünya cinayətkar qrupları tərəfindən müştərək Avropa bazarı ölkələrinə daxil olur. Bu məlumatda həmçinin bildirilmişdir:

İtaliya mafiyası və Amerikanın "Kusanostroy" şirkəti daşınmaz əmlak və yükdaşıma şirkətlərini alaraq Almaniya bazarında nüfuz qazanmaqdan ötrü öz nizamlı əməliyyatlarının genişləndirilməsinə təşəbbüs göstərmişlər.[1]

Bu barədə Almaniyada çap olunan "Nokus" qəzetində dərc edilmiş məlumat da maraqlıdır:

Həmin məlumata əsasən, dünyanın iyirmi sənaye ölkəsində aparılmış tədqiqatlar göstərir ki, ən yüksək cinayətkarlıq Yeni Zelandiya və Hollandiyada 30% və ən az cinayətkarlıq Yaponiyadadır (10%).

Hollandiyada bütün dünya ilə müqayisədə velosiped və maşın oğurluğunun sayı ən çox müşahidə olunur. Hollandiya

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 24/4/1373

[1] "Ettelaat" qəzetinə əlavə, 25/11/1371

dövləti bu prosesin qarşısını almaq üçün cinayətkarlıqla mübarizə büdcəsini dörd milyondan üç milyard qoldenədək yüksəltmişdir."[1]

### *Almaniyada narkotik maddələr, cinayət və təcavüz*

Almaniyanın həftəlik qəzeti "Eştern" yazmışdır: "1994-cü ildə altı milyon beş yüz iyirmi yeddi min yeddi yüz qırx səkkiz (6 527 748) Alman vətəndaşı cinsi təcavüz, üzvi naqislik, küçə və metroda pul çantasının oğurlanması, yaxud yaralanmağa səbəb olan döyülmə kimi hallarla qarşılaşmalı olmuşlar."

Bu qəzet sonra əlavə etmişdir ki, cinayətlərin sayı bunlardan xeyli çoxdur və bu statistika yalnız müxtəlif dəlillərlə şikayət etmiş şəxslər haqqındadır. Bundan əlavə, Almaniyada cinayətin sayı 1995-ci ildə 50% artmışdır.[2]

Başqa bir məlumatda isə yazılmışdır:

"Keçən il Almaniyada təkcə narkotik maddələrlə bağlı 120000 cinayət hadisəsi haqqında məlumat verilmişdir. Almaniyada beynəlxalq cinayətkar qrupları narkotik maddələrin alış-verişindən əlavə, qumarxanalar və insan qaçırılmasına nəzarət zəminində də fəal olmuş və ildə 130000 maşını oğurlamışlar."[3] Almaniya Psixologiya İnstitutunun apardığı tədqiqatlara əsasən, ölkənin böyük şəhərlərinin sakinlərinin 25%-i küçələrdə gedib-gəlməkdən qorxurlar" və özlərini dəhşətli cinayətlərlə üzləşmək təhlükəsində görürlər. Bu institut öz tədqiqatlarının nəticələrinə əsasən bildirmişdir ki, Almaniyanın böyük şəhərlərinin əhalisinin 66%-i küçələrdə və ümumi nəqliyyat vasitələrində polisin gücləndirilməsini istəyirlər. Bu ölkənin əhalisinin 63%-i belə bir fikirdədir ki, polis böyük şəhərlərdə təhlükəsizliyi təmin etməyə qadir deyil və nəzarət polisin əlindən çıxmışdır."[4]

Almaniyanın (indiki) daxili işlər naziri Manfer Dekanter də etiraf etmişdir ki, ölkədə ötən il cinayət törədilməsi faktları altı milyon üç yüz minə çatmışdır, halbuki Almaniya polisi həmin cinayətlərin yalnız 42 faizinin üstünün açılmasına

---

[1] Həmin yerdə
[2] Almaniyanın "Eştern" qəzeti, 16/11/1395
[3] "Ettelaat" qəzetinə əlavə, 25/11/1371
[4] Həmin yerdə, 13/11/1371

müvəffəq olmuşdur:" O sonra xəbərdar etmişdir ki, təşkil olunmuş cinayətlər bu ölkənin daxili təhlükəsizliyini aradan qaldırmış və insanların ciddi narahatçılığına səbəb olmuşdur.[1]

### *İtaliyada uşaqların bədən üzvlərinin oğurlanması*

Aydın olduğu kimi, qeyd edilən nizamsızlıqlar təkcə Almaniyaya aid deyil, əksinə Avropa və Amerika qitəsindəki bütün ölkələrdə cərəyan edir. Məsələn, İtaliyanın daxili işlər naziri bu ölkədə təşkil olunmuş cinayətlər barədə məlumat verərək bildirmişdir:

" Beş yüz mafiya şəbəkəsi on beş mindən çox qüvvə ilə dövlətlə müharibəyə qalxmışdı…"

O əlavə etmişdir: "Bunlar İtaliyada uşaqların və yeniyetmələrin bədən üzvlərinin oğurlanması işi ilə məşğuldurlar…Onları öldürürlər, ürək, böyrək və digər üzvlərini isə baha qiymətə müştərilərə satırlar. 1371-1376-cı illərdə dörd mindən çox braziliyalı uşaq qeyri-qanuni şəkildə İtaliyaya göndərilmiş və onların üç min nəfəri haqqında heç bir məlumat yoxdur."[2]

### *Fransada gərgin oğurluq bazarı*

Fransanın "Franssuar" qəzeti öz məlumatında yazmışdır:

"1992-ci ilin ilk doqquz ayı ərzində Parisdə 110000-dən çox müxtəlif oğurluq halları baş vermişdir və Parisdə oğurluq hallarının sayı ötən ilə nisbətən 35-40% artmışdır."

Bu qəzet əlavə etmişdir:

"Təkcə qeyd olunmuş müddətdə Fransanın dövlətlilərinin və xaricilərin yaşayış yeri olan və xarici səfirliklərin çoxunun yerləşdiyi Paris şəhərinin on altıncı bölgəsində 89 silahlı qarət və 2265 avtomobil oğurluğu baş vermişdir."[3]

### *İsveç cəmiyyətində oğurluq*

İsveç Statistika Mərkəzinin 1989-cu ildə nəşr olunmuş, "Svd" qəzetinin 17/8/1989-cu il tarixli sayında çap olunmuş

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 27/6/1372
[2] Həmin yerdə, 27/4/1373
[3] "Ettelaat" qəzetinə əlavə, 9/9/1371

məlumatına əsasən, son illərdə avtomobil oğurluğunun sayı iki dəfə artmışdır.

Halbuki 1984-cü ildə 11800 avtomobil oğurluğu qeydə alınmışdır. 1985-ci ildə bu rəqəm 22100-ə çatmışdır. Yalnız 118000 nəfərlik Orbero şəhərində 1993-cü ildə 868 minik maşını oğurlanmışdır.[1]

İsveçin 29/1/1992-ci il tarixli "Pn" qəzetində "Əlidüz isveçlilər ildə milyonlarla dollar oğurluq edirlər" başlıqlı tədqiqat materialı dərc olunmuşdur və həmin məqalədə deyilir:

Mağaza və univermaqların, emalatxanaların işçiləri öz iş yerlərindən ildə on milyard kerden oğurlayırlar. Bunun səbəbini son on-on beş ildə sədaqət və vicdan hisslərinin zəifləməsi ilə əlaqələndirirlər və isveçlilərin sədaqət və düzgünlüyünün bu səviyyəyə enməsindən təəccübləndiklərini bildirirlər ."[2]

"DN" qəzeti 15/12/1995-ci il tarixli sayında yazmışdır:

"Baş nazirin müavini qadın və kişi hüquqlarının bərabərliyi məsələləri üzrə nazir Mona Silenin öz vəzifə imkanlarından sui-istifadəsinin ifşasından sonra buna oxşar pozuntular, onun bir neçə rayon təşkilatı və zavodlarında da ifşa olunmuşdur."[3]

Bu qəzetin məlumatına əsasən, İsveçin zavod və müəssisələri ildə minimum üç milyard vergi ödənməsində dövləti aldadırlar."[4]

İsveçdə 17/1/1991-ci il tarixində çap olunmuş "Na" qəzeti "Hamı şübhə altındadır" sərlövhəli məqalədə İsveçin mağaza və univermaqlarında oğurluq hallarının artmasına toxunaraq yazmışdır:

"Oğru kimdir? Onun cavabı sadədir. Hamı! Hər bir kəsin mağaza və univermaq mallarına hücumetmə imkanı vardır. Buna görə bütün insanlardan şübhələnmək olar."[5]

---

[1] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir?, səh.112
[2] Həmin yerdə
[3] Həmin yerdə
[4] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir?, səh.137
[5] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir?, səh.111

### *Almaniya cəmiyyətində oğurluq*

Almaniya Tacirlər Birliyindən (Sarbröken) verilən sənədli məlumatda oxuyuruq: "Almaniyanın, necə deyərlər sivilizasiyalı cəmiyyətində, qarət və oğurluq xüsusilə, Krismas günlərində il ərzində Almaniya univermaqlarına dörd milyard marka zərər vurur. Alman satıcıları da bu xəsarəti ödəmək üçün ildə səksən milyard marka öz satışlarına əlavə etməlidirlər ki, bu da qeyri-mümkündür."

Alman tacirləri 1994-cü ildə oğurluq hallarının və oğruların qarşısını almaq üçün 1,5 milyard marka sərmayə qoymuşlar."

Bu məlumata əsasən, "təkcə keçən il Almaniya univermaqlarında altı min oğurluğun üstü açılmış və oğrular tutulmuşlar."[1]

### *Almaniya həkimlərinin tamahkarlığı*

Almaniyanın bir qəzeti bu ölkədə həkimlərin çoxunun əxlaq normalarına riayət etməməsinə etiraz edərək Berlin Həkimlər Evinin rəisi Elis Huberə istinadən yazmışdır:

"Alman həkimlərinin 1/5-i yalnız var-dövlət toplamaq və tamahkarlıq üzündən sağlam adamlarda belə cərrahiyyə əməliyyatı aparırlar və xəstələri qeyri- zəruri müalicə göstərişlərinə əməl etməyə vadar edirlər.

Huber demişdir ki, Almaniyada hər beş həkimdən biri öz xəstələrinin müalicəsi üçün düzgün diaqnoz qoymur. Belə işlərdən sığorta olunanların xəsarəti ildə 20-40 milyard markaya çatır."[2]

### *Almaniya dövlət adamlarının rüşvətxorluğu*

Qərb ölkələrində qeyd etdiyimiz nizamsızlıqların dərinliyi və faciənin genişliyi hətta o səviyyəyə gəlib çıxmışdır ki, bu cür qeyri-qanuni hallara qarşı mübarizə aparmalı olan vəzifəli orqanların bir hissəsi onların cənginə düşmüş və fəaliyyətini itirmişdir.

---

[1] "Keyhan" qəzeti, 24/8/1372

[2]"Cümhuri-ye Eslami" qəzeti, 4/8/1376, "Zuddoviçi Saytonq" Almaniya qəzetindən.

Almaniya Detektivlər Birliyinin rəisi Eyke Bilay Bitrupi ölkə idarələrində rüşvətxorluq və mafiya pozuntularının artım prosesinə dair xəbərdarlıq edərək demişdir:

"Heç bir təhlükə Almaniyanı idarə rəhbərləri, polis məmurları və siyasətçilərin rüşvətxorluğu qədər hədələmir!"

Almaniya Polis İdarəsinin rəisi Hans Lüdviq də bu ölkədə idarə pozuntuları ilə mübarizə üçün ciddi qanunlar qəbul olunmasının zəruriliyini bildirmişdir.

### *Fransada idarəetmə pozuntuları*

Mark Jan Jan [Fransa universitetlərində etnoqrafiya müəllimi və "Polislər arasında bir etnoqraf" kitabının müəllifi] "Fransanın polis idarələrinin çoxunda sahibləri tapılmamış itən əşyaların məhkəməyə təhvil verilməsi əvəzinə, onların məmurlar tərəfindən müsadirə olunmasına" işarə edərək demişdir:

"Polislərin çoxuna yaxşı məlumdur ki, vəzifələrini yerinə yetirərkən müsadirə etdikləri mallar məhkəmə anbarlarında aradan çıxarılacaqdır…!"

Fransanın "Novel Abservator" qəzeti bu sözlərə istinad edərək yazmışdır:

"Bu gün Fransada vergi yığan polislər neçə dəstədirlər və hər bir sahədə bir vergi yığan vardır: pozğun qadınlar, narkotik maddə satıcıları, səs aparatları oğruları, maşın oğruları, cibgirlər, silahlı oğrular və digərlərindən vergi yığan polislər! "

Bu qəzet həmçinin yazmışdır ki, Fransanın xəritəsi üzərində belə polislərin şərrindən xilas ola bilən bir nöqtə də tapa bilməzsiniz!"[1]

### *Amerikada polis məmurlarının pozuntuları*

Bu bölməni Amerika polisinin pozuntuları haqqında məlumatların çatdırılması ilə sona yetiririk: Nyu-York Polis İdarəsinin daxili nizam-intizam şöbəsinin rəisi Robert Beyt Bruklində yeddi polis məmurunun narkotik maddə alış-verişində iştirak etdiklərinə görə tutulmalarına işarə edərək demişdir:

"Uzun müddətdir ki, polis idarəsinə məlumatlar gəlir ki, narkotik maddə qaçaqmalçılarının bəzisi radiostansiyasız

---

[1] "Sürüş" jurnalı, №518, 2/4/1369, "Obezravatordan" 14, 1990-cı ilin martı

avtomobillərlə silahlı şəkildə narkotik maddələrin paylanması ilə məşğuldurlar. Bizim tədqiqatlarımız nəticəsində müəyyənləşdirildi ki, Nyu-York polis məmurları bu işin icraçılarıdırlar!"

Əlbəttə, məlumatda qeyd olunmuşdur ki, tutulan həmin yeddi nəfər məmur on il müddətində müvafiq işlə məşğul olmuşlar!"[1]

Digər tərəfdən, BBC televiziya kanalı bu barədə olan məlumatında bildirmişdir: Los-Anceles polisinin pozuntuları və cinayətləri, habelə onlardan bəzisinin bank və narkotik maddə oğurluğunda iştirakı yerli əhalinin ciddi narahatlığına səbəb olmuşdur. Bu məlumatda həmçinin yazılmışdır ki, bu məsələdə Los-Anceles polisi daha çox ittiham olunur. Artıq narkotik maddə qaçaqçılığı geniş səviyyə almışdır. Belə ki, bu yaxınlarda idarənin baş zabiti milyonlarla dollar kokain oğurluğunda ittiham olunaraq tutulmuşdur.[2]

## 5 – QƏRB DEMOKRATİYASI VƏ HUMANİZM TƏFƏKKÜRÜNÜN MƏĞLUBİYYƏTİ

Öz elmi və texnoloji tərəqqisinə istinad edərək dünya xalqlarını nizamlamaq qüdrətini iddia edən müasir mədəniyyət hamını öz ətrafına toplamağa çalışır, halbuki özü nəzəri əsaslar və obyektiv əlamətlər baxımından böhranlar və saysız ziddiyyətlərlə üzbəüzdür.

Qərbin insan həyatının müxtəlif sahələrinin tənzim olunması üçün təklif etdiyi formullar humanist – materialist normalarına əsaslandığından heç bir vaxt bəşəriyyətin mənafeyini əhatə edə bilməmiş və bilməyəcək. XX əsrin böyük dəyişikliklərini arxada qoymaqla indi "daha çox [Qərb] texnologiya mədəniyyətinin daxilindəki gizli ziddiyyətləri açıq-aşkar görmək olar…"[3] Bunun özü də dünyanın, eləcə də onun hər hansı bir bölgəsinin arzu olunan şəkildə tənzimlənməsi

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 7/3/1371
[2] "Keyhan" qəzeti, 23/12/1378
[3] Seyyid Murtəza Avini, "Bir sonluğa başlanğıc", səh.47

məsələsində qeyd olunmuş mədəniyyətin böyük məğlubiyyətinin bariz təzahürüdür.

"Bu ziddiyyətlərdən biri demokratiyadır. Demokratiya xalqın hakimiyyəti mənasındadır. Amma əməldə hətta demokratik hökumətin ən yaxşı nümunələrində belə millətin hüququ dövlətlilərin onun arxasında gizlənməsi[1] üçün bir örtükdür və əxlaqi-mənəvi dəyərlərə malik olmadığından mütləq özünüsevmə ilə nəticələnir."[2]

Qərb demokratiyası insanın ictimai-siyasi həyatında, hüquqi-siyasi fərdçiliyində humanizm və nisbi düşüncə baxışının təcəssümü kimi həqiqətdə bəşər cəmiyyətlərinin idarəsi və siyasi quruluşunun yaradılması üçün Qərb mədəniyyətinin mexanizmidir.

Bu baxımdan dünya ölkələri və Qərb cəmiyyətlərinin çoxunda Qərbin təklif etdiyi demokratiyanın məğlubiyyəti və onun çıxılmaz vəziyyətə düşməsi əslində bəşər cəmiyyətlərinin tənzimlənməsi məsələsində Qərb siyasi fikrinin məğlubiyyətə uğraması deməkdir.

### *Qərb demokratiyası eyniyyət tərəzisində*

Demokratiyanın çoxsaylı tərifləri olmasına baxmayaraq, həqiqətdə demokratiyanın əsas tərifi vətəndaşların qərar qəbul etmələri üçün siyasi əməkdaşlığıdır. Lakin xüsusən üç başlıca cəhəti – siyasi qərarların qəbul olunmasında azadlığı, bərabərliyi və əməkdaşlığı demokratiyanın əsasları kimi qeyd edirlər."[3]

Qeyd olunmuş bu üç əsas Qərb ziyalılığı prosesinin təkid olunan əsaslı dəyərləri olsa da, Qərb demokratiyası öz şüarlarının əksinə olaraq, heç vaxt həqiqi azadlıq və ümumi əməkdaşlıq kimi məfhumları müasir cəmiyyətlərdə bərqərar edə və həyata keçirə bilmədi. Qərbin sərmayəçi və mənfəət dünyası əksər hallarda kapitalistlər və qüdrət sahiblərinin xeyirlərini qorumaq məqsədilə demokratiyanın köklü əsaslarının ziddinə fəaliyyət göstərmişdir.

---

[1] Seyyid Murtəza Avini, "Bir sonluğa başlanğıc", səh.47

[2] Kardinal Sokya, İspaniya Yepiskoplar Cəmiyyətinin rəisi, "Keyhan" qəzeti, 2/9/1370

[3] Bəhram Əxəvan Kazimi, "İmam Xomeyninin(r) nəzərində demokratiya, İslam Universitetinin jurnalı, 1378-ci ilin yay və payızı, səh.74

Buna görə də "qərblilər öz cəmiyyətlərində nəzərdə tutduqları demokratiyanın icrasında məğlubiyyətlə üzləşdilər və hələ də Qərb cəmiyyətlərində ədalət, azadlıq, bərabərlik kimi dəyərləri genişləndirə bilməmişlər."[1]

Odur ki, Qərb kütləvi informasiya vasitələrinin canfəşanlıqla apardığı təbliğatın əksinə olaraq, Qərb cəmiyyətlərinin vətəndaşlarının böyük əksəriyyəti bu gün açıq-aşkar bildirirlər ki, "azadlıq, ədalət və bərabərlik bizdən çox uzaqdır."[2]

### *Məğlub olmuş Qərb demokratiyası və onun mənfəətgüdən təbiəti*

Qərbin kapitalist qüdrəti bütün kütləvi əlaqə vasitələri üzərində hakimiyyətə əsaslanaraq ümumi fikri formalaşdırmaq, böyük milli iqtisadi-inhisar şirkətlərindən partiya və siyasətçilərə təsiretmə və seçki meydanını güclü partiyaların əlinə verməklə Qərbdə demokratik prosesin tədricən tənəzzülünə və onun dərin böhranlarla üzləşməsinə səbəb olmuşdur.

İsveç jurnalisti və mütəfəkkiri Əhməd Huber bu barədə bildirmişdir:

"Demokratiya Qərbdə bir böhranla çarpışır. Bütün Qərb ölkələrində (o cümlədən İsveçdə) baş verən hadisə bu şəkildədir ki, insanlar bir təbəqədədirlər, siyasətçi və dövlətlilər digər təbəqədə. Hər dörd ildə insanlar səs verirlər, amma bir şey dəyişmir."[3]

Yuxarıdakı dəlillərə əsasən, "Qərb mədəniyyəti sahəsində əhalinin böyük bir qismi ilbəil daha çox uduzurlar, daha kiçik qism isə udurlar."[4]

Üzücü gerçəkliyin səbəbi ondadır ki, "Demokratik kapitalizm quruluşu ən azı iki əsas ziddiyyəti öz bətnində daşıyır

---

[1] Mark Enbo, kanadalı mütəfəkkir, "Yalesararat" jurnalı, 13/10/1375

[2] "Resalət" qəzeti, 18/1/1372, Amerikanın "Vaşinqton Tayms" nəşrindən

[3] "Keyhan" qəzetinə müsahibəsində, 22/7/1377

[4] Professor Lester Taro, Amerikanın Masaçust (Mit) Politexnik İnstitutunun idarəetmə və iqtisad müəllimi, Polşa jurnalisti Jukovski ilə söhbətində, "Sübh" curnalı, №89, 1377-ci ilin bəhmən ayı, "Fəraz" nəşriyyatından götürülüb

ki, nəhayət, bir gün partlayacaq; birincisi, bərabərliyə söykənən demokratiyanın daxilindəki qarşıdurma, ikincisi, bərabərsizlik yaradan bazardır."[1]

Həqiqətdə, öz mahiyyətinin tələbinə görə Qərb mədəniyyətinin daxilində cəmiyyətin müqəddəratında sərmayə sahiblərinin azğın və mütləq hakimiyyətinə tərəf hərəkətdən başqa bir yol olmamış və olmayacaq. Buna görə də "bu gün Qərbdə zahirən azadlığa əsaslanan Qərb demokratiyası simasında plutokratiya [sərvət sahiblərinin rejimi] hakimdir. Amma bir az ona yaxınlaşsanız və diqqətlə baxsanız, görəcəksiniz ki, bu liberal demokratiya kapitalistlərin çətiri altında öz həyatını davam etdirir… Bu sistemdə sərmayəçilər birbaşa hakimiyyətdə olmasalar da, onların hakimiyyətini həyata keçirən vasitəçi təbəqə mövcuddur."[2]

Qərb cəmiyyətlərinin siyasi və ictimai dəyişikliklər prosesi bu müddəanı aydın sübut edir ki, Qərbin iddia etdiyi demokratiyanın dəyişməsi, xalqın hakimiyyəti məfhumunun obyektiv gerçəkliklə kapital hakimiyyəti mənası qazanması ilə Qərb cəmiyyətlərinin siyasi quruluşunun tənəzzülü də formalaşmışdır və bu cəmiyyətlərin əhalisi ictimai uçuruma tərəf hərəkətdədirlər.

Məşhur Amerika iqtisadçısı Con Kent Holbrayt bu barədə gözəl bir ifadə seçərək yazmışdır:

"Qərb demokratiyasında bir nəfər-bir səs qanunu dövlətlilərin nəzəri hərəkətinin əsası idi. Amma azad iqtisadiyyat qanunlarını zorla qəbul etdirməklə indi Qərb cəmiyyətlərində bir dollar – bir səs qanunu işləyir."

O bu bədbəxt hadisənin dağıdıcı təsirlərini açıqlayaraq əlavə etmişdir:

"Təbii ki, belə bir vəziyyətdə hər bir şey iqtisadi mənfəət baxımından ölçülür və ictimai xidmətlər də cəmiyyətin dövlətli təbəqələrinin ixtiyarına verilir. Belə bir sistemdə sərmayəçilər

---

[1] Professor Lester Taro, Amerikanın Masaçust (Mit) Politexnik İnstitutunun idarəetmə və iqtisad müəllimi, Polşa jurnalisti Jukovski ilə söhbətində, "Sübh" curnalı, №89, 1377-ci ilin bəhmən ayı, "Fəraz" nəşriyyatından götürülüb

[2] Moris Duger (məşhur fransız sosioloqu), "Qərbin iki üzü" adlı kitabında, "Cümhuri-ye Eslami" qəzeti, 6/9/1370 (Digər bucaqdan baxanda)

yüz minlərlə, bəlkə milyonlarla səs toplayıb cəmiyyəti böyük ictimai uçuruma tərəf sürükləyirlər."[1]

Hər halda Qərb təbliğat maşınlarının dünya əhalisi üçün yaratdığı təbliğat fəzasında demokratiya təsəvvürü, yəni xalqın hakimiyyəti (Qərbdə) çox aldadıcı və cazibəli olsa da, əməldə həmişə çox az insan riyakarlıq və camaatı aldatmaqla hakimiyyəti öz əllərinə alırlar."[2]

Məşhur alman filosofu Şpinqler demişdir:

"XIX əsrdə şahlıq tacı və əsasını zahiri və nümayiş vasitəsi etdikləri kimi, indi millətin hüququnu sıx əhali kütləsinə göstərirlər və seçkilər prosesi saxta bir oyun şəklini alır ki, "millətin qərarını" almaq adı altında hamıya nümayiş etdirilir…"[3]

### *Demokratiyanın qüvvədə olan nümunələrinin böhranı*

Qərb cəmiyyətlərinin həqiqi demokratiyasını araşdırarkən bir mühüm məsələdən xəbərdar oluruq ki, "bugünkü dünyanın qüvvədə olan nümunələri Şpinqlerin 1920-ci ildə açıqladığı fikirlərin istisnasız təsdiqidir."[4]

Amerika Birləşmiş Ştatlarının məşhur yazıçılarından olan Qurvidal Qərb demokratiyasının qüvvədə olan qabarıq nümunələrindən biri hesab edilən Amerika demokratiyasını təhlil edərkən Qərb demokratiyasının tənəzzülü nəzəriyyəsini təsdiq etmiş və demişdir:

"Biz amerikalılar qırx ildir ki, artıq demokratik həyatdan məhrumuq. Amerikada qərar qəbul edənlər insanlar deyil, böyük şirkətlər və hərbi təşkilatlardır. Onlar seçki təbliğatının xərclərini ödəyirlər və siyasətdə əhəmiyyət daşıyan yeganə

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 4/6/1371, Qalbrartın Milton Freydmanın azad iqtisadi nəzəriyyəsinə qarşı yazdığı "Şücaətlilərin mədəniyyəti" adlı yeni kitabından.

[2] Seyyid Murtəza Avini, Bir sonluğun başlanğıcı, səh.47

[3] Seyyid Murtəza Avini, Bir sonluğun başlanğıcı, səh.47

[4] Seyyid Murtəza Avini, Bir sonluğun başlanğıcı, səh.47

məsələ budur ki, bu pulu kim toplayır və bu pul kimin tərəfindən, hansı məqsədlə xərclənir."[1]

Son vaxtlar İsveçdə demokratiyanın vəziyyəti haqqında aparılmış tədqiqatların mühüm nəticələrini araşdırarkən Qərb demokratiyasının digər obyektiv və həqiqi nümunələrini görürük:

1995-ci ildə İsveçdə ölkə hüquqşünaslarından təşkil olunmuş Demokratik işlərdə müşavirlər qrupu tərəfindən demokratik gerçəklik sahəsində tədqiqat aparıldı və onun nəticəsi "Dn" qəzetinin 1995-ci il iyun tarixli sayında dərc olunmuş "İsveç hökumətinin demokratikliyi çətin qəbul oluna bilsin" və "İsveç siyasətçiləri fəaliyyəti əldən vermişlər" başlıqlı məqalələrdə ictimaiyyətə çatdırıldı. Bu tədqiqatın nəticələrinə əsasən, "İsveçdə demokratiya nəinki əla qiymət ala bilməz, hətta kafi qiymətini çətinliklə alar. Bəzi sahələrdəki dəyişikliklər isə demokratiya və azadlığa zidd prosesi göstərir. Bu gün İsveçdə əhalini idarə etmək üsulu ideal demokratik ölkədən çox-çox uzaqdır. Siyasətçilər qərarların qəbul olunmasında gücsüzdürlər və əksər işlərin icrası partiyalar və siyasətçilərin əlindən çıxaraq bazarın (sərmayəçilərin) əlinə keçmişdir."[2]

Bu İsveç qəzeti özünün 10/10/1995-ci il tarixli sayında dərc olunmuş "İnsanların siyasi fəaliyyətsizliyi böyük problemdir" başlıqlı məqaləsində Qərb demokratiyasının çıxılmaz vəziyyətə düşməsini və ölkənin siyasi həyatında insanların rolunun azalmasını şərh edərək yazmışdır:

"İsveç demokratiyası böhrana uğramışdır, partiyaların üzvlərinin sayı azalır. Çoxları bu fikirdədirlər ki, siyasət bir teatra oxşayır. Tamaşaçıların qüdrət və marağı vardır, amma əməldə heç bir rola malik deyillər və yalnız tamaşaçıdırlar! "[3]

---

[1]"Keyhan" qəzeti, 11/4/1379, "Cümhuri-ye Eslami" agentliyi, İtaliya agentliyindən götürülüb (Vidal qeyd olunmuş sözləri Romada öz kitabının təqdimat mərasimində bəyan etmişdi.)

[2] Menuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir?, səh.188

[3] Menuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir?, səh.189

***Qərb demokratiyasının çıxılmaz vəziyyəti və böhranlar***

Qərb demokratiyasının çıxılmaz vəziyyətə düşməsi bu cəmiyyətlərdə dərin və yeni böhranlara səbəb olmuş və Qərb dövlətlərini ciddi səylərlə üzləşdirmişdir. Qərbin böyük təbliğat maşınının bu sahədə mövcud gerçəklikləri ört-basdır etməsinə baxmayaraq, Qərb cəmiyyətlərinin ictimai və siyasi strukturlarının bətnindən çıxmış çirkinliklər bütün dünya əhalisinə aşkar olmuşdur.

İnsanların müqəddəratını həll edən seçkilərdə ümumi iştirakın azalması, partiya və siyasətçilərə inamsızlığın artması, əhalinin müxtəlif təbəqələrinin ifratçılıqla öz tələblərini təqib etmə prosesi və sairə Qərb demokratiyasının məğlubiyyəti və onun törətdiyi böhranlardır.

Nümunə üçün Almaniya əhalisinin müxtəlif təbəqələrindən 57%-in ölkədə mövcud olan demokratiyadan böyük narazılığını"[1] göstərmək olar ki, siyasi və ictimai dəyişiklikləri öyrənən mütəxəssislərin fikrincə bu, ölkədə xoşagəlməz vəziyyət yaratmışdır.

Qərb analitiklərinin bəzisi "alman gənclərinin sağ ifratçı qrupların çağırışlarına tərəf yürüşünü onların Almaniya cəmiyyətində hakim olan şəraitdən narazılıqlarının nəticəsi"[1] bilirlər.

Qərb mütəxəssisləri bu sahədə açıqlamışlar:

"Almaniyada[2], xüsusən ölkənin şərq bölgələrində gənclərin yarıdan çoxu öz cəmiyyətlərində hakim olan demokratiyadan narazıdırlar və bu demokratiyadan yaranmış quruluşu ədalətsiz sayırlar."

***Qərb demokratiyası tənqid hədəfi kimi***

Bəşər cəmiyyətlərinin idarə olunması üçün Qərbin təklif etdiyi sistemin zəif nöqtələrinin tədricən müşahidə olunması dünyada, xüsusilə, Qərb ölkələrində Qərb demokratiyasının mütləq sayılmasına qarşı etirazlar başladı.

---

[1] "Keyhan" qəzeti, 20/6/1379, "Divelt" alman qəzetindən götürülüb (sorğu müəssisəsinin məlumatı)

[1] "Fərda" qəzeti, 24/3/1377, "Cümhuri-ye Eslami" agentliyi.

[2] Həmin yerdə

"Lumund diplomatik" (Paris çapı) qəzetinin baş məqaləsinin müəllifi Qərb ölkələrində demokratiyanın vəziyyətinin təhlilini təqdim edərək bu məsələyə işarə etmişdir: "İnsanların səsi kütləvi informasiya vasitələrini nəzarətdə saxlayan sərmayəçilərin güclü təbliğatının təsiri altındadır." O daha sonra yazmışdır:

"İnsanlar demokratiyanın öz mənasını itirdiyini görəndə sakitcə oturub gözləyə biləcəklərmi?!"[1]

Qərbin iddia etdiyi demokratiyanın çirkinlikləri bu gün elə bir şərait yaratmışdır ki, Qərbin görkəmli şəxsiyyətlərindən çoxu aydın və etirazlı bir səslə onun tənqidinə, hətta inkarına başlamışlar. Qərb analitiklərinin bir qrupu bildirirlər ki, "Demokratiya Qərbdə böyük bir yalandır."[2] Onlar Amerika Birləşmiş Ştatları kimi böyük Qərb dövlətlərində keçirilən seçkilər prosesini həqiqi demokratiyanın təzahürü saymayaraq bildirmişlər:

"Seçkilərdə öz namizədliklərini irəli sürənlər pulla tutulmuş siyasi müşavirlərə arxalanmaqla sadəlövh və laqeyd insanları aldadaraq onların fikirlərini məharətlə öz nəzarətləri altında saxlayırlar və insanların çoxunun fikirlərini həqiqi problemlərdən mənasız, səs-küylü məsələlərə tərəf yönəldirlər."[3]

"İsveç radiosunun müxbir və şərhçisi xanım Strom məşhur fransız filosofu, professor Roje Qarudidən soruşmuşdur: "İslamda Qərb demokratiyası üçün bir yer vardırmı? Filosof Qərb demokratiyasının mövcudluğunu mənasız bir şey hesab etdiyini söyləyərək demişdir:

Demokratiya! Hansı demokratiya?! Qərb ölkələrindən hansı birində demokratiya vardır? Cəngəllik qanunlarının hökmran olduğu cəmiyyətlərdən başqa? Qüdrətli qruplaşmalar seçkilərdə insanların səsini toplamaq üçün rəqabət aparırlar."

Qarudi sonra açıqlamışdır: Biz insanların – qadın və uşaqların azad olması isə yalnız bir xəyaldır."[4]

---

[1] İqnasio Ramono (məqalənin tərcüməçisi; Həmid Təvəlla) "Keyhan" qəzeti, 26/9/1376

[2] Məşhur İsveç yazıçısı və jurnalisti Əhməd Huber "Keyhan" qəzetinə müsahibəsində, 22/7/1377

[3] Bencamin Spak, "Uşaqlarımız üçün ən yaxşı dünya", səh.164

[4] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir, səh.237

Həmçinin son iyirmi il ərzində universitet müəllimləri və Amerika Fəhlə Birliyinin məsul nümayəndələrinin Nyu-Yorkun Kolumbiya Universitetində keçirilmiş "Amerikanın gələcəyi üçün mübarizə" adlı ən böyük toplantısında Amerikanın Viskonsin Universitetinin sosiologiya müəllimi Col Racez çıxışı zamanı Amerikada demokratiyanın mövcudluğunu iddia edənlərə qarşı çıxaraq demişdir:

...Bu necə azadlıq və demokratiyadır ki, cəmiyyətin 1%-nin mülkiyyəti onun 90%-dən daha çoxdur?! Bu necə demokratiyadır ki, kiçik bir azlıq bütün informasiya vasitələrinə, fikir formalaşdıran bütün məkan və vasitələrə, universitetlər, məktəblər, qəzetlər, jurnallar, çapxanalara tam nəzarət edərək ölkə əhalisindən müstəqil fikir yürütmək imkanını almışdır?!

Bu necə demokratiyadır ki, prezidentliyə namizədlər bir-neçə nəhəng, çoxmilliyyətli şirkətlərin mənafelərinin xidmətçisidirlər?! Bu necə azadlıq və demokratiyadır ki, onda həmin şirkətlər həmin kütləvi informasiya aparatlarında öz adamlarını əhaliyə qəbul etdirirlər və insanların əksəriyyəti belə nəhəng qüvvə ilə qarşılaşmaq imkanına malik deyillər...?!

Qeyd etmək lazımdır ki, dinləyicilərin böyük əksəriyyəti dəfələrlə Racezin çıxışını sürəkli alqışlarla kəssələr də, hər dəfə onun öz çıxışını davam etdirməsini gözləmişdilər."[1]

### *Qərbin demokratiya şüarından istifadə etməsi*

Qərb demokratiyasının dərin daxili böhranından bəhs edən gerçəkliklərə ötəri nəzər saldıqdan sonra bu barədə mühüm bir məsələni qeyd etməyi zəruri hesab edirik. Təcrübə sübut etmişdir ki, çox zaman öz qərarlarında əhali kütlələrinin rol və mövqeyinə göz yuman Qərb dövlətliləri digər ölkələr, xüsusilə, üçüncü dünya ölkələrində nəzərdə tutduqları zorakılıqları

---

[1] "Came-ye salem" nəşriyyatı, №32, tarixi bir toplantının məlumatı, səh.23 və 21, 1376-cı ilin xordad ayı

gerçəkləşdirmək üçün siyasi təzyiq aləti kimi həmişə demokratiya şüarından istifadə etmişlər.

Analitiklərin böyük əksəriyyəti əmindirlər ki, Qərbin demokratiya şüarları daha çox onların dünyanın ucqar yerlərində öz qeyri-qanuni mənafelərini qorumaları üçün bir örtükdür.

Nyu-Cersidə Prinşen İnstitutunun Beynəlxalq Araşdırmalar Mərkəzinin tədqiqatçısı Riçard Fok bu barədə demişdir:

"Qərbdə demokratiya kimi təqdim olunanlar əsassızdır və yalnız Qərb ölkələrinin seçki və mənafeləri üzərində təyin olunur."[1]

Qərbin demokratiya mövzusundan bir alət kimi və ikitərəfli istifadə etməsini eləcə də onun ümumxalq səsverməsinə ehtiramını İran İslam inqilabına Qərb dövlətlərinin düşmənçilik mövqelərində açıq-aydın müşahidə etmək olar.

Avropa və Amerika dövlətləri İslam inqilabından sonrakı illərdə insan hüququ, azadlığa hörmət, insan azadlığı kimi dəfələrlə bəyənilmiş şüarlardan istifadə etməklə İslam inqilabının təlatümlü prosesinin qarşısını almağa çalışmışlar.

İmam Xomeyni Qərb demokratiyası gerçəkliyini və qərblilərin bu sahədəki pozuntularını ifşa edərək müsəlmanları ayıq olmağa dəvət etmiş və buyurmuşdur: "Təəssüf ki, daha çox demokratiyadan dəm vuran Qərb ölkələrində demokratiyadan heç bir əsər-əlamət yoxdur və qərblilər bu ovsunla bizi yatırtmaq istəyirlər..."[1]

O başqa bir yerdə buyurmuşdur:

"Necə olur ki, azad dünyada müsəlman qadın və qızların baş örtüyünü atması zəruriliyi demokratiyadır, ancaq İslam Peyğəmbərini(s) təhqir edən bir kəsin edamına müsəlman icmasının fitva verməsi azadlığa zidd olur?!"[2]

---

[1] "Keyhan" qəzeti, 24/11/1370, "Ekter nayoz" nəşrindən götürülüb. 1991-ci ilin baharı

[1] "Nur səhifəsi", c.7, səh.74

[2] Həmin yerdə, c.10, səh.107

## *Qərbdə vətəndaşların hüquq pozuntuları*

Həzrət İmamın (r) işarə etdiyi kimi, təcrübə bu gerçəkliyi də sübut etmişdir ki, Qərbdə hakim olan siyasi sistemlər beynəlxalq kapitalist və sionist strukturlarının qeyri-qanuni mənafeyi təhlükəyə düşəndə asanlıqla öz demokratik dəyərlərini kənara qoyaraq, azadlıq, səhlənkarlıq və diqqətsizlik kimi şüarlarının həqiqi çöhrəsini nümayiş etdirirlər və bu istiqamətdə öz vətəndaşlarının aşkar mühakiməsini də əsirgəmirlər.

Məsələn, təhsil müəssisələrində müsəlman qadın və qızların baş örtüyünü seçməsinə qarşı Qərb dövlətlərinin ədalətsiz və şiddətli təzyiqlərini göstərmək olar ki, çox vaxt onların təhsil və tədrisdən kənarlaşdırılması və bəzən də belə adamların mühakiməsi ilə nəticələnirdi.

"Belə ki, Amerika ordusunun vəzifəliləri (Corciya ştatında Tort Styuart bazası) müsəlmanlığı yenicə qəbul etmiş xanım Samerzi baş örtüyünün seçim haqqının zəruriliyini israr etdiyinə görə məhkəməyə vermişdilər."[1]

Məşhur Qərb filosofu, professor Roje Qarudi Qərb azadlıq beşiyində, yəni Fransada "İkinci Dünya müharibəsində altı milyon yəhudinin öldürülməsi haqqında yalan iddianı" ifşa etdiyinə və sənədli kitab yazdığına görə məhkəməyə çəkilmişdi. O bu barədə demişdir:

"Bu mənim mühakiməm yox, bəlkə də azad danışmağın mühakiməsi idi. Mən yalnız sübut etdim ki, İkinci Dünya müharibəsində öldürülən yəhudilərin sayı altı milyon nəfər deyil, bir milyon nəfərdir. Hətta digər mütəfəkkirlər sənədləri aşkarlamaqla mənim dediklərimi təsdiq etdilər. Mənim mühakiməm sübut etdi ki, Qərbdə demokratiya və söz azadlığı boş bir xəyaldır."[2]

---

[1] "Resalət" qəzeti, 19/3/1375 "Cümhuri-ye Eslami" agentliyi

[2] İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar İdarəsindəki çıxışından, "Keyhan" qəzeti, 30/1/1377

## 6 – QƏRBDƏ RƏHBƏRLİK BÖHRANI

Qərb ölkələrində hakim sistemlərin uğursuzluğu prosesinin ardınca bu ölkələrdə mövcud olan müxtəlif iqtisadi, siyasi və ictimai nizamsızlıqlar və onlardan yaranan böhranların genişlənməsi analitiklərin əksəriyyətinin diqqətini "Qərb cəmiyyətləri rəhbərlərinin bacarıqsızlığı və zəifliyi" mövzusuna tərəf yönəltmişdir və bu mövzu Qərb mədəniyyətinin mürəkkəb problemlər siyahısına əlavə olunmuşdur.

"Frankfurter Rovend Şau" qəzetinin şərhçisi indiki dünyanın pərişan vəziyyətinə işarə edərək yazmışdır:

"Hazırda bütün şərhçilər bir məsələdə razılaşırlar ki, indiki dünya hamının nəzarətindən çıxmışdır və Amerikanın yeni rəhbərlərinin son bir neçə ildə çaşqınlığı bu məsələnin həqiqi mahiyyətini açıqlayır."

O, beynəlxalq miqyasda, Qərb mədəniyyəti və coğrafiyası istiqamətində yeni müsibətlərin yaranmasına işarə edərək demişdir:

"Dünənə kimi özünü bəşəriyyətin yeganə tacı bilən Qərbdə yenidən kor-koranə irqpərəstlik və qohumçuluğun meydana gəlməsi müasir tarixin məsələlərinin dərkində dolaşıqlığı artırmışdır."[1]

### *Qərbdə görkəmli rəhbərlərin kəskin azalması*

Bəzi mütəfəkkirlər dünya və bölgə böhranlarının cilovlanması və onlara nəzarət olunması məsələsində Qərb dünyasının indiki rəhbərlərinin uğursuzluğunu qeyd edərək Qərbdə görkəmli və işəyararlı rəhbərlər baxımından bir boşluğun olduğunu vurğulayırlar.

Fransanın məşhur tarixçilərindən biri və general De Qollun həyat salnaməsini yazan Jan Lakutor və digər siyasətçilər "dünya tarixində elə bir dövr haqqında düşünə bilmirik ki, onda görkəmli rəhbərlər bu qədər azalmış olsun!" – fikrini söyləmişlər.

O demişdir:

---

[1] "Xəbər" mərkəzi vahidi, 30/4/1374

"Bu gün vəziyyətə nəzarət edəcək siyasətçilərin bacarıqsızlığı göz qabağındadır. Bu fikir bizim ölkəmizdə, Avropada, ümumiyyətlə, Amerika Birləşmiş Ştatları və Yaponiyada hər bir şəxsə məlumdur."[1]

***Qərb cəmiyyətlərinin siyasi rəhbərlərdən narazılığı***

Amerikanın "Taym" jurnalı "Amerikan interprayz" jurnalının məlumatına istinadən Lakutorun yuxarıdakı sözünə müvafiq olaraq yazmışdır:

"Bütün yeddinci qrup ölkələrində sorğu nümunələrinin böyük faizi (son dərəcə qəribə olsa da, Yaponiyadan başqa) həmin ölkələrin əhalisinin narazılığını göstərir ki, ölkələri məhz bunun sayəsində irəliləyir: Bu rəqəm Amerikada 71%, Kanadada 70%, İngiltərədə 63% və Fransada 61% təşkil edir.

Bu araşdırmalar göstərir ki, cavab yazanların fikrincə, onların rəhbərləri müvəqqəti olaraq öz yollarını itirməmişlər, bəlkə, ümumiyyətlə, uçuruma düşmüşlər!!"

Jurnal sonda Londonun "Tayms" nəşrinin yazarı Norman Stounun fikirlərini əlavə etmişdir. Müəllif qarşısında gördüyü uğursuz siyasətçiləri məsxərəyə qoyaraq Nitşedən bir cümləni xatırlatmışdır:

"Əjdaha yumurtası əkdim, birə yığdım!"[2]

Son zamanlar bu ölkədə aparılmış digər elmi sorğular Qərbin sənaye ölkələrinin vətəndaşlarının öz rəhbərlərinə dərin etimadsızlığını bir daha sübut edir.

"Emnid" Sorğu – Məlumat Mərkəzi Almaniya vətəndaşları arasında apardığı sorğunun nəticələrini nəşr edərək bildirmişdir:

"Bu ölkənin 79,8 %-i öz partiya və dövlətlərinə heç bir etimadı yoxdur və onlar iş prosesindən narazıdırlar. Onların yalnız 43%-i deyirlər ki, parlamentə etimad etmək olar, 35%-i isə dövləti etimada layiq bilirlər."[3]

---

[1] "Keyhan" qəzeti, 16/6/1372, "Qərbdə demokratiya və rəhbərlik böhran"ları məqaləsi, Amerikanın "Taym" jurnalından tərcümə olunmuşdur.

[2] "Keyhan" qəzeti, 16/6/1372, "Qərbdə demokratiya və rəhbərlik böhran"ları məqaləsi, Amerikanın "Taym" jurnalından tərcümə olunmuşdur.

[3] "Keyhan" qəzeti, 16/6/1372, "Qərbdə demokratiya və rəhbərlik böhran"ları məqaləsi, Amerikanın "Taym" jurnalından tərcümə olunmuşdur.

*Qərb dünyasının rəhbərlik böhranı və dolaşıq problemləri*

Məlum olduğu kimi, Qərb analitikləri öz cəmiyyətlərindəki dərin böhranı təkcə rəhbərlərinin gücsüzlüyü və bacarıqsızlığı ilə məhdudlaşdırmamış və Qərbdə rəhbərlik böhranını ancaq ölkənin mürəkkəb problemlərindən biri saymışlar.

Bununla bağlı Conoton Eyalın (Londonda "Royal Yunayted Press" Araşdırmalar Mərkəzinin müdiri (siyasi və hərbi araşdırmalar mərkəzi) sözləri çox düşündürücüdür. O, "yeddi sənaye ölkəsi (Qərb) rəhbərlərinin probleminin həllində" öz gücsüzlüyünə işarə edərək demişdir:

"Problem təkcə (Qərbdə) indiki rəhbərlərin şəxsiyyəti ilə bağlıdır" – fikrinə inanmaq düzgün olmazdı. Problem çox dərindir."

O sonra əlavə etmişdir: "Siyasi orqanlar insanların gözündən düşmüşdür. Bu səbəbdən nəzərə almaq lazımdır ki, siyasətçilər iqtisadi, ekoloji problemlərin geniş spektrindən tutmuş qanunsuzluq, qanun pozuntuları kimi ictimai bəlalarla mübarizəyə qədər heç bir iş görməmişlər."[1].

Kartson Foqit (Almaniya Sosial-Demokrat Partiyasının parlamentdə xarici işlər üzrə şərhçisi) Qərb dünyasında rəhbərlik böhranını təsdiq edərək demişdir:

"Mövzu təkcə (Qərbdə) rəhbərliyin olmaması deyil. Məsələ dövlətin və cəmiyyətin zəifliyi, habelə nizam-intizamın olmamasıdır ki, çox problemlər törədir. Bu cinayət və xaricilərə qarşı düşmənçiliyin artmasında, Qərb xarici siyasətinə səsverənlərin ardıcıl olaraq azalmasında, Qərbin apardığı rüsvayçı xarici siyasətdə, yəni Bosniyada adam öldürülməsinə

---

[1] "Keyhan" qəzeti, 16/6/1372, "Qərbdə demokratiya və rəhbərlik böhran"ları məqaləsi, Amerikanın "Taym" jurnalından tərcümə olunmuşdur.

hər cür müdaxilə etməkdə Qərbin təəssüfləndirici məğlubiyyətində öz əksini tapmışdır."[2]

## 7 – QƏRB MƏDƏNİYYƏTİNİN MƏĞLUBİYYƏTİNİN VURĞULANMASI

Qərbin həqiqi simasının, onun daxili problemlərinin, dünyanın siyasi, iqtisadi, mədəni böhranlarının yaranmasında bu mədəniyyətin dağıdıcı rolunun aşkarlanması nəticəsində indi dünya alimlərinin və mütəfəkkirlərinin böyük əksəriyyəti (xüsusən Qərb ölkələrində) bəşər cəmiyyətinin imtiyazlarının nizamlanması məsələsində Qərbin təklif etdiyi meyarların artıq məğlubiyyətə uğradığını vurğulayırlar. Onların bəzisi bu meyarları "böyük bir yalan"[1] adlandırır və onu "öz daxili məntiqində hərc-mərclik, dağıntı və həyəcanlarla yanaşı olan bir model"[2] kimi xatırlayırlar.

### *Qərb mədəniyyəti: gerçəklik və ya təxəyyül*

İndi yeni əsrin astanasında millətlər, dövlətlər və analitiklərin bu iddianı irəli sürürlər ki, Qərb dünyası bəşəriyyətin indiyə kimi yaratdığı ən yaxşı və ən ədalətli bir dünyadır"[3] və biz indiyə kimi mövcud olan ən azad cəmiyyətdə yaşayırıq.[4] Onlar obyektiv gerçəklik haqqında düzgün məlumatı dərk etməmiş, onu Qərb cəmiyyətlərində müşahidə olunan gerçəkliyə zidd bilirlər.

Bu səbəbdən onlar dünya cəmiyyətini özünəarxalanma və huşyarlığa dəvət edərək qətiyyətlə bəşər cəmiyyətlərini Qərb

---

[2] Həmin yerdə
[1] Roje Depaskye, İsveç tədqiqatçısı
[2] Roje Qarudi, Fransa mütəfəkkiri
[3] Karl Puper, "Natamam axtarış", İrəc Əli Abadinin tərcüməsi, səh.18
[4] Həmin yerdə

mədəniyyətinin hərtərəfli və kor-koranə qəbulundan çəkindirirlər."[1]

### *Millətlərin Qərb haqqında qeyri-düzgün təsəvvürü*

Bu gün Qərb informasiya vasitələrinin və öz ölkələrinin qərbpərəst ziyalılarının ardıcıl təbliğatının təsiri altında olan, Qərb ölkələrini yamsılamağı özünə peşə edən və Qərbə ümid gözü ilə baxan millətlər şərəfli bir həyata nail olmaq məqsədilə vurğulayırlar ki, onlar bu barədə qeyri-həqiqi təsəvvürə malik olmuş, Qərbdən nümunə götürməyi nəinki özləri, hətta bütün bəşəriyyət üçün zərərli biliblər."[2]

Kanadalı mütəfəkkir professor Mark Enbo bəşər həyatını nizamlamaqda Qərbin uğursuzluğuna toxunaraq demişdir: "Qərblilər öz cəmiyyətlərində nəzərdə tutduqları demokratiyanın həyata keçirilməsi və mədəniyyətin inkişaf etdirilməsində məğlubiyyətlə üzləşmişlər və hələ Qərb cəmiyyətlərində azadlıq, ədalət və bərabərlik kimi dəyərləri genişləndirə bilməmişlər, amma öz mədəniyyətlərini zorla digər cəmiyyətlərə qəbul etdirməyə çalışmışlar."[3]

Üçüncü dünya ölkələrinin vəziyyətini araşdırarkən görürük ki, Qərb dünyası texniki və maddi sahələrdəki fəaliyyəti ilə üçüncü dünyanın vəziyyətini daha da gərginləşdirmiş və inkişaf etməkdə olan ölkələrin dini, əxlaqi və ictimai dəyərlərini aradan qaldırmışdır.[4]

Hər halda indiki əsrdə millətlər bu gerçəkliyi dərk etməlidirlər ki, Qərbin bütün dünyanı böhran və problemlərdən xilas edəcəyinə dair məsələ bir xəyaldır.[5]

### *Qərb və yüksək insani dəyərlərin olmaması*

Qərb cəmiyyətlərinin gizlin və aşkar böhranları bu mühüm məsələni aydınlaşdırır ki, Qərb dünyası bütün yüksək insani

---

[1] Aleksandr Soljinitsin, rus mütəfəkkiri və tənqidçisi

[2] "Cümhuri-ye Eslami" qəzeti, 7/9/1375, Qalup tədqiqat müəssisəsinin araşdırmalarının nəticəsindən istifadə olunub.

[3] "La lisaratül-Hüseyn(ə) " nəşriyyatı, 13/10/1375

[4] Kordinal Ranzinger, katolik məktəbini müdafiə cəmiyyətinin rəisi, "Keyhan" qəzeti, 17/1/1376

[5] Mark Enbo, "Ya Lisaratül-Hüseyn(ə) ", 13/10/1375 (Kanadalı mütəfəkkir)

dəyərləri əldən vermiş olan kapitalist və istehlakçı liberal quruluşdur.[1]

Şəksiz, "kapitalizm bugünkü dünyanın və Avropanın əksər ictimai və insani problemlərinin başlanğıcı sayılır."[2]

"Şübhəsiz, [Qərbin] kapitalizmi [Şərqin] kommunizmi kimi cəmiyyətlərin problemlərinin aradan qaldırılmasına qadir deyil."[3]

İndi Qərbin əksər mütəfəkkirləri də buna inanırlar ki, "Qərb mədəniyyəti insanın məhvi istiqamətində hərəkət edir."[4]

Kapitalist dünyasının təbliğat maşınları, daxili qərbpərəst və vahiməyə düşmüş ziyalılar onu inkar etmək istəsələr də açıqlanmışdır:

"Qərbin tutduğu yol ictimai əsasların və mədəniyyətin məhvinə gətirib çıxarır."[5]

### *Qərb mədəniyyətinin daxili və xarici çürüklüyü*

Qərb mədəniyyəti, onun intellektual mədəni və ictimai təlimləri bəşər cəmiyyətlərinin yüksək inkişafı üçün qurucu nümunə olmamış və olmayacaq. Qərbin daxilində olan çürüklük və xaricdə yaratdığı pozğunluqlar bu mənanı təsdiq edir.

"Avropa Birliyində işsizlərin sayı artaraq 8-12%-ə çatmışdır. Qərbi Avropada işsizlərin sayı əvvəlki dörd onillikdə on milyondan az idi və bu rəqəm 1980-ci ildə 25 milyon nəfər və indi isə 35 milyon nəfərdir. Yaponiya, İtaliya, İngiltərə və Amerika böhran halına çatmışdır. Rusiya, Şərqi və Mərkəzi Avropaya kapitalizm quruluşunun ixrac olunması ilə bu ölkələr də "yeni mədəniyyət xəstəliyinə" mübtəla olmuşlar.

Tayland, İndoneziya, Cənubi Koreya və hətta Malayziya kimi Şərqi Asiya ölkələrində Qərbin yeni və cahanşümul

---

[1] Papa II Jan Pol, dünya katoliklərinin rəhbəri Avropanın Xristian Demokrat Partiyalarının rəhbərləri ilə görüşündə, "Keyhan" qəzeti, 3/9/1370

[2] Həmin yerdə

[3] Papa II Jan Pol, dünya katoliklərinin rəhbəri Avropanın Xristian Demokrat Partiyalarının rəhbərləri ilə görüşündə, "Keyhan" qəzeti, 3/9/1370

[4] Roce Qarudi, Fransa mütəfəkkiri, Televiziyanın ikinci kanalına müsahibəsində, 23/4/1376

[5] Professor Lamand, Fransa mütəfəkkiri, İslam və Qərb müəssisəsinin rəisi, "İran" qəzeti, 7/5/1375

quruluşunun onların yaşayış səviyyəsini yüksəltməli olduğu halda, qısa müddətdən sonra onları iqtisadi və ictimai böhran və məğlubiyyətlərlə üzləşdirmişdir. Fahişəlik Taylandda milli gəlirin ən böyük göstəricilərindən birini təşkil edir və onun müştəriləri dünyanın hər yerindədir."[1]

## 8 – QƏRBİN İNKİŞAF NÜMUNƏSİNƏ QARŞI DÜNYANIN ARTAN MÜXALİFLİYİ

İndi artıq dünyanın mədəniyyət, iqtisadiyyat və siyasət sözçülərinin əksəriyyəti nəinki Qərbi təkamül, yüksəliş və iftixar nümunəsi saymırlar, əksinə bu mədəniyyətin çirkinlik və pozğunluqlarını açıqlayaraq digər millətləri onu təqlid etməkdən çəkindirirlər. Bu həmin gerçəklikdir ki, on-on beş il bundan əvvəl İmam Xomeyni (r) onu vurğulamış və açıq-aşkar təhlilinə başlamışdır.

İmam Xomeyni (r) keçmiş SSRİ prezidentini Qərb nümunəsini qəbul etməyə və müasir dünyanın kapitalist ocağını yamsılamamağa çağıraraq buyurmuşdur:

"…Əlbəttə, keçmiş kommunist dövlətlərinin iqtisadi sahədəki yanlış fəaliyyətindən və qeyri-düzgün iş metodlarından sonra Qərb dünyasının sürətli inkişafı baş verə bilər. Lakin həqiqət tamamilə başqa cürdür!

Siz əgər sosializm və kommunizmin bəxş etdiyi iqtisadi problemləri Qərbin kapitalist quruluşuna pənah aparmaqla həll etmək istəsəniz, nəinki öz ölkənizin dərdinə əlac edə bilməyəcəksiniz, əksinə başqaları gəlib sizin səhvlərinizi düzəltməlidirlər! Çünki bu gün əgər marksizm iqtisadi və ictimai məsələlərin həllində çıxılmaz vəziyyətə düşübsə, Qərb dünyası da eyni məsələlərin həllində, ancaq başqa şəkildə problemlərlə üzləşməli olmuşdur."[2]

---

[1] Professor Həmid Mövlana, "Keyhan" qəzeti, "Çeşməndaz sütunu", 25/9/1378

[2] Tövhid səsi, Həzrət İmamın(r) Qorbaçova məktubu, Həzrət Ayətullah Cavadi Amolinin şərhi, səh.9 və 10.

### *Qərbin inkişaf modelinin daxili məntiqində hərc-mərclik*

Fransanın görkəmli mütəfəkkiri, professor Roje Qarudi Qərbin təqdim etdiyi inkişaf nümunəsi ilə müxalifətdə olan şəxslərdəndir. O bu barədə demişdir:

"Qərbi mədəniyyət və tərəqqi modeli saymaq olmaz."

"Qərbin zahiri tərəqqisinin nəticəsi budur ki, zəngin ölkələrin dövlətliləri dünya mənfəətinin 80%-nə malikdirlər, halbuki dünya əhalisinin 80%-i onun sərvətinin yalnız 1/4-nə malikdir. Hər il üçüncü dünya ölkələrində 45 milyon adam aclıq və yoxsulluqdan ölür, yəni hər iki gün müddətində bir dəfə Xirosimada ölənlərin (atom partlayışı nəticəsində) sayı qədər insan Qərbin sənaye inkişafının qurbanı olur!

Qərbin özünü üstün irq sayması bu xoşagəlməz hadisənin səbəbidir. Halbuki İslamda üstün irq, millət mövzusundan bəhs olunmur. Qərb mədəniyyətində mövcud olmayan məqsəd anlayışını canlandırmalıyıq, yoxsa Qərb mədəniyyəti insanın məhvinə gətirib çıxaracaqdır."[1]

Qarudi Qərbin inkişaf və tərəqqi meyarlarının yararsızlığı haqqında fikrini belə açıqlamışdır:

"Sənaye dünyasının inkişafının Qərb modelinin daxili məntiqində dağıdıcı və gərgin hərc-mərclik mövcuddur və o özünü zorla bütün dünyaya qəbul etdirmişdir."[2]

### *Qərbin imtiyazsız həyatına tövsiyədən çəkinmə*

Rusiyanın məşhur tənqidçisi və mütəfəkkiri Aleksandr Soljinitsin uzun illər Qərbdə və Amerika Birləşmiş Ştatlarında yaşamışdı və SSRİ-də mövcud olan quruluşa müxalif olduğundan Qərb ölkələrinin ümumi fikir və kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuşdur. O, Amerikanın Harvard Universitetində iyirmi min nəfərin dinlədiyi məruzəsində bəyan etmişdir: "…Bu gün əgər kimsə məndən soruşsa, müasir Qərbi ölkəm üçün nümunə kimi qəbul edərəmmi? Mənim cavabım tam səmimiyyətlə mənfi olacaqdır!

---

[1]Televiziyanın ikinci kanalına müsahibəsində, 23/4/1376, 30 dəqiqə, sübh çağı.

[2] "Dirilərə xəbərdarlıq", Əli Əkbər Kəsmayinin tərcüməsi

" O demişdir: "…Şübhəsiz, insan şəxsiyyəti Qərbdə zəifləmiş və əksinə Şərqdə daha da möhkəmlənmişdir. On illərlə zorakılıq və kobudluq təzyiqi altında əziyyət çəkən insan ruhu bu gün Qərbin imtiyazsız həyatdan bizə təqdim etdiyi tacirin vizit kartı, təmtəraqlı çağırışları, dözülməz, baş gicəlləndirici televiziya musiqi proqramlarından daha üstün, daha dəyərli və daha pak bir şeyə möhtacdır."

Soljinitsin dinləyicilərinə xitabən demişdir:

"Sizin ölkənizin siyasi və mədəni mərkəzi olan Nyu-York yalnız bir neçə saat işıqsız qaldı. Dərhal Amerikanın insan kütlələri oğurluq və təcavüzə başladılar. Görəsən, mədəniyyətin zahiri pərdəsi belə nazikdirmi? Görəsən, belə əsassız ictimai quruluş öz daxili xəstəliklərindən bəhs edirmi?!"[1]

### *Hərtərəfli quruluşun təqdimində Qərbin gücsüzlüyü*

SSRİ-nin sonuncu prezidentinin ölkə dağılmamışdan qabaq öz islahatçı, iqtisadi və siyasi layihələrinin icrasında Qərb nümunəsinə münasibətdə baxışı müsbət idi. O, Qərb nümunəsinin məğlubiyyəti barədə yazmışdır:

"Qərb inkişaf baxımından son məqama gəlib çatmışdır və indi artıq bəşəriyyət üçün yeni bir şey təqdim edə bilmir. İqtisadi qüvvələr, ictimai ədalətsizliklər və irimiqyaslı müharibələr ucbatından dünyanın vəziyyəti xeyli pisləşmişdir və artıq onun sonudur."

O sonra əlavə etmişdir ki, Qərbin demokratiya nümunəsini zorla digər ölkələrə də qəbul etdirməsinin nəticələri xoşagəlməzdir. İndi bəşəriyyətin 1/3-i rifah içində yaşayır və bu azlığın rifahı digərlərinin yoxsulluğu hesabınadır.

### *Yoxsulluq: Qərb nümunəsinə tabeliyin nəticəsi*

Varton Filadelfiya İnstitutunun iqtisad müəllimi, Vaşinqtonun "İqtisadi proses" Tədqiqat Mərkəzinin müdiri Vecermi Rayfiken bəşəriyyəti xəbərdar edərək demişdir:

---

[1] Aleksandr Soljinitsin, "Yalansız həyat", Doktor Rövşən Vəzirinin tərcüməsi, səh.102 və 103

"Heç bir ölkə Qərb nümunəsinin ardınca getməməlidir, çünki onun sonu yoxsulluqdur."[1]

Dünya katoliklərinin rəhbəri Papa II Jan Pol da aşkar şəkildə bildirmişdir:

"Ölkələr Qərbi kor-koranə təqlid etməməli və onun mənfi xüsusiyyətlərini gözübağlı qəbul etməməlidirlər."[2]

### *Qərb inkişaf nümunəsinə tabeçiliyin peşmançılığı*

Qərb mədəniyyətinin dünya cəmiyyəti üçün yaratdığı böyük böhranlar tədricən "bəşərin yeni qızıl əsrini elan edənlərin yalan və ya səhvini sübut etdi."[3]

İnsanların çoxu indi də Qərbin maddi mədəniyyətinin qeyri-həqiqi təsvirini canlandırsalar da, dünyanın əksər yerlərində Qərb həyat tərzində yaşasalar da Qərb mədəniyyətinin geniş və aldadıcı, eyni zamanda zəhərli və öldürücü süfrəsindən natamam, sınıq-salxaq şeyləri əxz etmişlər. Onlar bilmirlər ki, nə üçün atalarının həyat tərzi birdəfəlik məhv olmuş və öz əlləri ilə dağılmışdır.[4]

Amma belə görünür ki, Qərb mədəniyyətində bu cür minvalla davam edən işlərin intizamını təlatümlə dolu olan Qərb dünyasının işlərindəki nizam-intizamla eyniləşdirməyin özü də böyük bir yalandır və günü-gündən daha da şiddətlənir."[5]

Bu cərəyanın obyektiv və bariz nümunəsi kimi Şərq bloku ölkələrinin əhalisini göstərmək olar ki, onlar öz cəmiyyətlərindəki problemləri Qərbin həll edəcəyinə böyük ümid bəsləyirlər.

"Qalup" Tədqiqat Mərkəzinin araşdırmalarına əsasən, Şərqi Avropa ölkələri əhalisinin 60-73%-i öz ölkələrində hakim

[1] "Sübh" curnalı, №62, 1375-ci ilin şəhrivər ayı

[2] "Ettelaat" qəzeti, əlavə, 13/8/1372, "Cümhuri-ye Eslami" agentliyindən götürülüb

[3] Roje Depaskye, "İslam hadisəsi və insanın taleyi", Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.19

[4] Jan Furastiye, "Universitet böhranı", Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.91

[5] Jan Furastiye, "Universitet böhranı", Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.91

olan siyasi və ictimai quruluşdan narazıdırlar və onlar özlərini Qərbin yeni qulları adlandırırlar.

Aparılmış tədqiqatlar göstərir ki, bu ölkələrin əksər əhalisi Qərbin təklif etdiyi cilovsuz demokratiya üsullarını öz iqtisadi, siyasi və xüsusən mədəni həyatları üçün dəhşətli bir zərbə sayırlar.

Bu tədqiqatlara görə, Bolqarıstan, Rumıniya və Polşa əhalisinin 81%-i bildirmişlər ki, onlar Qərb demokratiyası haqqında tamamilə yanlış təsəvvürə malik olmuşlar və bu gün onun mövcudluğunu nəinki öz ölkələri, hətta bütün dünya üçün zərərli hesab edirlər."[1]

### *Üçüncü dünya ölkələri və Qərbin təkliflərinin qəbul edilməməsi*

Məşhur Amerika nəzəriyyəçisi bir sıra Şərq ölkələrinin Qərb mədəniyyətinin mahiyyətini dərk etməkdə tarixi səhvlərinin köklərini təhlil edərək açıqlamışdır:

"Qərb ölkələri kommunizmin qarşısını almaq, Şərq bloku və Varşava hərbi müqaviləsini dağıtmaq üçün geniş təbliğata əl atmış və Şərqi Avropa əhalisinin baxışlarında yalançı vəziyyət yaratmışdılar. Belə ki, Şərq bloku ölkələrinin əhalisi fikirləşirdilər ki, Qərbdə insanlar tam rifah və hər cür azadlıqda yaşayırlar, işsizlik problemini həll etmişlər, hamının öz istedadlarına görə inkişaf etmək imkanı vardır. Amma gerçəklik belə deyildi…"[2]

O əlavə etmişdir:

"Amma indi Qərb dünyasının həqiqi simasından yalan və hiylə pərdəsinin götürülməsi sayəsində artıq üçüncü dünya ölkələri Amerika və Qərbi Avropa tərəfindən təqdim olunmuş yeni quruluşu qəbul etməyə hazır deyillər."[3]

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 7/9/1375, "Cümhuri-ye Eslami" agentliyindən götürülüb.
[2] Zbiqino Vrejinski, Amerika nəzəriyyəçisi, İsveç qəzetinin (Tuges zhzeier) müxbirinə müsahibəsində, "Cümhuri-ye Eslami" qəzeti, 13/11/1372
[3] Zbiqino Vrejinski, Amerika nəzəriyyəçisi, İsveç qəzetinin (Tuges zhzeier) müxbirinə müsahibəsində, "Cümhuri-ye Eslami" qəzeti, 13/11/1372

### *Qeyri-Qərb ölkələri yeni yol axtarışında*

Bu gün üçüncü dünya millətləri üçün Qərbin yeni mədəniyyət bütü sınmışdır və artıq çağdaş dünya Qərbin təklif etdiyi formulları öz siyasi və iqtisadi dərdlərinin yeganə dərmanı bilmir.

Amerika Birləşmiş Ştatlarının Xarici siyasət məsələləri üzrə informasiya təşkilatının (SİA) görkəmli nəzəriyyəçisi Qraham Foler yuxarıdakı gerçəkliyə işarə edərək yazmışdır:

"Qərb dünyasının azad iqtisadiyyat, demokratiya və insan hüququ çərçivəsində bəşəriyyətə təqdim etdiyi nümunə biz qərblilərin iddialarının əksinə olaraq, bəşəriyyətə hərtərəfli şəfaverici resept deyil. Bu məsələ bizim üçün nə qədər acı və dərdli olsa da, etiraf etmək lazımdır ki, qeyri-Qərb cəmiyyətləri indi öz gələcəkləri üçün digər ideologiyanın axtarışındadırlar."[1]

### *Qərb mədəniyyətinin məğlubiyyəti və liberalizmin sona çatması*

Bu bölmənin sonunda qeyd etmək lazımdır ki, bəşəriyyətin nəzərində mədəniyyətin Qərb nümunəsinin məhvi ilə yanaşı, liberalizmin perspektivi Qərb maddi mədəniyyətinin fikri, mədəni, siyasi və iqtisadi təlimlərinin əsas mövzusu kimi çox kədərləndiricidir.

Antoni Arbelastr bu fikri bəyan etmişdir ki, "tamamilə köklü təcrübi zərurətlər ictimai, siyasi və iqtisadi baxışlar zəminində xristianlıq, feodalizm, sosializm və ya anarxizmdən əvvəl əsasən liberal olmuş" və "keçən dörd əsr ərzində liberalizm Qərb mədəniyyətinin məşhur təlimi olmuşdur."[1] O daha sonra yazmışdır:

"XX əsrin son illərində onun (liberalizmin) tarixi vətəni olan Qərb kapitalist cəmiyyətlərində də mühasirədədir, siyasi-liberal partiyalar inkişafdan qalmışlar… Liberalizmin indiki vəziyyəti və perspektivi dünya miqyasında da çox kədərləndiricidir."[2]

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 24/3/1374, digər bucaqdan baxış, Amerikanın "Farin Pali" jurnalından götürülüb.

[1] Antoni Arbelastr, Liberalizmin zühuru və süqutu, Abbas Müxbirin tərcüməsi, səh.1 və 6

[2] Həmin yerdə

İndiki dünyanı liberalizmin məğlubiyyəti və onun yaratdığı "inkişaf modelinin" çıxılmazlığı fikri bürümüşdür. Belə ki, üçüncü dünya ölkələrinin rəhbərlərindən çoxu açıq-aşkar bildirirlər: "Liberalizm nəinki dünya problemini həll etmədi, hətta problemləri artırdı və ölkələri gözlənilmədən işsizliyə və yoxsulluğun artmasına, siyasi və daxili müharibəyə sürüklədi."

Onlar bu fikirdədirlər ki, yoxsulluq aclıq və qeyri-bərabərlik dünyada artmışdır və liberalizm öz uğursuzluğunu sübut etmişdir.[1]

Hər halda bu gerçəkliyi qəbul etmək lazımdır ki, Qərb nəzəriyyəçiləri tərəfindən "dünya üzərində Qərbin mütləq liberal-demokrat hakimiyyəti tarixinin həqiqi sonu fikrinin"[2] yayılmasının kökü dünyada qeyd-şərtsiz hakimiyyətin əsaslarının yaradılması üçün güc və maliyyə mənbələrinin proqramlaşdırılmasındadır.

"Liberalizmdən tutmuş marksizmə kimi Qərb modellərinin məğlubiyyətindən sonra İslam intibahının şahidi olmaq lazımdır."[3]

## DÖRDÜNCÜ AMİL: BƏŞƏRİN MADDİ MƏDƏNİYYƏTİN MƏNƏVİ-ƏXLAQİ TƏNƏZZÜLÜNDƏN MƏYUSLUĞU

Hazırkı əsrin dinpərəst və mənəviyyatçı hərəkatı haqqında dərindən düşündükdə bir mühüm məsələni dərk edirik ki, bu gün dünya əhalisinin əksəriyyəti müasir əsrin mənəvi-əxlaqi tənəzzülündən ciddi məyusluq keçirir və mənəvi dəyərlərin məhvinin dağıdıcı nəticələrindən narahat olaraq öz nicat yolunu yenidən dinin həyati təlimlərinə yönəltməkdə tapmışlar.

[1] Hüqo Çavoz, Venesuellanın prezidenti, BMT-də məruzəsindən, "Keyhan" qəzeti, 24/10/1380

[2] Foko Yama (yapon, Amerika xarici işlər nazirliyinin siyasi proqramlaşdırma bölməsinin məsulu (1989) (o, mütləq liberal-demokratik hakimiyyətini israr edir) (Bax: Foko Yama, "Tarixin sonu")

[3] "Frankfurter eleqmaniya" qəzeti (Almaniya), "Cümhuri-ye Eslami" qəzeti, 27/11/1372. "Vahid xəbər" mərkəzindən götürülüb

### *Müasir bəşərin əxlaqi tənəzzülünün amilləri*

**Avropa liberalları.** Şərhçilik adlanan və liberalizm[1] kimi məktəbləri yaradan dövrün fikri və fəlsəfi cərəyanı əvvəldən indiyə kimi bəşərin əxlaqi, mənəvi dəyərləri və müqəddəs sayılan dəyərlərinə böyük zərər vurmuş və bu yolla dünyanı böyük böhranların qurbanına çevirmişdir.

"Din sahəsində daha çox imansız, skeptik və hətta dinin düşməni olan"[2] Avropa liberalları bir tərəfdən din haqqında qeyri-düzgün açıqlamalar verməklə dini təlimlərdə tərki-dünyalığın əsaslarını yaratmış, özlərini əxlaq və mənəvi dəyərlərdən məhrum etmişlər. Digər tərəfdən, vəhy mövqeyindən çıxış edərək insan varlığının təfsirini və onun varlıqla münasibətinin təsvirini öhdəsinə götürmüş, insanın mənəvi məqamını alçaltmaq və azaltmaqla düşüncə və əxlaq sahəsində nisbilik üçün yol açmışlar.

**Liberallar və mənəviyyatın dini dayaqlardan məhrum edilməsi.** Dinlə qarşılaşmada müştərək mövqeyə gələn Qərbin liberal nəzəriyyəçiləri xalis ağıla söykənən tərəqqinin gerçəkliyi şüarı ilə, iman və ağıl arasında ciddi ziddiyyətin olması təsəvvürünü təlqin etməklə dinin "ictimai münasibətlər səhnəsindən kənarlaşdırılması zərurəti" nəzəriyyəsini təbliğ etmişlər.

Dinin ictimai münasibətlərdən kənarlaşdırılmasının və onun mənəviyyat sahəsində həllediciliyinin adi və təbii nəticəsi bəşərin əxlaqi-mənəvi dəyərləri və fəzilətlərinin sarsıdılmasından başqa bir şey deyildi.

Bu səbəbdən müasir dünyada mənəvi süqut, insanın əxlaqi bayağılığı və dəyərlərin tənəzzülünün kökü Qərbin özündə baş verən dinlə mübarizə fəlsəfəsi və təfəkkürü prosesindədir.

---

[1] Liberalizm, "azadlıq" mənasında olan liber sözündəndir. Liberalizm XVII-XVIII əsrlərdə Qərbdə yaranan ictimai, siyasi və iqtisadi dünyagörüşüdür. Bu məktəb fəlsəfi cəhətdən Makyavelli, Tomas Hobs, Con Lokun təfəkkürünün məhsuludur, "fərdçiliyə etiqad", "təcrübəçilik", "vaciblərin mövcudlardan ayrılığı", "əxlaqi yotilyitarizm", "əxlaqi nisbiçilik" kimi ünsürləri fəlsəfi tanıma baxımından liberalizm ideologiyasının sütunlarından saymaq olar. Əsasən fərdçilik (individualizm) liberalizm ideologiyasının ən əsas fəlsəfi göstəricisidir.

[2] Dariyuş Aşuri, "Siyasi diplom", səh.281

"Qərblilər dini əvvəldən inkar etdilər, dinə söykənən əxlaq və tərbiyəni qəbul etmədilər. Halbuki dinin əhəmiyyəti insanda mənəvi dəyərlərin meyar və ölçülərini bərpa etməkdir… Və insaniyyət insanı xüsusi bir şəkildə bərpa edir ki, onun yüksəlməsi fonunda bu gün həqiqətən də mənasız olan bütün insani dəyərlər məntiqi və dəqiq məna kəsb etsin."[1]

Daha aydın desək, "imanın birinci təsiri budur ki, o, əxlaqın dayağıdır, yəni özü həyatın böyük sərmayəsi olan əxlaq imansız düzgün əsas və dayağa malik deyil, hər şeyin əsası dini etiqad, yəni Allaha iman və etiqaddır."[1] Həmin əsasla təcrübə göstərmişdir ki, dinin əxlaqdan ayrı olduğu yerdə əxlaq çox geri qalmışdır."[2]

Bu həmin bəlalardır ki, liberal nəzəriyyəçilər renessans dövrü və ondan sonra bəşərə, xüsusən Qərbə bəxş etmişlər. Amerika Mədəniyyət və Yenilikçilik Mərkəzinin təsisçisi, keçmiş prezident Niksonun müşaviri Robert Kerrin həmin mövzuya işarə edərək demişdir: "Din təfəkkür və əməldə olmalıdır" - fikri ilə ardıcıl mübarizənin nəticəsi ABŞ-ın ictimai həyatında hər növ vahid əxlaq sisteminin olmamasıdır."[3]

**Liberal ağıllılıq və əxlaqi nisbiliyin yayılması.** Liberalizm humanist[4] baxışa söykənərək insana maddi tərəqqi, təbii ehtiyacların ödənməsi, heyvani instinktlərin razı salınmasını bəşərin təkamül qayəsi kimi təqdim etmiş və həmin əsasla Qərb liberalizmi və liberal ağıllılıq tam xeyirgötürmə, acgözlülük və tamahkarlıq, məsrəfçilik və şöhrətpərəstliyi insanın əsas xüsusiyyətlərindən saymışlar.

---

[1] Ustad Murtəza Mütəhhəri, "İslamda təlim və tərbiyə", səh.241

[1] Ustad Murtəza Mütəhhəri, "İslamda təlim və tərbiyə", səh.118

[2] Ustad Murtəza Mütəhhəri, "İmanın fayda və təsirləri", səh.151 və 153

[3] "Kəlme-ye daneşcu", №16

[4] Humanizm =insansevərlik, bəşərin əsilliliyi məktəbi (Humanizm Qərbdə yaranmışdır və humanist təfəkkürünün əsası insanın məqam və mövqeyini qiymətləndirməyə söykənir. Orta əsrlər kilsəsinin təzyiq və sıxıntıları fərdlərin insani heysiyyət və dəyərlərinə xələl gətirdiyindən və din adı ilə insanların azadlıq və ixtiyarını onlardan aldığından kilsə sahiblərinin qarşısını almaq üçün insan heysiyyətinin qaytarılması məqsədilə humanizm ədəbi-fəlsəfi hərəkatı başlandı. Humanistlərin din və azadlığın ziddiyyəti onları ilahi başlanğıcdan tamamilə ayırdı).

Əslində humanist baxışların göstəricilərini ən kamil şəkildə özündə əks etdirən bu ideologiyada əxlaqi vəzifənin mənşəyi şəxsi mənafe ilə məhdudlaşır və liberalist cəmiyyətdə hər bir kəs özündən başqası haqqında düşünmür.[1]

Bu baxımdan liberalist əxlaqını yutiltaryanist[2] (mənfəətin əsilliyinin ardınca getmə) adlandırmışlar.[3]

Liberalizm əxlaqi dəyərlərin nisbiliyinə inanır. Çünki onlar əxlaqi təlimlərin mənşəyini insanın dəyişən və cüzi varlığında görürlər və liberallar əsasən mərifət və əxlaq sahəsində nisbi düşünən insanlardır. Çünki onlar insanın mənfəət güdən stimullarını yaxşı və pisi müəyyənləşdirmə meyarı kimi qiymətləndirirlər.

Hobz, Hyum və Bentamın fikrincə, meyllər dəyişilməz və bəşər təbiətində sabitləşmiş həqiqətlərdir ki, əxlaq özünü onlara uyğunlaşdırmalıdır."[4]

Humanist və liberal mədəniyyətin nəzərində insanın həyatdan tam faydalanma və azadlıq rəmzi onun gizlin heyvani və azğın təmayüllərinin razı salınmasıdır və əsasən "Qərbdə azadlığın kökü və mənşəyini təmayüllər və insan hesab edirlər və iradədən danışan zaman həqiqətən təmayüllə iradə arasında bir fərq olduğunu demirlər…"[5]

**Liberal təlimlərdə insanın təhqir və dəyərsizləşdirilməsi**. Humanizm, liberal mədəniyyət düşüncəsi və "Qərb tərbiyəsi insanı özündən kənarlaşdırmışdır."[6]

Həqiqətən, Qərb mədəniyyətinin nəzəriyyəçiləri "malik olduqları antropoloji kateqoriya ilə dəyərlərin kökündən yayınırlar. Onlar insana materialist nəzəriyyə ilə baxarkən maddi dəyərlərin onun üçün əhəmiyyət kəsb etdiyini vurğulayırlar. Onların fikrincə, mənəvi dəyərlər və əxlaq, bəşər

---

[1] Drubintski, Elk, Əxlaq elminin tarixi, Firidun Şayan, səh.71

[2] yutiltaryanizm-xeyrin əsilliyi

[3] Espinozanın fikrincə, "bizim xeyrimizi əhatə edən şey yaxşıdır" Əxlaq elminin tarixi №4296

[4] Antoni Arablaster, Qərb liberalizminin zühur və süqutu, səh.40

[5] Ustad Murtəza Mütəhhəri, "Nəşr olunmamış məqalə", "Cümhuri-ye Eslami" qəzeti, №4296

[6] İmam Xomeyninin qısa sözləri, İmamın əsərlərinin tənzim və nəşri müəssisəsi, səh.159

və insaniyyətin əsilliyi hamısı mənasızdır. Əgər insan digər maddələrlə müqayisədə, daha mürəkkəb, daha dolaşıq maddədirsə, bəs onda ləyaqət nə deməkdir?!"[1]

İnsan liberal mədəniyyətin təlimlərinə, liberalizmdə təsvir olunmuş azadlığa tabe olmaqla nəinki vəd olunmuş səadətə çatmadı, həm də öz mənəvi dəyərlərini maddi mədəniyyətin mürəkkəb bazarında hərraca qoydu.

Qərb humanist mədəniyyətinin məşhur tənqidçisi Rene Qnon yuxarıdakı gerçəkliyi açıqlayarkən yazmışdır:

"Humanizm müasir dini ruhun (Laicisme) inkarı şəklində təzahür edən ilk təlim forması idi. O, hər bir şeyi özü son həddədək xarakterizə olunan insanın səviyyəsinədək məhdudlaşdırmaq istədiyindən, nəhayət mərhələ-mərhələ insan varlığının ən aşağı səviyyəsinədək süqut etmişdir."[2]

Humanizm, liberalizm və sekularizm kimi müxtəlif formalarda təzahür edən Qərb düşüncəsi əsasən bir mədəniyyət hərəkatıdır ki, onda həzz almaq, qayğısız həyat tərzi keçirmək və məsrəfçilik yaxşı həyatın əsas məfhumlarını təşkil edir. Halbuki insan təbiəti ondan daha yüksəkdir."[3]

**Liberalizm insanı həqiqi azadlıqdan məhrum edir**. Liberalizmin sərbəstliyinin və Qərb humanizminin baxışının nailiyyəti insana istilaçı, səthi, alçaq, Allah və vəhydən qırılmış bir varlıq kimi baxmaqdan başqa bir şey deyildir. İnsan yalnız instinktlərini doydurmaq və daha çox xeyir əldə etmək vəzifəsini öhdəsinə götürmüşdür. Bu baxışa əsasən insan öz sövdəgərliyi, şəhvətpərəstliyi və mənfəətpərəstliyinin əsiri olur və öz həqiqi azadlığını liberalizm təlimləri çərçivəsində əldən verir.

Liberalizmin beşiyində baş verənlərə ədalətlə baxarkən bu gerçəkliyi yaxşı dərk edirik ki, "Qərbin məhdudiyyətsiz azadlıqları insanın həqiqi azadlığını mənasızlaşdırmışdır."[4] "Həqiqətən də bu gün inkişaf və tərəqqi sözləri öz məna və

---

[1] Ustad Mütəhhəri, "İslamda təlim və tərbiyə".
[2] Ustad Mütəhhəri, "Kamil insan", səh.110
[3] Zbiqnio Brecinski, "Mədəniyyətlərin toqquşma nəzəriyyəsi", Müctəba Əsirinin tərcüməsi, səh.166
[4] Papa II Jan Pol dünya katoliklərinin rəhbəri, "Cümhuri-ye Eslami" qəzeti, 4/11/1370 "Cümhuri- ye Eslami" agentliyi

məfhumunu itirmişdir. Çünki bizim müasir cəmiyyətlərdə şahid olduğumuz hadisələr onların iddia etdikləri mədəniyyətə yox, vəhşiliyə doğru meyl edən qayıdış növüdür."[1]

Və "azadlıq Qərb demokratiyasının əsası sayılan mənadan çox [özbaşına], buraxılmış heyvanlıq növüdür."[2]

İslam inqilabının böyük memarı dəfələrlə Qərb azadlığını inkar etməklə yanaşı, müqəddəs şəriət, sağlam ağıla müxalif, müasir (hətta Qərbdə də) mütəfəkkirlərin çoxunun heyvani azadlıq adlandırdıqları liberalizmin təxəyyülü azadlığı ilə müqayisədə İslamın nəzərdə tutduğu azadlığın çərçivələrini araşdıraraq vurğulamışdır:

"Əgər müasirləşmə və mədəni inkişafda məqsəd peşəkar ziyalıların dediyi azadlıq münkirlik, fahişəlik, hətta həmcinsbazlıqdırsa, bütün səmavi dinlər, alimlər və müdrik insanlar onunla müxalifdirlər. Əgər Qərb və şərqpərəstlər kor-koranə onu yayırlarsa,"[3] biz Qərb dünyasındakı tərəqqini qəbul edirik, amma onların özlərinin nalə etdiyi Qərb dünyasının pozğunluqlarını yox."[4]

**Qərblilərin başlı-başına buraxılmış azadlıqlardan naləsi**. Başlı-başına buraxılmış azadlıqlara görə "bu gün Qərbin əsas problemi əxlaqi pozğunluqdur."[5]

Belə ki, İmam(r) açıqlamışdır: "Bu proses ağıllı qərblilərin vəziyyətini o qədər ağırlaşdırmışdır ki, onlar fəryad edirlər: "Qərb cəmiyyətləri cinsi məsələləri ticarətlə dəyişmək halındadırlar."[6]

---

[1] Doktor Seyyid Əli Əsğər Kazimi, "Müasir cəmiyyətin böhranı", səh.165

[2] Ustad Murtəza Mütəhhəri, həmin yerdə, №4296

[3] "Nur səhifəsi, j.21, səh.177 və 178

[4] İmam Xomeyninin(r) hikmətli sözləri, nəsihətləri və hikmətləri, səh.159

[5] Corc Mitalinus, Afina Universitetinin müəllimi (Yunanıstan), "Keyhan-e fərhəngi"yə müsahibəsində, 1371-ci ilin bəhmən ayı

[6] Papa II Jan Pol, dünya katoliklərinin rəhbəri, "Cümhuri-ye Eslami" qəzeti, 14/11/1370

"Qərbdə əxlaqsız filmlər insanların heysiyyətini məhv edir və onların, xüsusilə qadınların insanlığını istismara məruz qoyur."[1]

O bəyan etmişdir: "Qərbdə mənəvi dəyərlər çürüməkdədir."[2]

Və "Müasir həyat heyvani ehtiyacların razı salınması üçün bir yuvaya çevrilmişdir."[3]

Əxlaqsızlıq müasir cəmiyyətləri təhlükə qarşısında qoymuşdur. Belə ki, İngiltərənin sabiq xarici işlər naziri etiraf etmişdir: "İngilis cavanları dərin əxlaqi boşluqda yaşayırlar."[4]

"Los-Anceles tayms" nəşrinin redaksiya heyətinin üzvlərindən biri Koll Toms Amerikada bayağı sənət qruplarının fəaliyyət azadlığına və qanunvericilərin, qanun icraçılarının onların qarşısını almaması məsələsinə toxunaraq liberal cəmiyyətin əzabverici vəziyyəti haqqında yazmışdır:

"Bərk külək əsəndə kompas işləməmiş və kapitan gəmini buraxmışdır! Biz isə qayıqsız və xüsusi jiletsiz qalmışıq və öz halımızı düşünməliyik. Bir zərbi-məsəldə deyilir: "İnsanlar gələcəyə ümidləri olmadığı halda həlak olacaqlar!"[5]

**Qərb, elmi və maddi tərəqqi, mənəvi süqut.**_Yeni əsrdə sənaye və texnologiya sahəsində elmi tərəqqinin əsas hissəsinin Qərbdə baş verməsi və bu tərəqqinin insanların təbiətdən daha çox istifadəsinə şərait yaratması heç bir kəsdə şübhə doğurmur.

Qərb mədəniyyəti böyük kəşfləri, sənaye və texnologiyanın tərəqqisini, fəzanın fəthini, kompüter və sairəni bəşəriyyətə ərməğan etdi, amma insanın mənəvi dəyərlərini inkar etməklə, sərbəstliyi genişləndirməklə, "həm özünü, həm də bəşəriyyəti çıxılmaz vəziyyətə saldı."[6]

---

[1] Papa II Jan Pol, dünya katoliklərinin rəhbəri, "Cümhuri-ye Eslami" qəzeti, 14/11/1370

[2] Jan Gitön, Fransa filosofu, "Keyhan-e fərhəngi", 1373-cü ilin mordad ayı

[3] "Şpigel" alman qəzeti, dekabr 1993

[4] "Süruş" jurnalı, 24/9/1369

[5] "Süruş" jurnalı, 24/9/1369

[6] Ustad Murtəza Mütəhhəri, "İslamda təlim və tərbiyə", səh.336

Böyük maddi inkişafın, yüksəlişin bəşəriyyətə tam hakim kəsildiyi bir zamanda insandan qalan onun insaniyyəti idi, başqa heç nə deyildi!

"Bugünkü insan...təbiəti ram etmək üçün daha yeni və daha yaxşı vasitələr düzəltsə də, özü həmin vasitələrdən toxunmuş tora düşmüş və son məqsədinə görə öz bəsirətini əldən vermişdir..."[1]

Bəli, həqiqətən də "Qərb mədəniyyətinin imkanları çox böyükdür və başqa millətlər onun Allahın qüdrətində olduğunu zənn edirlər. Lakin Qərb bir məsələdə acizdir və bu onun öz daxili aləmi barədə düşünməməsidir. Təkcə bu məsələ yeni mədəniyyətin yalançı parlaqlığının puçluğu üçün kifayətdir. Qərb mədəniyyətinin qərbliləri içki içməyə və cinsi əməllərə sövq etdirməsinin əsas səbəbi budur ki, onlar özlərini axtarıb tapmaq əvəzinə əbəs yerə yaradılmalarına inansınlar. Onun elmi qüvvəsi öz üzərində müstəsna qüdrət və hakimiyyəti üçün yox, özündən qaçmağa əsaslanan kəşflər, ixtiralar və müharibə vasitələri üçündür. [Amma] insan öz mənəviyyatını əldən verdikdən sonra daha dünyanın fəthi onun nəyinə gərəkdir."[2]

Mərhum Əllamə İqbal Lahuri Qərb mədəniyyətinin zahiri parlaqlığı fonunda onda baş verən gerçəklikləri dərin baxışla nəzərdən keçirərək Qərb insanının məyusluğunu nəzmə çəkmişdir:

Firəng aliminə xəbər yetirin,
Qəfəsə düşəndə daralar ağıl
Gül-çiçək rəngini gözdə bitirin
Rənglər dünyasında gözlər həmayıl.
Nə olsun, Məsih tək peyğəmbərin var
Amma yaraların dərindən-dərin
Biliyin çoxsa da, qəlbin daş-divar,
Bir də bu boşluğu doldurmaq çətin.[3]

---

[1] Erik Ferom, İnsan özü üçün, Əkbər Təbrizinin tərcüməsi, səh.15
[2] Mahatma Qandi, "Mənim məzhəbim", Baqir Musəvinin tərcüməsi
[3] İqbal Lahurinin şerlərindən seçilmişdir, səh.325

**Azadlığın yeni tərifinin verilməsi üçün səylər**. Qərb cəmiyyətində başlı-başına buraxılmış azadlıqların təhlükəli təsirlərinin artması ilə bu dünyanın indiki mütəfəkkirlərinin fikirlərində hiss olunan dəyişikliklər baş vermişdir. Belə ki, hətta "yeni cəmiyyət"in nəzəriyyəçisi olan Karl Puper də açıq şəkildə başlı-başına buraxılmış azadlıqların məhdudlaşdırılması zəruriliyindən söz açaraq demişdir:

"Mütləq azadlıq mənasızdır...Bizim elə bir cəmiyyətə ehtiyacımız var ki, hər bir şəxsin azadlığı digərlərinin azadlığı ilə uyğun olsun."[1]

Burada ən mühüm məsələ odur ki, Qərbin bəzi məşhur mütəfəkkirləri Qərbdə yayılmış azadlıq məfhumunu tənqid etməklə yanaşı, azadlığın məfhum və mahiyyətinin yeni və məhdudlaşdırıcı tərifinin verilməsinə də çalışmışlar. Məşhur Amerika nəzəriyyəçisi Zbiqnio Brejinski bu barədə yazmışdır ki, Qərbdə azadlığın tərifi təhlükəyə düçar olmuşdur və azadlıq hər bir fərdin hüquq və ixtiyarları mənasında hər növ özbaşınalığın izharı üçün icazəyə çevrilmişdir.

Azadlığın belə tərifi, yəni məsuliyyətə əsaslanan azadlıqdan uzaqlaşmaq və vəhşiliyə söykənən fərdi azadlığa yaxınlaşmaq Amerikanın kütləvi informasiya vasitələri tərəfindən təlqin olunan bir məsələdir."[2]

Hər halda Qərb dünyasının indiki vəziyyəti fərqli əks-təsirlər yaratmışdır və bu zaman qərblilərin çoxu öz dərin və dəlilsiz problemlərinin çarəsini ali dini, mənəvi və əxlaqi dəyərlərə yenidən qayıtmaqda görürlər.

Qərb mütəfəkkiri və alimi Robert Ci Ringer insani, mənəvi və dini dəyərlərin tənəzzül və süqut etməsi gerçəkliyinə, Qərb mədəniyyətinin məhvinin başlanmasına toxunaraq demişdir:

---

[1] Karl Puper, Bu əsrin dərsi, Əli Papa, səh.76

[2] Brejinski, Nəzarətdən xaric, Əbdürrəhim Nəvə İbrahim

"Məndən dəfələrlə sual olunur: Qərb mədəniyyətinin nicatı üçün artıq vaxt qalmamışdır?"

"Öz keçmiş ruhiyyəmiz və əxlaqi xüsusiyyətlərimizi bir daha öyrənib əldə edə bilərikmi?"

"Mənim fikrimcə, ümid edə biləcəyimiz yeganə yol budur ki, düzgün və əxlaqi məsələlərə arxalanmaqla Qərb mədəniyyətini yenidən öyrənmək olar."[1]

### *1 – Qərbin tənəzzülü və qərblilərin dinə qayıdışı*

Ci Ringer kimi mütəfəkkirlərin Qərb mədəniyyətinin əxlaqi dəyərlərə qayıdışı zəruriliyi adı altında müzakirə etdikləri məsələ bu gün Qərbdə köklü ictimai prosesin mühüm tələblərinə çevrilmişdir. Bu elə bir prosesdir ki, Qərb cəmiyyətlərinin əvvəlkindən daha çox mənəvi və əxlaqi süqutuna müqavimət göstərməklə yanaşı, Qərbdə hakim olan əxlaqi nisbilik və səhlənkarlıqla müxalifətə başlamışdır.

Qeyd olunmuş proses yolun başlanğıcı və özünü başlanğıc nöqtəsində yerləşdirsə də, çoxlu dəlillər ondan söhbət açır ki, dini-mənəvi həyatın yeniləşməsini Qərbin əksər vətəndaşlarına ərməğan etmişdir.

Bu proses müasir dünyada hakim olan əxlaqa zidd və materialist siyasətlərə müxalifətdə dini-mənəvi dəyərlərin qüvvətləndirilməsini özünə peşə etmişdir.

Başqa sözlə, "Bu gün şahidi olduğumuz dini əsaslara tərəf yönəlmə, Qərb ölkələrində gündən-günə artan uşaqsalma və jinsi təlimlərlə müxaliflik yalnız siyasi müqavimət deyil, bu dünyanın tutduğu səhv yoldan nigaranlığın bəyan edilməsidir."[2]

Son illər ərzində Qərbdə səmavi din və təlimlərə qarşı diqqətsizlikdən təəssüflənən və onun dağıdıcı nəticələrindən danışan dini həyatın yeniləşməsi tərəfdarlarının sayı nəzərə çarpacaq dərəcədə artmışdır. Getdikcə yeni əsrin bütlərinin və onların aldadıcı vədələrinin nəinki insanın arzularını həyata

---

[1] Məhəmməd Tağı Cəfəri, "Arxadan gələn mədəniyyət, qarşıdan gedən mədəniyyət", səh.112 və 286. Robert Ci Ringerin "Qərb mədəniyyətinin dağılması" kitabından, səh.285 və 286.

[2] Benjamin Spak, "Uşaqlarımız üçün daha yaxşı dünya", səh.86

keçirməyə qadir olmaması, eləcə də onu məyusluq və ümidsizliyə düçar etməsi barədə hisslər daha da qüvvətlənir."[1]

Amerikanın İdarəetmə Universitetinin sosiologiya müəllimi Çarlz Noklis bu barədə demişdir: "Keçən yarım il ərzində müxtəlif hadisə və dəyişikliklər baş vermişdir. Əcdadımızın bizə vacib və zəruri buyurduqları işi özümüzdən uzaqlaşdırdıq, din və ailənin əhəmiyyətinə göz yumduq və buna görə insanlar inanırlar ki, nələrisə itiriblər, amma nəyi itirdiklərini xatırlamırlar. Amma bir məsələ aydındır: İnsanların qəlbində böyük bir boşluq qalmışdır."[2]

Amerika Birləşmiş Ştatlarının keçmiş təhsil naziri və çoxtirajlı "Əxlaqi fəzilətlər" kitabının müəllifi Vilyam Bint kitabın "Dəyərlər" bölməsində cəmiyyətlər dinsiz böhrana qərq olmuşlar fikrini bəyan edərək yazmışdır:

"Amerika əhalisinin 76%-i ölkədə ailə quruluşunun gələcəyindən narahatdırlar və bu 1960-cı illərin əxlaqa zidd və dinsizlik cərəyanının nəticəsidir ki, o zaman hər bir şeyi icazə verilmiş saydıq və bu laqeydsizliklər bizi əxlaqi tənəzzülə sürüklədi."

O, Amerika cəmiyyətində əxlaqi və dini dəyərlərin kənarlaşdırılmasından sonra yaranmış ictimai dəyişikliyin dərinliyinə işarə edərək yazmışdır:

"Böyük göydələnlərin tikilməsi, əla həyat və maddi rifah halının artırılması ilə məşğul olduq. Amma bunu bilmədik ki, yüz dollar üçün beş yaşlı uşağı qətlə yetirən, hamilə qadının qolbağını oğurlamaqdan ötrü onun qarnını yırtan qatillər tərbiyə edirik və ya televiziya filminə tamaşadan sonra intihara cəhd edən müəllim hazırlayırıq…"[3]

### *2 – Əxlaqi tənəzzül cərəyanına qarşı etirazların artması*

Qərb cəmiyyətlərində baş verən dəyişikliklər haqqında mövcud məlumatlar bu gerçəklikdən xəbər verir ki, son illər dini

---

[1] Yuaxim Maynser, Almaniyanın Köln kilsəsinin baş yepiskopu, "Sübh" nəşriyyatı, №80, 1377-ci ilin fərvərdin ayı, Rod Deviçe Saytunq Almaniya qəzetindən.

[2] "Məşriq" jurnalı, №2 və 3, "Müqəddəs işin axtarışında" məqaləsi

[3] "Cümhuri-ye Eslami" qəzeti, 23/6/1373

məfhumlar və mənəvi-əxlaqi dəyərlərin ləğv olunmasına qarşı etirazlar gündən-günə genişlənməkdədir.

BBC Televiziyası Direktorları Şurasının sədri Kristofer Bland İngiltərə əhalisinin çoxunun BBC televiziyasının əxlaqa zidd proqramlarından şikayət etməsi və yorulması məsələsinə toxunaraq bildirmişdir ki, bu tənqidlər nəzərə alınaraq belə proqramların məhdudlaşdırılması və digər proqramlara nəzarət qərarına gəlinmişdir. O sonra açıqlamışdır: "Şəxsən özü 229 şikayət məktubu almışdır."[1]

Bununla bağlı başqa məlumatda oxuyuruq:

"Mövcud sənədlərə əsasən hazırda Almaniyada yüzlərlə cild kitab televiziya proqramlarına qarşı nəşr olunur və Frankfurtun kitab sərgisi tamamilə Almaniyanın televiziya proqramlarında əxlaqi tənəzzül əleyhinə etiraz tribunasına çevrilmişdir."[2]

Amerikada qeyri-özəl bir ailə cəmiyyətinin tərtib etdiyi elanı çap edən "Reydrez Daycest" nəşri də onların dilindən yazmışdır:

"Biz uzun illərdir ki, ailə dəyərlərinin təbliğini dayandıran, dini kənarlaşdırmaqla seks, şəhvət və kobudluqla dolu səhnələri onun yerinə qoyan kinematoqrafiya sənətinin rejissor və işçilərindən utandığımızı elan edirik."[3]

Digər tərəfdən "Qalup" Sorğu-Məlumat Mərkəzi tərəfindən aparılmış sorğulara əsasən, "Amerika vətəndaşlarının əksəriyyəti ölkədə istehsal olunmuş filmlərin millətin əxlaqi dəyər və əsaslarına cavab vermədiyinə inanır."[4]

### *3 – Kilsə əxlaqın müdafiəsinə qalxır*

Qərb əhalisinin mənəvi və əxlaqi dəyərlərindəki faciənin əleyhinə etirazların artması ilə yanaşı, şəxsiyyətlər və müxtəlif təşkilatlar da açıq-aşkar xalqın müqəddəratı və mədəni siyasətin müəyyənləşdirilməsində dindarların, kilsə və din rəhbərlərinin

---

[1] "Həmşəhri" qəzeti, 22/9/1375

[2] "Cümhuri-ye Eslami" qəzeti, 29/6/1372, "Xəbər mərkəzi", Almaniyada çap olunan "Divelt" qəzetindən

[3] "Keyhan" qəzeti, 20/3/1372

[4] "Nyu-York tayms"dan nəql, "Sübh" jurnalı, №66, 1376-cı ilin bəhmən ayı.

məsələyə qarışmasının zəruriliyi mövzusunda müzakirəyə başlamışlar.

95 yaşlı məşhur alman filosofu Hans Quyq Qadamr Qərb mədəniyyəti sahəsində ailə quruluşunun məhvi və tənəzzülü məsələsinə toxunaraq bildirmişdir ki, ateizm və laqeydsizlik bəşəriyyətin bir növ xəstəliyi və tənəzzül nişanəsidir.

O demişdir: "Dindar və xristian Avropasının qarşısında böyük bir vəzifə vardır və bu da cəmiyyətin əsas nüvəsinə [ailəyə] əhəmiyyət və heysiyyəti qaytarmaqdır."[1]

Belə ki, Avstriyanın "Furxe" nəşrinin baş redaktoru Hubert Fuyxterbar da Avropa Birliyini mənəvi dəyərlərə diqqətsizlikdə ittiham edərək yazmışdır: "Avropa Birliyinin mərkəzi olan Brüsseldə bu dəyərlər məhv edilmişdir, buna görə də kilsələr milli səviyyədə bu mühüm işlərlə məşğul olmalıdırlar."[2]

### *4 – Qərbdə dini rəhbərlərin tövsiyələrinin artması*

Qərbdə ilahi dinlərin əxlaqi və mənəvi təlimləri ilə ictimai həmrəyliyin artması sayəsində bu gün kilsə rəhbərləri də daha aşkar şəkildə cəmiyyətlərin əxlaqi parçalanma və bayağılığından söz açaraq, dini inamlara yenidən qayıdışın zəruriliyindən danışırlar.

Kilsə rəhbərləri indi bu fikri açıqlayırlar ki, "Qərb dünyası bütün ali insani dəyərləri itirən kapitalist və ya ifratçı-istehlakçı liberal bir quruluşdur.[3]

Onlar bildirirlər ki, "yeganə nicat yolu Allahı seçmək, Onunla bir olmaq və Ona etimaddır.[4]

Almaniyanın Köln kilsəsinin  baş yepiskopu Yuvaxim Maynser məşhur Dom kilsəsinin tikilməsinin yeddi yüz əllinci ildönümü mərasimindəki çıxışında ölkədəki əxlaqi bayağılığa, evlənmə hallarının və doğumun azalmasına toxunaraq demişdir:

---

[1] "Səf" jurnalı, 1375-ci ilin Şəhrivər ayı, №196.

[2] "Cümhuri-ye Eslami" qəzeti, 7/12/1372, "Dipresse" Avstriya qəzetindən.

[3] Papa II Jan Pol, Avropa parlamentində İtaliya nümayəndəsi ilə görüşündə, "Ettelaat" qəzetinə əlavə, 13/8/1372

[4] Kardinal Ratzinger, katolik məktəbi və Papa canişininin əsas seçicilərini müdafiə cəmiyyətinin rəisi, "Keyhan" qəzeti, 17/1/1376

"Almaniya əhalisi İsa Məsihə inamı itirmişdir və bu imansızlığın nəticəsində ölkədə tabutların sayı beşik və uşaq arabalarının sayından xeyli artmışdır."[1]

İngiltərə kilsəsinin baş yepiskopu doktor Corc Keri də İngiltərə əhalisinin xüsusi və ictimai həyatında əxlaqi tənəzzül haqqında xəbərdarlıq etməklə yanaşı, əhalinin ilahi təlimlərə qayıdışı və ölkənin təhsil sisteminin dini təlimlərə diqqətinin vacibliyini vurğulamışdır."[2]

### *5 – Əxlaqi bayağılıq əleyhinə aşkar mövqelərin kəskinləşməsi*

Qərbdə dini və mənəvi tələblərin artması sayəsində xristian rəhbərlərin dövlət xadimlərinin əxlaqa zidd siyasəti ilə bağlı aşkar mövqeləri və onların siyasətə qarışması istiqamətində hiss olunan dəyişikliklər baş verdi. Bu baxımdan Amerikada xristianlığın ən böyük göstəricisi olan Sadtren Babist firqə konvensiyasını qeyd etmək olar ki, 35 il keçəndən sonra ilk dəfə olaraq illik konfransının son qətnaməsində "mənəviyyat və əxlaqın əhəmiyyətini qeyd edərək əri ailənin başçısı elan etdi və qadınlara da öz ərlərinə daha çox tabe olmağı xatırlatdı."

Bu qətnamədə Amerika siyasətçilərinin əxlaq pozğunluqları qeyd edilərək onlardan şəxsi həyatlarında və dövlət vəzifələrində əxlaq normalarına riayət olunması xahiş edilmişdir. Bildirilmişdir ki, dövlət adamlarının günahı insanların vicdanını korlayır, əxlaq normalarını başlı-başına buraxır və cəmiyyətdə qanunsuzluğu daha da genişləndirərək, Allah-Təalanın qəzəbinə də səbəb olur."[1]

Həmin toplantıda maraqlı məsələlərdən biri də bu idi ki, Amerika yazıçısı, informasiya vasitələrinin şərhçisi və Ailəni Mərkəzləşdirmə Təşkilatının təsisçisi və sədri Ceymz Dobson konfrans iştirakçılarına xitabən demişdir:

"Biz kilsələr həddindən artıq siyasi olmamalıdır təfəkkür tərzinin arxasında gizlənmişik! Əgər kilsə müdafiəsiz zəifləri və

---

[1] "Sübh" nəşriyyatı, №80, 1377-ci ilin fərvərdin ayı, "Zud Deviçe Saytunq" qəzetindən

[2] "Sübh" nəşriyyatı, №61, 1375-ci ilin şəhrivər ayı, "Cümhuri-ye Eslami" agentliyindən

[1] "Cümhuri-ye Eslami" qəzeti, 23/3/1377, "Xristian sayns monitor" qəzetindən

dünyaya gəlməmiş körpələri, fəzilət və dini mədəniyyəti himayə məqsədi ilə qiyam etməsə kim onun yerini tutmalıdır!"[2]

Dünya katoliklərinin rəhbəri də Amerika Birləşmiş Ştatlarının siyasi səhnəsində öz ardıcıllarının daha çox hərəkəti zəruriliyini bəyan etməklə bildirmişdir: "Amerika katoliklərinin vəzifəsi bu ölkənin siyasi və ümumi həyatına müdaxilə etmək və uşaqsalma qanunlarını dəyişdirməkdir. Birləşmiş Millətlər Təşkilatında da fövqəlqüdrət haqqı yerinə əxlaq hüquqları hakim olmalıdır."[1]

Dini tələblərin müzakirəsi və din rəhbərlərinin Qərb ölkələrinin mədəniyyət siyasətləri ilə artan müxalifəti o qədər aşkar xarakter daşımışdır ki, İtaliyada çap olunan "Esperso" jurnalı "Amerika ayətullahları" adlı məqaləsində Amerikada dini-mənəvi icmalardan biri haqqında məlumatında yazmışdır:

"Amerikada Ayətullah xüsusiyyətlərinə malik olan bir şəxs vardır, amma müsəlmanlardan deyil, xristiandır! Keşiş Papa Robertson bu əqidədədir ki, siyasət İncilə tabe olmalıdır." Bu jurnal yuxarıdakı xəbəri açıqlayarkən əlavə etmişdir:

"Vaşinqton şəhərində onlarca iyirmi yaşdan aşağı oğlan və qızlar "Xristian dözümü hərəkatı" bayrağı altında Mall parkında toplaşırlar və üzərlərində "həqiqi eşqi gözləyir" plakatlarını daşıyaraq hamı ilə birlikdə and içərək deyirlər:

"Allahım, ailəm, gələcək həyat yoldaşım, gələcək övladlarımın, qohumlarımın  gözü qarşısında söz verirəm ki, ailə qurana kimi cinsi cəhətdən pak qalacağam."

"Ailə islahatı" (famil reform) adlanan Xristian Fundamentalist Təşkilatı Amerika Birləşmiş Ştatlarında qəbul olunan bütün qərarlarla bağlı öz fikirlərini bildirirlər.

Jurnal sonda əlavə etmişdir:

"Fundamentalistlərin sözü budur ki, əgər biz İncilin dediyi vəziyyətə qayıtsaq, problemlərimizin yarısı həll olunar."[2]

---

[2] Həmin yerdə, "Cümhuri-ye Eslami" agentliyi, Qərbdə kilsənin misilsiz siyasi və ictimai fəaliyyət mövzusu ilə daha çox tanışlıq üçün bax: Həmin kitab, müsəlman İmam Xomeyni haqqında fikirləri və Vatikanda İranın keçmiş səfirinin məlumatlar bölməsi.

[1] "Keyhan" qəzeti, 22/8/1372

[2] "Rey" nəşriyyatı, 5/10/1373 və "Resalət" qəzeti, 28/9/1373.

***6 – Bayağılıqdan yorulmuş qərblilər arasında islampərəstlik***

Qərb vətəndaşlarından çoxunun öz ölkələrindəki utandırıcı mənəvi-əxlaqi tənəzzülündən nifrət nişanələrindən biri də İslamın burada sürətli, misilsiz inkişafı və yayılmasıdır. Bu gün avropalı və amerikalı kişi və qadınların böyük bir qismi Qərbin bayağı mədəniyyətinin mənfi nəticələrindən qaçaraq İslamın məhəbbətlə dolu ağuşuna pənah gətirirlər.

Belə ki, İtaliyanın "Ensa" agentliyi "İslam ingilis qadınlarının cinsi bərabərsizlikdən qurtuluşu üçün yeganə yoldur" fikrini açıqlayaraq bildirmişdir: "Təkcə son iki il ərzində İngiltərənin iyirmi min təhsilli qadını Qərbdə hakim olan cinsi bərabərsizlikdən nicat üçün İslamı qəbul etmişlər."[1]

Müsəlmanlığı yenicə qəbul etmiş almaniyalı Bergit Cəmilə xanım (Hamburq şəhərindən) minlərlə Qərb qadınlarından biridir və o, Qərb mədəniyyətinin bataqlığından qaçaraq İslam yolunu seçmişdir. O demişdir:

"Quranı oxumaqla İslam məsələləri ilə yaxından tanış olmağa çalışırdım və hicab ayəsi, onun təfsirini mütaliə etməklə keçmiş həyatım və yaşadığım cəmiyyətlə müqayisədən sonra müəyyənləşdirdim ki, qadın hicabı müqəddəs bir iş və qadın şəxsiyyətinin qoruyucusudur və heç bir tərəddüd etmədən onu öz mühafizəçim kimi qəbul etdim."

O, İslam dininin göstərişlərinə əməl etməyin faydalarını şərh edərək demişdir:

"Hicab mənim nəzərimdə qadın üçün qoruyucudur. O, qadını hər cür nalayiq baxışların əzab-əziyyətindən, kəskin sözlərdən, həris gözlərdən və təcavüzlərdən qoruyur. Bu gün, necə deyərlər, məsələnin kökündən xəbərsiz olan məsul şəxslər qanunların icrası ilə tərəqqi etmiş sənaye ölkələrini bürümüş problemlərin qarşısını almaq istəyirlər. Həmin problem Qərb ölkələrində müşahidə etdiyimiz növbənöv pozğunluq, fahişəlik və təcavüzlərdir."[2]

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 15/10/1372

[2] Süsən Səfaverdi, "Qaranlıqda dirçəliş", səh.70 və 71

*7 – Tədris mühitlərinin ayrılması tendensiyası*

Qərbin tədris mərkəzlərinin qız və oğlan tələbə və şagirdlərin ayrılmasına marağı və tədqiqat mərkəzlərinin bu təşəbbüsün müsbət təsirlərinin araşdırılmasına diqqəti, habelə qadın həkiminə müraciət[1] edən xəstələrin artması vətəndaşların cəmiyyətdə hakim olan çirkin mədəni mühit və əxlaqi tənəzzül qarşısında müqaviməti sayılır.

**Tədris mühitlərində qarışıqlıq (qızlarla oğlanların birlikdə oxuması) haqqında tədqiqatlar.** Qərbi Almaniyanın RTL televiziya kanalının elmi məlumatına əsasən (1368-ci ilin azər ayı), Avropanın üç ölkəsinin elmi tədqiqatlarının nəticələrinə görə, qız və oğlanların dərs otaqlarını ayırmaqla onların tədris işlərində daha çox inkişaf əldə olunmuşdur.

Almaniya, Avstriya və İsveç ekspertlər qrupunun müştərək tədqiqatlarının nəticəsini yayımlayan bu televiziya kanalı bir sinif otağında oğlan və qızların birgə iştirakını dərsin inkişafı baxımından tənqid etmiş və tədris üçün müştərək sinif mühitini əlverişsiz adlandırmışdır.[2]

Məktəbin müxtəlif mərhələlərində ingilis qız və oğlan şagirdlərin imtahanlarının nəticələri haqqında nəşr olunmuş statistika göstərir ki, qızlar məktəbində təhsil alan şagirdlər çox hallarda oğlan şagirdləri arxada qoymuşlar və müxtəlif dərslərdə daha yaxşı qiymətlər almışlar.[3]

İngiltərə məktəblərinin baş müfəttişi Kris Vudhed də tədris mühitlərində oğlan və qızların ayrı oxumasının müsbət təsirləri haqqında məlumat hazırlayaraq açıqlamışdır ki, oğlan və qızların siniflərini ayıran məktəblər öz təhsil səviyyələrində daha sürətli inkişafa nail olmuşlar."[4]

**Qarışıq olmayan mühitlərdə təhsilə marağın artması**. İndi adi üsulun əksinə olaraq bəzi Qərb ölkələrində qız və oğlan uşaqlarının tədris mühitlərinin ayrılması hallarının geniş vüsət

[1] Belə ki, nəşr olunmuş məlumatlara əsasən, avstraliyalı qadınların 49%-i bu ölkənin qərbində yerləşən Uber Stris əyalətində qadın və doğuş xəstəlikləri zəminində qadın həkiminə müraciət etmək niyyətindədir ("İran" qəzeti 26/8/1376)

[2] "Pəyam-e enqelab", №258, "Cümhuri-ye Eslami" agentliyi

[3] "Cümhuri-ye Eslami" qəzeti, 26/8/1373, "Cümhuri-ye Eslami" agentliyi

[4] "Cümhuri-ye Eslami" qəzeti, 6/4/1377, "Cümhuri-ye Eslami" agentliyi

aldığını müşahidə edirlər. Belə ki, "Avstraliya dövlətinin təhsilə kömək sistemində qız və oğlanların ayrıca siniflərinin yaradılması genişlənmişdir və indi siniflərin 1/3-i ayrıca təşkil olunur.[1]

Sidneydə çap olunan "Avstrulin" qəzeti yuxarıdakı məlumatı dərc edərək əlavə etmişdir ki, Melborn şəhərinin bir kollecində VII-IX siniflərdə təhsil alan qızların 50-75%-i ayrıca siniflərə daha çox üstünlük verirlər.[2] Amerikanın Virciniya ştatında Sidneyin Hemdun kollecinin Direktorlar Şurası da yekdilliklə qızların adının qeyd olunmasının qadağa edilməsi siyasətinin davam etdirildiyini təsdiqləmişdir. Həmin kollecin direktoru demişdir:

"Oğlanların çoxu qız olmayan mühitdə təhsillərini davam etdirmək istəyirlər."

Bundan əvvəl isə İndian ştatında Vabaş kolleci və Atlanta ştatında Yurhaus kolleci həmin siyasəti davam etdirmişlər.[3]

**İran tədris mühitləri nümunəsinə diqqət**. Qərb ölkələrində tədris mühitlərinin ayrılması ilə bağlı olan məlumatlar arasında diqqəti cəlb edən mühüm məsələlərdən biri də bəzi tədris mərkəzləri rəhbərlərinin İran İslam Respublikasının mənəvi-əxlaqi nümunəsinə marağıdır. "Cümhuri-ye Eslami" agentliyinin xüsusi məlumatına əsasən, Avstriyanın (Vyana) Şulşiv orta məktəbinin müəllimləri agentliyə verdikləri müsahibədə 1995-ci ildən bu ölkənin əksər məktəblərində icra olunan və getdikcə daha da genişlənən Avstriyada qız və oğlan məktəblərinin ayrılması proqramına işarə edərək bildirmişlər:

Bu məsələ Avropa ölkələrinin çoxunda, o cümlədən Avstriyada diqqət mərkəzində olmuş və müvafiq üsul şagirdlərin gizli istedadlarının inkişafına çox təsir etmişdir.

Xarici dil müəllimi xanım Qrantist Bratel bu barədə demişdir:

---

[1]"Cümhuri-ye Eslami" qəzeti, 26/8/1373, "Cümhuri-ye Eslami" agentliyii 18/1/1375

[2]"Cümhuri-ye Eslami" qəzeti, 26/8/1373, "Cümhuri-ye Eslami" agentliyi, 18/1/1375

[3] "Ettelaat" qəzetinə əlavə, 4/6/1375

"Keçən iyirmi il ərzində Avstriyanın təlim-tərbiyə məsələləri üzrə məsul şəxsləri bu təhsil sistemi haqqında tədqiqata başlamış və elə nəticəyə gəlmişlər ki, qız və oğlan şagirdlərin qarışdırılması onların təhsildən faydalanmalarında bərabərsizliyə səbəb olur."

O, sonra əlavə etmişdir: "Aparılmış araşdırmalar göstərir ki, İranda oğlan və qızların ayrılması çox müsbət nəticələrə səbəb olmuşdur və qızlar öz istedadlarını rahatlıqla inkişaf etdirə bilərlər."

O, bu fikri də açıqlamışdır ki, qadın müəllimlər qızlara, kişi müəllimlər isə oğlanlara dərs verməlidirlər və əksər şagirdlərin valideynləri bu təhsil sistemi ilə razıdırlar. O demişdir:

"Qız şagirdlər Avstriya məktəblərində illik həkim müayinəsi zamanı heç bir vəchlə kişi həkimlər tərəfindən yoxlanılmaq istəmirlər və onların valideynləri də bu məsələdə israrlıdırlar. Amma təhsil nazirliyi bu istəyi rədd etmişdir."[1]

## QƏRBDƏ ƏXLAQİ TƏNƏZZÜLÜN NƏTİCƏLƏRİ

Qərbdə əxlaqi-mənəvi tənəzzülün səbəbləri ilə bağlı məsələnin araşdırılması liberalizmin başlı-başına buraxılmış azadlıqlar və əxlaqi nisbiliyin yayılması ilə müasir bəşəriyyətə vurduğu böyük faciənin dərkinə kömək edə bilər. Qərbdə həddindən artıq nəşələnməyin tövsiyəsi və Qərb mədəniyyətinin eşq məfhumunu dərk etməsinin xeyli azalması ilə bəşəriyyətin ehtiram etdiyi dəyərlər və adətlər sürətlə etibarsızlaşmış, kədərləndirici və narahatedici bir şərait yaratmışdır.

Bu gün Qərbdə nikahdan kənar və hətta nikah çərçivəsi ilə bağlı olmayan cinsi əlaqələrə meyl və həmcinsbazlığın müxtəlif formaları gündən-günə daha da artır və son nəslin nümayəndələri arasında bu çox genişlənmişdir. Həqiqətdə indi

[1] "Səlam" qəzeti, 28/8/1376, "Cümhuri-ye Eslami" agentliyi

təkcə aqnostiklər deyil, həm də dindarlıq iddiasında olan şəxslər də hər gün əvvəlkindən daha çox ənənəvi cinsi əxlaq məsələsində tərəddüd edirlər. Yalnız keçən onillikdə QİÇS kimi xəstəliklərdən qorxu cavanların həyatında üstünlük təşkil edən və yeniyetməlik yaşlarında hamiləlik hallarının çoxalmasına səbəb olan özbaşına cinsi münasibətlərin hüdudlarını məhdudlaşdıra bilmişdir.[1]

Əxlaqi bayağılıq, seks, azğınlıq, hədsiz nəşələnməyi dəlicəsinə himayə cərəyanı Qərbdə çoxlu ictimai qeyri-bərabərliklər yaratmışdır ki, onlardan bəzisini nümunə kimi diqqətinizə çatdırırıq.

### *Qeyri-qanuni əlaqələrin genişlənməsi*

İndi müasir dünyada və ona tabe olan cəmiyyətlərdə qızlar, oğlanlar, kişilər və qadınların qeyri-qanuni əlaqələri nəinki qəbahətli bir iş sayılmır, çox hallarda müxalif cinslə qeyri-qanuni əlaqələrin olmaması məzəmmət olunan bir iş kimi qəbul edilir. Bu bədbəxt hadisənin dəhşətli nəticələri Qərb cəmiyyətlərini böyük bir böhranla üzləşdirmişdir. Təkcə bir yazıda olan məlumata əsasən, hər il üç yüz əlli min amerikalı yeniyetmə qız məktəb illərində - 15-19 yaşlarında qanunsuz cinsi əlaqələri səbəbindən qeyri-qanuni övladları dünyaya gətirirlər və bu statistik hesablama son onilliklərdə ilbəil artmaqdadır.[1]

Amerikanın "Reydres Daycest" qəzeti qeyri-qanuni cinsi əlaqələrin bədbəxt nəticələrini açıqlayarkən yuxarıdakı məlumata əsasən həmin qızların birinin dilindən yazmışdır:

"Kaş zaman geri qayıdardı! Kaş valideynlərimin yanında ailəmizin bir üzvü olardım! Kaş qeyri-qanuni cinsi əlaqə üçün şərait yarananda bir az gələcək həyatımı düşünərdim və bu cür son həddə gəlib çatmazdım."

Bu qəzet sonra əlavə etmişdir:

---

[1] Seyyid Hüseyn Nəsr, Müsəlman və müasir dünya, Murtəza Əsədinin tərcüməsi, səh.340

[1]"Sübh" nəşriyyatı, №63, 1375-ci ilin aban ayı, Amerikanın "Reydres Daycest"
qəzetindən. Qeyri-qanuni əlaqələrin nəticələrinin daha çox araşdırılması üçün bax: Həmin kitab, "Qərbdə ailə quruluşunun dağılması" bölməsi

"Qüssə və peşmançılıq, günah və cinayət, ailənin dağılması, acizlik və gücsüzlük, habelə belə dəhşətli burulğana düşən cavanları qarşıda çətin və kədərli gələcək gözləyir. Onlar həyat gerçəklikləri ilə çətinliklə olsa da uyğunlaşmalı və özlərini zamanın müsibət və çətinliklər dalğası qarşısında hazırlamalıdırlar. Bəs görəsən müqəssir kimdir?"[1]

Qərb ölkələrində qeyri-qanuni cinsi əlaqələr və fahişəliyin çirkin təzahürünü təşkil edənlər iffət və həya hədlərini keçərək bu gün öz təşkilatçılıq və qanuni tələblərinin iddiasına üz tutmuşlar!

Almaniyanın "Şpiqel" jurnalı 90-cı onillikdə öz saylarından birində Avropada fahişəxanaların fəaliyyəti haqqında xüsusi məlumatında yazmışdır:

"Belçikada 150 fahişənin və bu peşənin alveri ilə məşğul olanların iştirakı ilə dünya fahişələrinin ikinci konqresi təşkil olundu. Üç gün müddətində davam edən konqresdə iştirakçılar bu çirkin əməlin qanuniləşdirilməsinə israr etdilər!"[2]

Bəşəriyyətin şərafət, hürriyyət və hörmətini qoruyan Qərb iddiaçıları insanın nəfsani istəklərini yozmaqla, habelə pozğunluq və fahişəlik bazarını rövnəqləndirməklə müasir əsrin mütilik təzahürünə imza atdılar.

1996-cı ilin dekabrında BMT-nin Santo-Dominqoda təşkil olunmuş beynəlxalq konfransında zəngin ölkələrdə avaralığın yayılması məsələsi araşdırılmış və bildirilmişdir: Kasıb ölkələrin qadınları daha zəngin ölkələrə gedir və orada qul olmağa məcbur olurlar. Həmin tovlanmış və aldadılmış qadınlar daha yaxşı və qanuni iş, gəlir əldə etmək ümidilə belə bir taleyi yaşamalı olurlar.

Qeyd olunmuş konfrans bunu demokratiya və azadlıq əsrində qul olma və "insan qaçaqçılığı" adlandırmışdır və bu qeyri-insani, pozğunluq və xəstəlik törədən bir əməldir.[3]

---

[1] Həmin yerdə, №63, 1375-ci ilin aban ayı, Amerikanın "Reydres Daycest" qəzetindən

[2] "Keyhan-e həvayi", "Qərbdə insan cəhənnəmin yeddinci qatına kimi süqut etdi" məqaləsi, 28/9/1370.

[3] Seyyid Əli Əsğər Kazimi, Müasir cəmiyyətin böhranı, İslam mədəniyyətini yayma idarəsi, 1377, səh.165.

Qərb mədəniyyətində qadınların üstün cəhətlərinin və onların təbiətlərinin əksinə olaraq fəaliyyət göstərilir və bu baxımdan qadınlar təbliğat xatirinə onlardan istifadə olunmasından çox narahatdırlar.

Qərb qadınları onlardan hər bir şeyin satılması üçün istifadə olunduğuna görə xəcalət çəkirlər."[1]

Buna görə də qadınların çoxu bu fikirdədir ki, "Qərb cəmiyyətlərində qadın ucuz mal olduğu üçün bir əldən başqa ələ ötürülür!"[2]

### *Qadınların gündən-günə artan təhlükəli vəziyyəti*

Qərbin mütərəqqi ölkələrində kobud təcavüz məsələsi o qədər artmışdır ki, psixoloq xanımlardan biri aparılmış hesablamalara görə "Siyasi psixologiya" adlı jurnalda bildirmişdir: "Kanadalı və amerikalı tələbələrdən soruşmuşdular: Siz hansı şəraitdə kobud təcavüzə hazırsınız? Kanadalı tələbələrin 60%-i demişdilər: Polisin əlindən qaçdığımız zaman hazırıq. O sonra soruşmuşdu: Siz Allah, indi deyin görüm, belə bir şəraitdə və cəmiyyətdə – gənc qadınların 60%-nin kobud təcavüzü gözlədikləri bir vaxtda qadınlar nə qədər ictimai təhlükəsizliyə malikdirlər?"[3]

Artıq belə bir şərait yaranmışdır ki, mötəbər statistikaya əsasən, Amerika Birləşmiş Ştatlarında hər iki qadından biri yaşadığı müddətdə alkoqol və narkotik maddələr məsrəf edən qrupların təcavüz və hədələrinə məruz qalmışdır.[4]

Bu vəziyyətdə ildə dörd yüz mindən çox iyirmi yaşdan aşağı qadında uşaqsalma halı baş verir ki, əksəriyyəti Amerikanın evlənməyən qızlarıdır və bu qızların 70%-i kobud, avara adamların və ya qrupların cinsi həmlələrini sınamalı olurlar."[5]

---

[1] Doktor Mariya Dulder, fransalı yeni müsəlman, "Hüzur" jurnalı, №15 1375-ci ilin, baharı

[2] Fatimə Şmit, almaniyalı yeni müsəlman, Süsən Səfaverdinin "Qaranlıqda dirçəliş" kitabından səh.24

[3] Doktor Mahmud Qolzari, Namaz və tərbiyə (məruzələr məcmuəsi), səh.75

[4] Vilson və əməkdaşlar, Mamalıq və qadınların xəstəlikləri, Dariyuş Kaziminin tərcüməsi, səh.95

[5] Nelson, Uşaqların tibbi müalicəsinin əsasları, səh.233 və 234

Toni Bleyer hökumətində (İngiltərə) qadın məsələləri üzrə nazir Barons Li ingilis qadınlarını şiddətli təhlükəyə salan və gündən-günə artan təhlükəsizliyə toxunaraq bildirmişdir ki, il ərzində Uels və İngiltərənin Şotlandiyadan ayrı mərkəzi bölgəsində yaşayan üç yüz mindən çox qadın cinsi zorakılığa məruz qalır." Nazirin dediyinə görə, qadınların çoxu küçələrdə həmlə və təcavüzə məruz qalma qorxusundan evdən bayıra çıxmaq istəmirlər."

Yuxarıdakı xəbəri dərc edən "Tayms London" qəzetinin məlumatına əsasən, qadın məsələləri üzrə nazirin təqdim etdiyi məlumatı rəsmi statistika ilə müqayisə etdikdə rəsmi statistikada hücuma məruz qalan qadınların sayı 25300 (iyirmi beş min üç yüz) nəfər hesablanmışdır.[1]

Eyni zamanda iki universitet tədqiqatçısı geniş bir araşdırmanın nəticələrini nəşr etməklə bildirmişlər: "Kişilərin qadınlara qarşı zorakılığına səbəb olan ən mühüm amillərdən biri Qərb qadınlarının xüsusi geyim formasıdır"[2] ki, bu da Qərb cəmiyyətlərindəki hədsiz azadlıqların nəticəsidir.

Hər halda bu bir həqiqətdir ki, Qərb qadınlarının ilkin hüquqları Qərbin apardığı təbliğatın əksinə olaraq aradan getmişdir. Bu aydındır ki, Qərb mədəniyyətində əxlaqi nisbilik və insanın özünə arxalandığı nailiyyətlərin sayəsində Qərbdə qadınların heç bir təhlükəsizliyi yoxdur. Statistikaya görə Amerika qadınlarının 42%-i həmkarlarının narahatlığına səbəb olmuşlar, onların çoxu da işi itirmək qorxusundan gerçəkliyi demirlər.[3] Almaniyada isə işləyən qadınların 72%-dən çoxu cinsi zorakılığa məruz qalırlar.[4]

### *Uşaqlardan geniş sui-istifadə*

Qərbin başlı-başına buraxılmış və heyvani təbiətlərinin doymayan iştahasının artması, vaxtilə bəşəriyyətin ağlına gətirə bilmədiyi qeyri-qanuni əlaqə rüsvayçılığı, uşaqlara cinsi əziyyət

---

[1] "Resalət" qəzeti, 3/12/1378

[2] Həmin yerdə

[3] Doktor Mariya Dolder, fransalı yeni müsəlman, "Hüzur" jurnalı, 1375-ci ilin baharı, №15

[4] Almaniyanın televiziya proqramı (Monoliza), 1992-ci ilin noyabr ayı.

verilməsi və ailə ocağının dağılması kimi ləkələr müasir əsr insanının taleyinə yazılmışdır.

İranın görkəmli psixoloqu yuxarıdakı gerçəkliyin bəzi məqamlarını açıqlayarkən bu fikri bəyan etmişdir: "Qərblilər sapınmalar məsələsində həqiqətən də çıxılmaz vəziyyətlə üzləşmişlər və orada bu məsələnin onlar üçün adi olduğunu demək lazım deyil. O, Qərbdə insaniyyətin tənəzzülə uğramasının bariz dəlilləri və digər əxlaqi faciələrə toxunaraq demişdir:

"Son illərdə uşaqlara əziyyət verilməsi və onlardan sui-istifadə məsələsi çox ciddi bir mövzuya çevrilmişdir. Keçən il Kanadanın Mekgil Universitetinə getmişdim. Yalnız 1990-cı ildə orada uşaqlardan sui-istifadə haqqında 30-dan çox kitab nəşr olunmuşdu. Sui-istifadəçilərin çoxunun da əsasən tanışlar və ailə üzvlərindən olduğu qeyd olunmuşdur"[1]

Bu gün Qərb cəmiyyətlərinin vətəndaşları ciddi şəkildə uşaqlardan cinsi sui-istifadənin təəssüfləndirici hadisəsi ilə (hətta öz qohumları tərəfindən) üzləşmişlər.

Məlumata əsasən, İtaliyada keçirilən cinsi işlər üzrə həkimlərin Avropa konqresində bildirilmişdir: Fransa qızlarının qohumları və yaxınları ilə cinsi münasibətləri mürəkkəb məsələyə çevrilir və tədricən belə halların sayı artmaqdadır. Atalarının cinsi zorakılığının qurbanı olan qızlar isə 32%-i, yəni yoxlanmış qızların əksər hissəsini təşkil edirlər."[2]

"ABŞ-da təqdim olunmuş statistik məlumata əsasən, bir milyon yeniyetmə həddi-büluğa çatanda evdən qaçırlar ki, qızların 2/3-nin evdən qaçma səbəbi ailə mühitində cinsi əziyyətlərdən qurtuluşdur."[3]

Almaniya televiziya kanalının məlumatına əsasən, öz ailələrində zorakılığa məruz qalan uşaqların dəhşətli vəziyyətinə kömək üçün təşkil olunmuş ikigünlük seminarda bildirilmişdir ki, ildə üç yüz min qız və oğlan uşağı ataları, yaxud digər kişi qohumları tərəfindən zorakılığa məruz qalırlar."[4]

---

[1] Doktor Mahmud Qolzari, Namaz və tərbiyə, səh.74
[2] "Ebrar" qəzeti, 8/7/1371, "Cümhuri-ye Eslami" agentliyi
[3] Nelson, Uşaqların tibbi müalicəsinin əsasları, səh.375
[4] "Keyhan-e həvayi", 28/9/1370, "Qərbdə insan cəhənnəmin yeddinci qatına kimi süqut etmişdir" məqaləsi

Həmçinin Avstriyanın Linz şəhərində ailə problemlərinin araşdırılması ilə bağlı keçirilmiş toplantıya təqdim olunmuş hesablamalara görə bildirilmişdir: "İldə üç yüz min avstriyalı qadın və qız öz yaxın ailə üzvlərinin zorakılığına məruz qalırlar. Avstriya ailə məsələləri üzrə nazirliyin hüquq şöbəsinin müdiri və ailələri himayə qrupunun fəallarından biri Henrine xanım Taber demişdir: "Bu ölkədə ildə 10-20 min uşaq kobudluq və sui-istifadənin qurbanı olurlar.

Avstriyanın 16 yaşdan aşağı qız uşaqlarının 1/4-i və oğlan uşaqlarının 1/8-i zorakılıq və cinsi sui-istifadəyə məruz qalırlar."[1]

Həmçinin Avstriyanın ədliyyə naziri Nikolas Meyxok bildirmişdir ki, son bir neçə il ərzində uşaqlardan cinsi sui-istifadə ilə bağlı şikayətlər iki dəfə artmışdır və kiçik yaşlı qızların 1/4-i cinsi sui-istifadəyə məruz qalırlar.

O sonra açıqlamışdır: "Cinsi cinayətlərin qurbanı olan uşaqların sayı ildə 25 min nəfərə yüksəlir."[2]

### *Qərb turistlərinin pis məqsədlərlə səfəri*

Qeyd olunan rüsvayçılıq prosesi o qədər genişlənmişdir ki, uşaqları himayə cəmiyyətinin üzvlərindən biri Krista Dameron bununla bağlı mövcud nigarançılıqları açıqlayaraq bildirmişdir:

"Cəmiyyət alman turistlərinin uşaqlardan cinsi sui-istifadəsi işinin qarşısını almaq üçün Almaniya hökumətindən ciddi mübarizə aparılmasını tələb etmişdir."[3] Cəmiyyətin verdiyi məlumata əsasən, "ildə iki yüz – dörd yüz alman turisti uşaqlardan cinsi sui-istifadə məqsədilə başqa ölkələrə yollanırlar!"[4]

### *Sivilizasiyalı Avropada uşaqların bərabərhüquqlu mübadiləsi*

Bu barədə olan başqa bir məlumatda isə oxuyuruq ki, Avropanın mərkəzində yerləşən Fransanın Moluz şəhərinin

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 30/8/1377, "Cümhuri-ye Eslami" agentliyi

[2] "Sübh" jurnalı, №80, 1377-ci ilin fərvərdin ayı

[3] "Keyhan" qəzeti, 12/6/1375, Almaniyanın Uznaberk şəhərində çap olunan "Sayntuq" qəzetindən

[4] "Keyhan" qəzeti, 12/6/1375, Almaniyanın Uznaberk şəhərində çap olunan "Sayntuq" qəzetindən

müfəttişlərinin rəhbəri Jermen Sanzelmen jurnalistlərin suallarını cavablandırarkən Fransa və Avropada uşaqlardan cinsi sui-istifadə məsələlərinə toxunaraq demişdir: "Qərbi Avropada 1-3 milyon pedofil (pedophiles)[1] mövcuddur ki, əsasən cəmiyyətin çox yüksək təbəqələrindəndirlər!"

O sonra əlavə etmişdir ki, Avropa vətəndaşlarının bir qrupu öz övladları və yaxınlarından sui-istifadə edirlər. Əlbəttə, uşaqların bərabərhüquqlu mübadiləsi də mövcuddur. Valideynlər övladlarını cinsi sui-istifadələr üçün mübadilə edirlər. Bu mübadilə daha çox ev kompüter terminalları şəbəkəsi vasitəsilə təşkil olunur.

O bu fikri də vurğulamışdır ki, "indi italiyalı bir müfəttiş Roma ilə Brüssel arasında uşaqların qaçaqçılığı sahəsində tədqiqat aparır. Bu araşdırmada elə məsələlər aydınlaşır ki, inkişaf etmiş sənaye ölkələrində əxlaqi tənəzzülün genişliyi və faciənin dərinliyi burada büsbütün öz əksini tapmışdır.

"Uşaqlarla münasibətdə cinsi sapınmalardan pərdəni götürmək çox çətin bir işdir. Çünki aidiyyəti olan fərdlərin əksəriyyəti yüksək ictimai təbəqələrdən, habelə iqtisadi və siyasi təşkilat rəhbərlərindəndir."

Onlar tam gizli şəraitdə bu işə əl atırlar. Onların arasında sənaye müəssisələri sahiblərini, cərrahları, siyasətçiləri, redaktorları, həkimləri, polisləri, hakimləri, orta məktəb müəllimlərini, universitet müəllimlərini və hətta keşişləri də görmək olar."

O açıqlamışdır: "Belə qapalı mühitdə tədqiqat aparmaq üçün böyük çətinliklərimiz vardır və ona görə də daha az nəticə əldə edirik."[1]

**Belçika: bir xarvar yumruq**. Uşaqlardan geniş şəkildə cinsi sui-istifadə və aldatma şəbəkələrinin təşkili, Qərb ölkələrində onlardan cinsi faydalanma və bu kobudluqlarda siyasi və təhlükəsizlik xidmətində çalışan şəxsiyyətlərin izləri böyük ictimai həssaslıqlara səbəb olmuşdur.

---

[1] Uşaqlara qarşı cinsi sapınmaya mübtəla olan fərdlər, "pedo" uşaq və "philes" sevmək mənasındadır və uşaqlardan cinsi sui-istifadəyə aid edilir.

[1] "Sürüş" jurnalı, №601, səh.18, Fransa mətbuatından götürülüb

"Təxminən 1988-ci ildə Belçika mətbuatı ölkədə kiçikyaşlı uşaqları aldatma şəbəkələrinin aşkar edilməsi və əsasən 12 yaşdan aşağı oğlan uşaqlarından cinsi əlaqə məqsədilə istifadə olunmasına dair xəbər çap olunmuşdur. Xəbərdən məlum olur ki, uşaqlar öz valideynləri tərəfindən bu şəbəkələrə satılmışdılar!"

Belçika mətbuatının yazdığına görə, bu xəbərlərdən sonra altı-səkkiz aylıq bir qız uşağına öz ailəsinin kişiləri tərəfindən zorakılıq edilməsi barədə yayılan məlumat bu barədə nəşr olunan ən dəhşətli xəbər idi.

Qeyd olunmuş şəbəkələrin yoxlanılması zamanı əksəriyyəti oğlan olan on yaşından aşağı uşaqların minlərlə lüt şəkilləri müfəttişlərin əlinə keçmişdir.

Məsələ o zaman daha da kəskinləşir ki, bu qovluqlarda Belçika ölkəsinin hüquq və təhlükəsizlik xidməti məsullarının izləri aşkarlanır.

İctimai işlər və cinsi cinayətlər məsələləri üzrə mütəxəssislər əmindirlər ki, kiçikyaşlı uşaqları aldatma şəbəkəsinin Belçikadan başqa, Hollandiya, İsveçrə və İngiltərədə də şöbələri vardır."[1]

Yuxarıdakı məlumatların ictimaiyyətə çatdırılmasından bir-neçə il sonra başqa xəbərlər də yayılmışdı ki, burada bir tərəfdən Qərb cəmiyyətlərində, xüsusilə Belçikada qeyd olunmuş kobudluqların sürətli inkişafı prosesinin davam etməsindən bəhs olunmuş, digər tərəfdən bu ölkələrin hakim təbəqələrinin bəzisinə əxlaqi bayağılıq və pozğunluq damğası vurulmuş və onların belə artan problemlərin həllində acizliyi göstərilmişdir.

"Röyter" agentliyinin məlumatına əsasən, 1997-ci ildə yüz minlərlə belçikalı və qonşu ölkələrdən onların dərdlərinə şərik olanlar bu ölkənin ən böyük tarixi yürüşünü keçirdilər. Bu yürüşün keçirilməsində məqsəd Belçikada uşaqların girov götürülməsi, qətli və təcavüzü hadisəsindən sonra, xüsusilə, Belçika məhkəmə və dövlət orqanlarının yeniyetmələrdən cinsi

---

[1] "Cəvanan" jurnalı, 23/6/1366

sui-istifadə məsələsinə yanaşma üsuluna ümidsizliyin ifadə edilməsi və bir-neçə yeniyetmə qız uşağının öldürülməsidir."[1]

**Qərbdə cinsi dəlilik**. İngilis həkimi Patrik Dikson da özünün "The trutn about aids" adlı yeni kitabında Qərbdə uşaqlardan cinsi sui-istifadə hallarına toxunaraq Qərb dünyasının cari əxlaqi bayağılığından nümunələri təqdim etmişdir:

"...Nyu-York şəhərində xüsusi psixoloji klinika təsis edən və orada yüz uşağı nəzarətdə saxlayan bir şəxs həmin uşaqlara zorakılıqda ittiham olunandan sonra İsrailə qaçmışdır. Təəssüf ki, həmin uşaqların 1/3-i QİÇS-ə tutulmuşdur."

O, "London şəhərində uşaqların fahişəliyi böyük bir narahatçılıqdır" fikrini açıqlayaraq demişdir:

"Bir professor son zamanlar Londonun tədris xəstəxanasında gizlin şəkildə uşaqların bayağı təsvirləri və jurnallarının hazırlanması ticarəti ilə məşğul olduğundan istefa vermişdir."

Doktor Dikson daha sonra bu kitabda açıqlamışdır:

"Təəssüflər olsun ki, Qərbdə uşaqlara dəlicəsinə cinsi zorakılıq artmaqdadır. İnam və əxlaqi əsasların məhvi və əxlaqi pozğunluqların genişlənməsi nəticəsində uşaqların çoxu öz yaxınları tərəfindən zorakılığa məruz qalırlar və məhvə doğru sürüklənirlər."[1]

### *Çirkin həmcinsbazlığın geniş yayılması*

Qərb ölkələri və onların qanunverici orqanları həmcinsbazlığa bəraət qazandıraraq onu qanuniləşdirməklə Qərbin əxlaq və mənəvi dəyərlərinin tənəzzülünü daha da sürətləndirdilər.

Amerika prezidentlərindən biri vaxtilə həmcinsbazların yığıncaqlarında rəsmi iştirak etməklə yanaşı, hökumət orqanlarının onları dəstəklədiyini elan etmişdir.

Aparılmış tədqiqatlara əsasən, Qərb cəmiyyətlərinin, xüsusilə Kanadanın əsas problemlərindən biri cinsi sapınma,

---

[1] "Keyhan" qəzeti, 30/7/1375, "Röyter" agentliyindən götürülüb

[1]Doktor Əbülfəzl Dərvije, "QİÇS və Qərbdə əxlaq böhranının kökünün tapılması", səh.21, 45 və 46

yaxud həmcinsbazlıqdır ki, əksər qadın və kişilər onunla üzləşirlər.

Həmcinsbaz nümayəndə və nazirlərin mövcudluğu və onlar haqqında xüsusi qəzet və jurnallar vasitəsilə məlumatların yayılması həmcinsbazlığa rəsmi don geyindirmişdir. Həmçinin onlar tərəfindən mühüm ictimai fəaliyyətlər, xüsusilə ailə qurmaq, varislik hüququ, ictimai təminat xidmətlərindən istifadə hüququ və sairə həyata keçirilmişdir.

Bu tədqiqata əsasən, Kanadada indiki dövrdə Kvebek ştatında ən mühüm iqtisadi qüvvələrdən biri olan Monreal bank idarəsi öz işçilərinə bütün ictimai hüquq və imtiyazları verməklə həmcinsbazlığı rəsmən tanımışdır.[1]

Bu tədqiqat həmçinin göstərir ki, "təkcə dövlət idarələrindən birində həmcinsbazların sayı 30000 nəfərə çatır! Bu rəqəm çox böyükdür və idarədə ən böyük mütəhərrik qrup birliyini təşkil edir.[2]

### *İngiltərənin baş naziri və həmcinsbaz nazirlər*

Qərbdə həmcinsbazlığın biabırçı təzahürünün genişlənməsi ilə onlar tədricən öz siyasi mövqelərini möhkəmləndirməyə və zahirən sivilizasiyalı ölkələrdə həssas postları tutmağa başlamışdılar. Belə ki, Zimbabve prezidenti Robert Moqabe Cənubi Afrika Millətlər Birliyi ölkələri başçılarının konfransında çıxışı edərkən İngiltərənin baş naziri Toni Bleyerə qarşı öz kəskin fikrini bildirərək "Bleyer həmcinsbazlar təşkilatını [dövlət orqanı] idarə edir demişdir."[3]

Moqabenin bu sözləri həqiqətən də Toni Bleyer hökumətində üç həmcinsbaz nazirin mövcudluğuna bir işarədir. İngiltərə dövlətində Şimali İrlandiyanın [xarici] işlər naziri Piter Mendelson, bu ölkənin mədəniyyət, informasiya vasitələri və idman naziri Kris Smit və kənd təsərrüfatı naziri Nik Braun

---

[1] Camalut-Tahir, "Kanadada müsəlman", Vasili və İbrahimin tərcüməsi, "İslam və Qərb" jurnalı, Xarici işlər nazirliyinin tədqiqat idarəsi, 1377-ci ilin mehr və aban ayları.

[2] Camalut-Tahir, "Kanadada müsəlman", Vasili və İbrahimin tərcüməsi, "İslam və Qərb" jurnalı, Xarici işlər nazirliyinin tədqiqat idarəsi, 1377-ci ilin mehr və aban ayları.

[3] "Keyhan" qəzeti, 23/8/1378, "Cümhuri-ye Eslami" agentliyindən

həmcinsbazdırlar. İngiltərə dövlətində Uelsin keçmiş [xarici] işlər naziri Ran Dvis də bir neçə ay əvvəl əxlaqi rüsvayçılığa görə istefa verməyə məcbur olmuşdur. O, Toni Bleyer hökumətinin dördüncü həmcinsbaz üzvü sayılırdı."[1]

### *Ailənin əsasının dağılması*

Ailə insanın tənhalıq, guşənişinlik, müxtəlif sapınmalara qarşı möhkəm müdafiə qalası, təbii ehtiyacların, məhəbbət və mənəvi istəklərin ödənməsi və insan nəslinin qorunması üçün Allah-Təalanın bəxş etdiyi əvəzsiz nemətdir. Şübhəsiz, ailə əsasının sağlamlığı cəmiyyəti ehtimal edilən fəlakətlərdən qoruya bilər. Amma Qərb dünyası liberalizmin nisbi mahiyyət kəsb edən mədəniyyətinin təlimləri sayəsində ailənin əsasının dağılması, onun müsbət təsirlərindən və faydalarından məhrumluğun şahididir.

Bu barədə müsəlmanların rəhbəri Həzrət Ayətullah Xamenei açıqlamışdır:

"Qərb həyatı çirkin və pozğun bir həyatdır ki, onda bəşəriyyətin mühüm əsaslarından heç biri – ailə, insanın şəxsiyyəti sağlam qalmır və bu Amerika, Avropa əhalisinin əziyyət çəkdiyi bir şeydir."[2]

Şübhəsiz, "Qərbin yeni yaşayış üsulu bu cəmiyyətin parçalanmasının göstəricisidir." Bu parçalanmanın göstəricilərindən bəzisini ailənin dağılması, kişi və qadının bir-birinə münasibətdə vəzifələrini itirməsi və nəhayət, əxlaqi, mənəvi, hətta ictimai və siyasi dəyərlərin"[3] puç olmasında müşahidə etmək mümkündür.

Buna görə də çoxlarının əqidəsi belədir ki, müasir cəmiyyətin vəhdət və qohumluğu qorumaq üçün diqqət etməli olduğu ən vacib məsələ ailə ocağının qorunması və onunla bağlı dəyərlərin yüksəldilməsidir."[4]

Qərbdə ailə quruluşunun dağılma əlamətlərinin müşahidə olunması bu gün onun azdırıcı geniş təbliğatını və qərbpərəst

---

[1] "Keyhan" qəzeti, 23/8/1378, "Cümhuri-ye Eslami" agentliyindən
[2] Seyyid Hüseyn Nəsr. Müsəlman və müasir dünya, səh.239
[3] Seyyid Hüseyn Nəsr. Müsəlman və müasir dünya, səh.239
[4] Seyyid Əli Əsğər Kazimi, Müasir cəmiyyətin böhranı, səh.165

ziyalılarını (onlar Qərb mədəniyyətini mütləq şəkildə bəyənirlər) daha çox etibarsız etmişdir.

Çünki cavanlarının əksəriyyətini qeyri-qanuni uşaqlar təşkil edən, idarələrini boşanmış qadınlar həyata keçirən, uşaq evləri evdən qaçmış qızlarla dolu olan, barları zorakılığa məruz qalmış qızların pənahgahına çevrilən, kafeləri həmcinsbazlar, oğrular, narkomanlar və pozğunların görüş yeri olan bir mədəniyyət mütərəqqi, inkişaf etmiş mədəniyyət adlanmağa layiq deyil.[1]

### *Qərblilərin ailə ocağının dağılmasından fəryadı*

Qərb cəmiyyətlərində əxlaqi dəyərlər və dini təlimlərə tabe olmamaq nəticəsində ailələrdə yaranmış dəhşətli vəziyyət yerli alim və mütəfəkkirlərin kəskin etirazına səbəb olmuşdur. Ustad Şəhid Murtəza Mütəhhəri bu fikri açıqlayaraq buyurmuşdur:

"XX əsrin sonuncu rübündə yaşadığımız bir vaxtda Qərb mütəfəkkirlərinin ailə quruluşunun dağılması, nikahın əsasının süstləşməsi, cavanların nikah məsuliyyətini qəbul etməkdən boyun qaçırması, anaya nifrət, ata və ananın məhəbbətinin azalması, xüsusilə ananın övladlarına məhəbbətinin azalması, bugünkü dünya qadınının bayağılığı, eşqin yerini səthi həvəslərin tutması, boşanmanın artması, qeyri-qanuni övladların baş gicəlləndirici çoxluğu, ər-arvad arasında vəhdət və səmimiliyin azalması ilə bağlı fəryad səsləri eşidilir."[2]

### *Ailələrin hörmətdən salınması*

Fransanın məşhur filosof, elm və mədəniyyət xadimi Jan Gyuten öz müsahibəsində etiraf etmişdir ki, "Qərb cəmiyyətinin bünövrəsi çürüməkdədir və mən bunu yaxşıca hiss edirəm." O bu gerçəkliyin səbəblərini şərh edərkən demişdir ki, ailənin əsası dağılmışdır və artıq heç kəs evlənmək istəmir. Ailə hörmətsiz olmuş, sevgi münasibətləri çox azalmışdır.

Gyuten nəticə olaraq demişdir:

---

[1] Seyyid Əli Əsğər Kazimi, Müasir cəmiyyətin böhranı, səh.165

[2] İslamda qadın hüququ sistemi, səh.36, 37

"Qərb aradan getmək halındadır və mən inanıram ki, gələcək Şərqə məxsusdur."[1]

Məşhur alman filosofu Hans Georg Qadamr (1902-ci ildə anadan olub) da İtaliyanın "Estanpa" jurnalına verdiyi müsahibəsində Qərb mədəniyyətində ailə ocağının dağılmasını açıqlayaraq demişdir:

"Çox təəssüflər olsun ki, Qərb modernizmi ailə əsasının dağılması istiqamətində addım atmış, sənaye cəmiyyəti bütün təbəqələrdə ənənəvi ailənin qüvvələrini zəiflətmişdir."[2]

"Vaşinqton tayms" qəzetinin yazarı və təhlilçisi Cevis Brays da Amerikada ailənin dağılması haqqında xüsusi məlumat təqdim edərək yazmışdır:

"Ata və anadan təşkil olunmuş ailələrin sayının azalması ilə Amerika Birləşmiş Ştatlarında məhvə doğru proses başlamışdır."[3]

Almaniyanın Köln kilsəsinin baş yepiskopu Yuvaxim Maynser də alman cəmiyyətinin əxlaqi tənəzzülünü etiraf edərək bu fikri açıqlamışdır: " Almanların keçmişdə bugünkü əxlaqi tənəzzülə düçar olmaları məlum deyil." O demişdir: "Almaniya əhalisi başlarına hansı bəlanın gəldiyini bilirlərmi?!

Alman milləti indi ata-anasız və övladsız bir cəmiyyətin nə olduğunu başa düşmüşdür."[4]

Görkəmli fransız sosioloqu və Fransa kollecinin yetmiş yaşlı müəllimi Pyero Bordo İspaniyanın "El-mond" qəzetinə verdiyi müsahibəsində Qərb dünyasını bürüyən böyük böhranlardan söz açaraq demişdir: "Qərbdə ailə münasibətləri tamamilə dəyişikliyə məruz qalmışdır və hər dəfə dağılan ailələrin sayı artır."[5]

**Ailə quruluşunun dağılmasının xoşagəlməz nəticələri**. Qərb cəmiyyətlərində ailə quruluşunun dağılması mütərəqqi və modern cəmiyyətlərdə çoxlu nizamsızlıqların yaranmasına gətirib çıxarmışdır. Bu baxımdan boşanma hallarının artmasını,

---

[1] "Keyhan-e fərhəngi"yə müsahibəsində, 1373-cü ilin mordad ayı, səh.7
[2] "Səf" jurnalı, 1375-ci ilin şəhrivər ayı, №196
[3] "Cümhuri-ye Eslami" qəzeti, 14/12/1372 "Cümhuri-ye Eslami" agentliyi
[4] "Sübh" jurnalı, №80, 1377-ci ilin fərvərdin ayı, Almaniyanın "Zud Deviçe Saytunq" qəzetindən
[5] "Keyhan" qəzeti, 16/4/1379

evlənmənin xeyli azalmasını, təkvalideynli övladların və himayəsiz körpələrin çoxalmasını, uşaqlara qarşı kobud hərəkətləri, avara cavan və yeniyetmələrin artmasını, yaşlılara etinasızlığı, onların gündən-günə artan tənhalıq böhranını və sairəni qeyd etmək olar.

### *Boşanma hallarının artması*

Təəssüfləndirici bir məlumatda oxuyuruq: "İtaliya Statistika Mərkəzinin və Avstriyanın Market liter institutunun məlumatına əsasən, təkcə 1993-cü ildə İngiltərədə 170000 boşanma rəsmi surətdə qeyd olunmuşdur. Bu elə bir dövrdə baş verir ki, İngiltərə cəmiyyətində qeyri-rəsmi izdivaclara və həmcinsbazların izdivacının qanuniləşdirilməsinə daha çox təsadüf olunur."

Həmin məlumata əsasən, 1993-cü ildə Fransada evlənmənin sayı yarıbayarı azalmış, boşanma isə əvvəlki illərlə müqayisədə üç dəfə artmışdır. Avstriyada ər-arvadın 1/3-i, İtaliyada 1/4-i bir-birindən ayrılırlar.[1]

Həmçinin, İsveçrə Federal Statistika İdarəsinin məlumatına əsasən, ölkədə qeydiyyatdan keçmiş hər on izdivacdan dördü boşanma ilə nəticələnir.[2]

### *Təkvalideynli, ya himayəsiz uşaqların artması*

Avropa Cəmiyyətini Müşahidə Şurasının direktoru Jerar Kalunun məlumatına görə, Avropa ölkələrinin çoxunda evlənmənin sayı əvvəlki kimi azalır. Belə ki, Avropanın şimal ölkələrində evlənmə yaşına çatan qadınların yarıdan bir az çoxu bu işə razılaşırlar. Halbuki bir neçə il əvvəl onların 90%-i evlənirdilər. Avropanın cənub ölkələrində də evlənmənin sayı azalmışdır. Bunun əksinə olaraq nikahsız doğulan uşaqların sayı, xüsusilə, Avropanın şimal ölkələrində artmışdır. Bu İslandiyada doğulanların 2/3-ni, Danimarka və Norveçdə 50%-ni, Fransada 40%-ni təşkil edir."[3]

---

[1] "Keyhan" qəzeti, 16/4/1379
[2] "Qüds" qəzeti, 15/5/1377
[3] "Keyhan" qəzeti, 8/9/1378

İngiltərə Statistika Mərkəzinin apardığı tədqiqatların nəticələrinə əsasən, ictimai tədqiqatçı və travmatoloqların araşdırmaları göstərir ki, Avropada 1993-cü ilin ilk üç ayında dünyaya gələn uşaqların 31%-nin atası məlum deyil.[1]

Almaniya Bilferd Universitetinin təlim-tərbiyə işləri üzrə mütəxəssisi Hurelmen bu ölkədə qeyd olunan problemin mövcudluğuna işarə edərək bildirmişdir: "Almaniyada uşaqların 1/5-nin ata və anası məlum deyil.[2]

Amerikanın Hertic təşkilatının üzvü Pot Fokan uşaqlar arasında əxlaq pozğunluğu hallarının mövcud olduğunu vurğulayaraq bu gerçəkliyi aydınlaşdırmışdır ki, "cinsi və spirtli içkilərdən sui-istifadə, ümumiyyətlə, bizim mədəniyyətimizdə eşq məfhumun dərkinin azalması ilə nəticələnmişdir. O demişdir:

"1959-cu ildə doğulan hər yüz uşaqdan on ikisi ya boşanmışların uşağı olurdu, ya da qeyri-qanuni, arzuolunmaz uşaqlar olurdu. Amma 1992-ci ildə bu rəqəm dörd dəfə artmışdır. Əgər uşaqsalmanı da bu hesaba daxil etsək, bu rəqəm 92%-ə çatmışdır."[3]

Doktor Antuan Sanders bu barədə yazmışdır:

"Amerikada 1990-cı ildə 18 yaşdan aşağı olan uşaqların 1/4-dən çoxu ya bir valideyni ilə, ya da heç biri ilə yaşamırlar."[4]

"Fransada keçən on il ərzində anaları tərəfindən atılan körpələrin sayı üç dəfə artmışdır."[5]

***Uşaqların münasib inkişaf və tərbiyə mühitindən məhrumluğu***

Ailə əsasının dağılması, cavan və yeniyetmələrin böyük hissəsinin lazımi tərbiyə mühitindən məhrum olması, sevgi münasibətlərinin aradan getməsi nəticəsində Qərbdə uşaq və yeniyetmələrdə ruhi gərginlik hallarının artması baş vermişdir.

---

[1] "Keyhan" qəzeti, 20/4/1373

[2] Həmin yerdə, 10/3/1371, "Cümhuri-ye Eslami" agentliyi

[3] "Sübh" nəşriyyatı, 1376-cı ilin tir ayı, "Vaşinqton Tayms"dan götürülüb, Xarici mətbuat idarəsinin tərcüməsi

[4] "Səlam" qəzeti, 21/5/1370, "Plin Trata" nəşriyyatından götürülüb

[5] "Sübh" nəşriyyatı, №89, 1377-ci ilin bəhmən ayı

Fransız jurnallarından birinin verdiyi məlumatına əsasən, bu ölkədə gündə iki uşaq ana və atalarının pis rəftarına görə canlarını tapşırırlar.[1]

İngiltərədə bir uşaq psixoloqu bəyan etmişdir ki, "İngilis uşaqlarının 1/4-i onları kobud rəftarlara sövq edən dözülməz təzyiqlər altında yaşayırlar. O bu problemin kökünü araşdıraraq demişdir:

"Keçmişə nisbətən daha az sabit olan bugünkü yaşayış mühiti, dağılmış ailələr və boşanma hallarının çoxalması uşaqlar arasında ruhi narahatlıqları artırmışdır."[2]

Amerikada boşanmışların övladları, birvalideynli və himayəsiz uşaqlar "öz ailə mühitlərində heç bir əxlaqi tərbiyə görmürlər. Ancaq istisnalar da var, bəzi analar öz vəzifələrini çox yaxşı yerinə yetirirlər. Amma onların çoxu narkotik maddələrdən istifadəyə aludədirlər. Buna görə də hər bir şey dağılmışdır, uşaqlar kobudluq və mənfi təsirləri özləri üçün örnək hesab edirlər."[3]

### *Yaşlıların gündən-günə artan tənhalığı*

Qərb ölkələrində ailə əsasının dağılmasının bədbəxt nəticələri digər təbəqələr kimi yaşlıları da əhatə etmiş və onları əvvəlkindən daha çox tənhalıq guşəsinə sürükləmişdir. Almaniya Statistika İdarəsinin məlumatına əsasən, 60 yaşdan yuxarı qoca və təqaüdçülərin 32%-i ailədən uzaq, tənha yaşayırlar. Ümumiyyətlə, bu ölkədə tənha yaşayan 12 milyon nəfərdən 5, 6 milyonunun yaşı 60-dan yuxarıdır.[4]

Qərb ölkələrində yaşlıların tənhalığı və məhəbbətdən məhrumluğunun nəticələri çox zərərli və əvəziödənilməzdir. Mövcud statistikaya əsasən, bir il ərzində İtaliya qocalarının 1500 nəfəri tənhalıqdan və özlərindən cana doyduqlarına görə intihara əl atırlar.

Neapol Universitetinin müəllimi və intihar məsələləri üzrə tədqiqatçı Paulo Krit İtaliya yaşlılarının Həmkarlar Birliyinin

---

[1]Məhəmməd Hüseyn Fərcad, İctimai travmatologiya və sapınmalar sosiologiyası, səh.223.

[2] "Keyhan" qəzeti, 30/5/1376

[3] "Sübh" nəşriyyatı, 1376-cı ilin tir ayı, №71 "Vaşinqton tayms"

[4] "Cümhuri-ye Eslami" qəzeti, 15/10/1372.

iclasında çıxış edərkən intiharın səbəblərini izah edərək demişdir: "Yaşlılarda bütün intiharların əsasını insani və ictimai münasibətlərin azlığı təşkil edir."[1]

### *Evdən qaçan yeniyetmə və cavanların artması*

Qərbdə ailə ocağının tənəzzülü nəticəsində yeniyetmə və cavanların çoxu kobudluq, işgəncə, hətta öz yaxınları tərəfindən cinsi sui-istifadədən canlarını qurtarmaq üçün böyük və kiçik şəhərlərin küçə və xiyabanlarına pənah aparırlar.

1998-ci ildə Qərb yazıçısı Con Ras Şrud "Plain truth" jurnalının may-iyun sayında çap olunmuş "Theage of moral orphans" adlı məqaləsində Qərbin fərari və avara cavanları məsələsinə toxunaraq yazmışdır:

"Qərbi Avropa cavanlarının yüz mini küçələrdə yaşayır və onların çoxu evdən qaçmışdır."

Şrud eyni zamanda Qərb yaşayış üsulunun bu problemin həllində gücsüzlüyünə işarə edərək yazmışdır: "Bu, mənəvi yetimlər əsrinin nişanəsidir."

O yazmışdır: "İngiltərədə ildə 13-15 min nəfər evdən qaçır. Bu rəqəm Qərbi Almaniyada hər il iyirmi min nəfərə çatır və onlar yaşı 16-dan az olan yeniyetmələrdir. Danimarkanın Kopenhagen şəhərində cavanlara məxsus gecə-gündüz mərkəzləri hər il evdən qaçmış 1500 cavanla məşğul olurlar. Əxlaqsız filmləri hazırlayanlar küçə cavanlarına qarşı ən rəhmsiz adamlardır."

Şrud daha sonra əlavə etmişdir: "Qərbi Avropada evdən qaçan qızların sayı oğlanlardan iki dəfə çoxdur! Qızlar özlərini satmağa cəhd edirlər, ancaq bunun xeyri də dəllalların cibinə axır."[2]

Mövcud məlumatlara əsasən, Almaniyanın Berlin şəhərində 12-21 yaşlı üç min uşaq və gənc küçələrdə yatırlar. Onların işi oğurluqdur, ya da beş marka üçün hətta ölümlə nəticələnən əməllərdir. Bu himayəsiz uşaqların əksəriyyəti cinsi

---

[1] "Ettelaat" qəzeti, 12/12/1368, "Cümhuri-ye Eslami" agentliyi

[2] "Keyhan-e həvayi", 17/8/1368

zorakılığa, işgəncəyə məruz qaldıqlarına və ailə məhəbbəti hiss etmədiklərinə görə öz evlərindən qaçmışlar.[1]

Mötəbər statistikaya əsasən, Amerikada ildə yarısı qızlar olan bir milyondan çox yeniyetmə evindən qaçır və onlar azyaşlı olduqlarına görə işləyə bilmirlər. Buna görə də oğurluq, narkotik maddə mübadiləsi və fahişəliyə üz tuturlar.

Xeyriyyə Cəmiyyətləri Mərkəzində ildə minlərlə kimsəsiz uşağı himayəsinə alan keşiş İres Riter demişdir:

"Öz evlərindən qaçan, ya qovulan yeniyetmələrin 80%-i yaşamaq üçün özlərini satırlar."

O sonra əlavə etmişdir: "Amerikada 17 yaşdan aşağı beş yüz mindən çox yeniyetmə fahişəliklə məşğul olur."[2]

Kanadanın təxminən iki milyon əhalisi olan Monreal şəhərində ildə evdən qovulmuş 30000-dən çox uşaq və yeniyetmə küçə uşaqları adını daşıyırlar."[3]

### ***QİÇS xəstəliyinə tutulanların artması***

Qərbdə qeyri-qanuni və hədsiz-hüdudsuz münasibətlərin genişlənməsi, əxlaqi laqeydsizliyin təhlükəli və əziyyətverici nəticələrindən biri də öldürücü QİÇS xəstəliyidir ki, hər gün Qərb vətəndaşlarının çoxunu ölümün caynağına tərəf sürükləyir.

Qərb yazıçısı və şərhçisi Con Nikend öz məqaləsində bu barədə yazmışdır:

"Amerika Birləşmiş Ştatları, Avropa ölkələrində və dünyanın digər bölgələrində QİÇS-in yayılması bu cəmiyyətlərin münasibətlərində də ciddi təhlükələr yaratmışdır. Minlərlə insan, o cümlədən Amerika aktyoru Rok Hadson kimi məşhur şəxsiyyətlər bu xəstəliyə düçar olmuşlar. İndi Avropa və Amerika ölkələrində müxtəlif yaşlı on altı milyon insan QİÇS virusunun daşıyıcısıdırlar. İngiltərə Səhiyyə Nazirliyi bu xəstəliyin şərhi ilə bağlı 25 milyon məktubu evlərə və müəssisələrə göndərmişdir.

---

[1] "Zud Deviçe Saytunq" alman qəzeti, 19/5/1396

[2] "Keyhan-e həvayi", 28/9/1370, "Sayt Makasini" qəzetindən, №15, 1985-ci ilin noyabr ayı.

[3] Monrealda yerləşən xeyriyyə təşkilatlarından biri tərəfindən təqdim olunmuş statistika, 1995-ci il, Seyyid Əhməd Rəhnəmayi, "Qərbşünaslıq", səh.112

O, sonra əlavə etmişdir: Bu sürünən yırtıcı ilə üzləşmək qorxusu Hollivudun studiyalarına da şirayət etmişdir. Belə ki, məşhur sənətkarlardan bəzisinin bu xəstəliyə tutulmasından sonra bütün qadın və kişi aktyorlar QİÇS virusuna tutulmamaq haqqında şəhadətnamə təqdim etməyə məcbur olmuşlar!

Avropa, Amerika və digər sənaye ölkələri vətəndaşlarının üzləşdikləri yeganə sual budur ki, görəsən onlar bu yoluxucu xəstəlikdən qurtaracaqlarmı və ya sağlamlıq təhlükəsi ilə üzbəüz olan cəmiyyətdə övladlarının gələcəyi necə olacaq?

O öz məqaləsində həmçinin yazmışdır: "Şotlandiya ölkələrində əxlaq qaydalarına ən aşağı səviyyədə riayət olunduğundan bu xəstəliyə tutulma təhlükəsi daha çoxdur. İsveç, Norveç və İsveçrədə bu xəstəliyə tutulanların sayı hər il artmaqdadır."

Bu ölkələrdə böyük şəhərlərin əsas küçələrində plakatlar müşahidə olunur və onların üzərində yazılıb: "Özünüzü QİÇS-dən qoruyun", "Qeyri-qanuni əlaqələrdən çəkinin!" və ya "Ey ailələr, öz övladlarınızı qoruyun!"

Nikend bu öldürücü xəstəliyin yayılmasının əsas səbəblərinin izahında yazmışdır:

"Həkimlər bu ölkələrdə əxlaq qaydalarının aradan getməsi, qeyri-qanuni və sağlam olmayan əlaqələrin yayılması və narkotik maddələrə aludəçiliyi bu zəmində əsas amillər sayırlar."[1]

Mövcud məlumatlardan bəlli olur ki, Amerika Birləşmiş Ştatlarında cəmiyyətin digər sahələri ilə müqayisədə kino sənəti sahəsində çalışanlar üç dəfə çox QİÇS xəstəliyinə tutulmağa məruz qalmışlar. 1985-ci ildən indiyə kimi QİÇS Hollivuddan çoxlarını öz qurbanı etmişdir. Kino sənətinin qorxusuz aktyoru Con Kalinsin dediklərində bir həqiqət vardır: "QİÇS Hollivud günahlarının cəzasıdır."

1985-ci ilin oktyabrında Hadsonun ölümü zəlzələ kimi Hollivudun lyuks təbəqələrində qorxu və heyrət dalğasını hərəkətə gətirdi. Himayəsində altmış min aktyor olan Kino Aktyorları Birliyinin sədri Edalster təklif etdi ki, ilk addımda bütün ssenarilərdən öpüş səhnələri çıxarılsın...

---

[1] "Keyhan" qəzeti, 17/1/1371, "Əl-əsbu əl-ərəbi" qəzetindən

Bu məlumatın sonunda yazılmışdır: 1991-ci ildə yalnız rəsmi statistikaya əsasən, Hollivudda QİÇS-ə tutulma nəticəsində 67 nəfər ölmüşdür. On ildir ki, öldürücü QİÇS xəstəliyi yaradıcı adamlara tərəf atını çapır."[1]

[1] Həmin yerdə, 5/4/1372, "Təsvir dünyası" götürülüb

## DÖRDÜNCÜ FƏSİL:

## İMAM XOMEYNİ (R) ƏSRİ VƏ BÖYÜK İSLAM HƏRƏKATI

## İMAM XOMEYNİ(R) VƏ İSLAM DÜNYASININ DİRÇƏLİŞİ

(هوالذی أرسل رسوله با لهدی ودین الحق لیظهره علی الدین کله ولو کره المشرکون)[1]

Öz imanı, elmi və şücaəti baxımından müqəddəs Qurani-Kərimdən təlim alan dahi şəxsiyyətin rəhbərliyi ilə böyük İslam inqilabının baş verməsi nəticəsində bir daha Allah-Təalanın möminlərin müdafiəsinə əsaslanan haqq və müjdəli vədələri həyata keçdi, parlaq İslam günəşi müasir bəşəriyyətin üzərinə saçdı, müxtəlif sahələrdə bütün müsəlmanların həyatı yeniləşdi və İslam cəmiyyətləri bu hərəkatların yeni doğuluşunu təcrübədən keçirdilər. Belə ki, beynəlxalq analitiklərin açıqlamalarına əsasən, İslam inqilabının təsiri İranın sərhədlərindən kənara çıxmışdır. [Bu inqilab] Orta Şərq və dünyada siyasi və İslam hərəkatları üçün ən böyük ilhamverici mənbə olmuşdur.[1]

İslam şüarlarının yenidən dirçəlişi müsəlmanların, xüsusilə cavan nəslin İslam təfəkkürünə yönəlməsi, İslam ölkələrinin bələdiyyə və məclis seçkilərində islamçıların qələbəsi, dövlətlərin İslam məqsəd və şüarları ilə təşkili, dini təşkilatlarda müsəlmanların kütləvi iştirakı müsəlmanların özünə inam ruhunun təsirlərindən bir hissəsidir ki, Həzrət İmam Xomeyni tərəfindən İslam cəmiyyətlərinə bəxş edildi. Belə ki, dahi rəhbər buyurmuşdur: "Böyük imam bu inqilabla müsəlmanlara sevinc bəxş etdi. İslamı diriltdi və bu gün İslam cavan, təcrübəli nəslin və ziyalıların arzu və amalıdır."[2]

Amma beynəlxalq analitiklərin təəccübünə səbəb olan və mütəfəkkirlərin hər şeydən daha çox diqqətini özünə cəlb edən İslam inqilabının qeyri-müsəlmanlarda, xüsusilə Qərb cəmiyyətlərində yaratdığı geniş və gözlənilməz təsirlərdir.

---

[1] Tövbə(9) surəsi ayə 33: "Xoşuna gəlməsə də bütün dinlərə üstün gəlmək üçün öz Peyğəmbərini hidayətlə və haqq olan dinlə göndərən Odur."

[1] Doktor Marvin Zunis, Amerika Miçiqan Universitetinin müəllimi və İran məsələləri üzrə ekspert, "Resalət" qəzetinə müsahibədə, 17/11/1379

[2] Ayətullah Xameneinin İmamın(r) vəfatının ikinci ildönümündə çıxışı, 14/3/1370

Hər bir ədalətli şərhçi qeyd olunan hadisənin hərtərəfli təhlili və araşdırılmasından sonra dərk edir ki, İmam Xomeyni(r) ali İslam düşüncəsini nəzərdə tutmaqla və bəşəriyyəti ona dəvət etməklə müasir insanın dini-mənəvi həyat tarixində yeni bir fəsil açdı.

### *Dünya əsil İslamın arzusundadır*

Kifayət qədər dəlillər, çoxsaylı sübut və ehtimallar aydın şəkildə göstərdi ki, mənəviyyatsız həyatdan məyus olan indiki insanda həqiqət mənbəyinə qovuşma şövqü böyükdür və mənəviyyat, Allah-Təala axtarışında olan insan istədiyi dəyərli gövhəri yalnız müqəddəs İslam təlimlərində tapa bilər. Bu baxımdan hazırkı əsrin mənəviyyatpərəst və dinçilik cərəyanı mütləq İslamın dünya miqyasında dirçəlişi ilə nəticələnəcək.

İslam inqilabının böyük rəhbəri dünya cəmiyyətinin cari dəyişikliklərini dərindən dərk etmək, müasir əsrin həqiqətaxtaran insanının gerçək istəyini dəqiq öyrənməklə yuxarıdakı gerçəkliyi açıqlayarkən demişdir: "Bu gün dünya əsil İslam mədəniyyətinin arzusundadır."[1]

Belə ki, onun ədalətli və layiqli xələfi də bildirmişdir: "Bugünkü dünya həqiqi İslamı istəyir."[2]

### *İslamın tarixi rolunun sonu fikrinin yanlışlığı*

İmam Xomeyni(r) dövründə İslamın yenidən dirçəlişi və müsəlmanların oyanışı ilə İslamın tədrici düzgünlüyünün isbatına söykənən təhlillər kəskin şəkildə etibardan düşdü. Belə ki, hətta məşhur Qərb siyasətçilərindən biri hazırkı dünyada İslamın çox sürətli inkişafını təsdiq edərək demişdir:

"Alman filosofu Hegel əmin idi ki, tarixi baxımdan İslamın rolu bitmişdir. Amma bu dünya dini haqqında mühakimə səhvdən başqa bir şey deyildi və avropalıların çoxu da Hegelin İslam haqqında yanlış təsəvvürünə düçar olmuşdular."[3]

---

[1] "Nur səhifəsi, c.20, səh.33

[2] İslam Konfransı Təşkilatının təbliğat fəaliyyətini uyğunlaşdırma komitəsinin üzvləri ilə Ayətullah Xameneinin görüşündə, 4/3/1377

[3] Klaus Kinkel (Almaniyanın sabiq xarici işlər naziri), "Qonşu İslam", "Frankfurter elqemaniya" qəzeti, "Cümhuri-ye Eslami" qəzeti, 30/11/1377

Nəzəriyyəçilərdən bəzisinin təhlillərinin əksinə olaraq, İslam dininin həyatının yeniləşməsi ilə onun sürətli inkişafı başlanmışdır. "Ümumiyyətlə, bu inkarolunmaz həqiqətdir ki, bu gün böyük dinlər geriçəkilmə və ya ən azı özlərini müdafiə ilə məşğul olduqları halda, İslam inkişafa üz qoymuşdur.

### *İslam inqilabının yayılma gerçəkliyi*

İran İslam inqilabının qələbəsi İslam məktəbinin bəşəriyyət üçün yenidən nur saçması istiqamətində münasib fəza yaratdı və inqilabın yayılması şüarı da həmin sahədə möhkəmləndi.

Həzrət İmam(r) yuxarıdakı gerçəkliyin təsvirində bu fikri bəyan etmişdir ki, "indi sizin hərəkatınızın yüksəlişi və sizin inqilabınız aləmə yayılmışdır."[1] və "sizin inqilabınız Allaha şükür olsun ki, yayılmışdır, nəinki yayılır."[2] O buyurmuşdur:

"İslam Allaha şükür olsun, bütün dünyada böyük maraq yaratmışdır."[3] "Bilin ki, İslamın şüası İranın mərkəzlərindən bütün dünyaya yayılmışdır."[4] "Bizim inqilabımız yayılmışdır və hər yerdə İslamın adı var və yoxsullar İslama göz dikmişlər."[5]

O başqa bir yerdə vurğulamışdır:

"Bütün dünyada İslam inqilabı əsaslarına inananlar artmaqdadır. İranın cəsur millətinə deyirəm: Allah sizin mənəviyyatınızın təsir və bərəkətlərini dünyaya yaymışdır."[6]

### *İslam dünyasının çiçəklənməsinin etirafı*

İndi informasiya vasitələri, tədqiqat mərkəzləri, görkəmli şəxsiyyətlər, siyasi şərhçilər və dünya dəyişiklikləri üzrə analitiklər dünya İslam hərəkatının təhlil və şərhinə başlamışlar.

Almaniyanın "Frankfurter elqemaniya" qəzeti "İslamın qayıdışı" adlı məqaləsində insan cəmiyyətləri səviyyəsində genişlənmiş islamçılıq dalğalarına işarə edərək yazmışdır:

---

[1] "Nur səhifəsi, c.17, səh.63
[2] Həmin yerdə, c.18, səh.169
[3] Həmin yerdə, c.18, səh.140
[4] "Nur səhifəsi, c.19, səh.195
[5] Həmin yerdə, c.15, səh.200
[6] Həmin yerdə, c.20, səh.233

"Liberalizmdən tutmuş marksizmə kimi Qərb modellərinin məğlubiyyətindən sonra İslam intibahının şahidi olmaq lazımdır."[1]

"Sidney morning Herald" çoxtirajlı qəzeti də 1985-ci il tarixli sayında yazmışdır:

"İslam coğrafi sərhədlərdən keçir, siyasi məktəblər və milli rejimləri arxada qoyur və müxtəlif ölkələr İslamın siyasi hərəkəti və güclü inkişafının şahididirlər."[2]

Amerikanın çoxtamaşaçılı CNN televiziya kanalının müxbiri mübarək Ramazan ayının bitməsi (1374) münasibətilə yarımsaatlıq proqramda açıqlamışdır:

"Bu ilin mübarək ayı İslamın yüksələn inkişafının və dünyanın ən əhatəli dininə bütün dünya xalqlarının gündən-günə artan məhəbbətinin göstəricisidir."

Bu kanalda müsəlman alimlərin fikirləri də təqdim edilmişdir:

"İslam yenidən öz çiçəklənmə dövrünün şahididir."[3]

İtaliyanın "Ensa" agentliyi də öz məlumatında bildirmişdir: "İslam dünyanın müxtəlif bölgələrində sərhədləri aşmış və indiki böhranlı dünyada yaşayışın dirçəlməsi üçün bir sistemə çevrilmişdir."[4]

Bir-neçə müddət əvvəl Rocer Hardi BBC televiziya kanalı üçün hazırladığı "İmam Xomeyninin övladları" adlı proqramda İslamın dünyada surətli inkişafı ilə bağlı öz tədqiqatlarının nəticələrinə işarə edərək demişdir:

"İslam bu gün Qərbin ən böyük məsələsidir və hətta beynəlxalq bir məsələdir. İslam bu gün yalnız Orta Şərqlə bağlı olan məsələ deyil, bəlkə bütün dünyanı bürümüşdür və onunla mübarizə çox çətindir."[5]

Almaniyanın keçmiş xarici işlər naziri Klaus Kinkel öz məqaləsində etiraf etmişdir ki, "İslamın nüfuzu günü-gündən artır və indi dünyanın 45 ölkəsindəki müsəlmanlar bu ölkələrin cəmiyyətinin əksəriyyətini təşkil edirlər." O yazmışdır;

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 27/11/1372
[2] "Omid-e enqelab" jurnalı, №222
[3] "Yalisarat" nəşriyyatı, №25, 27/11/1374
[4] "Cümhuri-ye Eslami" qəzeti, 15/10/1372
[5] "Cümhuri-ye Eslami" qəzeti, 15/1/1369

"Təxminən 30 il bundan öncə müsəlmanlar dünya əhalisinin 18%-ni təşkil etdikləri halda, indi onların sayı dünya əhalisinin 1/4-nə (1,4 milyard) çatmışdır."[1]

BBC radiosu da müsəlmanlığı yeni qəbul etmiş bir ingilisin dilindən nəql etmişdir: "Biz bütün dünyada İslamın qələbəsini gözləməliyik."[2]

### *Dünyada İslamın aydın mənzərəsi*

İslam təlimlərinin insanların ilahi təbiəti və hazırkı əsr yaşayışının gerçəklikləri ilə uyğunluğu, dünyanın müxtəlif millətləri arasında islamçılıq prosesinin gündən-günə artımının davam etməsi sonuncu din üçün çox parlaq bir gələcəyi müjdə verir. Belə ki, müsəlmanların rəhbəri bəyan etmişdir:

"Bugünkü dünyanın mənzərəsi ondan bəhs edir ki, XXI əsr İslam əsridir."[3]

Mütəfəkkirlər və dünya dəyişikliklərinin təhlilçiləri də mövcud gerçəklikləri araşdıraraq yuxarıdakı həqiqətin reallaşmasını təsdiq edirlər.

Amerikanın keçmiş prezidenti Niksonun müşaviri və bu ölkənin yeni mədəniyyət qurumunun rəisi doktor Robert Kerrin Londonda çap olunan "Əl-Müslimə" qəzetinə verdiyi müsahibəsində məsələ ilə bağlı demişdir: "Mən deyirəm, İslamın qüdrəti XXI əsrin ən böyük qüdrəti olacaq."[4]

İtaliyanın "El-cornale" qəzeti yepiskop Maculiniyə istinadən yazmışdır:

"Gələcək İslama məxsusdur."[5]

Kuba Universitetinin tarix müəllimi Nikolay Kasyusira açıq şəkildə demişdir: "Mən inanıram ki, 2000-ci illərdə İslam dünyanın birinci dini olacaq."[6]

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 30/11/1377, "Cümhuri-ye Eslami" agentliyindən, "Qonşu İslam" məqaləsi, Almaniyanın "Frankfurter elqemaniya" qəzeti

[2] "Cümhuri-ye Eslami" qəzeti, 9/6/1372

[3] İslam Konfransı Təşkilatının Təbliğat Fəaliyyətlərini Uyğunlaşdırma Komitəsinin üzvləri ilə Ayətullah Xameneinin görüşündə, 4/3/1377

[4] "Kəlme-ye daneşcu", №16, 1375-ci ilin tir

[5] "Keyhan-e həvayi", 25/4/1376

[6] "Hüzur" jurnalı, №22, 1376-cı ilin qış ayı

### *Dünya İslam hərəkatı və despotizmin qorxusu*

İslam inqilabı cərəyanının nüfuzunun ildırım sürətilə genişlənməsi, bəşəriyyətin onun dini-mənəvi çağırışlarını qəbul etməsi və dünya səviyyəsində islamyönümlü zəminin yaranması nəticəsində despot hökumətlər iztirab və qorxuya düşdülər və onların nəzəriyyəçiləri açıq şəkildə bildirirlər: "Kommunizmin aradan getməsindən sonra görünür ki, yalnız İslam ideologiyası Qərb üçün ciddi problem yarada bilər."[1]

İmam(r) yuxarıdakı gerçəkliyi şərh edərkən demişdir:

"İslam inqilabı dünyada elə bir sima kəsb etmişdir ki, bütün böyük dövlətləri qorxuya salmışdır."[2]

### *Despotizmin qorxu amilləri dahi rəhbərin nəzərində*

İslam inqilabının dahi rəhbəri ölkə tələbələrinə xitabən buyurmuşdur: "Mənim əzizlərim! Kimin dünyanın cari məsələləri və inqilabın indiki məsələləri haqqında bəsirəti olsa, həqiqətən dərk edər ki, İslam inqilabı hazırda çətin, həssas və əlbəttə ki, təyinedici keçid mərhələsindədir.

Əgər bu məsələləri bir neçə cümlə ilə ifadə etmək istəsək, deməliyik:

Dünya səviyyəsində despotçuluq mərkəzləri bu qəti nəticəyə gəlmişlər ki, əgər bu inqilabı indiki mərhələsində məğlub edə bilməsələr, çox ehtimal ki, kələfin ucunu əldən verərlər və artıq İslamın yüksələn oyanış dalğasının və hətta qeyri-müsəlman millətlərin mənəviyyata, İslamın mənəvi məfhumlarına yönümünün qarşısını ala bilməyəcəklər. Ötən on altı ildə kifayət qədər dərinləşmiş bu böyük axın despotizm, daha doğrusu Qərb mədəniyyətinin hakimiyyətinə qarşı ciddi təhlükə olacaq."[3]

Müsəlmanların rəhbəri öz çıxışında həmçinin buyurmuşdur: "İslam mədəniyyətinin Qərb istiqamətində qurucu cərəyanı Qərb mədəniyyəti başçılarını, xüsusilə İslam məsələləri üzərində həssaslığa malik olan şəxsləri narahat etmişdir və bu

---

[1] Çarlz Kravat Hamer, Amerikanın görkəmli jurnalisti və şahinlər cinahının seçilmişlərindən "Name-ye fərhəng", 1374-cü ilin payız nömrəsi, səh.181

[2] "Nur səhifəsi, c.15, səh.223

[3] Ayətullah Xameneinin tələbələrin İslam Cəmiyyətləri Birliyinin illik iclasında müraciəti, 6/2/1374

məsələ göstərir ki, İslam quruluşu dünya miqyasında təsirqoyma zəminində çox təsirli və müvəffəq olmuş və tərəqqi etmişdir."[1]

Dahi rəhbərin buyurduqlarından ilham alaraq böyük dövlətlərin İslamdan və İslam inqilabından ehtiyyat etməsini üç baxımdan təhlil edə bilərik:

***1 – Despotizmin İslam mədəniyyətinin qüdrətindən narahatlığı***

Dahi rəhbər dünya dövlətləri və Qərbin zəifləmiş mədəniyyəti ilə müqayisədə İslam inqilabının ciddi təhdidlərinə toxunaraq İslami oyanışın yüksəlişi, qeyri-müsəlman millətlərin İslama yönümü və Həzrət İmam Xomeyninin inqilabi çağırışlarından despot hökumətlərinin qorxusunun köklərini araşdırmışdır. O, İslam inqilabı mədəniyyəti ilə Qərbin ateist və maddi mədəniyyəti arasındakı fərqi, İslamın üstünlüyünü hegemon dövlətlərin İslam inqilabı əleyhinə düşmənçiliyinin əsas amillərindən biri saymışdır.

Xüsusilə, İslamın insana və dünyaya monoteist baxışı, eləcə də irqçiliyi, bərabərsizliyi, zorakılığı, müstəmləkəçiliyi və insanların istismarını inkar etməsi İslam inqilabının mahiyyəti və onun ali şüarlarını formalaşdırmışdır. İslam inqilabı cərəyanı dünyanın maddi və hökmran quruluşlarının mədəniyyət təlimlərinə qarşı ciddi müqavimət göstərir.

İslam inqilabının qələbəsi liberal mədəniyyəti və kapitalizmin düşüncə çərçivəsindən üstün bir düşüncə tərzinin qələbəsi olmuş və buna görə də İslam inqilabının başlanması ilə İslam və Qərbin hökmran maddi mədəniyyətinin sıralanmasının ilk mərhələsi yazılmışdı. XX əsrin ən böyük mədəni, ictimai və dini inqilabının gözlənilməz qələbəsi ilə Qərb kapitalizminin liberal düşüncə tərzi və mədəniyyəti öz tarixində ən böyük problemlərlə üzləşdi. Çünki Qərbin uzun illər iqtidarlığını və səmərəliyini inkar etdiyi dini mahiyyət İslam inqilabı hərəkətinin əsas bünövrəsi oldu və onun qələbəsinin başlıca amilinə çevrildi.

Həqiqətən də İslam inqilabının qələbəsi sübut etdi ki, liberalizm bəşəriyyətin ehtiyaclarına cavab verə bilmir və biz

---

[1] Ayətullah Xameneinin xarici işlər naziri və İran İslam Respublikasının xaricdə yaşayan nümayəndələri ilə görüşündə, 25/5/1378

müsəlmanların nasionalizm və liberalizmdən daha üstün ideyalarımız vardır.[1]

Şübhəsiz, İslam inqilabının qələbəsi dünya miqyasında bu fikri formalaşdıran ən mühüm amillərdəndir ki, yeni dünya sistemində, xüsusilə Qərbdə siyasi və ideoloji bir boşluq yaranmışdır və bu dövrdə marksizm artıq məğlub olmuş və liberalizmin də deməyə bir sözü yoxdur.[2]

### *İslam inqilabı və Qərb mədəniyyətinin məğlubiyyəti*

Almaniya Köln Universitetinin müəllimi və Köln şəhərindəki İslam Elmləri Akademiyasının rektoru, mərhum professor Əbdülcavad Flatori Qərb maddi mədəniyyət və təfəkkürünün zəifləməsində İslam inqilabının xüsusi rolunu təsdiq edərək, Qərb alimlərindən biri ilə apardığı müzakirə zamanı demişdir:

İslam inqilabının qələbəsi dövründə Köln şəhərində bizim universitetin müəllimlərindən biri professor Mits məni bu yeni dünya hadisəsi (İslam inqilabı) ilə əlaqədar dialoqa dəvət etdi. O bu görüşdə dedi:

"İslam inqilabı Qərbdə bizim bütün mədəni dəyərlərimizi sual altına aldı. Deməli, bizim mədəniyyətimizdə eyib və nöqsan olmuşdur ki, dünyada heç bir uğur əldə edə bilmədik və əslində bu, Qərb mədəniyyəti üçün bir növ məğlubiyyət demək idi."[3]

Dünya miqyasında İslam inqilabının sürəkliliyi, İslam təfəkkürünün inkişafı və İslam mədəniyyətinin əvvəlkindən daha yaxşı özünü təzahür etdirməsi nəticəsində Qərb dövlətləri

---

[1] Doktor Hili Nimarliya, Bosniya-Hersoqovina Sarayevo Universitetinin ilahiyyat fakültəsinin müəllimi, "Keyhan" qəzeti və Bosniya xüsusi buraxılışı, 16/7/1371

[2] Professor Həmid Mövlana, İnformasiya Vasitələrinin Tədris Mərkəzində məruzəsi, "Resalət" qəzeti, 10/11/1370

[3] "Keyhan-e fərhəngi", 1363-cü ilin xordad ayı

öz qeyri-qanuni mənafelərinin məhvolma təhlükəsi qarşısında olduğunu dərk etdilər.

Zəngin İslam mədəniyyəti və təfəkkürü ilə müqayisədə Qərb maddi mədəniyyətinin aradan getməsi ilə bağlı narahatlığı Qərb informasiya vasitələrinin bəyanat və təhlilləri fonunda müşahidə etmək olar.

### *İslam inqilabı və Qərb təfəkkürünün əsasının hədələnməsi*

Amerikanın "Nutiont Review" jurnalının 28/8/1969-cu il tarixli sayında "Müsəlmanlar gəlirlər" adlı məqalə çap olunmuşdur.

Ağ evin Orta Şərq Araşdırmaları Mərkəzinin direktoru və qeyd olunan məqalənin müəllifi aşağıdakı məsələyə toxunaraq demişdir: "Amerikalılar və avropalılar bu gün inanırlar ki, İslam hər şeydən çox onları hədələyir." O yazmışdır:

"Bir zamanlar qərblilər üçün bu böyük təhlükə yalnız hərbi hədələr baxımından müzakirə olunurdu. Amma bu gün əsaslı təfəkkür mədəniyyətinə malik olan İslam inqilabı Qərb dünyasını hədələyir."[1]

İspaniyanın "EBT"qəzeti İslam inqilabının böyük uğurlarına toxunaraq yazmışdır: "İndi hətta Ayətullah Xomeyninin canişinlərinin nəzərdə tutmadıqları bölgələrdə belə İslam inqilabı genişlənməkdədir."

Bu qəzet İslamla müqayisədə Qərb dünyasının zəifliyinə işarə edərək yazmışdır: "Bir ideologiya üzərində qələbə bir ordu üzərində qələbədən daha çətindir."[2]

### *İmam və Qərb mədəniyyəti*

Dünya dövlətləri İslam inqilabının meydana gəldiyi mədəniyyət və düşüncə tərzinin gündən-günə artan dünya nüfuzundan bərk narahatdır. Bu elə bir mədəniyyətdir ki, hərbi qüvvə ilə onun üzərində qələbə çalmaq mümkün deyil və o öz əsasları ilə dünyanı lərzəyə salmışdır.

Həzrət İmam Xomeyni(r) Qərb maddi mədəniyyət düşüncəsini tənqid etməklə və təkallahlılıq təfəkkür tərzini

---

[1] "Omid-e enqelab" jurnalı, №222

[2] "Şahid" jurnalı, 1369-cu ilin azər ayı, səh.23

aydınlaşdırmaqla yanaşı, bəşəriyyətin fitri ehtiyaclarının zəruriliyini qeyd etmiş və Qərb maddi mədəniyyətini hədəf seçmişdi. O, müdrik siyasət seçərək dəfələrlə Qərb mədəniyyətini onun fikri və mədəni əsaslarını mübarizəyə sürükləmişdi.

Həzrət İmamın(r) mürtəd Salman Rüşdinin qətlinin vacibliyinə əsaslanan tarixi fitvasının verilmə prosesinə baxmaq, onun haqqında düşünmək yuxarıdakı iddianı hamı üçün aydınlaşdırır. Çünki qeyd olunmuş istiqamətdən Həzrət imamın fitvasına baxarkən görürük ki, Həzrət İmamın təşəbbüsü təkcə sadə bir fitva deyildi, həmçinin "bütün Qərb mədəniyyətinə yetərli zərbə idi. Bu səbəbdən ona göstərilən əks- təsir bütün Qərb mədəniyyətinin müqaviməti idi."[1]

Qərbin genişlənmiş müqavimətinin səbəblərinin izahında və onların bu fitvanın verilməsindən nigarançılığı haqqında demək lazımdır:

"Bu hökmün etdiyi ilk iş budur ki, Qərb siyasi quruluşunun üzərində dayandığı qaydanı hədəf seçmişdir və həmin qayda bundan ibarətdir ki, dünyada heç bir mütləq dəyər mövcud deyil. Həzrət İmam bunu, yəni Qərb fəlsəfi quruluşunun əsaslarının dağılmasını hədəf seçdi və bu hökmlə elan etdi ki, müqəddəs dəyərlər dünyada sabit şəkildə mövcuddur."[2]

Həmin dəlilə əsasən demək olar:

"İmamın fitva və hökmünə görə Qərb dövlət adamlarında yaranan qorxu və iztirab bu səbəbdən idi ki, onların cəmiyyətlərini ateist sistemlərinə qarşı qaldırmışdı. Çünki insanlar həm Şərqdə, həm də Qərbdə öz təbiətləri baxımından mütləq dəyərlərin arxasınca gedirlər."[3] Buna görə də siyasi şərhçilərin bəzisi Qərbin təzyiqini "Həzrət İmamın fitvasını hər hansı bir formada aradan qaldırmaq üçün yaxın gələcəkdə xristianlar arasında və Qərb siyasi quruluşu əleyhinə mütəhərrik

---

[1] Kəlim Siddiqi, İslam hərəkatları və İran İslam inqilabı, Seyyid Hadi Xosrovşahinin tərcüməsi, səh.193

[2] Firuz Dövlətabadi, xarici işlər nazirinin müşaviri, "Hüzur" jurnalı, 1374-cü ilin yayı, №12, səh.54 və 57

[3] Həmin yerdə

təhlükənin qarşısını almaqdan ötrü Qərbin səylərinin tərkib hissəsi hesab edirlər."[1]

İmam Xomeyninin(r) zühuru ilə dünyada baş verən əzəmətli dəyişikliklərə və onun ilahi və islami təfəkkürü ilə mübarizədə Qərb mədəniyyətinin böyük səylərinə nəzər salarkən demək lazımdır:

"Bu dörd yüzillikdə nə Hindistan, nə Çin, nə Latın Amerikası, nə Afrika heç biri Qərblə üzləşməmişdir. Qərblə birinci ciddi üzləşmə İmam Xomeyninin(r) zühuru və İranda müsəlman övladların ağzından çıxan "Allahu-əkbər" sözü idi və bu sadə bir hərəkət və dirçəliş deyildi. Biz Şərqdə və Qərbdə və Qərbin yaxınlığında yerləşmişik. Qərb dərk etmişdir ki, İmam bu üzləşmənin təzahürüdür."[2]

İmamın(r) parlaq düşüncəsi, nadir elmi xisləti, yüksək şüarları və ali şəxsiyyəti bu gerçəkliyi təsdiq edir ki, "İmam Xomeyni(r) Qərbin siyasi, iqtisadi və mədəni istilası müqabilində İslam mübarizliyinin yeganə inikasıdır."[3]

Və "İranda İslam inqilabının qələbəsi müasir dünyada İslamın əli ilə Qərbin ilkin məğlubiyyətidir."[4]

### *2 – Qərbin İslam inqilabının mədəni təsirindən nigarançılığı*

İran İslam inqilabının tezliklə durğunluq vəziyyətinə düşəcəyini proqnozlaşdıran şərhçilərin fikirlərinin tam əksinə olaraq bu inqilabın ardıcıl sui-qəsdlərlə üzləşməsinə baxmayaraq, o, daxili böhranlara üstün gəldi və xarici fitnələri cilovlamaqla yanaşı, dünyanın allahpərəst azadlıqsevərlərinin əsas ilham ocağına çevrildi. Qərb rəhbərlərinin və şərhçilərinin kəskin narahatlığına səbəb isə İslam inqilabı mədəniyyətinin müasir dünyanın ateist və dinsizliyinin yayılma mərkəzinə çevrilməsi idi. Bu elə bir hadisədir ki, müsəlmanların rəhbəri

---

[1] Firuz Dövlətabadi, xarici işlər nazirinin müşaviri, "Hüzur" jurnalı, 1374-cü ilin yayı, №12, səh.54 və 57

[2] Doktor Hikmətullah Salehi, "Keyhan-e fərhəngi", doqquzuncu il, 1371-ci ilin dey ayı.

[3] Kəlim Siddiqi, İslam hərəkatları və İran İslam inqilabı, Seyyid Hadi Xosrovşahinin tərcüməsi, səh.37 və 193.

[4] Həmin yerdə, səh.37 və 193

Həzrət Ayətullah Xamenei onu İslam mədəniyyətinin "Qərb istiqamətində qurucu cərəyanı" adlandırmışdır.

Sekular Qərb dünyası və onun rəhbərləri bu gün Həzrət İmam Xomeyni və İslam inqilabının mənəvi-dini çağırışlarının Qərb cəmiyyətləri vətəndaşlarına təsirini böyük təşvişlə müşahidə edirlər.

Kilsələrin yeni həyatı, dini təbliğatçıların hədsiz artımı, siyasətçilərin insanların genişlənmiş dini tələblərini nəzərə almaları, dini rəhbərlərin böyük fəaliyyəti və onların siyasi səhnələrdə insanlara təsir etməyə güclü meyli, insanların dini məzmunlu yazı, eləcə də tele-radio verilişlərini bəyənmələri, insanların dini özbaşınalıqlara qarşı artan müxalifliyi, onların dini müqəddəsliklərin aradan getməsinə qarşı əks-təsiri və sairə İslam inqilabının və Həzrət İmam Xomeyninin(r) ruhlandırıcı dini-mənəvi çağırışlarının Qərbə mədəni təsirinin əlamətlərindən bir hissəsidir.

### *Qərbdə dini fundamentalizm*[1]

İslam inqilabı dünyada dini dəyərləri və şüarları dirçəltməklə və xristianların həyatının yeniləşməsi və onların Qərb cəmiyyətlərində mütəşəkkil fəaliyyət göstərməsinə zəmin yaratmaqla həmişə din və onun təlimlərini kənarlaşdırmağa cəhd edən liberal Qərbi qəribə və gözlənilməz dəyişikliklərlə üzləşdirmişdir.

Almaniyada çap olunan "Divelt" qəzeti bu sahədə cari dəyişikliklərdən bir qisminə işarə edərək yazmışdır:

"Xristian fundamentalist qrupları Qərb ölkələrində maraqlı bir aqibətlə qarşılaşmışlar və hər halda xristianlıqda yayılmış fundamentalizm də Avropa mədəniyyətinin liberal dəyərlərinin əksinədir". Bu qəzet Xristian fundamentalizminin Qərb cəmiyyətlərindəki canlanması ilə bağlı məsələni açıqlayarkən əlavə etmişdir:

"Xristianlar arasında, başqa sözlə desək, Qərb cəmiyyətlərində dini fundamentalist qruplar bir-birinin ardınca

---

[1] Foundamentalism – bir məktəb, ya ideologiyanın əsaslara (foundation) və öz qurucu əsaslarına qayıdışa işarədir. Tarixi baxımdan fundamentalizm sözünün kökü Amerikaya aiddir və bu məfhum ilk dəfə 1920 və 1930-cu illərdə Amerika protestantlarının etiraz hərəkatlarının şərhi üçün işlənmişdir.

baş qaldırır. Dini mütəxəssislərin fikrincə, yeni nəslin hər üç keşişindən birində fundamentalist təmayüllər vardır…!"[1]

Din tarixi və sosiologiya müəllimi professor Piter Klark Qərbdə xristian fundamentalizminin mövcudluğunu təsdiq edərkən demişdir:

"Dində fundamentalizm cərəyanı prinsipcə Orta Şərqlə əlaqələndirilsə də, əslində xristianlıqda da yetişmişdir və onun aydın nümunəsi Amerika Birləşmiş Ştatlarıdır."

O daha sonra əlavə etmişdir:

"Biz keçən beş-on il ərzində Qərbdə, xüsusilə İngiltərədə bir xristian fundamentalizmi cərəyanı ilə üzləşmişik …"[2]

Şübhəsiz, Qərb nəzəriyyəçiləri və dövlət rəhbərlərinin narahatlıq və çaşqınlığının başlıca səbəbi əslində İslam inqilabının xristianlıq dünyasına təsiri ilə bağlıdır.

Görünür Qərb bu məsələdən narahatdır ki, Avropa və Amerikada dinin rəsmiliyini tələb edənlərin sırasının genişlənməsi tədricən Qərb mədəniyyətinin devrilməsi ilə nəticələnər və şəksiz, bu məsələdə İmamın(r) şəxsiyyəti müasir dünyada dərin təsirə malik olmuşdur.[3]

### *Qərbdə İslam inqilabı cazibəsinin artması*

Qərb cəmiyyəti vətəndaşlarının İslam inqilabı haqqında dediklərinin dərindən öyrənilməsi bizi dahi rəhbərin "İslam quruluşunun müasir dünyaya təsirində böyük müvəffəqiyyəti" fikri ilə bağlı gerçəkliyi daha çox və daha yaxşı tanış edə bilər.

Xristian Qərb cəmiyyəti vətəndaşlarının bəzisinin aydın şəkildə İslam respublikası nümunəsini, onun ali məqsədləri və ruhani rəhbərliyini bəyənmələri, Qərb kütləvi informasiya vasitələrinin İslam inqilabı əleyhinə yaratdıqları zəhərli təbliğatın əksinə olaraq, müasir dünyada İslam inqilabı

---

[1] "Keyhan" qəzeti, 20/1/1376

[2] "Bəyan" jurnalı, "Qərbdə İslam inqilabı" məqaləsi, 1370-ci lin xordad ayı

[3] Doktor Qiyasəddin Siddiqi, İngiltərə müsəlmanlar parlamentinin rəisi, "Hüzur" jurnalı, 1375-ci ilin payızı , №17, səh.18 və 19. İmam Xomeyninin(r) xristianların dini həyatının dirçəlməsində rolu ilə daha çox tanış olmaq üçün bax: Həmin kitab, "İmam Xomeyni(r) əsri ilə bağlı müsəlman mütəfəkkirlərin nəzərləri" fəsli və "Qərbin əxlaqi tənəzzülü və qərblilərin dini yönümü" fəsli.

təsirlərinin nüfuz dairəsinin genişlənməsinin inkarolunmaz və bariz nümunəsi sayılır.

Onlar öz bəyanatlarında İran İslam Respublikasını "dünyanın sonuncu ümid nöqtəsi" və ya " öz dəyərlərinə qayıtmış müqəddəs nümunə" ifadələri ilə xatırlamış və "onun Qərbdə mədəni üstünlüyündən" söz açmışlar. Onlar "İmam Xomeyninin müstəsna rəhbərliyini bəyənmişlər. Biz də bu məsələnin əhəmiyyət kəsb etməsini nəzərə alaraq bəyanatlardan bəzisini təqdim edirik:

– İtaliya parlamentində Milli Birlik siyasi qrupunun nümayəndəsi və Roma şəhər Şurasının üzvü Bon Tempo ölkəsinin Amerikanı kor-koranə təqlid etməsini tənqid etməklə yanaşı, bu fikri də açıqlamışdır: "İtaliya öz əsilliyinə və mənliyinə qayıtmaq üçün İrana baxmalıdır." O demişdir:

"İran İslam inqilabının nəticəsi olan əxlaq və İslam dəyərləri Qərb kütləvi informasiya vasitələrinin mənfi təbliğatına baxmayaraq, elə bir həqiqətdir ki, hətta Qərb ölkələrində də inkarolunmazdır.

İran öz mədəni-əxlaqi dəyərlərinə qayıdan ümid nümunəsidir və öz qədim mədəniyyətinə, insan hüququna malik olan İtaliya kimi bir ölkənin Amerikanı təqlid etməsi qorxuludur. Odur ki, İtaliya İran haqqında düşünməlidir."[1]

– ABŞ-dan olan Con Filiçer BMT-də İran İslam Respublikasının nümayəndəsinə yazdığı məktubda İrana qarşı öz hisslərini bəyan etmişdir. O bu məktubun bir surətini ABŞ prezidenti Bill Klintona göndərərək bildirmişdir ki, biz Amerika əhalisi ölkədə mədəniyyətin bayağılığından əziyyət çəkirik." O yazmışdır:

"Amerikalıların böyük bir qismi ölkədə pozğunluğun mənşəyi olan hədsiz-hüdudsuz azadlıqlar müqabilində İran İslam Respublikasının idarəçilik üslubunu bəyənirlər." İran İslam Respublikası öz cavanlarını Amerikada yayılmış xəstəliklərdən qorumaq üçün düzgün addım atmışdır.

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 17/3/1373

Filiçer demişdir: "Tehranda yaşayan ruhanilər öz mədəniyyətlərinin ailə dəyərləri baxımından Amerikadan üstün olduğunu bilərək tam arxayın ola bilərlər."[1]

– Şimali İrlandiya vətəndaşı Ey Qul da "Cümhuri-ye Eslami" qəzetinə göndərdiyi məktubunda mürtəd Salman Rüşdiyə münasibətdə İran İslam Respublikasının siyasətini bəyəndiyini söyləmişdir. O açıqlamışdır ki, Qərb dünyasını bürüyən sekularizm zəhəri insanların maddi rifah halını təmin etməklə yanaşı, bəndəliyi də aradan qaldırmışdır." O yazmışdır:

"İran İslam hökuməti dünyanın sonuncu ümid nöqtəsidir və buna görə də sizin ateist qüvvələri tərəfindən hədəfə alınmağınız gözlənilməndir."[2]

Bir yunanlı "Neotropi" nəşrinə göndərdiyi məktubunda İmamın(r) "Şeytan ayələri" kitabının yayılmasına qarşı çıxmasını bəyəndiyini yazmış və İran millətini İmam Xomeyni kimi dəyərli rəhbərə malik olması münasibətilə təbrik etmişdir. O, eyni zamanda öz millətinin İmam kimi rəhbəri olmasını arzuladığını açıq şəkildə bildirmişdir. Fotis Katisin məktubunda deyilir:

"Cənab baş redaktor!

Bildiyiniz kimi, Ayətullah Xomeyni Rüşdini ölümə məhkum etmişdir. Çünki onun "Şeytan ayələri" kitabını İranın dininə təhqir saymışdı. Digər sivilizasiyalı ölkələr isə bu qərara qarşı mövqe tutdular. Çünki onlar öz milliyyət və dinlərini məhv etmişlər və fikirləşirlər ki, başqa ölkələr də onları təqlid etməlidirlər.

Xoşbəxtlikdən Ayətullah Xomeyni ölkəsi və dini üçün dəyərli bir rəhbərdir və bu tərtiblə icrası lazım olan işi yerinə yetirər. Hazırda bütün dünya dindarları ayağa qalxmışlar və sionistlərin sərkərdəsi Rüşdini tələb edirlər.

Əlavə edirəm: Kaş bizim ölkəmiz üçün də belə bir rəhbər tapılardı ki, millət və dinin hörmət və ali məqamını qoruyardı. Amerika rejissoru Skorcize kimi hər hansı bir sionist "Məsihin vəsvəsələri" sonuncu filmində onu xar və zəlil edə bilməz.

---

[1] "Sübh" jurnalı, №80, 1376-cı ilin xordad ayı

[2] "Cümhuri-ye Eslami" qəzeti, 30/8/1371

Sonda İran millətini belə bir rəhbərə görə və ona bəslədikləri eşqə görə təbrik etmək istəyirəm. Çünki Ayətullah Xomeyni son illərdə dünyada olan nadir rəhbərlərdəndir. Ehtiramla, Fotis Katis.[1]

**Bir səfərdən məlumat**: İmam Xomeyninin dini-mənəvi çağırışlarının gündən-günə artan nüfuzunu və İslam inqilabının Qərb xristian cəmiyyətlərinə dərin təsirini araşdırmaq məqsədilə dəyərli alim Həzrət Ayətullah Misbah Yəzdinin İspaniya və Latın Amerikası ölkələrinə səfəri çərçivəsində[2] söylədiyi fikirlərdən seçmələri nəzərinizə çatdırırıq. Bu seçmələrdə həmin ölkələrdə İslam inqilabı və onun müqəddəs rəhbərliyinin hiss olunan fikri və mədəni təsiri öz əksini tapmışdır.

Həzrət Ayətullah Misbah İspaniya, Meksika, Argentina, Kolumbiya, Braziliya və Kubaya səfərlərinə toxunaraq demişdir:

Bu ölkələrə ayaq basmamışdan qabaq belə bir səhnələrlə üzləşməyi təsəvvür etmirdim. Onu təsvir etmək olmaz…! Bu səfərdə kilsə, din xadimləri, universitet tələbə və müəllimləri və bəzən qeyri-müstəqim şəkildə radio, televiziya, yaxud mətbuat müsahibələri vasitəsilə digərləri ilə münasibətdə olduq. Həqiqətən, inanılmaz bir qarşılanma idi!

San-Paulo şəhərində mənim yanımda əyləşən bir kardinal əlimi tutub sıxırdı və bir əlini qəlbinin üstünə qoyub deyirdi: "Sizin bizim qəlbimizdə yeriniz var! "

Qvadalupda yepiskopların iclasında çıxış edən bir yepiskop deyirdi:

"Qərbdə həqiqi iman mövcud deyil, bölgə əhalisi bizə etimad göstərmir. Bizim sözlərimizə qulaq asmırlar. Ancaq sizin həm həqiqi imanınız var, həm də ölkə idarəçiliyini imanla birləşdirə bildiniz."

Ustad Misbah sonra əlavə etmişdir: "Görəsən, onun nə məqsədi var ki, yepiskopların iclasında belə bir söhbət edir. Yalnız kilsənin məğlubiyyətə uğradığını, insanların dini və əxlaqi pozğunluğunun qarşısını almaq üçün bir iş görə bilmədiyini hiss edir. Onların bütün ümidləri İslamadır.

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 26/11/1368

[2] Qeyd etmək lazımdır ki, bu səfər 28 mordad 1376-cı ildə baş vermişdir.

Qvadalupda oradan ayrılmaq istəyəndə keşişlərdən biri gəlib dedi: İcazə verin, sizi qucaqlayım. O, çəkiliş getdiyi zaman məni qucaqlayıb dedi:

"Bizim əlimizdən bir iş gəlmir. Ancaq siz əxlaqi pozuntu və sapınmalarla mübarizənin bayraqdarısınız."

Mən dünyada İslam və İslam respublikasına bu qədər məhəbbəti olan belə bir bölgənin olmasına inanmırdım. Amma öz gözlərimlə gördüm. Mümkündür, siz də görməsəniz, inanmazsınız.

Həzrət Ayətullah Misbah daha sonra demişdir:

Buenos-Ayresdə olduğumuz axırıncı gecə universitetin keçmiş rektoru, əyalətin ali məhkəməsinin sədri məni bu təhsil ocağında İslamda ailə hüququ ilə bağlı məruzə etməyə dəvət etdi.

Zal adamla dolmuşdu, iştirakçıların 90%-dən çoxu qadınlar idi. Məruzə onlara o qədər təsir etmişdi ki, bir neçə dəqiqə əl çaldılar və hətta Buenos-Ayres əyalət ali məhkəməsinin sədri də davamlı olaraq əl çaldı. Sonra məni qucaqlayıb fəxri diplomla təltif etdi və dedi: Bizim arzumuz budur ki, daha bir neçə məruzə demək üçün bura gələsiniz.

Əvvəllər universitet tələbələrindən bəzisi bizi görərkən gülürdülər. Amma həmin tələbələr bu iclasdan sonra gəlib əlimi öpmək istəyirdilər. Lakin mən güclə özümü onlardan uzaqlaşdırırdım. Tələbələr, kişi və qadın müəllimlər [məhəbbətlərini bildirmək üçün] mənə yaxınlaşırdılar…!

O sonra demişdir:

Orada olduğumuz az müddətdə günün yarısına kimi dörd, ya beş müsahibə verir və məruzə edirdim. Məsələn, bir marksist ölkəsi olub, on illərlə dini uzaqlaşdırmağa çalışılan Kubada universitet müəllimi gəlib mənim qarşımda diz çökdü ki, əlimi öpsün. O deyirdi: Mənim ata və anama dua edin və mənə ispan dilində Quran kitabı verin!

O, prorektor və marksist müəllimlərin qarşısında İslam dinini və İranı kifayət qədər təriflədi. İmamın adını çəkəndə isə o qədər həssaslıq göstərirdi ki, hətta özünü belə saxlaya bilmirdi.

Universitet və kilsə müəllimləri imama eşq bəsləyirdilər və onu əxlaq təzahürü bilirdilər və bütün İslam təriqətləri arasında şiəliyə məhəbbətləri artırdı. Keşişlər isə Allah sizi dinin

dirçəldilməsi üçün bura göndərmişdir ifadələrini tez-tez işlədirdilər."[1]

### *3 – Qərbdə İslama meylliliyin gündən-günə artması*

Böyük İslam inqilabının Qərb cəmiyyətlərində təsir dairəsinin genişlənməsi və onun məftunedici nüfuzu İslam inqilabı cərəyanı və onun iqtidarlı rəhbərinə qarşı hegemon dövlət başçılarının və hegemon quruluşların nəzəriyyəçi və analitiklərinin həssaslığını artırmışdır..

Bu gün biz Amerika və Avropada qərblilərin çoxunun İslama meyl etməsinin şahidiyik. Belə ki, dahi rəhbərin sözü ilə desək, bu gün bütün dünyada əks proses hiss olunur və xüsusən xristian və Avropa ölkələrində İslama yönüm əvvəlki onilliklərlə müqayisə olunası deyil.[2]

"İndi də müntəzəm olaraq xəbərlərdə oxuyuruq ki, Qərb və maddiyyat dünyasında İslama yönüm hökmranlıq edir və İslam İran İslam inqilabından sonra tam fəaliyyətdədir."[3]

Qərb informasiya vasitələri qeyd olunmuş gerçəkliyin bir hissəsini əks etdirərək onu təhlil etmişlər:

SNN (Amerika) televiziya kanalı "İslam dini digər dinlərdən daha böyük sürətlə genişlənməkdədir" fikrini bəyan edərək bildirmişdir:

"İslamın inkişafı əksəriyyətini xristianlar təşkil edən ölkələrdə mütəfəkkirlərin bir növ İslam renessansından söz açmalarına səbəb olmuşdur."[4]

Sarayeva (Bosniya) Universitetinin ilahiyyat müəllimi doktor Hili Numarliya Qərb millətləri arasında İslam təmayülünün gerçəkliyini təsdiq edərək demişdir:

"Qərblilər özləri bilirlər ki, İslam dünyanın mövcud boşluğu üçün qüvvətli bir alternativdir. Bunu yaxşı bilirlər, amma etiraf etmək istəmirlər."

O daha sonra demişdir:

---

[1] "Mərifət" elmi-tədqiqat jurnalı, №23
[2] Ayətullah Xameneinin xarici işlər naziri və İran İslam Respublikasının xaricdə yaşayan siyasi nümayəndələri ilə görüşündə, 25/5/1378
[3] Ayətullah Xameneinin İslam inqilabı mühafizəçiləri ilə görüşündə, 2/9/1377
[4] "Keyhan" qəzeti, 26/1/1376

"İslam inqilabının baş verməsindən sonra Qərbdə İslamın gündən-günə artan təmayülləri ilə üzləşirik."[1]

İsveç kilsəsinin baş yepiskopu Xrister Stendni xristian və Qərb ölkələrində (müsəlmanların rəhbərinin təbirincə, keçən onilliklərlə müqayisə olunması mümkün deyil) İslamın yeni və artan nüfuzunu etiraf edərək demişdir:

"Bizim cəmiyyətlərimizdə insani dəyərlərin asanlıqla unudulması haqqında tənqidlərdən xəbərdarıq…və İslamın bizi oyadan amillərdən biri olması mümkündür."

O demişdir: "Xristianlıq missionerlər tərəfindən dunyaya təqdim olunduğu kimi, bu gün İslam da Qərbə yol tapmış və insanları özünə cəzb etmişdir."

İsveç yepiskopu həmçinin açıqlamışdır:

"Biz aydın və düzgün təsəvvür etdiyimiz bu qeyri-müəyyən və bizim üçün aydın olmayan xristian dəyərləri ilə bundan sonra irəli gedə bilmərik və mən əminəm ki, İslam bizi oyadan bir amil olacaq."[2]

### *Qərb ölkələrində İslamın yayılmasının narahatlığı*

Qərb ölkələrində İslamın sürətli inkişafı və onun getdikcə genişlənən nüfuzu Qərb siyasi strukturları başçılarının, sionist təşkilatları və hegemon dövlətlərin güclü narahatlığına səbəb olmuşdur. Qərb yazıçısı Filip Ruend "Qərbin nəzər nöqtəsi: müsəlmanlar partlayan bombadırlar" adlı məqaləsində bu fikri bəyan etmişdir ki, İslam insanların çoxunu, xüsusilə Avropa əhalisini özünə tərəf cəzb edir. O yazmışdır: "Qərbi əvvəlkindən daha çox narahat edən budur ki, İslam Qərbdə hər gün qüvvətlənir və qərblilərdən bəzisinin təbirincə desək, İslam getdikcə saat bombasına çevrilir."[3]

İspaniyanın "EBS" qəzetinin şərhçisi də daha aydın şəkildə Qərbdə İslamın genişlənməsindən narahatlığını yazmışdır:

"Diqqət etmək lazımdır ki, [İslamın] qaralara verdiyi özünəinam dəyərli ünsürdür. İslam qaralar üçün bir quruluş

---

[1] "Keyhan" qəzeti, Bosniya-Hersoqovina xüsusi buraxılışı, 16/7/1372

[2] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir?, səh.230, səh.230, İsveç radiosunun məlumatından.

[3] Həsənül-səid, İslam və Qərb, Şakir Kəsayinin tərcüməsi, səh.15 və 19

olmaqdan, əlavə qürur və birlik rəmzidir. Hətta Amerikada İslam dininə üz tutan qaralar ən nizamlı və ən birlikli təbəqədirlər."

O, Qərbin qaradərililərinin İslama geniş yönümünün nəticələri ilə əlaqədar xəbərdarlıq edərək yazmışdır.

"Diqqətli olmalıyıq, əgər digər qaralar da İslam yolunu seçsələr, biz qərblilər özümüzü böyük bir qarşılaşmaya hazırlamalıyıq. Çünki qaraların xüsusiyyətlərinə diqqət yetirsək, onların fundamentalizmi ərəblərin fundamentalizmindən çox üstün olacaq."[1]

Qərb yazıçısı və mütəfəkkirlərindən biri "İslam çiçəklənmə halında" sərlövhəli məqaləsində mənəviyyatı inkar edən Qərb təfəkkürü əsaslarını tənqid edərək yazmışdır:

"Bu gün təəccüblənmiş və narahatlıq keçirən Qərb İslam bölgəsində baş verən məftunedici hərəkətlərin və yürüşlərin əzəməti ilə üzləşmişdir."[2]

Fransa mütəfəkkiri və filosofu Roje Qarudi də bu fikirdədir ki, Qərb mədəniyyəti İslam məfhumlarının hakim olması qorxusundan özünün nəfsə etimadını əldən vermişdir.[3]

Mövcud dəlillər bu gerçəkliyi bir daha təsdiq edir ki, "indi Qərb İslamı qəbul etmiş çoxsaylı ziyalılar, mütəfəkkirlər, sənətkarlar və tacirlər qarşısında başını itirmişdir."[4]

Avropanın mərkəzində bir İslam dövlətinin təşkil edilməsi perspektivi Qərbi getdikcə artan və yeni narahatlıqlarla üzləşdirdi. Belə ki, o, ehtimal olunan hadisə ilə ciddi mübarizəyə qalxdı. Bu səbəbdən əksər analitiklər Balkan hadisələri ilə bağlı bu əqidədədirlər ki, cinayətkar serblər Qərbin yaşıl işığı və onların öldürücü sükutu sayəsində Bosniya müsəlmanlarının faciəli və kütləvi qırğınına başladılar.

Amerikanın "Spat layt" qəzeti "Balkan bölgəsində qan tökülməsinin həqiqi məqsədi" başlıqlı məqalədə Balkan məntəqəsinin acı hadisələrini və serblərin cinayətləri qarşısında

---

[1] "Şahid" jurnalı, 1369-cu ilin azər ayı, səh.23

[2] Herbert Hilinghaus "İslam dünyası" kitabı (Dieweitdes islam) İsveçrənin Dyurnax çapı 1989, "Ettelaat" qəzeti, 5/4/1373

[3] "Əhli-beyt" jurnalı, cəmadiül-əvvəl, 1418, London çapı.

[4] "Oktyabr" jurnalı, Misir çapı, "Sübh" jurnalı, 28/2/1375

Qərb ölkələrinin şərhsiz laqeydliyini təhlil edərək onun səbəbləri barədə yazmışdır:

"Böyük Qərb dövlətləri Bosniya-Hersoqovina kimi bir İslam ölkəsinin yaranmasından qorxurlar."[1]

Əlbəttə, Fransanın o zamankı prezidenti Mitteran kimi bəzi Avropa rəhbərləri də Bosniya müharibəsi ərəfəsində Sarayevaya səfər edərək Bosniya prezidenti Əli İzzətbəyoviçlə görüşmüşdü. O, İzzətbəyoviçin İranda İmam Xomeyni(r) ilə görüşündən və onun İslam inqilabından təsirlənməsindən narahatlığını bəyan etmiş və açıq-aşkar bildirmişdir ki, Avropa Balkan məntəqəsində İslam dövlətinin təşkilinin qarşısını alacaq.[2]

### *İstibdadın İslam inqilabından narahatlığı və şeytan siyasəti*

İslamın dünya miqyasında dirçəlişindən Qərbin dəhşət və narahatlığı onları düşmənçilik mövqeyi seçməyə vadar etdi. Bu mədəniyyət və təbliğat sahəsindəki müqavimətləri belə sadalamaq olar:

### *İslam və inqilabın mahiyyətinin təhrif olunması*

Dünya səviyyəsində, xüsusilə Avropa və Amerika ölkələri İslam dininin sürətli yayılmasında Həzrət İmam Xomeyni və İslam inqilabının inkarolunmaz təsirlərinin aşkarlanması nəticəsində dünya hegemonluğu İslam və inqilabın çöhrəsinin təhrifinə başladı. Əslində İran İslam inqilabının qələbəsi və Qərbin bu inqilab tərəfdən hiss etdiyi təhlükə onun İslam əleyhinə səfərbərliyinə səbəb olmuşdur.[3]

"Millətlər və mədəniyyətlər arasında müzakirə qapısı açılmalıdır" fikrinə əsaslanan Qərbin iddiası yalan iddiadan

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 2/8/1371. Bosniya serblərinin rəhbəri Dipressen Avstriya qəzetinə verdiyi müsahibəsində açıq şəkildə bildirmişdir: Bizim müsəlmanlarla müharibəmizin məqsədi Avropada İslam dövlətinin yaranmasının qarşısını almaqdır, 14/6/1371

[2] "Cümhuri-ye Eslami" qəzeti, 2/8/1371. Bosniya serblərinin rəhbəri Dipressen Avstriya qəzetinə verdiyi müsahibəsində açıq şəkildə bildirmişdir: Bizim müsəlmanlarla müharibəmizin məqsədi Avropada İslam dövlətinin yaranmasının qarşısını almaqdır, 14/6/1371

[3] "El-pais" qəzeti, İspaniyanın çoxtirajlı qəzeti, "Cümhuri-ye Eslami" qəzeti, 15/8/1368

savayı bir şey deyil. Çünki onlar İslamla həqiqi müzakirə və mübahisəyə başlamış və İslama ləkə yaxmağa çalışırlar."[1]

"Həmin şeytan siyasətinə əsasən və məşhur Amerika jurnalisti Xristofer Dikkinin etirafına görə Qərbin kütləvi informasiya vasitələri İslamın simasının qürurlu göstərilməsində mühüm rol oynayırlar."[2]

Dünyanın kütləvi informasiya vasitələrinin böyük bir hissəsinə rəhbərlik və nəzarəti əlində saxlayan Qərbin sionist mərkəz və təşkilatları İslam inqilabından sonra bu inqilabın həqiqət və gerçəkliklərinin alt-üst edilməsinə və bəşəriyyətin, xüsusilə Qərb dünyasının ümumi fikrinin təhrif olunmasına çalışmışlar.

Qərb kütləvi informasiya vasitələrinin mənfi təbliğat aparmalarına baxmayaraq, İslam inqilabının nəticəsi olan əxlaq və mənəvi dəyərlər hətta Qərb ölkələrində belə inkarolunmaz həqiqətdir.[3]

Başqa sözlə, "Qərb və Qərbin informasiya vasitələri İslamı dərk etmək əvəzinə, onu kinofilmlər və televiziya proqramlarının köməyi ilə özlərinin uydurduqları terrorizm hadisəsi kimi xatırlayırlar."[4] Amma həqiqət tərəfdarlarının çoxu Qərb informasiya vasitələrinin hiylə və məkr torunu yırtaraq öz yollarını İslam və onun parlaq həqiqətlərinə tərəf yönəldirlər.

Xanım Yuta Moşen (Almaniyanın Divisburq şəhərindən) bu sahədə şərhlərini təqdim edərək demişdir:

"…Mən də digər avropalılar kimi İslama müxalif Qərb informasiya vasitələrinin mənfi təbliğatının güclü təsiri altında idim…

Təbliğatın məndə formalaşdırdığı yaddaşa görə İslamı qeyri-insani, kobud, zalım və müstəbid görürdüm və bu, kütləvi

---

[1] Roje Qarudi, fransız filosofu, "Əhli-beyt" jurnalı, cəmadiul-əvvəl, 1418, London çapı

[2] "Qəbəsat" jurnalı, 1376-cı ilin payız və qışı, səh.217

[3] Bon Tempo, Roma şəhər şurasının üzvü və İtaliya parlamentində "Milli Birlik" siyasi qrupunun nümayəndəsi, "Cümhuri-ye Eslami" qəzeti, 17/3/1373

[4] Ket Stvins, müsəlmanlığı yenicə qəbul etmiş ingilis, "Sübh" jurnalı, №74, 1374-cü ilin mehr ayı.

informasiya vasitələrinin Avropa və Qərbdə ümumi fikrə yeridə bildikləri bir təsvirdir!

[Amma] müsəlman tələbələrlə insani münasibət və müzakirələr zamanı gördüklərim və eşitdiklərim mənim İslam haqqında təsəvvürümün tamamilə əksinə idi. Buna görə də İslam və İranın dini-siyasi məsələlərinə qarşı diqqətim yavaş-yavaş artdı və şölə kimi həqiqətə malik olmaq meyli varlığımda alovlandı. Mən görürdüm ki, necə qəlbimin qarşısında bu ilahi dinin yeni pəncərələri açılır. Hiss edirdim ki, itirdiklərimi və itirdiyim mənliyimi müsəlmanların arasında tapmışam."[1]

### *İmamın(r) mələksima şəxsiyyətinin məhvi*

Beynəlxalq sionizm Qərbin kütləvi informasiya vasitələri və xəbər mərkəzlərinə rəhbərlik edərək gerçəkliklərin təhrifi, məhvi, senzurası və dəyişdirilməsi siyasətini seçərək öz gücünün böyük bir hissəsini Həzrət İmam Xomeyninin(r) mələksima çöhrəsini, cazibəli şəxsiyyəti və yüksək fikirlərini mənəviyyat və ədalətə susamış bəşəriyyətin gözündən salmağa sərf edirdi.

Qərb dünyasının sionist informasiya vasitələrinin İmamın(r) simasına xələl gətirməkdə dayanmayan səylərinin sirrini onun [İmamın] mələksima şəxsiyyəti və onun yüksək düşüncə tərzinin İslam təlimləri ilə ayrılmaz bağlılığında axtarmaq lazımdır. Çünki İmam İslamın təcəssümü, bəlkə də təcəssüm olunmuş İslamın özü idi.

Buna görə də müasir cahillik əsrində təkallahlılıq və haqq yoluna yönəldilmənin arzusunda olanların çoxu özlərinin İslam və təkallahlılıq həqiqətləri ilə bağlılıq və qovuşmalarını Həzrət İmam Xomeyni(r) və onun mənəvi çağırışları ilə tanışlığa borclu bilirlər.

Virciniya ştatının (Amerika) ictimaiyyətlə əlaqələr sahəsi üzrə mütəxəssisi Silviya (Hacər) müsəlman olmasının səbəblərini izah edərkən demişdir:

"Həqiqətdə mən İran İslam inqilabından sonra İslama bağlandım. O zaman müxtəlif dinlər haqqında mütaliə etmişdim, lakin İslam dininə çox diqqət yetirmirdim. İran İslam inqilabı

[1] "İmamət" jurnalı, 1378-ci ilin xordad və tir ayları

qələbə çalandan sonra İmam Xomeyninin(r) təsvirini ilk dəfə televizor vasitəsilə gördüm. Onun mənəvi çöhrəsi mənim üçün çox cazibəli idi. Özümdən asılı olmayaraq, onun varlığında məni özünə məftun edən bir şey gördüm. Amma bilmirdim bu nədir. Mən heç vaxt təsəvvür etmirdim ki, bir gün müsəlman olaram. Sadəcə olaraq bilmək istəyirdim ki, onun vücudunda hansı şey məni özünə cəzb etmişdir."

O sonra əlavə etdi ki, bundan sonra İslam haqqında tədqiqat aparmağı qərara aldım. İslam dini haqqında bir il mütaliədən sonra bu nəticəyə gəldim ki, İmam Xomeyninin(r) getdiyi yol Allah və haqqın yoludur. Bu səbəbdən mən də həmin yolu seçdim.[1]

Əslində Silviya yeni müsəlmanların islamçılığının canlı və iftixarlı prosesinin görüntüsüdür və onlar İmam Xomeyninin(r) əzəmətli şəxsiyyəti vasitəsilə öz itirdikləri yolu İslama yönəlmədə tapdılar. Halbuki Qərbin təbliğat maşınları İmam Xomeyninin(r) nurlu simasını hiylə, məkr və təhrif etməklə gizlətməyə çalışır və bundan ötrü bütün səy və bacarıqlarını əsirgəmirdilər.

Almaniyalı yeni müsəlman xanım İnqrid Qərb cəmiyyətlərində hakim olan mənəvi boşluğa və müsəlman olmamışdan qabaq öz mənəvi təşvişlərinə işarə edərək bəyan etmişdir ki, "İslam dünyagörüşü ilə tanışlıq onu sarsıtdı və İslam inqilabı ona müsbət təsir etdi. O, Qərbin kütləvi informasiya vasitələrinin çirkin siyasətinə toxunaraq demişdir:

"İslam inqilabının nə üçün bu qədər Qərbin mətbuat vasitələrinin hücumlarına məruz qaldığını və İmam Xomeyni(r) simasının Qərb və Avropa dünyasından nə üçün gizli saxlanılmasına səy göstərildiyini yenicə anlamışam."[2]

## QƏRB CƏMİYYƏTLƏRİNDƏ İSLAMPƏRƏSTLİK PROSESİ

---

[1] "Cam-e cəm" qəzeti, 26/6/1379

[2] "Pəyam-e zən"  jurnalı, 1376-cı ilin mehr ayı

Bu bölmədə Qərb ölkələrində islamçılıq hadisəsinin daha aydın təsvirini yaratmaq üçün qeyd etdiyimiz hadisəni aydınlaşdıran xəbərlər və məlumatlar toplusuna nəzər salırıq.

Müsəlmanlığı yenicə qəbul etmiş amerikalı psixoloq Aliyə Hairi Qərb vətəndaşlarının çoxunun İslam dini və onun qurucu təlimlərini bəyənmələrinə işarə edərək öz hisslərini belə bildirmişdir:

"Həzrət Məhəmməd(s) buyurmuşdur: "İslamın nuru dünyada və Qərbdə parlayacaq. Mən təsəvvür edirəm ki, bu bizim dövrümüzdə gerçəkləşən həmin qabaqcadan söyləmədir."[1]

Avropa və Amerika ölkələrinin bətnində İslama yönümlər haqqında olan məlumatlar dünyanın bu məntəqəsində İslam dininin parlaq gələcəyini canlandırır.

### *Avropada islamçılıq*

Mötəbər və sənədli məlumatlara əsasən, Avropa qitəsində İslamın nüfuzu günbəgün artmaqdadır.[2]

Avropanın bəzi mədəniyyət xadimləri bu barədə demişlər:

"Biz Avropa qitəsində müsəlmanların sayının inanılmaz şəkildə artmasının şahidiyik və hər il Avropada çoxlu insanlar İslamı qəbul edirlər."[3]

İtaliyanın çap olunan "El-cornald" qəzeti "İslam Avropanı istila edir" sərlövhəli məqaləsində aşkar şəkildə yazmışdır:

"Əgər vəziyyət bu minvalla irəliləsə iki yüz ildən sonra Avropa müsəlman olacaq və bütün göstəricilər, o cümlədən cəmiyyətin inkişafı bu proqnozu təsdiqləyir."

Bu qəzet sonra əlavə etmişdir: "İndi İslam İtaliya və Avropanın ikinci dinidir və gələcək İslama məxsusdur və heç bir din İslam sürətilə genişlənmir."[4]

Avropa cəmiyyətlərinin vətəndaşları arasında islamçılığın genişlənməsi nəticəsində Fransa, İngiltərə, Almaniya, İsveç,

---

[1] "Keyhan" qəzeti, 4/5/1376

[2] El-Mondo qəzeti, İspaniya çapı, Herve Leqrandazdan götürülüb, Fransanın xristian

[3] Əhməd Huber, İsveç jurnalisti və yeni müsəlman, "Keyhan-e həvayi" qəzetinə müsahibəsində, 1/1/1375

[4] "Əxbar" qəzeti, 16/4/1376

Avstriya, Hollandiya, İtaliya, İspaniya, Danimarka və sairə kimi ölkələr yeni müsəlmanların statistikasının sürətli artımının şahidi olan ölkələr siyahısına qoşulmuşlar.

Tədqiqatçılar bu fikirdədirlər ki, İslam qəribə bir sürətlə Avropanı istila edir. İndi İngiltərə, Almaniya, Fransada müsəlmanların sayı 4-6 milyon nəfərə çatmış və digər Avropa ölkələrində də yüz minlərlə müsəlman yaşayır.[1]

### *İtaliya*

Mövcud məlumatlara əsasən, son illərdə İtaliyada on mindən çox xristian İslamı qəbul etmişdir.[2]

### *Avstriya*

Avstriyada bu ölkənin statistika mərkəzi tərəfindən təqdim olunmuş məlumata əsasən, təkcə 1981-1991-ci illərdə müsəlmanların sayı iki dəfə artmışdır. Halbuki bu ölkədə katolik və protestant kilsəsinin ardıcılları azalmağa üz qoymuşlar.[3]

### *İspaniya*

İspaniya jurnalisti xanım Əzizə (Qomis Sandris) də bu ölkədə İslam təmayüllərinə toxunaraq demişdir:

"İspan cavanlarının bəzisi İslama məhəbbətlərini bəyan etmişlər və yaşayış üçün başqa bir yol kimi ona bağlanmışlar."[4] "Keçən iki həftə ərzində aparılmış statistik hesablamaya görə İspaniyada təxminən 30000 nəfər İslamı qəbul etmişlər."[5]

### *Hollandiya*

Hollandiyanın Misirdə yerləşən qədim abidələr üzrə müəssisəsinin müdiri Freyd Lehmausun dediyinə görə bu ölkədə

---

[1] Aleksey Malaşenko, Karangi (Rusiya şöbəsi) təşkilatının İslam elmləri tədqiqatçısı, "Keyhan" qəzeti, 4/5/1376

[2] Qərb, İslam və Vatikan tədqiqatları məsulu keşiş Hariyus Bormasdan sitat, "Cümhuri-ye Eslami" qəzeti, 19/12/1372

[3] "Keyhan" qəzeti, 30/9/1371, İtaliya agentliyi.

[4] "Resalət" qəzetinə müsahibədən, 1/3/1376

[5] "Peqah-e houze" nəşriyyatı, 15/10/1379

İslama zidd təbliğatın aparılmasına baxmayaraq, İslamı qəbul edən hollandların sayı günbəgün artır.[1]

### *İsveç*

İsveçdə də İslam genişlənməkdədir və müxtəlif maneələrin olmasına baxmayaraq, məscidlər və İslam cəmiyyətlərinin sayı artır. 1976-cı ildə İsveçdə on altı min müsəlman olduğu halda, 1988-ci ildə altmış min nəfərə və 1995-ci ildə iki yüz min nəfərə çatmışdır.[2]

### *Danimarka*

Danimarkada İslam çətinliklə olsa da, tam əminliklə ölkənin səs-küylü həyatının mərkəzində addımlayır.[3]

### *Almaniya*

Almaniyanın "Şpigel" jurnalı "Müsəlman olan almanların sayı artır" başlıqlı məqaləsində yazmışdır:

"Almaniyanın 700 məscidində ölkə vətəndaşı olan təxminən 100000 müsəlman Məkkədəki qibləyə tərəf namaz qılır. Müsəlman olan almanların sayı hər gün artır. Məsələn, 1991-ci ildə Festqalin bölgəsində 80 nəfər müsəlman var idi, halbuki indi onların sayı 150 nəfərdir.

Suzt arxivinin müdiri Məhəmməd Abdullah bu fikri bildirərək əlavə etmişdir:

"Müraciət edənlərin sayı hər gün artır və təxminən beş yüz müsəlman sistemli şəkildə Münix, Axen və Hamburqda İslam mərkəzlərinə müraciət edirlər."[1]

"Şpiqel" jurnalının başqa bir məlumatında yazılmışdır ki, cari ilin əvvəllərində 8000-dən çox alman qadın müsəlman oldular və onların çoxu namazı öz iş yerlərində, başqalarının qarşısında qılırlar."[2]

---

[1] "Ettelaat" qəzeti, 17/12/1372

[2] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir? İsveç jurnalistindən sitat, 177 və 178, səh.221 və 222

[3] "Keyhan" qəzeti, 1/9/1371, "Qərb" jurnalı "əl-Aləmdən" sitat

[1]Doktor Murad Hofmen, Əl-İslam Kəbədil, Qərib Məhəmməd Qəribin tərcüməsi, səh.249

[2] Həsənül-Səid, İslam və Qərb, Şakir Kəsrayinin tərcüməsi, səh.97 və 98

"Şpiqel"in məlumatına əsasən, indi Almaniyada müsəlmanlar ən böyük dini azlığa çevrilmişlər.[3]

### *Fransa*

Fransanın "Luyon" qəzeti bu ölkədə müsəlmanların artması ilə bağlı məlumatında yazmışdır:

"1970-ci ildə Fransada müsəlmanlar üçün yalnız 23 ibadət yeri var idisə, 1979-cu ildə İran İslam Respublikasının qurulmasından sonra İslamçılıq və dini məkanların artımı genişlənmişdir."

Bu qəzet sonra əlavə etmişdir:

"1992-ci ilə kimi Fransanın namazxana və məscidlərinin sayı 1273-ə çatmışdır ki, onlardan 360-ı Paris və ətraf məntəqələrdə yerləşir."[1]

Fransa televiziya kanallarında Orta Şərq işləri üzrə ekspert doktor Əsəd Heydər bu barədə demişdir:

"1980-ci ildən İslama qayıdış və yönüm prosesi Fransada genişlənməyə başladı və 1980-ci ilə kimi İslamın ikinci din kimi rəsmiyyəti yox idi. Amma indi bu bir həqiqətdir ki, İslam Fransanın ikinci dini sayılır."[2]

Fransada İslama yönüm hadisəsi o qədər ciddidir ki, ölkənin "Fiqaro" qəzeti bu barədə yazmışdır: "Bu gün fransız cavanlar əvvəlkindən daha çox İslam dininə üz tuturlar."[3]

Məşhur fransız jurnalisti Firi Dubumun bu ölkədə İslamçılığın inkişafı haqqında yazmışdır:

"İslamı mütaliə etdiyim zamandan həmişə fransız qadınların müsəlman olması məsələsi mənim təəccübümə səbəb olurdu. Xüsusilə müsəlman olan fransız qadınların sayı təxminən yüz minə çatanda həmişə bu sualı verirdim: Necə olur ki, on illərlə qadınların azadlıq və bərabərliyinə nail olan fransız qadını qərblilərin dediyi kimi, qadın hüquqlarını tapdalayan dinə üz tutur?!"[4]

---

[3] "Resalət qəzeti", 5/7/1372
[1] "Keyhan" qəzeti, 10/6/1372
[2] İmam Xomeyni və dini təfəkkürün bərpası beynəlxalq konqresinin ikinci günündə məruzəsi, "Cümhuri-ye Eslami" qəzeti, 1377-ci ilin zordad ayı
[3] "Keyhan" qəzeti, 22/3/1375
[4] Həsənül-Səid, həmin yerdə, səh.95

### *İngiltərə*

İngiltərə Dövlət Radiosunun (BBC) təqdim etdiyi məlumata əsasən, ölkə əhalisinin böyük bir qismi hər gün İslamı qəbul edir."[1]

London İslam Araşdırmalar Mərkəzi tərəfindən təqdim olunmuş statistikaya görə, Londonda hər ay 50 qadın İslamı qəbul edir.[2]

İtaliyanın rəsmi agentliyi də bu zamində xəbər yayaraq bildirmişdir:

"Təkcə son iki ildə 20000 təhsilli ingilis qadını İslamı qəbul etmişlər."[3]

İngiltərə jurnalisti Lusi Birinqton "Tayms" qəzetində yazdığı məqalədə bu barədə bildirmişdir:

"İngilis qadınlarının çoxu İslama üz tuturlar, müsəlman olan ingilis qadınlarının sayı dəfələrlə artmışdır."[4]

Brinqtonun məqaləsində verilmiş elmi məlumatlardan biri də budur ki, "İngiltərədə yeni müsəlmanların sayı mühacirlərin sayına bərabər olacaq, yaxud onlardan çox olacaq."[5]

Bu sahədə hər bir tədqiqatçının fikrini özünə cəlb edən maraqlı məsələ budur ki, "İngiltərədə rəsmi statistika onu göstərir ki, "Məhəmməd" adı "Con" adından çoxdur. "Məhəmməd" adı 37-ci yerdə, "Con" adı 39-cu yerdədir və bu məsələnin dərin məna və məfhumu vardır."[6]

### *İngilis aristokratiyası arasında islamçılıq*

BBC radiosu "İndipendent"dən (London çapı) götürdüyü məlumatda İngiltərə cəmiyyətində inkişafda olan islamçılıq prosesini araşdırmışdır. Bu radionun şərhçisi demişdir:

"İngiltərə vətəndaşlarının İslama marağı diqqətəlayiq bir hadisədir və son illərdə aristokratlar arasında onun yayılması daha da sürətlənmişdir. Belə ki, indi bu təbəqənin ən məşhur

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 9/6/1372
[2] "Ettelaat" qəzeti, 9/7/1373
[3] "Cümhuri-ye Eslami" qəzeti, 15/10/1372
[4] Həsənül-Səid, İslam və Qərb, Şakir Kəsrainin tərcüməsi
[5] Həsənül-Səid, İslam və Qərb, Şakir Kəsrainin tərcüməsi
[6] Həsənül-Səid, İslam və Qərb, Şakir Kəsrainin tərcüməsi.

üzvlərindən bəzisinin övladları İslam dinini qəbul edənlər zümrəsindəndirlər."

BBC radiosunun şərhçisi demişdir:

"BBC teleradiosunun direktoru Con Brentin oğlu Yəhya Brent, İraqa qeyri-qanuni silah satışını tədqiq edən Skot komissiyasının rəhbəri Qazi Skotun oğlu və qızı, habelə İngiltərə cəmiyyətinin digər ictimai-iqtisadi rəhbərlərinin övladları belə şəxslərdəndir."

Bu şərhçi demişdir:

"Diqqətəlayiq məsələ budur ki, İslamı qəbul edənlərin hamısı yüksək təhsil dərəcələrinə malikdirlər. Onlar fərdi ictimai nüfuza və mövqeyə malik olduqlarından İslamı qəbul etmələri insanlar arasında layiqli təsirə malikdir."[1]

### *Müsəlmanların məscidlərə üz tutması və xristianların kilsədən uzaqlaşması*

"Sandi tayms" qəzeti (İngiltərə çapı) də İngiltərə cəmiyyətində islamçılıq hadisəsini başqa baxımdan şərh edərək bu ölkədə xristianlıq dininə münasibətdə və kilsələrdə hakim olan durğunluğa işarə edib yazmışdır:

"1371-1373-cü illər (şəmsi) arasında il ərzində məscidə gedən müsəlmanların sayı 32000 nəfər artıb. Halbuki hər il kilsəyə gedən xristianlar 12000 nəfər azalıblar."[2]

İngiltərədə sakin olan müsəlmanların və müsəlmanlığı yenicə qəbul edənlərin sayının artmasına baxmayaraq, bu ölkənin din xadimləri kilsələrdə iştirak edən xristianların ənənəvi səylərinin azalmasından narahat olduqlarını bildirmişlər.

Başqa bir məlumatda isə "Sandey teleqraf" qəzetinin bu sahədə apardığı tədqiqatların nəticələri (37000 ingilis kilsəsi və bu kilsələrə müraciət edən adamlar haqqında) qeyd olunaraq yazılmışdır:

"Statistik hesablamalara əsasən, hazırda bazar günü müntəzəm surətdə kilsəyə gedən adamların sayı bütün İngiltərə cəmiyyətinin 8%-ni təşkil edir, yəni üç milyon dörd yüz on dörd

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 16/1/1373

[2] Həmin yerdə

min yeddi yüz nəfərdən çox deyil. Din xadimləri narahatdırlar ki, bu rəqəm 2020-ci ilə kimi 2%-ə çatacaq."

"Sandey teleqraf" sonra əlavə etmişdir ki, ardıcıl şəkildə kilsəyə gedən 15 yaşdan aşağı yeniyetmələrin sayı 10 il əvvəl bütün dindar xristianların 25%-ni təşkil edirdi. Bu gün yalnız 19%-dir və statistika göstərir ki, 20-30 yaş arasında olanların yalnız 5%-i kilsədə ibadətlə məşğul olurlar."[1]

"Tayms" nəşri də yuxarıdakı gerçəkliyi təsdiqləyərək yazır:

"Xristian təriqətləri və onların kilsələri arasında ixtilaf günbəgün dərinləşdikcə əksəriyyətini qadınlar təşkil edən İngiltərə əhalisinin çoxu gözlənilməz şəkildə İslam dininə üz tuturlar."[2]

***Avropalıların islampərəstliyi haqqında obyektiv nümunələr***

Avropa ölkələrinin elm, mədəniyyət və incəsənət, siyasət xadimlərinin çoxu son illər ərzində müsəlmanlığı yeni qəbul edənlər zümrəsinə daxil olmuşlar və onlar İslamın ruhlandırıcı təlimləri ilə qarşılaşdıqdan, İslam inqilabının dini-mənəvi çağırışları ilə tanışlıqdan sonra böyük həvəslə bu dinə üz tutmuşdular.

Avropa cəmiyyəti vətəndaşlarının islampərəstlik cərəyanının mahiyyəti ilə daha yaxından tanış olmaq üçün Almaniyanın Bermen Politexnik İnstitutunun dekan müavini, ingilis pop musiqisinin məşhur ifaçısının dediklərini diqqətinizə çatdıraraq, Norveçin Maoist Partiyasının rəhbərinin necə müsəlman olmasını təqdim edirik.

– Professor Yaves Usves (Almaniyanın Bermen Politexnik İnstitutunun direktor müavini) müsəlman olması haqqında demişdir:

"Politexnik universitetində təhsil aldığım müddətədək Almaniyada Qərb yaşayışı və tərbiyəsinin əksinə olaraq digər insanlardan çoxu kimi, mən də İslam inqilabının təsirinə məruz qaldım. Bu təsir o vaxt sona çatdı ki, əvvəllər xristian, yaxud kommunist təşkilatlarında fəaliyyət göstərən bizim kimi

---

[1] "Keyhan" qəzeti, 8/9/1378
[2] "Cümhuri-ye Eslami" qəzeti, 15/10/1372

gələcəyə ümidli insanların çoxu əvvəl İslamı qəbul etdik, sonra şiəliyə üz tutduq, daha sonra İmam Xomeyninin(r) təqlidçisinə çevrildik."

O bu məsələyə işarə etmişdir ki, "Qərb dünyasında cavanların arzularını kiçiltmək olmaz. Tələbələrin çoxu dünyada ədalətin yayılması, sərvətlərin ədalətli bölgüsünü istəyirlər və dünya hegemonluğunu iqtisadi zülmə görə inkar edirlər."

O sonra əlavə etmişdir:

"İmam Xomeyninin ardınca getməklə İslam inqilabını qələbəyə çatdıran və indi də İmam Xomeyninin ardınca vüqarla addımlayaraq İslam hökumətini dünyada təsdiq edən İranda canından keçməyə hazır olan bacı və qardaşlara təşəkkür etmək lazımdır. Çünki onlar bütün dünya insanlarının ardıcılları artmaqda olan yeganə din kimi İslamla tanışlıqlarına səbəb oldular. O, Qərb mədəniyyətinin puçluğunu vurğulayaraq demişdir:

"Bu azğınlıq vadisində İran İslam Respublikası dəyərli bir quruluşu bəşəriyyətə təqdim etmişdir."[1]

– Ket Stivens (Yusif İslam) – pop musiqisinin məşhur ifaçısıdır (əslən ingilis). O, Malayziyanın paytaxtında XXI əsrin çalışmalarında İslam beynəlxalq konfransında xüsusi qonaq kimi çıxış etmiş və İslamı qəbul etməsi haqqında danışmışdır.

İndi öz məlahətli səsi ilə İslamın təbliğinə və Qurani-Kərimin tilavətilə məşğul olan Yusif İslam çoxlu mədrəsələri təsis və idarə etmişdir. O demişdir:

"İran İslam inqilabından bir il əvvəl İslamı qəbul edən zaman mənim təbiət, insan və dərk olunmayan dünya ilə bağlı bütün qorxularım arxayınlıqla əvəz olundu ki, لله ما فى السموات و ما فى الارض ayəsindən can alırdı."

O öz dostlarına İslami dərkin şirinliyini dadızdırmaq və müsəlman olmağın yaxşılıqlarını başa salmaq üçün onun çətinliklərinə də işarə edərək demişdir:

"Mənim dostlarımın çoxu hələ də spirt və narkotik maddələr dünyasının dərinliyində ilişib qalıblar. Onları İslam Peyğəmbərinə(s) necə inandıra bilərdim? Onların təsəvvürünü necə dəyişib qəlblərini aça bilərdim?

---

[1] "Sübh" nəşrinə müsahibəsində, 27 1374-cü ilin mehr ayı

Mənim yeni müsəlman kimi başqalarının haqq yoluna yönəldilməsinə az şansım olduğu halda, birdən İran İslam inqilabının əks-sədası televizorlarımızın ekranında yayımlandı. Bu təsvirlərdə "Allahu-əkbər və Ayətullah Xomeyni rəhbər" deyə fəryad edən çoxsaylı yeni müsəlmanlar görünürdü və mən Allaha şükür etdim: "Əlhəmdulillah."

Stivens sonra əlavə etmişdir ki, İslamın əzəmətinin hər yerdə hiss olunmasına inanmırdım. Gözlənilmədən İslam tanış bir sözə çevrildi, azan səsi dünyanı lərzəyə gətirdi və soyuq müharibənin zirvəsində İslam iki təfəkkür – kommunizm və imperializm üçün həqiqi əvəzləyici kimi nəzərə çatdırıldı.

O, sözlərinin sonunda demişdir: "İslam dünyanı yenidən formalaşdırmaqdadır."[1]

– Norveç Maoist Partiyası sədrinin müsəlman olması:

Norveçdə İran səfirliyinin mədəniyyət attaşesi doktor Lin Sadın müsəlman olması haqqında məlumatı təqdim edərək demişdir:

"Osloda (Norveçin paytaxtı) yaşayan zaman qəzetləri araşdırıb tərcümə edərkən "İslam tezliklə Qərbə gələcək" sərlövhəli məqalə ilə rastlaşdım. Axtarışdan sonra başa düşdüm ki, bu məqalə Norveç Maoist Partiyasının sədri, doktor Lin Sadın qələminin məhsuludur.

O, təhsilini İngiltərədə almışdı və çox mübariz bir insan idi. Müsəlmanlara kömək məqsədilə neçə dəfə Fələstinə səfər etmişdi və məşhur "qara sentyabr və İordaniyanın fələstinlilərə hücumunda yaralanmışdı…"

"Çox böyük zəhmətlə onu tapdım və onunla əlaqə yaratdım. İran, inqilab və İslam haqqında çox maraqlanırdı…

Onunla keçirdiyimiz birinci iclasdan sonra suallarına cavab verdik. Bizdən xahiş etdi ki, partiya üzvləri ilə digər iclasda həmin sözləri təkrar edək…

Sonra doktor Lin Sad və doktor Erik Foyser İslam inqilabının qələbəsinin bayram edilməsi münasibətilə İrana dəvət olundular. Bu səfər onlar üçün o qədər maraqlı oldu ki, hər ikisi inqilabın aşiqi və vurğununa çevrildilər.

---

[1] "Sübh" jurnalı, №74, 1374-cü ilin mehr ayı

Daha sonra onlar "İran inqilabı tezliklə dünyanı bürüyəcək" sərlövhəli məqaləni yazdılar.

İranın mədəniyyət attaşesi sonra demişdir:

Bir gün Qədir-Xum hadisələri haqqında sual etdi, mən də izah etdim. O zaman çox qəribə bir halda idi. Həmin günün axşamı Hüseyni cəmiyyətindən zəng etdilər və dedilər: Məğrib və işa namazından sonra mərasimimiz var. Bir şəxs müsəlman olmaq istəyir. Ümumiyyətlə, güman etməzdim ki, bu insan doktor Lin Sad olar. O, şiə oldu və özünə Əli adını seçdi...

Norveçdə İran səfirliyinin mədəniyyət attaşesi daha sonra əlavə etmişdir:

Bir müddətdən sonra onun həyat yoldaşı Anabret də mənimlə əlaqə yaratdı və dedi: Müsəlman olmaq istəyirəm. Mən təəccübləndim və Allaha şükür etdim. Anabret dedi: Mən çadra istəyirəm!

Dedim: örtülü olmaq kifayətdir, nə üçün çadra istəyirsən? (çünki qorxdum ki, çadra əleyhinə olan mühitdə bu çətinliklərə dözə bilməz).

Amma o yenə təkid etdi:

Mən ülgüm və simvolum olan İran qadınlarının geyimi ilə şəhadəteyni demək istəyirəm.

Ona dedim: Hansı adı seçmisiniz?

Dedi: Zeynəb.

Dedim: Nə üçün? Dedi: Araşdırdım və gördüm ki, Həzrət Zeynəb(s) səbirli, dözümlü və kamil bir xanım olmuşdur." [1]

### *Amerika Birləşmiş Ştatlarında islampərəstlik*

Yeni Qərb mədəniyyətinin ağırlıq mərkəzi sayılan və dünya sionizmi və onun siyasi quruluşunun geniş nüfuzu istiqamətində həmişə İslam və müsəlmanlar əleyhinə düşmənçilik siyasətlərini seçən Amerika Birləşmiş Ştatları indi ictimai-mədəni sahədə mühüm bir hadisənin şahididir.

Bu gün Amerika Birləşmiş Ştatlarında islamçılıq təzahürünün sürətli inkişafı beynəlxalq məsələlər üzrə təhlilçilərin diqqətini özünə cəlb etmişdir.

---

[1] "Pəyam-e zən" jurnalı, №49, 1375-ci ilin fərvərdin ayı

Amerika Birləşmiş Ştatları vətəndaşlarının islampərəstlik hərəkatı son iki onillik ərzində bu ölkənin müsəlman cəmiyyətini neçə dəfə artırmışdır və mövcud dəlil və sübutlar, aparılmış tədqiqatlara əsasən, bu, İslam inqilabı cərəyanından və Həzrət İmam Xomeyninin(r) tarixi gedişindən dərindən təsirlənmişdir.

Hər halda analitiklər inanırlar ki, islamçılığın genişlənməkdə olan prosesinin davam etməsi bir tərəfdən Amerikanın gələcəyində mühüm rol oynayacaq, digər tərəfdən Qərb mədəniyyətini bütün vəziyyətlərdə təsirləndirəcəkdir.

Bu bölmədə mövzu ilə bağlı əldə olan məlumatların və hesabatların bir hissəsini araşdırırıq:

### *1 – Amerika radiosunun ölkədə İslamın inkişafı haqqında məlumatı*

Amerika radiosunun fars dili bölməsi azan səsini yayımlamaqla başladığı məlumatında (Amerika Birləşmiş Ştatlarının cəmiyyətində islamçılığın mühüm təzahürü barəsində) bildirmişdir:

"Müsəlmanları namaza səsləyən bu səs Cakarta şəhərinin izdihamlı küçələrinə, ya şəhərin mərkəzinə, ya da Pakistanda kəndə aid deyil. Bu azan səsi xarici səfirliklərin çoxuna öz qoynunda yer verən Masaçust və Vaşinqtonun məşhur küçəsində yerləşən və Amerikanın ən qədim məscidlərindən biri olan Vaşinqton İslam Mərkəzinin hündür minarəsindən eşidilir.

Bu məlumatda deyilir;

"İslam dünyada ən sürətli inkişafa malik olan bir dindir və İslamın ardıcıllarının çoxaldığı ölkələrdən biri Amerikadır.

İslam dini üzrə ixtisaslaşan Masaçust Universitetinin müəllimi Yuan Hedad demişdir ki, amerikalıların çoxunun nəzərində İslamın çöhrəsi Ayətullah İmam Xomeyni tərəfindən təqdim olunan simadır.

Amerika müsəlmanları ilə bağlı tədqiqat işi aparmış Freyd Tumenin fikrincə, "İslam dininin Amerikanın həqiqi bir dini olduğu gün gəlib çatacaq."

O sonra əlavə etmişdir: "Amerika məscidlərinin 1200-dən çoxu son 10-12 il ərzində tikilmişdir."

Vaşinqton İslam Mərkəzinin müdiri Abdullah əl-Xuc demişdir:

"Hazırda İslam dini Amerikanın ən böyük sürətlə yayılan dinlərindən biridir."[1]

### *2 – Ağ evin İslamın sürətli inkişafını etiraf etməsi*

Amerika cəmiyyətində İslamın inkişaf ahəngi o qədər sürətli və onun əlamətləri o qədər aydındır ki, Ağ evin rəhbərlərini də müqavimət göstərməyə və etiraf etməyə vadar etmişdir. Belə ki, Amerikanın xarici işlər naziri Madlen Olbrayt Nyu-Yorkda, Asiya təşkilatında çıxışı zamanı etiraf etmişdir ki, İslam Amerikada ən sürətlə yayılan bir dindir."[2]

Amerikanın (o zamankı) prezidenti Klinton da Ağ evin müqəddəs fitr bayramı münasibətilə təşkil etdiyi mərasimdə elan etmişdir:

"Amerikada İslam dininin inkişaf və yayılma ahəngi bütün dinlərdən daha sürətlidir."

Demək lazımdır ki, bu mərasimdə Amerika ordusunun ilk müsəlman qazısı Əbdürrəşid Məhəmməd Quran ayələrindən bəzisini tilavət etmişdi."[3]

### *3 – Amerika Silahlı Qüvvələrində islamçılıq*

Amerika cəmiyyətində İslamın sürətli inkişafı indi bu ölkənin silahlı qüvvələri və hərbi qarnizonlarına da sirayət etmişdir. Bir neçə müddət əvvəl nəşr olunmuş son statistik hesablamalara əsasən, Amerika Birləşmiş Ştatları ordusunun on mindən çox rütbəli hərbçisi İslamı qəbul etmişdir.

Amerika Müsəlmanları Şurasının üzvünə istinadən Amerika radiosu məlumat vermişdir ki, Amerika Silahlı Qüvvələrində müsəlmanların sayı artmaqdadır və ən əhəmiyyətli məsələ budur ki, silahlı qüvvələrdə müsəlmanların artım faizi bu ölkə müsəlmanları cəmiyyətinin artımından xeyli çoxdur."[4]

---

[1] "Keyhan-e həvayi", 19/8/1372

[2] "Keyhan" qəzeti, 28/3/1377

[3] "Cümhuri-ye Eslami" qəzeti, 6/11/1374

[4] "Resalət" qəzeti, 6/6/1375

***4 – Müsəlmanlığı qəbul etmiş amerikalı zabitin etirafları***

"Fiqaro" fransızdilli jurnalın müxbiri ABŞ-da İslamın yayılmasının yeni əlamətləri haqqında məlumatında yazmışdır:

"İslam Amerikada başqa dinlərdən daha sürətlə inkişaf edir və gələcəkdə amerikalıların, uzaq gələcəkdə isə bütün dünyanın dini olacaq."

O sonra demişdir: Biz Riyad, Xartum və ya Tehranda deyilik. Texas ştatının qəlbi Kindəyik. Dallas və Ostinin arasında, Forthudun iki addımlığında yerləşən bu hərbi şəhərcik azad dünyanın ən böyük hərbi bazası sayılır. Bu sözləri 42 yaşlı Esmun Danke demişdir.

O, Amerika ordusunda baş serjant və Fars körfəzi müharibəsində, ya ondan sonra müsəlman olmuş hərbçi və qeyri-hərbçilərin ruhani rəhbəridir!

O, bizi qucaqlayıb qarşılayır və namaz vaxtı baş serjant-imam-camaat olur və adı Esmundan Osmana çevrilir.

O, Fars körfəzi müharibəsinin gözlənilməz təsirləri, başqa sözlə, Tehran, Ciddə və ya Riyadda yüzlərlə Amerika əsgərinin İslamı qəbul etməsinin canlı şahididir. Onlar Səddamla müharibə üçün gəlmişdilər. Bu vəziyyət Amerika və Səudiyyə Ərəbistanının rəhbər şəxslərinin təəccübünə səbəb oldu.

Osman təkid etmişdir ki, İslam həyat, cəmiyyət və ailənin idarəsi üçün ən yaxşı üsuldur. Xüsusilə, Qərb dünyasının əxlaq dəyərlərini əldən verdiyi və ailə əsaslarının dağıldığı və irqçiliyin yenidən dirçəldiyi indiki dövrdə .

O demişdir: "Mən səkkiz aydır ki, İslamı qəbul etmişəm və şəhadəteyni Nyu-Yorkda yerinə yetirmişəm. Bundan əlavə, mən nə üçün Amerika əsgərinin Fars körfəzi müharibəsində İslam dinini qəbul etməsini dərk edə bilərəm. İslamda təsvir yoxdur, Allah nə ağdır, nə qara, nə kişidir, nə qadın, bütün insanlar bərabərdirlər və İslamın bu tərəfi cazibəlidir."

Osman demişdir:

"Mən Ərəbistanda amerikalıların hərbi bazasında üç ay ərzində üç yüz nəfər amerikalı əsgərin müsəlmanlığı qəbul etməsinin şahidi oldum.

"Fiqaro"nun müxbiri öz məlumatının sonunda belə yazmışdır:

O günün sabahısı Osmanın evində nahar yedik. Onun xanımı Rəşidə masa arxasında əyləşmədi, qızları da gəlmədilər.

Qadınlar kişilərlə birgə oturmadılar.

Gedən zaman maşının güzgüsündən baxanda Dankenin gülümsədiyini gördüm. Onun səsi yenə də qulaqlarımda cingildəyir: İnşaallah, gələcəkdə Amerika müsəlman olacaq."[1]

### *5 – Amerikalıların İslama gündən-günə artan meyli*

Amerika cəmiyyətində İslamın sürətlə artması və yayılması ilə bağlı başqa bir məlumatda isə oxuyuruq:

İslamın təzahür və ənənələri Amerika Birləşmiş Ştatlarının əksər məntəqələrində aşkar şəkildə gözə dəyir. İslam dini ardıcıllarının cəmiyyəti də gündən-günə böyüyür.

Corc Vaşinqton Universitetinin İslam tarixi müəllimi doktor Con Vell demişdir:

"Son illər Amerika əhalisinin çoxu İslamı qəbul etmişdir. Qərb və digər İslam ölkələrindən də çoxlu insanlar Amerika Birləşmiş Ştatlarına mühacirət etmişdir. Belə ki, bu ölkədə müsəlmanların sayı təxminən on səkkiz milyon nəfərə çatmışdır. Bu cəmiyyətin gələcəkdə elə bir həddə çatması proqnozlaşdırılır ki, bəzi optimist müsəlmanların dili ilə desək, Amerikanın gələn əsrdə bir İslam ölkəsinə çevrilməsi mümkündür!"

Amerika müsəlmanları keçən iyirmi ilə nisbətən daha yaxşı vəziyyətdədirlər. Hazırda bu ölkədə məscidi olmayan bir şəhər, ya əyalət yoxdur. Amerika Birləşmiş Ştatlarının təxminən bütün universitetlərində müsəlman tələbə və müəllimlər gözə dəyir.

Amerika xəstəxanalarında da müsəlman həkimlər çoxdur. Hətta bundan əvvəl başqalarının inhisarında olan vəkillik, idarə və dövlət vəzifələrində müsəlmanlar üçün məhdudiyyət yoxdur. Bütün bunlar keçən iki onillikdə müsəlmanların Amerika cəmiyyətinə daxil olmasına imkan vermişdir."[1]

"Nyu-York tayms" qəzeti bu sahədə müvafiq məlumatı nəşr edərək "Amerikada İslam dininə üz tutan kəslər günbəgün artır" fikrini bildirmişdir: "Amerikada yaşayan Latın Amerikası

---

[1] "Fiqaro", Fransa jurnalı, 13 iyun 1992

[1] "Əl-əvsət" nəşri, 14 may 2000, "Şoma" qəzetindən sitat, 9/4/1379

müsəlmanlarının sayını bir neçə il əvvəl barmaqla saymaq olardı. Amma hazırda on minlərlə nəfərə çatmışdır."

Bu qəzet sonra əlavə etmişdir: "1983-cü ildə İslamı qəbul edən Xədicə Rivra Nyu-Yorkda bir radiostansiya yaratmaqla Amerika əhalisinə başa salmağa çalışır ki, İslamı qəbul etmək mütərəqqi bir dini qəbul etmək mənasındadır."[1]

### *6 – Amerikada İslamın inkişafı*

Amerika universitetlərinin müsəlmanlığı yeni qəbul etmiş müəllimi, görkəmli filosof, professor Hamid İlqar ölkə vətəndaşları arasında gündən-günə artan İslam yönümləri zəminində yaranmış dəyişikliklərə işarə edərək demişdir:

"İslamiyyət uzun müddət ərzində Amerikanın gələcəyində böyük rol oynayacaq. Çünki İslam Amerikada fövqəladə sürətlə genişlənir."

İlqar demişdir:

"Mənim tədris etdiyim universitetdə 30-40 müsəlman tələbə cümə namazında iştirak edirlər və bu az deyil. Həmin tələbələrdə İslam təfəkkürü keçmişlə müqayisədə yüz dəfə daha yaxşı və daha kamildir.

O sonra demişdir: "Bütün Amerikada belə bir vəziyyət yüksəlmə və genişlənməkdədir."[2]

### *7 – İslam – Amerikanın gələcək birinci dini*

İslamla daha çox tanışlıq məqsədilə müqəddəs Qum şəhərinə gələn və burada elmi mərkəzdə təhsil alan amerikalı yeni müsəlman Əhməd Hənif Kəvasi Amerikada İslam dininin sürətli yayılmasına toxunaraq demişdir:

Mən son otuz il ərzində müsəlman olan bir neçə milyon nəfərdən biriyəm. Aparılmış statistikaya görə, XXI əsrin əvvəllərində Amerikada müsəlmanların sayı o qədər çoxalacaq ki, İslam Amerikanın ikinci dini olacaq və XXI əsrin ilk onilliyində Amerikanın birinci dini olacağı proqramlaşdırılır.

O daha sonra əlavə etmişdir:

---

[1] "Keyhan" qəzeti, 27/9/1380

[2] "Süruş" jurnalı, №794

İslamın bu tərəqqisi İslamdan uzaq bir mühitdə baş verir və Amerikada İslam dinini xatırladacaq bir şey də yoxdur, məscidlərin sayı da çox azdır. Buna baxmayaraq, İslam hər bir dindən daha sürətlə irəliləyir. Orada bütün dinlərin ardıcıllarından var: buddist, Çin və həddindən artıq sistemli şəkildədir. Müsəlmanların isə sistemli bir təbliğat proqramı da yoxdur. Amma gündən-günə amerikalıların İslamı qəbul etməsi artır."[1]

***8 – Amerikada İslami təbliğ əsaslarının yaradılması***

Vaşinqton Universitetində Qərb fəlsəfəsi sahəsində təhsil alan Qum Elmi Mərkəzinin alimlərindən biri Amerikada islamçılığın münasib zəminlərinə toxunaraq demişdir:

İndi Amerikanın rəsmi müəssisələrinin təqdim etdiyi statistika belədir ki, İslam digər dinlərlə müqayisədə daha sürətli inkişafa malikdir. Statistik müəssisələri əsasən yəhudilərin əlində olsa da, bu məlumat həqiqətdir. Ancaq bu məlumatı bizim xeyrimiz üçün yox, bəlkə də özləri üçün xəbərdarlıq kimi elan etmişlər.

İslamın təbliği və yayılması üçün çox təsirli əsaslardan biri də Amerika zindanlarıdır. Texas ştatının ucqar bir şəhərinin zindanında bir nəfər dedi ki, biz dörd min nəfər dustağıq, bunlardan on yeddi nəfərimiz müsəlman olmuşuq. Bizim üçün kitab və Quran göndərin.

Biz də onlar üçün kitablar göndərdik və bir ildən sonra yeni bir məlumatla üzləşdik. Həmin 17 nəfər 250 nəfərə, sonra 800 nəfərə, daha sonra isə zindandakı dustaqların yarısına çevrilmişdir."[1]

## MƏNƏVİ EHTİYAC İSLAMÇILIĞIN ƏSAS AMİLİ KİMİ

Müasir əsr insanının İslama təmayül amilləri arasında bəzisi daha əhəmiyyətlidir. Çağdaş insanın mənəvi ehtiyacları, onun hərtərəfli məktəbə olan tələbatı, həyatın əsas suallarına

---

[1] Tehran Universiteti tələbələrinin toplantısında, "Keyhan" qəzeti, 11/11/1377

[1] "Nur səhifəsi, c.21, səh.66 və 67

cavab axtarması və bəşərin həyəcanlanmış cəmiyyətini nizamlamaq istəyi bu kimi amillərdəndir. Şərhçilərin fikrincə, bəşərin qeyd olunan sahələrdə ciddi tələblərinin başlıca səbəbi son illər ərzində dünya səviyyəsində İslam təmayüllərinin yüksəlməsidir.

Həzrət İmam Xomeyni(r) Qorbaçova yazdığı tarixi müraciətində bəşərin İslam şəriətinin məhəbbətlə dolu ağuşuna pənah aparmasının zərurətini açıqlayaraq xatırlatmışdır ki, bəşərin maddi və quraşdırdığı məktəblər "bəşəriyyəti Qərb və Şərqdə bəşər cəmiyyətinin ən əsas dərdi olan mənəviyyata inamsızlıq böhranından çıxara bilməz."[1]

İmamın(r) nəzərində, insanın İslam təlimlərindən məhrumluğu onu mənəviyyata etiqadsızlıq kimi əziyyətli dərdlər tələsinə salmış və onun maddi-mənəvi həyatının ali məsləhətlərinin dağılması və heçə getməsinə səbəb olmuşdur.

İndi müasir bəşər özünün üzücü dərdinin səbəbini dərk etmək, onun əsas müalicəsini axtarmaq, yeni mədəniyyətin çıxılmazlığından xilas olmaq məqsədilə öz gözlərini İslamın ali və hərtərəfli düşüncəsinə dikmiş və həqiqətdə öz mənəvi həyat tarixindən yeni dövrə addım atmışdır.

### *İmamın(r) nəzərində insanın mənəvi ehtiyacları*

Bu əsrdə insanın mənəvi ehtiyacları onu İslamın mənəvi təlimlərinə tərəf istiqamətləndirmiş və dolaşıq çətinliklər onu İslam təlimlərinə tabeçiliyə dəvət etmişdir.

İmam(r) bu mühüm tarixi cərəyanı və onun əsas xüsusiyyətlərini açıqlayarkən buyurmuşdur:

"Təəccüblüdür ki, İslam ölkələrinin alim və ruhanilərinin çoxu bəşəriyyətin mənəviyyat və İslamın nurani hökmlərinə ehtiyac duyduğu bu əsrdə öz ilahi-tarixi missiyaları və

[1] "Pərtov" nəşri, 10/12/1377

böyük rolundan xəbərsizdirlər və millətlərin həsrətində olduqlarını dərk etmirlər və…"[1]

Dahi rəhbər də islamçılıq hadisəsinin baş verməsində insanların mənəvi ehtiyacının rolunu təsdiq etməklə yanaşı, onun Avropa və Amerika kimi ölkələrin mərkəzinədək genişlənməsinə toxunaraq buyurmuşdur:

"İslamın mənəvi müraciətləri hər yerdə alıcıları olan dəyərli bir əmtəədir. İndiki dünyanın ehtiyac duyduğu mənəvi müraciətlər yalnız İslam maarifinin əzəmətli və ucsuz-bucaqsız okeanında gizlənmişdir."[2]

Dünya müsəlmanlarının rəhbəri "təkcə yeni və hərtərəfli düşüncə tərzi bəşərin dolaşıq problemlərinin həllinin öhdəsindən gələ bilər" fikrini vurğulayaraq demişdir: "İslam bugünkü dünyada bəşəriyyətin ehtiyac duyduğu yeni düşüncə tərzini təqdim edəndir."[3]

***Qərbin İslamın tədricən qəbul olunmasına hazırlığı***

Bir tərəfdən Qərb cəmiyyətlərinin geniş nizamsızlıqları və mənəvi dəyərlər baxımından boşluğu, digər tərəfdən İslam təfəkkürünün hərtərəfliliyi Qərbdə elə bir şərait yaratmışdır ki, çəkinmədən deyə bilərik:

"Əgər Qərb insanı ilə hazırkı əsrin elm və məntiq dili ilə əlaqə yaradan insanlar olsa, Qərb ictimai mühiti İslamı qəbul etməyə hazırdır."[4]

Qərb mədəniyyətində İslam kimi məntiqi, mənəvi və ilahi təfəkkürün olmadığı üçün o, çətin və dolaşıq vəziyyətə düçar olmuşdur. Şübhəsiz, İslam inqilabının qələbəsi Qərbdə yeni şərait yaratmış və qərblilər üçün yeni üfüqlər açmışdır: "İndi Qərbdə milyonlarla insan xilaskar və Məsihin intizarındadırlar və əgər İslam düzgün şəkildə tanıtdırılsa, onlar üçün xilaskar ola

---

[1] "Pərtov" nəşri, 10/12/1377 c.20, səh.126

[2] Ayətullah Xameneinin ölkə xaricində İran mədəniyyət xadimləri ilə görüşündə, 11/6/1376

[3] Məbəs günü Ayətullah Xameneinin camaat və hərbi qulluqçularla görüşündə 21/10/1377

[4] Murad Hofmən, Mərakeşdə İslamı qəbul etmiş Almaniyanın keçmiş səfiri, "Qərbdə İslamın gələcəyini necə görürsünüz?" – sualına cavabında, "Keyhan-e əndişe", 5/11/1376

bilər. Çünki İslam təlimləri Qərb mədəniyyətinin öz qaçılmaz taleyindən, yəni məhv olmadan xilası üçün yeganə yoldur."[1]

Almaniyalı yeni müsəlman xanım Leyla bu barədə demişdir:

"Dəhşətli pozğunluq olan cəmiyyətlərimizdə yaşayan insanlar əgər İslam elminin həqiqətləri və onun həqiqi simasından xəbərdar olsaydılar, şəksiz hamılıqla müsəlman olardılar. Çünki biz Qərb dəyərlərinin nəticələrinin şahidi olmuşuq. Xüsusilə, almanlar son əlli il ərzində – amerikalıların gəlişi, inqilaba zidd və maddi dəyərlər meyarlarının təbliğindən sonra bu əxlaqi fəlakətə çatmışlar."[2]

İrəli sürülən bu iddiaların təsdiqi üçün İtaliya agentliyinin Avropa qadınlarının İslama geniş təmayülü ilə bağlı təqdim etdiyi analitik məlumatı xatırlatmaq olar. Həmin məlumatda yazılmışdır:

"İslam şəxsiyyətini itirmiş Avropa qadınlarına mənlik bəxş edən amilə çevrilmişdir."[3]

### *Qərbin İslama güclü ehtiyacının səbəbləri*

Qərb dünyasının İslam təlimlərindən faydalanmağa dərin ehtiyacı və İslam dininin nadir yolgöstərici qüdrətlərinin şərhi haqqında Qərbin elm, mədəniyyət və siyasət xadimlərinin sözlərinə yığcam şəkildə nəzər salmaqla Qərb cəmiyyəti vətəndaşlarının İslama və islamçılığa irimiqyaslı yönümünün səbəb və amillərinin daha dəqiq təhlilinə başlayırıq.

**Yolu tapmağa ehtiyac**. Bu gün fransız islamşünası, professor Lamand kimi Qərbin görkəmli xadimlərinin çoxu əmindirlər ki, "Qərb dünyasının öz itirdiyi yolu tapması üçün İslama ehtiyacı vardır."[4]

Belə ki, İngiltərə xarici işlər nazirinin müavini Drik Façet də "dünyada mövcud olan hünər, elm və fəlsəfənin böyük qismi İslama borcludur" fikrini etiraf edərək demişdir:

---

[1] Doktor Adil Əbdüllahi, Fransada İslam Tədqiqat Mərkəzinin rəisi, "Hüzur" jurnalına müsahibəsi, №27, 1378-ci ilin baharı

[2] Süsən Səfaverdi, "Qaranlıqda dirçəliş", səh.64

[3] Həmin yerdə

[4] "İran qəzeti", 7/5/1375

"Biz Qərbi axtarmaqla yanaşı, azğın maddi dəyərləri əvəzləyən bir növü tapmaq üçün İslamı daha çox öyrənməyə möhtacıq."[1]

Digər tərəfdən, Paris Universitetində İslam mədəniyyətini tədris edən müəllim Lui Kardo da Qərbin İslama güclü ehtiyacının səbəblərini təhlil edərkən bu fikri irəli sürmüşdür:

"Qərbin maddi dünyasındakı ruhi boşluq müasir dünyanın maddiyyatla mənəviyyat arasında tarazlıq yaratmasına səbəb olmuşdur və İslam bu ehtiyacı ödəyə bilər."[2]

**Mənəvi məsələlərə ehtiyac.** Sarayevo Universitetinin müəllimi Doktor Nimarliya bu barədə demişdir:

"Avropada İslam dini ilə bağlı müzakirəyə çıxaracağımız əsas məsələlər mənəvi, fəlsəfi və ruhi məsələlərdir. Çünki avropalıların bu məsələlərə ehtiyacı var və həmin sahədə bizim təbliğatımız təsirli ola bilər."[3]

Gözüaçıq mütəfəkkirlərin nəzərində Qərb mədəniyyətinin əhatəli və inkarolunmaz böhranının mənşəyi Qərb həyat tərzinin müxtəlif sahələrində vəhy və mənəviyyata biganəlikdən savayı bir şey deyil. Bu xəstəlik yalnız İslamın mənəvi-məntiqi təfəkkürünə qayıdışla müalicə oluna bilər.

Bosniyalı mütəfəkkirlərdən biri yuxarıdakı iddianı təsdiqləyərək demişdir:

"Dünya analitiklərinin çoxu və hətta Qərbin bəzi böyük mütəfəkkirləri inanırlar ki, Qərb mədəniyyəti böyük mənəvi böhran keçirir və bu böhran beləcə genişlənməkdədir. Belə ki, onun əhatə dairəsi indi bütün orqan və təşkilatları, hətta Qərb insanının ictimai həyatını bürümüşdür."

O açıqlamışdır:

"Mənim fikrimcə, Qərb mədəniyyətinin belə bir böhranla üzləşdiyi bir zamanda İslamın onun qarşısında qoyduğu yoldan başqa qayıdış yolu yoxdur. Əgər biz müsəlmanlar İslam dininin köklü əsas və nümunələrini qərblilərin başa düşəcəyi dildə

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 27/10/1377

[2] "Name-ye fərhəng" nəşriyyatı, 1364-cü ilin baharı, səh.36

[3] "Keyhan" qəzeti, Bosniya Hersoqovinaya məxsus, 16/7/1371

bəyan edə bilsək, mütləq bu dinin tərəfdarları günbəgün artacaq."[1]

Amerikanın "Spat layt" qəzetinin şərhçisi də bu məsələyə toxunaraq demişdir:

"İslam Qərb ictimai üsulunu aydın və qəti şəkildə pisləməklə Qərb əhalisinin əxlaqi şüurunun yeni oyanışına səbəb ola bilər."

O yazmışdır:

Başqa sözlə, İslam xüsusən öz fundamentalist forması ilə indi misilsiz şəkildə düşmənçilik və dərdlə dolu dünyanı bəşəriyyətə zorla qəbul etdirən mənəvi baxışdan pul və təfəkkür inhisarını ciddi şəkildə məhv edə bilər.

O sonra demişdir: "İslam Qərbdə hakim və adət olan riyakarlıqla xalis xristianlıqdan daha qeyri-müvafiqdir. Buna baxmayaraq kilsə üçün mühüm müraciəti əhatə edir."[2]

**Dünyanın düzgün şərh edilməsi üsuluna ehtiyac.** İran İslam inqilabının baş verməsi və İslam dininin insanyaradan məktəbinin gerçəkliklərinin daha çox aydınlaşması nəticəsində Qərb dünyasının bu dinə həyati ehtiyacı haqqında Qərbin yüksək vəzifəli şəxsiyyətlərinin açıq-aşkar etiraflarının şahidi oluruq.

Oksford Universitetinin İslam Araşdırmaları Mərkəzinə sədrlik edən İngiltərənin vəliəhdi şahzadə Çarlz öz çıxışında bu mühüm məsələni açıqlamışdır:

"İslam dini keçən əsrlərdə Avropa ərazisində genişləndi və bəşər mədəniyyətinin inkişaf və təkamülündə təsirli rola malik oldu. Ancaq təəssüf ki, biz onu səhvən Qərb mədəniyyətinin izləri (təsirləri) bilirik."

O demişdir: "Bu gün İslam dünyanın düzgün dərki və şərhi üslubunu və onda yaşamaq üsulunu bizə öyrətməyə qadirdir. Bu elə bir üslubdur ki, xristianlıq əldən verdiyinə görə ona bərk möhtacdır."

O sonra əlavə etmişdir: "Qərb mədəniyyəti öz mühitinə münasibətdə malik olduğu məsuliyyətin əksinə olaraq gündən-

---

[1] Ustad Nüsrət Asanoviç, Zinyət İslam fakültəsinin dekanı və Bosniya-Hersoqovinada İslam mədəniyyəti tarixi müəllimi, "Hüzur" jurnalına müsahibəsində, №11, 1374-cü ilin xordad ayı.

[2] "Cümhuri-ye Eslami" qəzeti, 2/8/1371

günə acgözləşmişdir. Bu, yəni dərin birlik hissi və dünyanın mənəvi-müqəddəs həyatının taleyinə etimad mühüm bir işdir və onu İslamdan öyrənmək lazımdır."

Şahzadə Çarlz əlavə etmişdir:

"Daha dəqiq ibarə ilə desək, İslamın dirçəlişi adlanan dini, ictimai və siyasi amillərin çoxunun arasında bu gerçəklikdən yaranan ümidsizlik və məyusluq hissi mövcuddur ki, Qərb texnologiyası bəyənilən deyil və həyatın daha dərin mənası başqa yerdə, yəni İslam etiqadları gövhərində gizlənmişdir."[1]

## QƏRB NƏZƏRİYYƏÇİLƏRİNİN İSLAMIN QÜDRƏTİNİ ETİRAFI

Şübhəsiz, İmam Xomeyni(r) və İslam inqilabı təfəkkürünün ən mühüm uğurlarından biri dünya nəzəriyyəçilərinin çoxu tərəfindən İslam şəriətinin hərtərəfliliyinin və onun qüdrətlərinin dərk olunması tərzində yaranan qəribə və müsbət dəyişiklik idi.

Dahi rəhbərin dili ilə desək, "İmamın böyük işi şiə fiqhinə yeni baxışı idi. Əzizimiz imam bu möhkəm fiqhi geniş miqyasda, dünya və hökumət baxışında diqqət mərkəzində saxladı."[1]

Həqiqətən, "İslam dünya dini olsa da, başqa şəkildə təqdim olunmuşdu və Həzrət İmam İslamın həqiqi simasını dünyaya göstərdi və onun böyük inqilabi hərəkəti tədqiqatçı və dinşünasların İslam haqqında baxışını dəyişməsi idi."[1]

Böyük imamımız İslam haqqında öz dərin baxışını bəşəriyyətə təqdim edərək onun hərtərəfliliyini vurğuladı. İmam tərəfindən İslamın hərtərəfliliyinə təkid əsasən İslam hökuməti nəzəriyyəsinin əsas fərzi və İslam quruluşunun təşkili və təsdiqi istiqamətində onun əməli fəaliyyətinin müqəddiməsi olmuşdur.

İslamın hərtərəfliliyinə etiqada əsasən İmam din və siyasətin daimi və real bağlılığını elan etmiş "hökumət və

---

[1] "Mərifət" jurnalı, İmam Xomeyni Tədqiqat Mərkəzi, Çıxışın mətninin tərcüməsi: Mahmud Fətəli, №2, III il, 1373-cü ilin yayı

[1] "Hədis-e vilayət", c.1, səh.296

[1] Ayətullah Mərifət, İmam Xomeyni və İslam hökuməti düşüncəsi konqresinin katibi, "Hüzur" jurnalı, 1378-ci ilin payızı

rəhbərliyin səmtini Allahın Rəsulu(s) və onun əziz vəsilərinin imtiyazlarından bilmişdir."[1]

### *İmam(r) və ən xalis İslam qiraətinin təqdimi*

İmam Xomeyni(r) sonuncu din olan Məhəmmədin(s) İslamını ən kamil tərif və ən müfəssəl təqdim edərək təhrif, cəhalət və xurafat tozunu İslamın simasından təmizlədi və İslam dininin hərtərəfliliyini inkar edən əyridüşüncəli qərbpərəst ziyalılarının zəhərlənmiş fikirlərinin yanlışlığını sübuta yetirdi.

Həzrət İmamın(r) elmi və əməli səyləri nəticəsində indi "İslam hərtərəfli və bəşərin bütün yaşayış imtiyazlarını əhatə edən din olmaqla yanaşı, əxlaqi və tərbiyəvi məktəb, ictimai-siyasi sistemdir"[2] nəzəriyyəsi hazırkı əsrin mütəfəkkirlərinin çoxunun dərin inamına çevrilmişdir.[3]

### *İmam(r) və İslam fiqhinin geniş bəyanı*

İmam Xomeyni(r) müasir insanın cürbəcür və dolaşıq çətinliklərinin həllində İslam fiqhini sual altına alan, "fiqhin nizamlama, problemi həll etmə və sakitlik yaratmasını, sadə cəmiyyətə məxsusluğunu, insanların sadə münasibətləri və az ehtiyaclarını bir-birinə birləşdirici dəyişiklik sayan qərbpərəst ziyalıların yaramaz inamlarının əksinə olaraq, israr edirdi ki, "bu gün məgər inkar etmək olar ki, sənaye və ticarət qalmaqalı, dünyanın qara siyasi münasibətlərini fiqh yatıra bilmir və bəşər problemlərinin böyük dəyişikliyini fiqh cilovlamır."[4] O, bəşəriyyəti bu həqiqətdən xəbərdar etdi ki: "Fiqh beşikdən qəbrə kimi insan və cəmiyyətin idarəsinin həqiqi və kamil nəzəriyyəsidir."[5]

İmam(r) İslam hökmlərinin keçmiş dövrlərə aid olduğunu deyən, "bizim fiqhimizi keçmiş təbiət ehtiyatlarına bənzədən və

---

[1] "Vilayət-e fəqih", səh.75

[2] Ustad Şəhid Murtəza Mütəhhəri, "İmamət və rəhbərlik", səh.31

[3] Əbdülkərim Suruş, Mərifət ərbabının nağılı. səh.50

[4] Əbdülkərim Suruş, Mərifət ərbabının nağılı. səh.50; Məzmunların təyininə oxşar: Bax: Məcid Muhəmmədi, Baş qüdsi asimanda, qəlb ürfi girovda, səh.135, 136.

[5] "Nur səhifəsi, c.21, səh.98

bu ehtiyatların sona çatdığına inanan"[1] qərbpərəst ziyalıların həqiqi simasını ifşa edərək bizi bu mühüm məsələyə tərəf yönəltdi ki, bunların "ya hökumət, qanun və siyasətdən xəbərləri yoxdur, ya da qəsdən özlərini xəbərsizliyə vururlar."[2]

İmam(r) İslam dininin hərtərəfliliyinin açıqlanması və İslam fiqhinin sonsuz ehtiyatlarının tanıdılması ilə bağlı olaraq buyurmuşdur:

"Həqiqi müctəhidlərin nəzərində hökumət bəşəriyyətin tərəqqisi üçün yaşayışın bütün sahələrində fiqhin tam əməli fəlsəfəsidir."[3]

Və "İslamın ibadət vəzifələri üçün qanunu olduğu kimi ictimai və hökumət işləri üçün də qanun, yol və üsulu var və İslam hüququ mütərəqqi, kamil və hərtərəfli bir hüquqdur."[4]

### *İmamın(r) düşüncəsinin qloballaşması*

İndi Həzrət İmam Xomeyninin (r) ilahi qiyamının başlanmasından və qüdrətli İslam quruluşunun əsasını qoymasından sonra İslamın tanınmış düşmənlərinin durmadan himayədarlıq və təşviqi sayəsində "qərbpərəst" ziyalılardan bir qrupu mümkün olan hər yolla din və mənəviyyatın insan cəmiyyətlərinin siyasət, hökumət və idarəsindən ayrılığını gerçəkləşdirməyə cəhd edirlər. Onlar bu fikri yaymaq, Qərb dünyasının din və fəlsəfə mövzularını müzakirə etmək, Qərb əsərlərinin bəzisini tərcümə etməklə dinin hakimiyyətini bu ölkələrin idarəçiliyindən ayırmağa çalışırlar."[5]

İmam Xomeyninin(r) parlaq düşüncələri dünyada cilvələnmişdir və o qədər genişlənib nüfuz qazanmışdır ki, hətta "Amerikada yerli əhalinin çoxunun nəzərində İslamın həqiqi siması İmam Xomeyni(r) tərəfindən təqdim olunan simadır."[6]

---

[1] Əbdülkərim Suruş, "Kəyan" jurnalı, №45, səh.36, həmin məzmun, Əbdülkərim Süruş, Mərifət ərbabının nağılı, səh.5

[2] Həzrət İmamın(r) siyasi-ilahi vəsiyyətnaməsi

[3] "Nur səhifəsi, c.21, səh.98, 1367-ci ilin isfənd ayı

[4] "Vilayəti fəqih", səh.10

[5] Nemətullah Bavənd, Müasir dünyada İmam Xomeyninin rolu, ön söz

[6] Divan Hədad, Masaçust Universitetinin müəllimi, Amerika radiosu, "Keyhan-e həvayi", 19/8/1372

يريدون ليطفو نورالله با فواههم والله متم نوره ولوكره المشركون [1]

*Qərblilərin etirafı*

İslamın hərtərəfliliyi və əzəməti sayəsində Qərbin siyasət və mədəniyyət xadimlərinin, habelə şərhçilərinin etiraflarını öyrənməklə, Qərb cəmiyyətlərinin İslama geniş təmayülünün səbəblərinin bir qismini araşdırmaq və onu daha dəqiq təhlil etmək olar.

Almaniyanın keçmiş xarici işlər naziri Klaus Kinkel son zamanlar bu ölkənin mətbuatında çap olunmuş məqaləsində həmin gerçəkliyi açıqlamışdır:

"XVIII əsrdə – Avropanın ziyalılıq əsrində müzakirə olunan dövlətin cəmiyyətdən, dinin siyasətdən ayrılığı kimi mövzular İslamda gerçəkləşmişdir." O yazmışdır:

"İslam müxtəlif məsələlərə aydın cavablar vermiş və bu din vahid bir fikri-əməli sistemə malikdir. İslam yalnız öz əhatə dairəsini ardıcıl şəkildə genişləndirən bir din deyil, bu dinin ictimai qüdrəti bəşər cəmiyyətlərində artmaqdadır."[2]

Amerikanın Prinston Universitetindən professor Bernard Luis də "Qərbi Avropada İslam" mövzusunda keçirilən konfransda çıxış edərkən demişdir: Bu gün Qərbdə düşünüldüyü kimi, İslam təkcə fərdi etiqadlar sahəsi deyil, müxtəlif qanunlara malik olan bir sistemdir."[3]

Komblotensa Universitetinin qədim tarix fakültəsinin dekanı, Real-Madrid Tarix Akademiyasının Elmi Şurasının üzvü, professor Xose Martinos "mən avropalı olsam da, bitərəf kimi danışacağam" – fikrini xatırlamaqla demişdir:

---

[1] "Səf" (61), ayə 8: "Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Amma kafirlərin xoşu gəlməsə də, Allah öz nurunu kamilləşdirər."

[2] Frankfurter elqemaniya, "Qonşu İslam" məqaləsi, "Cümhuri-ye Eslami" qəzeti, 30/11/1377

[3] "Resalət" qəzeti, 25/3/1376, "Dipresse" qəzetindən sitat.

"İslam həyatın bütün düzgün qanunlarına malik olan kamil və hərtərəfli bir dindir. Mən şəxsən Quranı beş dəfə mütaliə etmişəm. Onun hər sətrində qanun və möhkəmlik müşahidə olunur. Bundan əlavə, mənim fikrimcə, İslam çox asan və başa düşülən bir dindir…Amma siz görürsünüz xristianlıqda o qədər çaşdırıcı rəvayətlər var ki, bəzən bir keşiş də üçlüyün ipinin ucunu əldən verir."

O daha sonra demişdir: "Sonda xristianlıqda bir dinə çatırsan, amma İslamda qanunlar məcmuəsinə çatacaqsan."[1]

İspaniyanın "EBT" qəzetinin analitiki bu barədə yazmışdır:

"İslam ictimai bir dindir ki, hətta İran kimi bir hökumətə də çevrilə bilər. İslamın məfhumları aydın və rəvandır."[2]

Qərb yazıçısı Herbert Hilrinq Haus "İslamın çiçəklənməsi" başlıqlı məqaləsində bildirmişdir ki, "Quran fərdi göstərişlər və yalnız axirət üçün kitab deyil." O yazmışdır:

"Quran bu dünyada da bütün insanların yaşayışını Allahın göstərişlərinə əsasən nizamlayır."[3]

İsveçin məşhur siyasətçisi Harri Sneyn "Dn" qəzetində yazdığı "Din və siyasət" sərlövhəli məqaləsində bu gerçəkliyi qeyd etmişdir ki, "son əsrlərdə qərblilərə tanış olmayan İslam dini İsrailin müsəlmanlarla toqquşmasından və İran İslam inqilabından sonra dillərə düşmüşdür." O yazmışdır:

"İslam təkcə bir din deyil, bəlkə bir siyasi hərəkatdır. Həzrət Məhəmməd(s) təkcə bir peyğəmbər deyil, bir siyasətçi və hərbi sərkərdədir."[4]

Professor Daniel Hulsinger Afrikanın şimalında İslamın təsirlərini araşdırma konfransında çıxış edərək İslamla bağlı öz tədqiqatlarının nəticəsini belə bildirmişdir:

"İslam təkcə bir din deyil, həyat üslubudur. İslam dini və hökumət bir-biri ilə eyni və qarışıqdırlar."[5]

---

[1] "Keyhan-e həvayi", 1371-ci ilin bəhmən ayı (bu nəşrə müsahibəsində)

[2] "Şahid" jurnalı, 1369-cu ilin azər ayı, səh.23

[3] "İslam dünyası" kitabı (Dieweltdesl İslam), İsveçrənin Dyuranx çapı, 1989, "Ettelaat" qəzetindən sitat, 5/4/1373

[4] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir? səh.230

[5] "Ettelaat" qəzeti, 17/1/1372

Amerika Birləşmiş Ştatlarının Qərb və Xarici Araşdırmalar Mərkəzinin təcrübəli mütəxəssisi (müdir və tacirlərə digər millətlərin mədəniyyətini öyrədir) və Nyu-Yorkda Kendi qurumunun sədri Morhud Kendi "İslam Amerikada xristianlıqdan sonra ən mühüm dini qrup kimi zühur edəcək" məsələsini proqnozlaşdıraraq, beynəlxalq miqyasda İslama təmayüllərin səbəb və amillərinin, habelə bu dünya dininin cazibədarlığının şərhində demişdir:

"Biz qəbul etməliyik ki, İslam xristianlıq kimi təkcə bir din və etiqad deyil, bundan əlavə siyasi bir sistemdir və özünün xüsusi hüquqları vardır. Eyni zamanda İslam yaşamaq üçün bir yoldur."

O əlavə etmişdir: "Mən Harvard Universitetinin bir tələbəsi kimi İslamda varislik qanunlarını öz ştatımızın qanunları ilə müqayisə etdim və İslam qanunlarının humanistliyi və ailə münasibətlərini nəzərə almasına təəccüb etdim."[1]

"Xristian monitor" qəzetinin analitiki və yazarı son onilliklərdə, xüsusən İmam Xomeyninin qiyamından sonra ümumi zehnlərdə yaranmış İslamı yüksək qiymətləndirməni bəyan edərək yazmışdır:

"İslam ruhi dərdlər üçün dərman, siyasi-iqtisadi problemlərin aradan qaldırılması üçün kimyadır. İslam yarandığı gündən həyatın bütün sahələri ilə hərtərəfli və kamil bağlılığı seçdi və insanların şəxsi həyatı ilə nə qədər bağlıdırsa, onların ictimai həyatı ilə də o qədər bağlıdır."[2]

Bərəkətli İmam Xomeyni (r) əsrində beynəlxalq mütəfəkkirlər və nəzəriyyəçilər arasında gündən-günə bu inam genişlənir ki, "İslamın mahiyyəti insanın (müxtəlif) şərait və

---

[1] "Cümhuri-ye Eslami" qəzeti, 11/1/1372
Və təəccüb burasındadır ki, Harvard universitetinin amerikalı tələbəsi İslam haqqında bir az düşünməklə bəşər hüququna zəmanət verən İslamın mühüm qanunlarını dərk edir. Amma islamşünaslıq iddiası edən qərbpərəst ziyalıların bəzisi bu inamdadırlar ki: "bizim bütün İslam qanunvericiliyində bir vərəq qədər də insan hüququ haqqında bəhs olunmamışdır və bütün kitablarda bir vərəq olsun belə insan hüququ barəsində fikir yoxdur!! " Əbdülkərim Suruş, "Kəyan" jurnalı, №45, səh.37

[2] "Cümhuri-ye Eslami" qəzeti, 12/5/1372

hallarına uyğundur və insanlara verdiyi saf iman və əminlik onları bugünkü mədəniyyətin azğınlıq və puçluğundan qoruyur."[1]

### *İslamın hərtərəfliliyi Qərbin yeni müsəlmanlarının nəzərində*

İnsanın həyat gerçəklikləri ilə İslamın hərtərəfliliyini təsdiq edən bəzi Qərb nəzəriyyəçilərinin fikirlərini araşdırdıqdan sonra yuxarıdakı mövzuya Qərbin yeni müsəlmanlarının münasibətləri çərçivəsində bir daha diqqət yetirəcəyik.

Şəksiz, bəşərin müxtəlif həyat sahələri ilə məntiqi uyğunluq qeyri-müsəlmanlar, xüsusilə Qərb cəmiyyəti vətəndaşları üçün İslamın cazibədarlığının ən mühüm səbəblərindəndir.

"Tayms London" qəzeti ingilis və Avropa qadınlarının İslama gəlmələrinin geniş axınına işarə edərək bu prosesin səbəblərinin təhlili ilə bağlı yazmışdır: "Avropanın əksər yeni müsəlman qadınları İslam dininə təmayüllərinin səbəbini İslam qanunlarının kamilliyi ilə əlaqələndirmişlər."[2]

Qərbin yeni müsəlmanları İslam qanunlarının aydın, hərtərəfli və heç bir dində olmayan mənəvi dəyərlərlə zəngin olduğunu xatırlamaqla yanaşı, İslamı "həyat, cəmiyyət və ailənin ən yaxşı üsulu", "cəmiyyəti qurmaq üçün kamil sistem", "çıxılmazlıq və hərc-mərclikdən qurtarmaq üçün nümunəvi qüdrətə malik din", "insanın maddi və mənəvi həyatının bütün suallarına həlledici və münasib cavab verən din" adlandırmışlar.

Onlar bildirirlər ki, "İslam təkcə dini məktəb deyil, düzgün yaşayış üsuludur."

Onlar açıq-aşkar bildirmişlər: "İslam təkcə bir din deyil, bəlkə hər bir şeydir!"

Bu səadət vadisində yol tapanların etiqadında İslamdan başqa heç bir təfəkkür və ideologiya insanı dünya və axirət səadətinə çatdıra bilməz."

---

[1] Roje Dopaskiye, İslam hadisəsi və insan taleyi, Əli Əkbər Kəsmayinin tərcüməsi, səh.23

[2] "Cümhuri-ye Eslami" qəzeti, 5/10/1372

İsveçli yeni müsəlman xanım Mona Stokqolm İslam təşkilatında fəaliyyət göstərir. İslam dininin təbliğatçılarından biri olub, İslamı şərh etmək üçün tez-tez İsveç məktəblərində olur.

O öz şəxsi təcrübəsinə əsasən bu fikirdədir ki, İsveç əhalisinin İslama meyli artmaqdadır və xüsusilə son illərdə bu artım 20-30 yaşlı cavanlar arasında nəzərə çarpır.

Xanım Mona bu hadisənin bir səbəbini İsveç cəmiyyətində mənəvi kasıblıq və məhəbbət boşluğunda və digər mühüm səbəbini "İslamda həyatın sabitliyi üçün bəşərin ehtiyaclarına uyğun hərtərəfli və aydın qanunların olmasında" görür.[1]

Fransanın yeni müsəlman filosofu və Surben[2] Universitetinin müəllimi Roje Qarudi İsveç radiosunun müxbirinə verdiyi müsahibədə demişdir:

"Bəlkə soruşmaq istəyirsiniz ki, nə üçün mən müsəlman olmuşam?! Çünki mən sosialistəm və xristianlığı İslamda tapmışam. İslamın hərtərəfli qanunları mənəvi dəyərlərin qorunması ilə uyğunluq təşkil edir."[3]

Qarudi demişdir:

"İslam həqiqətlərinin aydınlığı, dəlil qüdrəti və onun fitrətlə uyğunluğu bu dini bəşəriyyətin dini kimi müzakirəyə çıxaracaqdır. Xüsusilə bəşəriyyətin səadətinə zəmanət iddiasında olan sosialist, kapitalist və ona oxşar digər ideologiyaların məğlubiyyət və uğursuzluğundan sonra."[4]

Amerika Birləşmiş Ştatlarının o zamankı prezidenti Riçard Niksonun müsəlmanlığı qəbul etmiş sabiq müşaviri Doktor Robert Kerin Amerika əhalisinin bu ölkənin ictimai vəziyyətindən çox böyük narahatlığına işarə edərək ABŞ-ın dolaşıq və mürəkkəb problemlərinin həllində İslamın nadir qüdrətini təsdiqləyib demişdir:

---

[1] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir? səh.228

[2] O, 40 il Fransa Kommunist Partiyası ideologiyasının rəhbərlərindən olmuş və indi 80 yaşı var. Bir neçə il əvvəl xristianlıq və marksizmi tərk edib müsəlman olmuşdur.

[3] Dəbir Siyaqi, həmin yerdə, səh.237 (İsveç radiosunun şərhçi və müxbirinə Qarudinin müsahibəsindən)

[4] "Əhləl-beyt" jurnalı, № Cəmadil-əvvəl, 1418 (London çapı)

"Nə xristianlığın, nə də yəhudiliyin bu hərc-mərclikdən çıxış üçün münasib təfəkkür çərçivəsi və ya bir nümunə yaratmaq qüdrəti yoxdur, bu yalnız İslamda vardır və İslam şəriətinin əsaslarında yaxşıca müşahidə olunur. Bu əsaslar İslama məxsus olmaqla yanaşı, Amerika mədəniyyətinin də əsası ola bilər."[1]

Amerikalı yeni müsəlman Stiven Barbarossa da İslamı "tam aydın həyat üsulunu təklif edən və ictimai prosesdə xüsusi sistemə malik bir din" kimi xatırlatmışdır.[2]

Yaponiyanın yeni müsəlman tədqiqatçısı Toşio Kordo İslam haqqında öz fikrini belə bildirmişdir:

"İslam həm fövqəltəbii və axirət məsələlərinə, həm də dünyəvi məsələlərə lazımi diqqət və qayğı göstərir."

O demişdir:

"Digər dinlərdən heç birinin İslam kimi qanunları yoxdur. İslam dininin gözəlliyi təkcə axirət işlərində deyil, əhalinin ictimai və yaşayış məsələlərində hərtərəfli təsvir və izahlara malik olmasındadır."[3]

Amerika Birləşmiş Ştatları ordusunun yeni müsəlman zabiti Esmun Danke İslam məktəbinin hərtərəfliliyini açıqlayaraq demişdir:

"İslam həyat, cəmiyyət və ailənin idarə olunmasının ən yaxşı üsuludur. Xüsusilə Qərb dünyasının əxlaqi dəyərləri əldən verdiyi, ailə əsaslarının dağıldığı və irqçiliyin yenidən dirçəldiyi indiki dövrdə."[4]

İsveçli yeni gənc müsəlman İbrahim müsəlman olmasının səbəbini açıqlayaraq demişdir:

"İslam cəmiyyəti qurmaq üçün kamil bir sistemdir. Mən İslamdan öyrənmişəm ki, maddiyyatın mənə qalib gəlməsinə imkan verməməliyəm. Müsəlman olduğum zamandan daha çox özünə inam, daxili rahatlıq və əmin-amanlıq hissi keçirirəm və əhval-ruhiyyəm çox qüvvətlənmişdir."[5]

---

[1] "Əl-Fələstin əl-müsəlləmə" jurnalına müsahibəsində, London çapı, noyabr 1995, "Kəlme-ye daneşcu", № 16/4/1375

[2] "Cümhuri-ye Eslami" qəzeti, 4/5/1376

[3] "Keyhan" qəzetinə müsahibədə, 11/9/1378

[4] "Fiqaro" jurnalına müsahibədə, 13 iyun 1992

[5] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir? səh.222

Əvvəlki adı Kişi olan finlandiyalı yeni müsəlman xanım Süməyya yuxarıdakı gerçəkliyin izahında demişdir:

"İslam təkcə bir din deyil, bəlkə hər bir şeydir və mənim bütün həyatımdır. İslam səhərdən axşama kimi həyat fəaliyyəti üçün aydın yol və üsula malikdir. İslamın hökmləri bütün məsələləri əhatə edir."

O sonra demişdir: "Mən müsəlman olduğum zamandan hiss edirəm ki, mənəvi dəyərlərə malik azad bir qadınam. İslam qadınlara çox ali dəyər verir."[1]

Avstriyalı yeni müsəlman xanım Fatimə (Anjella) da insanın cürbəcür ehtiyaclarına cavab verməyə qadir olan İslamın geniş imkanları barədə demişdir:

"İslamın maddi və mənəvi həyatda yaranan bütün suallara aydın cavabı vardır. Mən heç bir başqa məktəb tanımıram ki, problemlər üçün belə ağıllı, qəti və razısalan həll yolu təqdim etsin: ailə, uşaqların tərbiyəsi, sağlamlıq, qidalanma, yaxud iqtisadi və siyasi sahələrdə… Məsələn, avstriyalı ortoped namaz vaxtı bizim hərəkətlərimizi yoxladıqdan sonra bu nəticəyə gəldi ki, hərəkətlər bədən üçün çox münasib idmandır." [2]

Amerikalı yeni müsəlman Əbdürrəşid Tavirasın nəzərində "İslam Amerika cəmiyyətinin insanlara qarşı yönəlmiş əsassız təzyiqlərini aradan qaldırmağa qadirdir."

Taviras İslamı nəinki bir din, düzgün yaşayış üsulu hesab edir.[3]

Almaniyalı yeni müsəlman xanım Fatimə (Elek) İslamı qəbul etməsinin səbəbləri haqqında demişdir:

"İslamdan başqa heç bir təfəkkür və ideologiya insanı dünya və axirət səadətinə çatdıra bilməz."[4]

## İMAM XOMEYNİ(R) ƏSRİ İMAMIN ÖZ NƏZƏRİNDƏ

Beynəlxalq miqyasda baş verən cari dəyişikliklər, müasir bəşəriyyətin dini-mənəvi yönümü, geniş islamçılıq hərəkatları və dünyada, xüsusilə Qərb dünyasında İslamın oyanışı bu

[1] Mənuçehr Dəbir Siyaqi, Qərbdə nə baş verir? səh.224 və 226
[2] Süsən Səfaverdi, "Qaranlıqda dirçəliş", səh.93
[3] "Keyhan" qəzeti, 12/4/1373
[4] Süsən Səfaverdi, həmin yerdə, səh.32

gerçəkliyi təsdiqləyir ki, Həzrət İmam Xomeyni(r) insan kütləsinin ən böyük inqilabına rəhbərlik etməklə həqiqətdə hazırkı əsr bəşəriyyətinin yeni dini-mənəvi həyat dövrünü başlamışdır. Bu elə bir dövrdür ki, həqiqətən onu İmam Xomeyni(r) əsri adlandırmaq lazımdır.

İmam Xomeyninin(r) nəzərində bu dövr elə bir dövrdür ki, onda, İslam fövqəldövlətləri zillətə məruz qoydu. İslam öz daxilindəki böyük daxili və xarici maneələri biri-digərinin ardınca aradan qaldıraraq, dünyanın açar rolunu oynayan səngərlərini fəth edəcək."[1]

İmam Xomeyni(r) əsri böyük Xomeyninin(r) kəlamında elə bir dövrdür ki: "Həqiqətdə düzgün inqilabın genişlənməsi və Məhəmmədin(s) hökmlərinin bəyanı olan inqilabımızı yaymaqla dünyanı talayanların zülm və zorakılığını sona çatdıracaq və Allahın köməkliyi ilə yolu haqqın mütləq imamətinin xilaskarı və ədalətlisi – İmam Zamanın (ruhlarımız ona fəda olsun) zühuru üçün hamarlaşdıracağıq."[2]

Çünki "Bizim inqilabımız İranla məhdudlaşmır. İran xalqının inqilabı Həzrət Höccətin (ruhlarımız ona fəda olsun) bayraqdarlığı ilə İslam dünyasının böyük inqilabının başlanğıc nöqtəsidir. Allah-Təala bu barədə bütün müsəlmanlara və bəşəriyyətə xəbərdarlıq edəcək və onun qurtuluşuna hazırkı əsrdə qərar verəcək."[3]

Həqiqətdə İslam inqilabı və İmam Xomeyni(r) əsri modern cahillik dövrünün sona çatmasının başlanğıcıdır.

### *Vəd olunmuşun (əc.) zühurunun dərkində təşviş*

Bu əsrdə Qərb ateist mədəniyyətinin bəxt və tale günəşi qürub etmiş və insan bütün heysiyyəti ilə Vəd olunmuşun (ruhlarımız ona fəda olsun) dərkində təşvişə düşmüşdür. Buna görə şübhə yoxdur ki, İslam inqilabının tarixi missiyası və İmam Xomeyni(r) əsrinin həqiqətinin tam dərki üçün bəsirət və hikməti Allahdan diləmək lazımdır:

---

[1] "Nur səhifəsi", c.20, səh.32
[2] "Nur səhifəsi", c.20, səh.132
[3] "Nur səhifəsi", c.21, səh.108

**"اللهم فارجعنی الیك بكسوة الانوار وهدائیة الاستبصار"** [1]

"Hikmət elə bir sirrdir ki, görmə qabiliyyəti olan insanlardan savayı başqa yerdə görünməz və müşahidə qabiliyyəti olanlar gözlərini aləmin həqiqətləri üçün açanlardır. Buna görə heç bir qeyri-dindar filosof tanımıram…Dindən başqa elmin həqiqətinə yol yoxdur."[2]

Müsəlmanların rəhbərinin "Qələm əhli şəhidlərinin ağası" adlandırdığı Şəhid Seyyid Murtəza Avini müşahidə qabiliyyəti olan şəxslərdəndir və o, İmam Xomeyni(r) əsrinin fəlsəfi təhlili ilə məşğul olmuşdur.

O, İmam Xomeyni və İslam inqilabı həqiqətinin izahında qarşıdakı gizli sirləri faş etməkdən savayı bir yol bilmir və gizlin şəkildə öz-özünə yazır:

"Mən həddindən artıq belə gizli maneəni görməmişəm? Bilmirəm! Amma hər nə varsa, mən təsəvvür edirəm ki, bu sözlərin deyilmə zamanı gəlib çatmışdır."[3]

O vurğulamışdır ki, "İmam Xomeyninin(r) varlığı və onun bərəkətlərini yalnız o kəslər həqiqətən dərk edə bilərlər ki, Yer kürəsində insanın daxili dəyişikliyinin axtarışı zamanı peyğəmbərlərin tarixinə müraciət ediblər."[4]

Seyyid Murtəza Avini daha sonra İmam Xomeyni(r) əsri və İslam inqilabı həqiqətinin aydınlaşdırılması ilə bağlı əlavə etmişdir:

"Renessansdan sonra bəşəriyyətin sonuncu cahillik əsri başlanmışdır və insan tayfaları bütün planetdə bir-biri ilə əlaqələr yaratmışdır ki, bəşəriyyət öz bütün heysiyyətində həqiqi təsdiqini tapsın. Əgər bir dəyişiklik baş versə, bütün bəşəriyyət üçün birlikdə baş verər. İndi dünyanın axırıdır və Vəd olunmuşun(əc.) zühur əsri çatmışdır. Çünki bəşəriyyətin intizarında olduğu həmin böyük dəyişikliklər bütün bəşəriyyəti əhatə etməlidir və belə də olacaq."[5]

O sonra demişdir:

---

[1]Həzrət Seyyidül-Şühəda(ə), Ərəfə duası: "Ey Allah, bizi ilahi nurdan nurlanan və bəsirətli rəhbərlikdən faydalanan halda öz tərəfinə qaytar."

[2] Seyyid Murtəza Avini, Bir sonluğa başlanğıc, səh.62

[3] Həmin yerdə, səh.22, 23, 43, 44

[4] Həmin yerdə

[5] Seyyid Murtəza Avini, Bir sonluğa başlanğıc, səh.22, 23, 43, 44

"Bəşəriyyətin bu sonuncu cahillik əsrində insan öz varlığının bütün heysiyyətində mənəvi asimandan enəcək və enmişdir, indi həmin əsrdədir. Bu əsrdə insan özünün bütün varlığı ilə tövbə edəcək. Yer kürəsinin hazırda İslam mərkəzi olan İranda İslam inqilabının qələbəsi ilə bu əsr artıq başlanmışdır və bütün Yer kürəsini, bütün bəşəriyyəti bürüməyə doğru gedir."[1]

### *Həqiqi dindarlar, İmam Xomeyni(r) əsrinin dərki və təhlili*

Bütün açıqgözlü dindarlar İslam inqilabının həqiqəti və onun tarixi missiyasına nəzərən İmam Xomeyni(r) əsrinin gerçəkliyini təhlil və şərh etməyə qadirdirlər.

Almaniyalı yeni müsəlman professor Yaves Usves belə açıqgözlü dindarlardandır və İslam inqilabı, habelə İmam Xomeyni(r) əsrinin gizlin tərəfləri və onun böyük məqsədinin təhlili ilə bağlı demişdir:

"Mən Qərb hökumətləri cəmiyyətində gördüyüm aşkar həqiqətlər və İmam Xameneinin peyğəmbərcəsinə verdiyi işarə və göstərişlərindən aldığım ilhamlara əsasən tam inanıram ki, hicrətin on dördüncü əsri İmam Xomeyni(r) və İmam Xamenei əsridir və bu dahilər yerdə hakimiyyəti Sahibəzzəmana(əc.) təhvil verəcəklər. Bundan sonra bütün əsrlər Peyğəmbər(s) əhli-beytinin adını daşıyacaq."[2]

### *Vəd olunmuş Mehdinin (əc.) zühuru əsri*

Sözün qısası budur ki, həqiqəti görən gözlə Allahdan istəməliyik ki, sağlam ağılın dəlil və sübutdan bəhrələnməklə təhlil və dərk edə bildiyini bəsirətlə və qəlbin gözü ilə müşahidə edək. Çünki "göz o vaxt görər ki, gizlin sandığın aşkar olsun."

Onda açıq-aşkar görəcəyik ki, İmam Xomeyni(r) əsri İslam inqilabı dövrü, Yer kürəsində haqqın sonuncu höccətinin zühur etməsi, Höccət ibn əl-Həsənəl-Əskərinin(əc.) böyük zühuru üçün bəşərin ikiqat təsviri əsridir.

Bu elə bir əsrdir ki, "zəiflər və məzlumlar dünyasında İslam inqilabının yayılma mənzərəsini daha çox görürük. Bu elə

---

[1] Seyyid Murtəza Avini, Bir sonluğa başlanğıc, səh.22, 23, 43, 44

[2] "Emamət" jurnalı, 1378-ci ilin tir və mordad ayları

bir hərəkatdır ki, dünyanın zəifləri və məzlumları tərəfindən zülmkarlara qarşı başlanmışdır, genişlənməkdədir və parlaq gələcəyə ümidvericidir. Bu əsr Allahın vədəsini daha da yaxınlaşdırır."[1]

Bu elə bir əsrdir ki, İslam günəşinin doğulması, müqəddəs Zəhranın və sonuncu vəsi övladı Həzrət Mehdinin(əc.) zühuru müjdəsini gətirir.

Bu əsrdə sanki dünya Məkkə üfüqündən və məhrumların amalı Kəbə vilayətindən günəşin doğması üçün hazırlanır.[2]

"Və Allah bütün müsəlmanlara və bəşəriyyətə xəbərdarlıq edib, onun zühur və qurtuluşunu hazırkı əsrdə həyata keçirər."[3]

Müjdə ey qəlb ki, Məsiha nəfəsli gəlir,
Ki, xoş nəfəslərindən kimsənin iyi gəlir.

**اللهم انا نرغب اليك فى دولة كريمة تعزبها الاسلام و اهله وتذل بها النفاق واهله...**
**اللهم انا نشكوا اليك فقد نبينا صلواتك عليه و آله و غيبة ولينا وكثرة عدونا وقلة عددنا وشدة الفتن بنا وتظاهر الزمان علينا**
**فصل على محمد وآله واعنا على ذلك بفتح منك تعجله وبضرتكشفه ونصر تعزه وسلطان حق تظهره**[4]

Mündəricat

**1 – İMAM XOMEYNİ (R) ŞƏXSİYYƏTİ ........................................ 6**

***Həzrət Ayətullah Xameneinin İmam haqqında dedikləri:........................................ 6***

---

[1] "Nur səhifəsi, c.18, səh.11
[2] "Nur səhifəsi, c.18, səh.11
[3] Həmin yerdə, c.21, səh.107
[4] "Məfatihül-cinan", Mübarək ramazan ayının əvvəlləri, İftitah duası

*İmam qərbli bir müxbirin (amerikalı) nəzərində* ........ 7

*İmam Xomeyninın(r) cəsarət və qəhrəmanlığı* ........ 8

*İmam Xomeyni kim idi və nə etdi?* ........ 9

*İmam Xomeyni(r) böyüklüyünün xaricilər tərəfindən etirafı* ........ 12

*İmam Xomeyni(r) və İslam inqilabının möcüzəsi* ........ 14

*İmam, inqilab və İslamın valehedici qüdrəti* ........ 14

*İmam və inqilab; iki ayrılmaz təzahür* ........ 15

*İmamın fikri – qeyri-adi inqilabın mənbəyi* ........ 16

*Analitiklərin İslam inqilabını və İmamı(r) dərk etməkdə gücsüzlüyü* ........ 19

*İslam inqilabının üstünlüklərindən şübhələnmə* ........ 21

*Analitiklərin İslam inqilabı və İmam Xomeyni(r) təfəkkürünü dərketmə səyləri* ........ 22

*İmamın(r) tarixi missiyası* ........ 23

**2 – İMAM XOMEYNİ(R) ƏSRİ** ........ 28

*İmam Xomeyni(r) əsri imamın və dahi rəhbərin nəzərində* ........ 28

*İmam Xomeyni(r) əsrinin xüsusiyyətləri* ........ 31

*Müasir insanın dini və mənəvi həyatının təzələnməsi.* ........ 31

*Dinə qarşı olan nəzəriyyələrin yanlışlığı* ........ 32

*Dünyanın ateist əqidələrindən xilas olması* ........ 34

*Siyasətçilər arasında dini fikrin dirçəlməsi* ........ 35

*Yeni dini həyat və qərblilərin etirafı* ........ 35

*Dünyanın İslamla tanışlıq səylərinin artması* ........ 37

*İnsanın digər tarixi sferaya qayıdış istəyi* ........ 38

*İmam Xomeyni(r) əsri müsəlman şərhçilərinin nəzərində* ....................................... 39

*Ayətullah Misbah Yəzdi* ............................................................................ 40

*Professor Həmid Mövlana* ........................................................................ 40

*Əhməd Huber* ........................................................................................ 41

*Professor Yaves Usves* ............................................................................. 41

*Məhəmməd Lensel* .................................................................................. 42

*Təlal Etrisi* ........................................................................................... 42

*Seyyid Sədrəddin Sədr* ............................................................................. 42

*Fransada İslam Tədqiqat Mərkəzinin direktoru* ........................................ 43

*Professor İsmayıl Kilbes* .......................................................................... 43

*İranın Vatikanda o zamankı səfiri* ............................................................ 44

**1 – İMAM XOMEYNİ(R) ƏSRİ VƏ İNSANIN DİNİ VƏ MƏNƏVİ YÖNÜMÜ QƏRBLİ ŞƏRHÇİLƏRİN NƏZƏRİNDƏ** ........................................ **47**

*Dinin sona çatması nəzəriyyəsinin etibardan düşməsi* ................................ 48

*XXI əsr: Dinin nüfuzunun genişlənməsi əsri* ............................................. 49

**2 – QƏRB CƏMİYYƏTLƏRİ VƏTƏNDAŞLARININ DİNİ VƏ MƏNƏVİ YÖNÜMÜ** ........................................ **51**

*Qərbin dini və mənəvi yönümü məlumatlar aynasında* ................................ 52

*Qərblilərin dini və mənəvi maraqlarının artmasının naticələri* ..................... 53

*Qərb cəmiyyətlərində dindarlıq və mənəvi dəyərlər* .................................... 56

*cərəyanının əsilliyi* .................................................................................. 56

*Qərbin dini və mənəvi təmayülü haqqında məlumatlar* ............................... 57

**3 – ALİMLƏRİN DİNƏ VƏ DİNDARLIĞA QAYIDIŞI ............... 62**

***Dünyanın böyük alimlərinin dinə münasibəti ........................................................ 62***

***Dindarların tərki-dünya dövrünün............................................................................ 63***

***başlanması........................................................................................................... 63***

***Nisbi dərketmə dövründə yeni elmi problem .............................................................. 64***

***İslam inqilabı və alimlərin dinə qayıdışı ...................................................................... 65***

***Allahsızlıq və maddi dəyərlər dövrünün sona çatmasının başlanğıcı ....................... 68***

***Alimlər və din gerçəkliyinin dərki istiqamətində artan səylər .................................. 69***

***İmam Xomeyni(r) əsri, elm və düşüncədə ................................................................ 70***

***inqilab.................................................................................................................... 70***

***Dinə yönəlmədə alimlərin təsiri.................................................................................... 71***

**4 – İMAM XOMEYNİ(R) ƏSRİ VƏ DİNİN MÜSBƏT NƏTİCƏLƏRİNƏ ARTAN DİQQƏT ............................................. 72**

***Din bəşəriyyətin yeganə səadət yoludur ..................................................................... 72***

***Maddi məktəblərin çıxılmaz vəziyyəti və ................................................................... 73***

***dünyanın dinə diqqəti.................................................................................................. 73***

***Qərb alimləri və vaxtilə dinə göstərilən diqqət.......................................................... 75***

***Dinin yararlılığına inananların tərki-dünya dövrü .................................................. 76***

***İslam inqilabı və dinin yararlılığına diqqətin artması .............................................. 77***

***Dini təlimlərin yararlılığı haqqında tədqiqatlar......................................................... 79***

***Dini dəyərlərə bağlanma bəşər sivilizasiyasının davamı yoludur............................. 79***

***Dini dəyərlər və Qərbin mənfi təzahürləri ................................................................ 79***

***Din və ailənin qorunması .......................................................................................... 79***

*Dinin tələbələrin təhsilində rolu* ........ 80

*Dinin QİÇS və əlacsız xəstəliklərin qarşısının alınmasında rolu* ........ 81

*Dini əqidələrin insanın sağlamlığına təsiri* ........ 81

*İnsanın cisminə və ruhuna dinin təsiri haqqında tədqiqatlar* ........ 83

*1-Dindarlıqla fiziki sağlamlığın əlaqəsi* ........ 83

*Müfəssəl məlumatlar (Duanın sağlamlığa təsiri)* ........ 85

*2- Mənəvi sağlamlığa dini əqidələrin təsiri* ........ 87

*İslam mədəniyyətində dini iman və etiqadların şəfavericiliyi* ........ 89

*Ayə və duaların şəfavericiliyi haqqında araşdırmalar* ........ 91

**BİRİNCİ AMİL: HƏQİQƏTİ AXTARMA** ........ 96

*1 – İnsanın varlığın həqiqətlərinə əli çatmamasının zərərləri* ........ 96

*2 – Dinçiliyin məqsədinin aydınlaşdırılması* ........ 98

*3 – Kilsənin mənfi fəaliyyəti* ........ 99

*4 – Qərbpərəst ziyalılar və avropalıların köhnə sözlərinin təkrarı* ........ 99

*5 – Qərbdə ideoloji boşluq* ........ 101

*6 – Maddi mədəniyyət, insanın təhqir və məxluqun təhrif olunması* ........ 102

*7 – İnsanın varlıq aləminin həqiqətlərini öyrənmə cəhdi* ........ 103

*8 – Dinin varlıq haqqında təfsirinin üstünlüyü* ........ 104

*9 – İslam inqilabı və bəşərin ali düşüncəyə nail olması* ........ 105

*10 – İslam və varlıq həqiqətlərinin kəşfinin əqli məntiqi* ........ 106

*Müasir insanın həqiqəti axtarması* ........ 107

**İKİNCİ AMİL: RUHİ BOŞLUQDAN MƏYUSLUQ** ........ 111

*1 – Xalis elmə meyllilik cərəyanı və din tərki-dünyalığı* ........ 112

*2 – Qərbdə xalis elmə meyllilik cərəyanının zərərverici təsiri* ........ 114

*İztirab əsri* ........ 115

*Qərblilər mənəvi ehtiyaclarını təmin edə bilmirlər* ........ 116

*3 – Xalis elmə meyllilik dövrünün sonu* ........ 117

*Qərblilərin etirafı* ........ 117

*4 – Qərbin mənəvi boşluğu dini bədbəxtliyin nəticəsidir* ........ 120

*Qərb insanlarının yetimlik hissi* ........ 121

*5 – Dini əqidələrin olmaması və mənəvi boşluğun mənfi təsirləri* ........ 123

*Ruhi böhranın dəlilləri* ........ 125

*Qərbdə mənəvi boşluğun mənfi təsirləri* ........ 126

*Danimarka* ........ 127

*İtaliya* ........ 127

*Finlandiya* ........ 128

*Fransa* ........ 128

*Almaniya* ........ 128

*Avstraliya* ........ 129

*Amerika Birləşmiş Ştatları* ........ 129

*Qərbdə ruhi xəstəliklərin artması* ........ 130

*Almaniya* ........ 130

*İngiltərə* ........ 131

*İspaniya* ........ 131

*İsveç* ........ 131

*Fransa* ........................................................................................................ 132

*İtaliya* ........................................................................................................ 132

*Amerika Birləşmiş Ştatları* ........................................................................ 132

*6 – Qərblilər və mənəvi dəyərlərə qayıdışın zəruriliyi* ................................ 133

*7 – Mənəvi dəyərlərə qayıdış zərurətinin dərkinin* ...................................... 135

*yeni dalğası* ................................................................................................ 135

*Qərbin mənəvi yönümü qərblilərin etirafında* ........................................... 135

*Mənəviyyat - bəşəriyyətin dini yönümü* ..................................................... 138

*Qərbin dini rəhbərləri və qərblilərin mənəvi ehtiyacı* ................................ 139

*İslam və Qərbin yeni müsəlmanları* ........................................................... 140

**ÜÇÜNCÜ AMİL: MADDİ** .......................................................... 144

**MƏDƏNİYYƏTİN GÜNDƏN-GÜNƏ** ........................................ 144

**ARTAN NİZAMSIZLIĞINDAN MƏYUSLUQ** ........................... 144

**1 – YENİ MƏDƏNİYYƏT – BUGÜNKÜ DÜNYANIN NİZAMSIZLIQLARININ ƏN MÜHÜM AMİLİ** ........................ 145

*Maddi mədəniyyətin kor-koranə təqlidi dövrünün* ...................................... 147

*sonu* ............................................................................................................ 147

*Maddi mədəniyyət tənqid hədəfi kimi* ......................................................... 148

*İnsanlığın məhv olması* ............................................................................... 149

*Müasir insanın dini yönümü* ....................................................................... 151

*Mütəfəkkirlər dinə qayıdışı etiraf edirlər* ................................................... 152

*Allaha inamsızlıq - müasir mədəniyyətin problemi* ..................................... 153

**2 – MÜASİR MƏDƏNİYYƏTİN BÖHRANI STATİSTİKADA ............ 155**

***Bəşəriyyətin tufana düşmüş və azmış gəmisi*** ............ **156**

***Qərbin siyasəti - müasir dünyanın nizamsızlığının*** ............ **158**

***əsas amili*** ............ **158**

***Qərbin ədalətsiz siyasəti*** ............ **159**

**3 – MƏDƏNİYYƏTİN QƏRB NÜMUNƏSİNİN ƏN YAXŞI DAĞILMA DƏLİLİ ............ 160**

***Avropalıların düzgün yol seçimində şəkk-şübhəsi*** ............ **161**

***Qərbin yeni üsul və siyasətə ehtiyacı*** ............ **162**

***Qərb öz çirkin mədəniyyətinin tələsindədir*** ............ **163**

***Qərb mədəniyyətində cinayətkarlığın təşviqi*** ............ **164**

***Qərb informasiya vasitələri və pozğunluğun yayılması*** ............ **165**

**4 – QƏRB ÖLKƏLƏRİNİN İCTİMAİ NİZAMSIZLIQLARI MƏLUMATLAR AYNASINDA ............ 166**

***Saxtakarlıq və cinayətkarlıq*** ............ **167**

***Almaniyada narkotik maddələr, cinayət və təcavüz*** ............ **168**

***İtaliyada uşaqların bədən üzvlərinin oğurlanması*** ............ **169**

***Fransada gərgin oğurluq bazarı*** ............ **169**

***İsveç cəmiyyətində oğurluq*** ............ **169**

***Almaniya cəmiyyətində oğurluq*** ............ **171**

***Almaniya hakimlərinin tamahkarlığı*** ............ **171**

***Almaniya dövlət adamlarının rüşvətxorluğu*** ............ **171**

*Fransadada idarəetmə pozuntuları* ....................................................... 172

*Amerikada polis məmurlarının pozuntuları* ............................................... 172

**5 – QƏRB DEMOKRATİYASI VƏ HUMANİZM TƏFƏKKÜRÜNÜN MƏĞLUBİYYƏTİ** .................................. 173

*Qərb demokratiyası eyniyyət tərəzisində* ............................................... 174

*Məğlub olmuş Qərb demokratiyası və onun mənfəətgüdən təbiəti* .................... 175

*Demokratiyanın qüvvədə olan nümunələrinin böhranı* .................................. 177

*Qərb demokratiyasının çıxılmaz vəziyyəti və böhranlar* .............................. 179

*Qərb demokratiyası tənqid hədəfi kimi* ................................................... 179

*Qərbin demokratiya şüarından istifadə etməsi* ........................................... 181

*Qərbdə vətəndaşların hüquq pozuntuları* ................................................... 183

**6 – QƏRBDƏ RƏHBƏRLİK BÖHRANI** .................................. 184

*Qərbdə görkəmli rəhbərlərin kəskin azalması* ........................................... 184

*Qərb cəmiyyətlərinin siyasi rəhbərlərdən narazılığı* ................................... 185

*Qərb dünyasının rəhbərlik böhranı və dolaşıq problemləri* ........................... 186

**7 – QƏRB MƏDƏNİYYƏTİNİN MƏĞLUBİYYƏTİNİN VURĞULANMASI** .................................. 187

*Qərb mədəniyyəti: gerçəklik və ya təxəyyül* ............................................... 187

*Millətlərin Qərb haqqında qeyri-düzgün təsəvvürü* ...................................... 188

*Qərb və yüksək insani dəyərlərin olmaması* ................................................ 188

*Qərb mədəniyyətinin daxili və xarici çürüklüyü* .......................................... 189

**8 – QƏRBİN İNKİŞAF NÜMUNƏSİNƏ QARŞI DÜNYANIN ARTAN MÜXALİFLİYİ ............................................190**

***Qərbin inkişaf modelinin daxili məntiqində*****............................................191**

***hərc-mərclik*****............................................191**

***Qərbin imtiyazsız həyatına tövsiyədən çəkinmə*****............................................191**

***Hərtərəfli quruluşun təqdimində Qərbin gücsüzlüyü*****............................................192**

***Yoxsulluq: Qərb nümunəsinə tabeliyin nəticəsi*****............................................192**

***Qərb inkişaf nümunəsinə tabeçiliyin*****............................................193**

***peşmançılığı*****............................................193**

***Üçüncü dünya ölkələri və Qərbin təkliflərinin*****............................................194**

***qəbul edilməməsi*****............................................194**

***Qeyri-Qərb ölkələri yeni yol axtarışında*****............................................195**

***Qərb mədəniyyətinin məğlubiyyəti və liberalizmin sona çatması*****............................................195**

**DÖRDÜNCÜ AMİL: BƏŞƏRİN MADDİ MƏDƏNİYYƏTİN MƏNƏVİ-ƏXLAQİ TƏNƏZZÜLÜNDƏN MƏYUSLUĞU ............................................196**

***Müasir bəşərin əxlaqi tənəzzülünün amilləri*****............................................197**

***1 – Qərbin tənəzzülü və qərblilərin dinə qayıdışı*****............................................205**

***2 – Əxlaqi tənəzzül cərəyanına qarşı etirazların artması*****............................................206**

***3 – Kilsə əxlaqın müdafiəsinə qalxır*****............................................207**

***4 – Qərbdə dini rəhbərlərin tövsiyələrinin artması*****............................................208**

***5 – Əxlaqi bayağılıq əleyhinə aşkar mövqelərin kəskinləşməsi*****............................................209**

***6 – Bayağılıqdan yorulmuş qərblilər arasında islampərəstlik*****............................................211**

*7 – Tədris mühitlərinin ayrılması tendensiyası* ...... 212

**QƏRBDƏ ƏXLAQİ TƏNƏZZÜLÜN NƏTİCƏLƏRİ** ...... 214

*Qeyri-qanuni əlaqələrin genişlənməsi* ...... 215

*Qadınların gündən-günə artan təhlükəli vəziyyəti* ...... 217

*Uşaqlardan geniş sui-istifadə* ...... 218

*Qərb turistlərinin pis məqsədlərlə səfəri* ...... 220

*Sivilizasiyalı Avropada uşaqların bərabərhüquqlu mübadiləsi* ...... 220

*Çirkin həmcinsbazlığın geniş yayılması* ...... 223

*İngiltərənin baş naziri və həmcinsbaz nazirlər* ...... 224

*Ailənin əsasının dağılması* ...... 225

*Qərblilərin ailə ocağının dağılmasından fəryadı* ...... 226

*Ailələrin hörmətdən salınması* ...... 226

*Boşanma hallarının artması* ...... 228

*Təkvalideynli, ya himayəsiz uşaqların artması* ...... 228

*Uşaqların münasib inkişaf və tərbiyə mühitindən məhrumluğu* ...... 229

*Yaşlıların gündən-günə artan tənhalığı* ...... 230

*Evdən qaçan yeniyetmə və cavanların artması* ...... 231

*QİÇS xəstəliyinə tutulanların artması* ...... 232

**İMAM XOMEYNİ(R) VƏ İSLAM DÜNYASININ DİRÇƏLİŞİ** ...... 236

*Dünya əsil İslamın arzusundadır* ...... 237

*İslamın tarixi rolunun sonu fikrinin yanlışlığı* ...... 237

*İslam inqilabının yayılma gerçəkliyi* ....... 238
*İslam dünyasının çiçəklənməsinin etirafı* ....... 238
*Dünyada İslamın aydın mənzərəsi* ....... 240
*Dünya İslam hərəkatı və despotizmin qorxusu* ....... 241
*Despotizmin qorxu amilləri dahi rəhbərin nəzərində* ....... 241
*1 – Despotizmin İslam mədəniyyətinin qüdrətindən narahatlığı* ....... 242
*İslam inqilabı və Qərb mədəniyyətinin məğlubiyyəti* ....... 243
*İslam inqilabı və Qərb təfəkkürünün əsasının hədələnməsi* ....... 244
*İmam və Qərb mədəniyyəti* ....... 244
*2 – Qərbin İslam inqilabının mədəni təsirindən nigarançılığı* ....... 246
*Qərbdə dini fundamentalizm* ....... 247
*Qərbdə İslam inqilabı cazibəsinin artması* ....... 248
*3 – Qərbdə İslama meylliliyin gündən-günə artması* ....... 253
*Qərb ölkələrində İslamın yayılmasının narahatlığı* ....... 254
*İstibdadın İslam inqilabından narahatlığı və şeytan siyasəti* ....... 256
*İslam və inqilabın mahiyyətinin təhrif olunması* ....... 256
*İmamın(r) mələksima şəxsiyyətinin məhvi* ....... 258

**QƏRB CƏMİYYƏTLƏRİNDƏ İSLAMPƏRƏSTLİK PROSESİ** ....... 259

*Avropada islamçılıq* ....... 260
*İtaliya* ....... 261
*Avstriya* ....... 261
*İspaniya* ....... 261

*Hollandiya*......261
*İsveç*......262
*Danimarka*......262
*Almaniya*......262
*Fransa*......263
*İngiltərə*......264
*İngilis aristokratiyası arasında islamçılıq*......264
*Müsəlmanların məscidlərə üz tutması və xristianların kilsədən uzaqlaşması*......265
*Avropalıların islampərəstliyi haqqında obyektiv nümunələr*......266
*Amerika Birləşmiş Ştatlarında islampərəstlik*......269
*1 – Amerika radiosunun ölkədə İslamın inkişafı haqqında məlumatı*......270
*2 – Ağ evin İslamın sürətli inkişafını etiraf etməsi*......271
*3 – Amerika Silahlı Qüvvələrində islamçılıq*......271
*4 – Müsəlmanlığı qəbul etmiş amerikalı zabitin etirafları*......272
*5 – Amerikalıların İslama gündən-günə artan meyli*......273
*6 – Amerikada İslamın inkişafı*......274
*7 – İslam – Amerikanın gələcək birinci dini*......274
*8 – Amerikada İslami təbliğ əsaslarının yaradılması*......275
MƏNƏVİ EHTİYAC İSLAMÇILIĞIN ƏSAS AMİLİ KİMİ......275
*İmamın(r) nəzərində insanın mənavi ehtiyacları*......276
*Qərbin İslamın tədricən qəbul olunmasına hazırlığı*......277
*Qərbin İslama güclü ehtiyacının səbəbləri*......278

**QƏRB NƏZƏRİYYƏÇİLƏRİNİN İSLAMIN QÜDRƏTİNİ ETİRAFI....281**

***İmam(r) və ən xalis İslam qiraətinin təqdimi*....282**

***İmam(r) və İslam fiqhinin geniş bəyanı*....282**

***İmamın(r) düşüncəsinin qloballaşması*....283**

***Qərblilərin etirafı*....284**

***İslamın hərtərəfliliyi Qərbin yeni müsəlmanlarının*....287**

***nəzərində*....287**

**İMAM XOMEYNİ(R) ƏSRİ İMAMIN ÖZ NƏZƏRİNDƏ....290**

***Vəd olunmuşun (əc.) zühurunun dərkində təşviş*....291**

***Həqiqi dindarlar, İmam Xomeyni(r) əsrinin dərki və təhlili*....293**

***Vəd olunmuş Mehdinin (əc.) zühuru əsri*....293**